Süleyman İsmayılov

# Azərbaycanda dövlət qulluğunun və idarəetmə sisteminin keçmişi, bu günü və perspektivləri

Bakı-2013

**S.İsmayılov.** Azərbaycanda dövlət qulluğunun və idarəetmə sisteminin keçmişi, bu günü və perspektivləri.
Bakı, «Oğuz Eli» – 2013, 216 səh.

Kitaba daxil edilmiş materiallarda Azərbaycanda dövlət qulluğunun tarixindən, ənənələrindən, onun müasir durumundan, bu sahənin təkmilləşdirilməsi və inkişafı üçün görülən tədbirlərdən bəhs edilir, dövlət qulluqçularının sosial müdafiəsi, onların etik davranış qaydaları, dövlət qulluğunda peşəkarlıq və səriştəlilik barədə mülahizələr şərh edilir. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununda müntəzəm dəyişikliklər edildiyi nəzərə alınaraq oxucuların bu Qanundan istifadəsini asanlaşdırmaq məqsədilə onun son redaksiyası da kitaba əlavə olunur.

ISBN: 978 9952-8134-1-7

4702000400
İ ------------------- qrifli nəşr
036-2013

© S. İsmayılov, 2013



# MÜNDƏRİCAT

Ön söz ........................................4

**1. Azərbaycanda dövlət qulluğunun keçmişi və bu günü - Süleyman İsmayılov**

Yeni əsrin dövlət qulluqçusu ........................6
Azərbaycanda dövlət qulluğu ənənələri və onun müasir durumu ........................20
Dövlət qulluğunun təşkilində yeni mərhələ ........................70
Dövlət qulluqçusu və onun sosial müdafiəsi ........................84
Dövlət qulluqçusunun etik davranış qaydalarının əsas meyarı vətəndaşa qayğıdır ........................96
Dövlət qulluğunun əsas meyarı dövlətə sədaqət və xalqa xidmətdir ........................106
Dövlət qulluqçusu həm də yaxşı analitik olmalıdır ........................114
Daim yeniləşən və müasirləşən dövlət qulluğu ........................123
Peşəkar kadrlar dövlət qulluğunun hərəkətverici qüvvəsidir ........................130
İdarəetmədə sənədləşdirmənin rolu ........................146

**2. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu (son redaksiyada) ........................165**

# ÖN SÖZ

Azərbaycanda dövlət qulluğu gündən-günə inkişaf edir, təkmilləşir, onun qanunvericilik bazası müasir tələblərə uyğunlaşdırılır, bu sahədə əldə olunan müsbət təcrübə öyrənilərək ümumiləşdirilir, dünyanın aparıcı dövlətlərində dövlət qulluğu sahəsində əldə olunan nailiyyətlərin Azərbaycanda tətbiqinə getdikcə daha çox diqqət yetirilir. Görülən işlər öz səmərəsini verir, dövlət hakimiyyəti orqanları daha səmərəli, daha şəffaf, operativ və çevik fəaliyyət göstərərək cəmiyyətin idarə olunmasına öz layiqli töfhələrini verirlər.

Oxuculara təqdim olunan bu kitab da yuxarıda göstərilən məqsədlərə xidmət edir. Kitab ön söz və 2 bölmədən ibarətdir. "Azərbaycanda dövlət qulluğunun keçmişi və bu günü" adlı birinci bölmədə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri, Dövlət Qulluğunu İdarəetmə Şurasının üzvü Süleyman İsmayılovun məqalələri daxil edilmişdir. S.İsmayılov ölkə mətbuatında Azərbaycanda dövlət qulluğunun tarixinə, onun inkişaf mərhələlərinə, aktual problemlərinə, dövlət qulluğuna dair bir çox mühüm normativ hüquqi aktların şərhinə həsr olunmuş məqalələri ilə respublika ictimaiyyətinə çoxdan tanışdır. Bu kitaba daxil edilmiş məqalələrində o, dövlət qulluqçularının sosial müdafiəsi, onların etik davranış qaydaları barədə fikirlərini bildirir, dövlət qulluğunun əsas meyarının xalqa və dövlətə xidmətdən, insanlara qayğı və diqqətdən ibarət olduğunu bir daha qeyd edir. Kitabda onun əvvəlki yazıları ilə yanaşı, ilk dəfə işıq üzü görən yeni araşdırmaları da öz əksini tapmışdır. "Peşəkar kadrlar dövlət qulluğunun hərəkət verici qüvvəsidir" və "İdarəetmədə sənədləşdirmənin rolu" adlı məqalələrdə dövlət qulluqçusu üçün peşəkarlığın və səriştəliliyin nə dərəcədə vacib olduğunu, eyni zamanda dövlət qulluğunun əsas atributlarından olan sənədlərlə





işin bəzi cəhətləri şərh edilmişdir.

Kitabın ikinci bölməsində "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun son redaksiyası verilmişdir. 2000-ci ildə qəbul olunmuş bu qanun sonrakı illər ərzində xeyli təkmilləşdirilmiş, ona müxtəlif əlavə və dəyişikliklər edilmişdir. Bunu nəzərə alaraq qanunun son redaksiyası oxucuların diqqətinə təqdim edilir.

Kitabın həm dövlət idarəetməsində çalışanlar, həm dövlət qulluqçuları, həm də cəmiyyətin digər təbəqələri üçün maraq doğuracığına ümid edirik.

# Azərbaycanda dövlət qulluğunun keçmişi və bu günü

## YENİ ƏSRİN DÖVLƏT QULLUQÇUSU

*Yeni əsrin dövlət qulluqçusunu necə təsəvvür edirik, onun səciyyəvi xüsusiyyətləri nədən ibarət olmalıdır? Dövlət qulluqçusunun fəaliyyəti müasir dövrümüzün ruhuna uyğun yenidən necə qurulmalıdır?*

Azərbaycan dövlət müstəqilliyi qazandıqdan sonra, xüsusən möhtərəm Prezidentimiz zati-aliləri Heydər Əliyevin rəhbərlik etdiyi dövrdə cəmiyyət həyatının, demək olar ki, bütün sahələrinin hüquqi cəhətdən tənzimlənməsi təmin edilmiş və bu, müvafiq normativ hüquqi aktlarda öz əksini tapmışdır.

Dövlət başçısının məruzə və çıxışlarının əksəriyyətində Azərbaycanın gələcək inkişaf yolları və bu tərəqqini uğurla həyata keçirmək üçün zəruri olan vasitələr göstərilmişdir. Burada əsas istiqamət iqtisadiyyatın və dövlətin əsaslarını gücləndirmək üçün aparılan islahatlardır. Dövlət qulluğu sistemini təkmilləşdirmək sahəsindəki islahatlar bu sırada çox mühüm yer tutur.

Həm siyasi sahədə, həm dövlət quruculuğu sahəsində, həm də iqtisadi sahədə aparılan islahatlar çox ahəngdar gedir. Lakin islahatların bütün istiqamətlərdə düzgün həyata keçirilməsi bila-





vasitə dövlətin bu siyasətini yerinə yetirən dövlət qulluqçularından, daha doğrusu, kadrlardan asılıdır.

Respublikamızda 1995-ci ildən başlayaraq dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi, çevik və işgüzar idarəetmə strukturunun yaradılması, onun təkrar funksiyaları yerinə yetirən lüzumsuz strukturlardan təmizlənməsi, icra hakimiyyəti orqanlarının funksional vəzifələrinin müəyyən edilməsi məqsədilə xeyli iş görülmüşdür. Bu iş Prezidentin 29 dekabr 1998-ci il tarixli fərmanı ilə respublikanın idarəetmə sistemində islahatlar aparılması üzrə Dövlət Komissiyası yaradıldıqdan sonra xüsusilə ardıcıl və məqsədyönlü xarakter almış, sonrakı dövrdə bu sahədə onlarca fərman və sərəncam verilmiş, bir sıra qanunlar, o cümlədən "Dövlət qulluğu haqqında" Qanun qəbul edilmişdir. Bunlar bütövlükdə dövlət qulluğunun səmərəsinin artırılmasına təsir göstərmiş və göstərəcəkdir.

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu bu cəhətdən xüsusi əhəmiyyətə malikdir. Bu mühüm dövlət sənədi yeni əsrdə ölkəmizin idarə olunmasını, müstəqilliyimizin möhkəmləndirilməsini, insanın, sıravi vətəndaşın rifahının yaxşılaşdırılmasını təmin edən kadr siyasətinin yeridilməsinə, əhalinin geniş bir təbəqəsini təşkil edən dövlət qulluqçularının cəmiyyətdəki yerinin, onların hüquq və vəzifələrinin dəqiq müəyyənləşdirilməsinə xidmət göstərir.

Ümumiyyətlə, dövlət vətəndaşlarının ümumi mənafelərinə əsaslanan sosial təsisatdır və dövlət hakimiyyətinin reallaşdırılması texnologiyası isə dövlət qulluğudur. Dövlət qulluğu dövlət mexanizmi olaraq, bütün dövlət orqanlarında və təşkilatlarında fəaliyyət və münasibətlərin məcmusu kimi dövlətin funksiyalarını həyata keçirir. Dövlət qulluğu dövlətin əsas sosial təsisatlarından biridir və dövlət qulluğunun sosial rolu, sosial statusu mövcud sosial-iqtisadi quruluşun xarakterindən, dövlətin tipindən, idarəetmə rejimindən, qulluqçuların kəmiyyət və keyfiyyət tərkibindən, bu qulluğun fəaliyyətinin xarakteristikasından, onun hüquqi tənzimlənməsindən asılıdır. Buna görə də dövlət qulluğu

öz mahiyyəti etibarilə dövlətin funksiyalarının həyata keçirilməsinin sosial-inzibati təsisatıdır.

Bu təsisat təkcə idarəetməni həyata keçirmir. O, vətəndaşların həyat və fəaliyyəti üçün müəyyən təminatlar, bütövlükdə cəmiyyətə təsir göstərən sosial standartlar və normalar işləyib hazırlayır, vətəndaşların daha ümumi və əsas tələblərinin ödənilməsini, keyfiyyətli həyat şəraitini təmin edir. Daha doğrusu, dövlət qulluğu tədricən sosial yönümlü təsisata çevrilir.

Statistik məlumatların təhlili göstərir ki, dövlət qulluqçularının cüzi bir hissəsi qanunvericilik hakimiyyətində, böyük əksəriyyəti isə icra və məhkəmə orqanlarında çalışırlar. "Dövlət qulluğu haqqında" Qanunda və onunla əlaqədar qəbul olunmuş aktlarda bu şəxslərin həm məsuliyyəti, həm onların seçilib yerləşdirilməsinə verilən əsas tələblər, həm yüksək səviyyəli mütəxəssis kimi yetişməsi üçün şərait yaradılması, həm onlar barəsində qoyulan məhdudiyyətlər, həm də sosial müdafiəsi məsələləri nəzərdə tutulmuşdur.

Dövlət qulluğunun ümumi prinsipləri və funksiyaları haqqında geniş diskussiyalar açmaq və müzakirələr aparmaq olar. Lakin nəzərə almalıyıq ki, dövlət qulluğunun əsas prinsip və vəzifələri respublikamızın Konstitusiyasında və adı çəkilən qanunda öz əksini geniş tapmış və ümumi istiqamətləri müəyyənləşdirilmişdir.

Artıq bu qanunun tətbiq edilməsi üçün respublika Prezidenti tərəfindən bir sıra normativ hüquqi sənədlər və normativ aktlar təsdiq edilmiş, Dövlət Qulluğunu İdarəetmə Şurası yaradılmışdır. Hazırda şuranın əsasnaməsi qəbul olunmaq üzrədir. Beləliklə, yeni əsrdə ölkəmizdə kadr siyasətinin müasir tələblərə uyğun aparılması üçün real zəmin formalaşmışdır.

*Dövlət qulluğunda olmaq, əslində dövlətin, millətin, cəmiyyətin, insanların xidmətində olmaq deməkdir. Bu cəhətdən möhtərəm Prezidentimiz Heydər Əliyevin keçdiyi şərəfli həyat yolu, çalışdığı bütün vəzifələrdə onun öz ölkəsi və milləti üçün gördüyü misilsiz işlər öyrənilməyə və tətbiq edilməyə ən yaxşı nümunə*





*olub, bizim üçün həmişə meyar olaraq qalacaqdır.* Bütün mənalı ömrünü respublikamızın tərəqqisinə həsr etmiş bu müdrik insanın respublikada vətəndaşların mənəvi saflığı, xalqının bu günü və gələcəyi naminə çalışması, işgüzar və prinsipial olması üçün gördüyü işləri saymaqla qurtarmaz. 1969-cu ildə respublikaya rəhbərlik etməyə başladığı dövrdən dövlət orqanlarında çalışan şəxslərə qarşı göstərdiyi tələbkarlıq və prinsipiallıq hələ o dövrdə nəinki keçmiş SSRİ-də, hətta xaricdə də böyük rəğbətlə və maraqla qarşılanırdı.

Bir çox məruzə və nitqlərində cənab Prezident özü həmin illəri xatırlayaraq bu sahədə gördüyü işləri qəlbinin hökmü ilə, vətəndaşlıq prinsipi ilə həyata keçirdiyini və bunu yalnız cəmiyyətin saflaşması üçün etdiyini dəfələrlə bildirmişdir. Məhz cənab Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi o illərdə Azərbaycan gənclərinin öz bilik və istedadlarını nümayiş etdirməsi üçün geniş imkanlar açılmış, minlərlə gənc öz qabiliyyəti və bacarığı ilə ali məktəblərə, o cümlədən 3500 azərbaycanlı gənc keçmiş SSRİ-nin 170-dən çox aparıcı ali məktəbinə daxil olaraq bu gün Azərbaycanda mövcud olan qüdrətli kadr potensialının formalaşmasına böyük təsir göstərmişdir.

Xalqın və dövlətin gələcəyini məhz yüksək ixtisaslı, peşəkar və vətənpərvər insanlarda görən cənab Heydər Əliyev bu müdrik siyasətini müstəqillik dövründə daha uğurla davam etdirir. Ölkənin maddi imkanlarının məhdudluğuna baxmayaraq onun səyi ilə bu iş dünya miqyasına çıxarılmış, yüzlərlə gənc xarici ölkələrə oxumağa göndərilmiş, habelə Azərbaycanın özündə milli kadrların hazırlanması üçün bir neçə yeni akademiya, o cümlədən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Silahlı Qüvvələrin Hərbi Akademiyası, Milli Təhlükəsizlik Nazirliyinin Akademiyası, Milli Aviasiya Akademiyası, Bakı Musiqi Akademiyası, Polis Akademiyası və s. kimi elm ocaqları yaradılmış, mövcud ali məktəblərdə yeni dövrün tələb etdiyi mütəxəssislərin hazırlanması işi təşkil edilmişdir.

İstər o illərdə, istərsə də indi cənab Heydər Əliyev cəmiyyətin bütün təbəqələrində qanunun müqəddəs tutulmasını, dövlət işində çalışan şəxslərin qanunlara dönmədən əməl etməsini əsas tələb kimi irəli sürmüş, rüşvətxorluğa və korrupsiyaya qarşı qəti mübarizə apararaq öz prinsipiallığından heç vaxt dönməmiş, dövlət qulluqçularına tələbkarlığını qətiyyən azaltmamış və bu gün də həmin prinsiplərlə, həmin tələbkarlıqla bu işi davam etdirir, başqalarından da özü kimi fədakarlıq, saflıq və işgüzarlıq tələb edir. Prezidentin Elmlər Akademiyasının işçiləri ilə görüşündə dediyi fikirlər bir daha sübut edir ki, dövlət qulluğunda ən əsas prinsip qanunun aliliyidir. Həmin görüşdə Prezident demişdir: *"... Heç kəsə özbaşınalıq etmək imkanı verməkolmaz. Qanun, qanunun aliliyi, qayda hamı üçün eyni olmalıdır. Heç kəs özü üçün bir xüsusi qanun icad edə bilməz. Bizim dövlətimiz var, dövlətin qanunları var, hamı dövlətin qanunlarına tabe olmalıdır, qanunlara riayət etməlidir".*

Bu cəhəti ölkə Prezidenti 2000-ci il aprelin 26-da keçirilən müşavirədə də xüsusi qeyd etmişdir: *"Sağlam mənəviyyat... bizim hər bir məmurumuz üçün əsas meyar olmalıdır. Əgər bu yoxdursa, o insan nə qədər yaxşı işləyirsə işləsin, bizim tələblərimizə cavab verə bilməyəcəkdir. Bizim tələbimiz isə qanundur, qanunun aliliyidir. Mənəviyyatın da hamısı qanunun içərisindədir".*

Bir sözlə, respublika rəhbərliyi tərəfindən bu məsələlərə böyük diqqət yetirilir və "Dövlət qulluğu haqqında" Qanundan irəli gələn vəzifələrin həyata keçirilməsi və ölkəmizdə yeni əsrin kadrlarının formalaşdırılması üçün ciddi işlər aparılır. Bu sahədə işin əsas məqsədi respublikada kadrlarla iş proseslərinin düzgün tənzimlənməsi, son nəticədə bunun cəmiyyətin həyatına müsbət təsir göstərməsi, fəaliyyət qabiliyyətli dövlət qulluğunun və səmərəli kadr siyasətinin formalaşmasıdır. Bu isə sadə məsələ deyildir. Burada həm dövlət qulluğunun nəzəriyyəsi və təşkili, dövlət kadr siyasətinin və onun reallaşdırılması mexanizmi, həm də dövlət xidmətində çalışanların özünün idarə olunması məsələləri işlənib hazırlanmalıdır.





Hər bir ölkənin dövlət qulluğunu təşkil etməkdə, dövlət qulluqçularını hazırlamaqda öz yanaşma metodları vardır. Bu, həmin ölkənin milli mentalitetindən, mədəniyyətindən, tarixindən, ənənələrindən, siyasi sistemindən və bir çox başqa amillərdən asılıdır. Ona görə də ölkəmizdə dövlət qulluğunun yenidən təşkilində və bu sahədə islahatların aparılmasında bunları nəzərə almayaraq kor-koranə nəyisə götürüb tətbiq etməkdən söhbət gedə bilməz. Biz bu sahədə inkişaf etmiş ölkələrin, habelə qonşu dövlətlərin təcrübəsini diqqətlə öyrənməklə yanaşı, həm də onu öz reallıqlarımıza uyğunlaşdırmağı, bizim şəraitə uyğun tətbiq etməyi və müəyyən təkamül prosesini gözləməyi bacarmalıyıq.

Dövlət qulluqçusunun əsas keyfiyyətləri cəmiyyətin ümumi səviyyəsi və tələbləri əsasında formalaşır. Onun yaşadığı və yetişdiyi mühitdə hansı əhval-ruhiyyə hökm sürürsə, bu əhval-ruhiyyə onun fəaliyyətində və xarakterində özünü göstərir. Burada istər-istəməz kadr məsələlərinin həllinə və kadr siyasətinin aparılmasına nəzər salmaq lazım gəlir.

Respublika Prezidenti 1999-cu ildə YAP-ın I Qurultayında qeyd etmişdir: *"... Dövlətimizi, hökumətimizi, iqtisadiyyatımızı, həyatımızın bütün sahələrini inkişaf etdirmək üçün bizə müasir tələblərə cavab verən kadrlar lazımdır. Bizim gərək gənc kadrlarımız üzə çıxsın, özlərini müxtəlif sahələrdə sınaqdan keçirsin, təcrübə toplasın və XXI əsrdə onlar bizim bu gördüyümüz işlərin, yaratdığımız bünövrənin, təməlin üzərində qalxan, ucalan və böyük bir dövlətə çevrilən Azərbaycanı irəli aparsınlar".*

Müasir tələblərə cavab verən kadrların olması bir çox amillərdən asılıdır. Sovet dövründə belə bir aforizm formalaşmışdır: "Hər şeyi kadrlar həll edir". Bu gün dövlət qulluqçusu adlandırdığımız kadrlar cəmiyyətin həyatında hər şeyi olmasa da, çox şeyi həll edir və yəqin ki, yaşadığımız yeni əsrdə də bu məsələ aktual olaraq qalacaqdır. Lakin yeni əsrin yeni tələbləri bütün sahələrdə olduğu kimi dövlət qulluğunda da özünü göstərəcəkdir. Bu cəhətdən cəmiyyətdə gedən kadr proseslərinin öyrənilməsi,

onların istiqamətləndirilməsi böyük əhəmiyyət kəsb edir. Kadr proseslərinin həyata keçirilməsinin bir sıra obyektiv şərtləri, o cümlədən siyasi, iqtisadi, sosial və subyektiv amilləri vardır. Bütövlükdə, bunlar cəmiyyətin yetkinliyindən, dövlət orqanlarının təşkili mədəniyyətindən, bu orqanların elmin və praktikanın nailiyyətlərinə uyğun olaraq kadr proseslərini istiqamətləndirmə imkanlarından, habelə işçilərin sosial statusundan və rolundan, onların işgüzarlıq və mənəvi keyfiyyətlərindən, həyat tərzindən, peşəkarlığının inkişafından ibarətdir. Bu mənada, kadr proseslərinin məzmununun, spesifikasının, istiqamətinin, mərhələlərinin müəyyən edilməsində dövlət orqanlarının böyük rolu vardır və olacaqdır.

Kadr proseslərinin idarə olunmasının idarəetmə elminin digər sahələrindən fərqli olaraq öz texnoloji spesifikası vardır. Kadr proseslərinin idarə olunması mahiyyətcə cəmiyyətdə hakimiyyət bölgüsünün tənzimlənməsi, texnoloji cəhətdən isə kadr proseslərinin reallaşdırılması üçün şərait yaradılması, onun istiqamətləndirilməsi deməkdir.

Yeni əsrdə dövlət qulluqçusu üçün etalon nə hesab oluna bilər?

Birincisi, dövlət qulluqçusu peşəkar olmalı, cəmiyyətə xidmətə yönəlmiş müəyyən mənəvi mövqeyə malik olmalıdır. Belə adamları axtarıb tapmaq, onları formalaşdırmaq lazımdır.

İkincisi, dövlət qulluqçusu fəal həyat mövqeyi tutan, kollektivdə və sərt reqlamentləşdirilmiş inzibati mühitdə işlədiyini başa düşən şəxs olmalıdır. Dövlət qulluğu reqlamentləşdirilmiş fəaliyyətdir və heç də hamı işin belə xarakterinə dözə bilmir.

Xüsusi qeyd etmək lazımdır ki, dövlət qulluqçusunun peşəkarlığı və bu peşəkarlığın konstruktiv olması vacibdir. Peşəkarlığın qiyməti onun mənəvi istiqaməti ilə müəyyən olunur. Çox yüksək peşəkarlıq keyfiyyətlərinə malik olmaq mümkündür. Ancaq onlar cəmiyyətin və dövlətin mənafeyinə xidmətə tabe edilməyibsə, çətin ki, belə adam dövlət qulluğuna yararlı olsun. Belə peşəkarlıq hətta bəzən sosial sarsıntıların səbəbinə çevrilir.





Müstəqilliyimizin ilk illərində, Ayaz Mütəllibovun və xüsusilə Xalq Cəbhəsi-Müsavat cütlüyünün hakimiyyətləri dövründə biz belə destruktiv peşəkarlığın nəticələrini müşahidə etmiş, bu cür kadrların fəaliyyətinin nəyə gətirib çıxardığının canlı şahidi olmuşuq. *Azərbaycan Respublikası Prezidentinin 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına 2000-ci ilin dekabrında etdiyi müraciətində göstərdiyi kimi, "1991-ci ildə əlverişli tarixi şəraitin və taleyin xalqımıza bəxş etdiyi imkandan yaranmış müstəqil dövlətimiz qəsdən, yaxud səriştəsizlikdən yaranan iradəsizlik nəticəsində real itirilmək təhlükəsi ilə üzüzə qalmışdı. Beləliklə, 1991-1993-cü illər Azərbaycanın müstəqillik tarixində nəinki itirilmiş illər hesab olunur, həm də bu illərdə Azərbaycan "ölüm, ya olum" dilemması qarşısında qalmışdı".*

Göründüyü kimi, həmin dövrdə kadr məsələlərində yol verilən volyuntarizm və səriştəsizlik peşəkarlığın əhəmiyyətini istəristəməz heçə endirmişdi. Unutmaq olmaz ki, keyfiyyətli dövlət aparatı keyfiyyətli işçilərdən, yəni peşəkarlardan, mənəviyyatca saf, xalqına, dövlətçiliyə sədaqətli, işgüzar və zəhmətkeş adamlardan yarana bilər. Burada şəxsi münasibətlər və mənafelər deyil, ümumi mənafelər, dövlət mənafeləri üstün tutulmalı, səriştəli və peşəkar kadrların dövlətdən və rəhbərlikdən incik salınmasına yol verilməməlidir. Bu, heç də o demək deyildir ki, peşəkar işçinin müxtəlif siyasi oyunlara qoşulmasına, mənəvi və əxlaqi qüsurlarına, təmsil etdiyi iqtidara qarşı qeyri-səmimiliyinə göz yummaq lazımdır.

Dövlət qulluqçularının peşəkarlığının vacib olduğunu hörmətli Prezidentimiz də dəfələrlə qeyd etmiş, xüsusilə iqtidar partiyası olan YAP üzvləri qarşısında bu sahədə ciddi tələblər qoymuşdur. YAP-ın I qurultayında o, YAP üzvlərinin hakimiyyətin müxtəlif sahələrində, iqtisadiyyatda və başqa orqanlarda özlərinə yer tapmalı olduğunu göstərməklə yanaşı, qeyd edirdi ki, "onlar keyfiyyətcə buna cavab verən adamlar olmalıdırlar". Göründüyü kimi, Prezident siyasi əqidəni, sədaqəti, mənəvi saflığı

yüksək qiymətləndirməklə bərabər, peşəkarlığı ən əsas göstəricilərdən biri hesab edir. Çünki müasir dünyanın mənzərəsi və aparılan araşdırmalar sübut etmişdir ki, cəmiyyətdə maksimum əmək məhsuldarlığı yalnız insanların əksəriyyəti daha çox qabiliyyəti olduğu peşələrdə və sahələrdə çalışdıqda əldə olunur.

YAP-ın 2001-ci ilin noyabrında keçirilmiş II qurultayında bir daha bu məsələyə qayıdan respublika Prezidenti partiyanın keyfiyyətcə yüksəlməsini ən əsas nəticə hesab edərək, Azərbaycan cəmiyyətinin qaymağının cəmləşdiyi bir partiyanın üzvlərindən bütün sahələrdə biliklərini və səviyyələrini artırmağı tələb etmişdir: *"Əgər o, bu gün böyük bir iş bilən adamdırsa, alimdirsə, gərək sabah ondan da yüksək alim olsun, yaxud ondan da yüksək mühəndis olsun, ondan da yüksək aqronom, ondan da yüksək ticarətçi, biznesmen olsun və s."*.

Dövlət qulluqçusunun mənəvi keyfiyyətlərindən danışarkən, ilk növbədə, onun şərəf və ləyaqəti göz önünə gəlir. Şərəf və ləyaqət əsrlər boyu insanların ən çox diqqət yetirdiyi məsələlərdən biri olmuşdur. Müxtəlif dövrlərin tanınmış filosofları və dövlət xadimləri bu məsələlərə xüsusi yer ayıraraq, şərəfi vətəndaş şərəfinə, qulluq şərəfinə, hərbi şərəfə, kişi və qadın şərəfinə və s. bölmüş, onu qoruya bilən insanlara xüsusi hörmət bəsləmişlər.

İnsan harada və hansı vəzifədə işləməsindən asılı olmayaraq, onun üçün vətəndaşlıq şərəfi birinci dərəcəli əhəmiyyət kəsb edir. Bu, insanı öz Vətəninin mənafeyi naminə səy göstərməyə, onun sərvətlərini artırmağa, şöhrətini yüksəltməyə, dövlətin qanunlarına hörmətlə yanaşmağa, ictimai asayişi qorumağa, qocalara və uşaqlara qayğı, vətəndaşların zəif müdafiə olunan təbəqələrinə kömək göstərməyə sövq edir. Şəxsiyyət qarşısında belə tələblərin qoyulması demokratik, hüquqi dövlətin müddəalarından irəli gəlir.

Qulluq şərəfi kateqoriyasının əhəmiyyəti təkcə şəxsiyyətin özü tərəfindən dərk edilib qiymətləndirilmir. Dövlət qulluğu göz qabağında olduğundan dövlət qulluqçularının fəaliyyəti, onların





peşəkarlıq, işgüzarlıq və şəxsi keyfiyyətləri daim ictimaiyyətin diqqət mərkəzindədir. Yəni qulluq şərəfi başqalarının nəzərində o deməkdir ki, müəyyən vəzifə tutan şəxs həqiqətən bunun üçün zəruri keyfiyyətlərə malikdir və bütün hallarda öz xidməti vəzifələrini dəqiq icra edir.

Etiraf etmək lazımdır ki, ictimai rəydə müasir məmurlar (qulluqçular) barəsində təsəvvürlər indi birmənalı deyildir. Cəmiyyətin bir qismi dövlət qulluqçusuna bürokrat kimi baxır və belə hesab edir ki, onların bir çoxu şəxsi mənafeyini və vəzifə ambisiyalarını üstün tutur. Bir qisim adam isə belə hesab edir ki, dövlət qulluqçuları vicdanlı və davranışca qüsursuz insanlardır. Yaddan çıxarmaq olmaz ki, dövlət qulluqçusunun şərəf və ləyaqətini müəyyən edən amillərdən biri də onun prinsipiallığı, bir insan kimi öz mənliyinə hörmət etməsi, ikiüzlülük və s. naqis cəhətlərdən uzaq olmasıdır. Dövlət qulluqçusu şərəf və ləyaqət hissini uca tutursa, həmkarlarının nöqsan və qüsurlarını onlara cəsarətlə bildirməli, bu barədə açıq söhbət aparmalıdır. O bilməlidir ki, ləyaqətli insanlar məhz belə hərəkət edirlər. Şərəf sözü qulluqçu üçün abstrakt anlayış olmamalı, onun gündəlik meyarına çevrilməlidir. Bu cəhət dövlət qulluqçusunun insani keyfiyyətlərindən biri olmalıdır və dövlət qulluğunda yüksək pillə tutan şəxslər qulluqçularda prinsipiallıq, öz şərəf və ləyaqətinə hörmət hisslərinin tərbiyə edilməsinə, onların arasında sağlam ab-hava yaradılmasına ciddi yanaşmalıdırlar.

Dövlət qulluqçusu öz fəaliyyətində humanizm, sosial ədalət və insan hüquqları prinsiplərinə əsaslanan mənəvi normaları rəhbər tutmalıdır. Dövlət qulluqçusu üçün peşəkarlıq, işgüzarlıq və digər keyfiyyətlərlə yanaşı mənəviyyat birinci sırada durmalıdır. Respubika gənclərinin I forumunda Azərbaycan Prezidenti cənab Heydər Əliyev bunu gənclərimiz qarşısında xüsusi vəzifə kimi qoymuşdur. O demişdir: *"Ümumbəşəri dəyərlər, Azərbaycan xalqının milli-mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir. Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz"*. Mənəvi saflıq, vicdanlılıq və təmənnasızlıq dövlət qulluğunda məc-

buri davranış qaydalarıdır. Vəzifəli şəxsin heç bir yolla ələ alına bilməməsi onun qulluq fəaliyyətinin əsas şərtidir. Korrupsiyaya uğramış dövlət qulluqçusu heç vaxt öz işini və xidməti vəzifələrini lazımınca yerinə yetirə bilməz. Dövlət qulluğuna girmək və bu sahədə çalışmaq öz borcunu və məsuliyyətini dərindən başa düşməyi tələb edir. Dövlət qulluqçusu öz vəzifə borcunu vicdanla, ən başlıcası, şəxsi məsuliyyət hissi ilə yerinə yetirməlidir. Vəzifəsini dəqiq və tam yerinə yetirmək dövlət qulluqçusunun öz şərəf və ləyaqətini qoruması üçün ən yaxşı vasitədir.

Dövlət qulluqçusu təkcə öz vəzifəsini səylə yerinə yetirməklə kifayətlənməməlidir, yalnız tutduğu vəzifəyə qarşı olan hər hansı hücumlara deyil, həmçinin dövlətçiliyimizə, dövlətin siyasətini bilavasitə həyata keçirən yüksək vəzifəli şəxslərə qarşı olan hücumlara da cəsarətlə reaksiya verməli, fəal həyat mövqeyi nümayiş etdirməlidir. Əks təqdirdə, deməli, ya dövlət qulluqçusu öz vəzifəsini dəqiq yerinə yetirmir, ya da ki, onun vəzifəsi heç kəsə gərək deyildir.

Müasir tələblərə cavab verən dövlət qulluqçusu obrazını necə təsəvvür etmək olar? Bu, bir qayda olaraq, 35-50 yaş arasında, idarəetmə işində təcrübəsi olan yüksək səviyyəli təhsilə malik səriştəli mütəxəssisdir. O, hüquqi incəliklərə bələddir, işi qanunlar və hüquq əsasında irəlilətməyə imkan verən qərarlar qəbul edə bilir və yollar tapır. Bir cəhət çox vacibdir ki, vətəndaşların ona etdiyi müraciətlərə şübhə doğurmayan cavablar verə bilsin. Onun bütün hərəkətləri dəqiq və aydın olmalıdır. Təbiidir ki, bu da müvafiq qanunvericilik aktları ilə dəqiq müəyyənləşdirilməlidir. Dövlət qulluqçusu o zaman tam formalaşıb peşəkar və səriştəli mütəxəssisə çevrilə bilər ki, o, vəzifə pillələrində tədricən irəliləsin, işi hərtərəfli öyrənsin və yalnız öhdəsindən gələ biləcəyi işləri yerinə yetirsin. Vəzifə pillələrində həddindən artıq sürətlə irəliləməyə çalışmaq və dərindən öyrənmədiyi işdən yapışmaq nə dövlət qulluqçusunun, nə də cəmiyyətin xeyrinədir.

Dövlət qulluqçusunun üzərinə elə bir məsuliyyət qoyulur ki, o, bəzi nemətlərdən və istəklərdən özünü məhrum etməyi bacarmalıdır. Dövlət qulluğu ilə əlaqədar aktlarda bu sahədə məşğul olan şəxslərin fəaliyyətinə bir sıra məhdudiyyətlər qoyulması məhz onların mənəvi saflığının, o cümlədən şərəf və ləyaqətinin qorunmasına xidmət etməklə yanaşı, cəmiyyətdə ədalət prinsiplərinin yüksək tutulmasını, bütövlükdə insanların və cəmiyyətin mənafelərinin ön plana çəkilməsini təmin edir. Bu məhdudiyyətlər müvafiq qanunda öz əksini tapmışdır.





Dövlət qulluqçularının əsas vəzifələri kimi ilk növbədə qanunvericiliyin və dövlət orqanlarının qəbul etdikləri başqa normativ hüquqi aktların həyata keçirilməsi, verilmiş əmrlərin, sərəncamların və göstərişlərin yerinə yetirilməsi, müəyyən edilmiş qulluq reqlamentinə riayət olunması, başqa dövlət qulluqçularının işini çətinləşdirən və yaxud işlədiyi dövlət orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verilməməsi, vətəndaşların, müəssisə, idarə və təşkilatların müraciətlərinə vaxtında baxılması və öz səlahiyyətləri hüdudunda onların qərəzsiz həll edilməsi dövlət sirrinin və qanunla mühafizə olunan digər sirrin həmişə, o cümlədən işdən çıxdıqdan və ya pensiyaya getdikdən sonra da saxlanılması, vəzifə borcunun yerinə yetirilməsi vaxtı daxil olan və ya vətəndaşların şəxsi həyatı, şərəfi və ləyaqəti ilə bağlı məlumatların gizli saxlanılması, hər il öz gəlirləri və əmlak vəziyyətləri haqqında maliyyə hesabatı verilməsi, qulluq etikası normalarına əməl edilməsi və sair nəzərdə tutulur. Bundan başqa dövlət qulluqçusunun dövlət orqanlarında əlavə ödənişli vəzifə tutmağa, elmi və yaradıcılıq fəaliyyəti istisna olmaqla işlədiyi dövlət orqanının rəhbərliyinin icazəsi olmadan pedaqoji və başqa ödənişli fəaliyyətlə məşğul olmağa, qulluq vəzifələrini icra etdiyi dövrdə siyasi partiyaların fəaliyyətində, tətillərdə və dövlət orqanlarının işini pozan digər hərəkətlərdə iştirak etməyə, dini təbliğ etmək üçün dövlət qulluqçusunun statusundan istifadə etməyə ixtiyarı yoxdur.

Dövlət qulluqçusuna verilən digər məhdudiyyətlər isə intizam rejimi ilə əlaqədardır. Dövlət qulluqçusu qulluq etdiyi dövlət orqanında üçüncü şəxsin təmsilçisi və ya vəkili ola bilməz.

Eyni zamanda o, bilavasitə öz tabeliyində olan və işinə nəzarət etdiyi orqanın da təmsilçisi ola bilməz.

Dövlət qulluqçusunun ən mühüm xüsusiyyətlərindən biri insan hüquqlarının qorunmasını və onların icrasını təmin etməkdən ibarətdir. Bu cəhətdən İnsan Hüquqları Bəyannaməsinin 50 illiyi münasibətilə keçirilmiş müşavirədə cənab Heydər Əliyevin dediyi kimi, Azərbaycan dövləti, hökuməti Azərbaycanda insan hüquqlarının qorunmasını özünün əsas vəzifəsi hesab edir və bu prinsiplə yaşayacaq, işləyəcəkdir. İnsan haqlarının qorunmasında hakimiyyət orqanlarının, o cümlədən dövlət qulluqçularının üzərinə çox böyük vəzifələr düşür. Çünki hakimiyyət orqanları, hakimiyyət orqanlarında vəzifə daşıyan insanlar, vətəndaşlar insan hüquqlarının qorunması və təmin olunması üçün xüsusi məsuliyyət daşıyırlar. Cənab Prezident çox haqlı olaraq göstərir ki, əgər vəzifəli şəxslər, hakimiyyət orqanlarında çalışan insanlar insan hüquqlarının qorunmasını özlərinin əsas vəzifəsi kimi dərk edə bilsələr, biz çox nailiyyətlər əldə edərik. O dəfələrlə bəyan etmişdir ki, bu məsələni diqqət mərkəzində saxlayacaq və hər bir vəzifəli şəxsin işini onun bu sahədəki vəzifələrini yerinə yetirməsi ilə qiymətləndirəcək. Doğrudan da, əgər vəzifəli şəxslər vətəndaşların hüquqlarının qorunmasına ciddi yanaşsalar, onların qarşısında olan vəzifə borclarını layiqincə yerinə yetirsələr, cəmiyyətdəki narazılıqlar kəskin şəkildə azalmış olar. Bu gün hər bir vəzifəli şəxs, hər bir dövlət qulluqçusu bilməlidir ki, Azərbaycan dövləti artıq insan hüquqlarının qorunmasına dair bir çox beynəlxalq sənədlərə qoşulmuş, o cümlədən Ümumdünya İnsan Hüquqları Bəyannaməsini imzalamışdır. Bu sahədə hələ, təbiidir ki, bir sıra həll olunmamış problemlər də mövcuddur. Lakin ölkədə hazırlanmış qanunvericilik bazası və dövlət quruculuğu sahəsində görülən işlər bunu mütləq təmin edəcəkdir. "İnsan hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 22 fevral 1998-ci il tarixli Fərmanı isə Azərbaycan dövlətinin bu məsələyə nə qədər böyük əhəmiyyət verdiyini əyani sübut edir.





Dövlət qulluqçusu vətəndaşların hüquqlarını qorumaq üçün, ilk növbədə, bu hüquqi normaları dərindən öyrənməlidir. Yəni vətəndaşlar öz hüquqlarını bilmək və onun qorunmasını tələb etmək hüququna malikdirsə, dövlət qulluqçusu bu hüquqları hər bir vətəndaşa nisbətən daha yaxşı öyrənməli və onun tətbiqini təmin etməlidir. Əgər vətəndaşlar qanunu bilmirlərsə, onlardan qanuna tabe olmağı tələb etmək də ədalətli sayıla bilməz. Belə hallarda dövlət qulluqçusu vətəndaşla xüsusi qayğı və təmkinlə işləməyi, onun hər hansı məsələdə nə dərəcədə haqlı olub-olmadığını izah və sübut etməyi bacarmalıdır. Burada təzyiq və zor göstərmək üsullarından istifadə etmək yaramaz. Hər bir dövlət qulluqçusu ilk növbədə çalışmalıdır ki, öz fikrinin doğru, düzgün olduğunu sübut edə və insanları bu fikrə şüurlu surətdə inandıra bilsin.

Dövlət qulluqçusunun da ilk növbədə vətəndaş və insan olduğunu heç vaxt unuda bilmərik. Yəni qanunla müəyyənləşdirilən prinsiplərə və meyarlara insanın necə əməl etməsi onun aldığı tərbiyədən, təhsildən, mənəvi saflığından, vətənpərvərliyindən, vicdanından, öz işinə və davranışına məsuliyyətlə yanaşmasından, səmimiliyindən, şəxsi ədavət, paxıllıq, ikiüzlülük hisslərindən uzaq ola bilməsindən, şəxsi mənafelərini ümumi mənafelərə tabe etmək bacarığından və istəyindən asılıdır. Əgər dövlət qulluqçusu bu keyfiyyətlərə, tutduğu vəzifə üçün tələb olunan bilik səviyyəsinə və intellektual səviyyəyə malik deyilsə, zəhmətsevər və işgüzar deyilsə, onun dövlət qulluqçusu olmaq iddiası əbəsdir.

Bu yazıda yeni əsrdə dövlət qulluğunun və dövlət qulluqçularının bəzi cəhətlərinə toxunulsa da bütün məsələlərin əhatə edildiyini demək olmaz. "Dövlət qulluğu haqqında" Qanun tam tətbiq olunduqca yeni tələblərin və təkliflərin ortaya çıxacağı, bunların daha ətraflı şərh olunacağı şübhəsizdir.

***"Xalq qəzeti",***
***17 yanvar 2002-ci il***

## AZƏRBAYCANDA DÖVLƏT QULLUĞU ƏNƏNƏLƏRİ VƏ ONUN MÜASİR DURUMU

*Dövlət və dövlətçilik ənənələri güclü olan toplumlar zamanın sınaqlarından həmişə uğurla keçərək öz milli varlığını, mənliyini, maddi və mənəvi dəyərlərini qoruyub saxlaya bilmiş, dünyada söz sahibi olmuşlar. Belə tarixi ənənələri olmayan xalqlar və millətlər isə tarixin sərt döngələrində daim büdrəmiş, böyük bəlalara düçar olmuşlar. Ona görə də ümummilli liderimiz cənab Heydər Əliyevin "Azərbaycanın müstəqilliyi əbədidir" sözlərini həqiqətə çevirmək uğrunda mübarizə hər bir Azərbaycan vətəndaşının həyat devizinə çevrilməlidir. Bu baxımdan qədim və zəngin dövlətçilik ənənələrini bərpa etmiş və onu gündən-günə möhkəmləndirən Azərbaycanda dövlət qulluğu ənənələrini və onun müasir durumunu öyrənmək aktual məsələdir.*

### Azərbaycanda dövlət qulluğunun keçmişinə bir baxış

Respublikamızda dövlət qulluğunun müasir tələblər səviyyəsində qurulması üçün son illərdə görülmüş işlərdən bəhs etməzdən əvvəl bir qədər keçmişə nəzər salmaq, bu sahədə Azərbaycanda mövcud olan ənənələrə, daha doğrusu, tarixən yaranmış təcrübəyə nəzər salmaq vacibdir.

Tarix boyu öz təbii sərvətlərinə və geostrateji mövqeyinə görə bir çox qüdrətli dövlətlərin işğallarına məruz qalmış Azərbaycanda həyatın bütün sahələrində olduğu kimi, dövlətin idarə edilməsində də bu dövlətlərin böyük təsiri nəzərə çarpır ki, bu da təbii sayılmalıdır. Azərbaycanda dövlət qulluğunun keçmişindən danışarkən ilk növbədə Azərbaycanın dövlətçilik tarixini bu baxımdan izləməli, keçmiş dövrlərdən bəri onun hansı formalarda qurulduğunu göstərməliyik.

Azərbaycan ərazisində ən qədim dövrlərdən müxtəlif dövlətlərin yarandığı və bunların hər birinin öz idarəetmə sisteminin





olduğu məlumdur. Azərbaycan tarixçiliyində Azərbaycan dövlətçiliyi məsələləri barəsində kifayət qədər elmi tədqiqat işləri aparılsa da bu tədqiqatlar əsasən bu ərazidə mövcud olan dövlətlərin yaranması, inkişafı və süqutu tarixinə həsr edilmiş, eyni zamanda onların idarəçilik sistemi barəsində məlumatlar verilmişdir. Bu dövlətlərin idarə olunmasında islam dövlətçilik formaları və prinsipləri əsas yer tutmuş, xüsusilə ərəb xilafəti dövründən başlayaraq XIX əsrdə Azərbaycanın Rusiya tərəfindən işğalınadək bu təsir çox güclü olmuşdur.

Hələ qədim dövrlərdən, xüsusilə orta əsrlərdən başlayaraq Şərqin, eləcə də Azərbaycanın bir çox mütəfəkkirlərinin və görkəmli şəxsiyyətlərinin bu sahədə gördükləri işlər və söylədikləri fikirlər çox əhəmiyyətlidir.

***Dövlətçilik tarixi və dövlətçilik siyasəti məsələləri ilə əlaqədar qədim yazılı mənbələr arasında Xacə Nizamülmülkün "Siyasətnamə", XIII əsrin böyük filosofu və astronomu Nəsirəddin Tusinin "Əxlaqi-Nasiri" əsərlərini xüsusilə qeyd etmək lazımdır. Bu əsərlər Şərqin qədim dövlətçilik ənənələri əsasında yazılmış dərin fəlsəfi tədqiqatlar olaraq bu gün də öz tarixi əhəmiyyətini itirməmişdir və dövlətin idarə olunması, o cümlədən dövlət qulluqçularının səciyyəvi xüsusiyyətləri barədə tövsiyələrdən və mükəmməl məlumatlardan ibarətdir.***

Nizami Gəncəvinin, Şah İsmayıl Xətainin, Abbasqulu ağa Bakıxanovun, Mirzə Kazımbəyin, Mirzə Fətəli Axundovun, Həsən bəy Zərdabinin, Əli bəy Hüseynzadənin, Nəriman Nərimanovun və başqalarının dövlətçiliyə dair fikirləri müəyyən elmi əsərlərdə qismən təhlil olunsa da, bilavasitə dövlət qulluğu baxımından geniş öyrənilməmişdir.

Göstərilən əsərlərdən XI-XII əsrlərdə Azərbaycan və Ermənistanın da daxil olduğu Səlcuqlar dövlətində otuz il vəzirlik etmiş və əslində ölkəni idarə etmiş Nizamülmülkün 1091-ci ildə səlcuq sultanı Məlikşahın (1072-1092) tapşırığı ilə yazdığı "Siyasətnamə" əsərində ölkədə sabitlik və əmin-amanlığın mövcudluğu onun iqtisadi inkişafının əsas şərtlərindən biri kimi qiymət-

ləndirilir. Əsərin əsas ideyası ikinci fəsildə deyilmiş belə bir fikir hesab oluna bilər: "Xalqın dühası şahın dühası ilə birləşdikdə, ölkə möhkəmlənər, günü-gündən inkişaf edər". Əsərin "Şahların şikayətə baxmaları, ədalət, mərhəmət və xeyirxahlıqları haqqında" fəslində yazır ki, padşah ən azı həftədə iki gün şikayətə baxıb zalimlərə cəza verməli, bilavasitə öz qulağı ilə rəiyyətin sözünü eşitməlidir.

Əsərin "Sahibxəbər və ölkə dolandırmaq tədbirləri haqqında" adlı fəsilində ölkəni idarə etmək üçün xalqla ünsiyyətin vacibliyi və məmurların hansı xüsusiyyətlərə malik olması qeyd edilir. Məmurların davranışını öyrənmək və baş verən hadisələr barədə müntəzəm məlumat vermək üçün o vaxtlar sarayda sahib--bərid təyin olunurdu. Sahib--bərid ölkədə baş verən hadisələr barədə açıqdan-açığa məlumat toplayıb şaha xəbər çatdıran məmurlar rəisinə deyilirdi. Sahib--xəbərlər gizli işlədikləri halda, sahib-bəridlər açıq işləyirdilər.

Nizamülmülk qeyd edir ki, onların, yəni məmurların "əmək haqları vaxtlı-vaxtında xəzinədən verilməlidir, onlar rahat, arxayın və ürəkdən işləməlidirlər ki, şah da təzə baş verən hər hadisəni bilib gözlənilmədən hər kəsin özünə layiq mükafat, cəza və ya qulaqburması versin".

Əsərdə o dövrdə mövcud olan bəzi məmur vəzifələrinin xüsusiyyətləri və onlara verilən əsas tələblər də geniş şərh olunur. "Padşahın öz işləri barəsində alim və hikmət sahibləri ilə məşvərət etməsi haqqında" fəslində deyilir ki, "məsləhətləşmək iradənin möhkəmliyinə, ağlın kamilliyinə və uzaqgörənliyə dəlalət edər. Hər kəsin bir diləyi, hər adamın bir peşəsi olar, biri az bilər, biri çox; birinin elmi olar, lakin təcrübəsi olmaz, birinin həm elmi olar, həm də təcrübəsi". Əsərin "Ordu və xidmətçilərin ehtiyac və xahişləri haqqında", "İki işi bir adama tapşırmamaq, işsizlərə iş vermək, onları məhrum etməmək, pakdin və layiqli adamları irəli çəkib bədməzhəb, bədəqidə adamlara vəzifə tapşırmayıb, onları özündən uzaqlaşdırmaq haqqında", "Hicab əhli, ordu başçıları və sərkərdələrin rütbələri haqqında",





"Cavab vermək, zülm edilmişlərin şikayətlərinə baxmaq, ədalətli qərar qəbul etmək haqqında" fəsilləri daha böyük maraq doğurur. "Siyasətnamə"də verilən bütün tövsiyələr müvafiq rəvayətlərlə, misallarla şərh olunduğundan çox inandırıcı təsir bağışlayır.

Bundan başqa, bir sıra Şərq mənbələrində, dövlətin idarə olunmasında mühüm rol oynayan dövlət məmurlarının mənəvi xüsusiyyətləri barədə bu gün də öz əhəmiyyətini itirməyən fikirlər vardır. Bu cəhətdən tarixdə Həzrət Əli kimi məşhur olan böyük tarixi şəxsiyyətin "Nəhcül--bəlağə" əsəri çox qiymətlidir. Xilafətin ayrı-ayrı əyalətlərinə valilər təyin edərkən Həzrət Əlinin onlara yazdığı tövsiyə məktubları öz aktuallığını bu gün də itirməmişdir. Məsələn, fars əyalətlərindən Hülvanın valisi Əsvəd bin Qətibəyə məktubunda yazırdı: "Valinin hər kəsə qarşı diləyi eyni olmazsa, bu, çox şeydə onu ədalətdən yayındırar. Buna görə də xalqın hər işi sənin yanında eyni olsun, çünki cövrlə, zülmlə ədalətə çatmağın yolu yoxdur... Heç bir şey haqqın yerini tuta bilməz. Sənə vacib olan haqları qoru, nəfsini qoru. Xalqın işlərinə ciddi yanaş, çünki bu işdən əldə edəcəyin fayda, sənin vasitənlə xalqın əldə edəcəyi faydadan daha üstündür".

***XI əsrin ilk yüzilliyindən bugünə qədər nəinki Şərq aləmində, eləcə də bütün dünyada ən populyar kitablardan biri olan "Qabusnamə" əsərində də insanın, o cümlədən saray məmurlarının mənəvi-əxlaqi xüsusiyyətləri barədə çox ibrətamiz fikirlər deyilmişdir.***

Ümumiyyətlə, İslamda idarəetmənin və dövlət qulluğunun təşkili, vəzifəli şəxslərin xüsusiyyətləri barədə aparılan tədqiqatlar maraq doğurur. Bu cəhətdən İsa Mühəmməd Salih Ər-Reysin "İslam idarəetməsi və şəriətdə olan nəzarət üsulları" kitabı diqqəti cəlb edir.

Kitabın "İslam idarəetmə sistemində dövlət vəzifəsi və vəzifəli şəxslərin hüquqları" bölməsində göstərilir ki, "dövlət vəzifəsi" məfhumu geniş məna daşıyır və müsəlmanların xəlifəsindən başlayaraq ən aşağı vəzifəyə qədər bütün vəzifələri əhatə

edir. Quranda və hədislərdə vəzifəli şəxslərin seçilməsi ilə əlaqədar bir sıra şərtlər irəli sürülür ki, bunlardan birincisi etibarlılıq, ikincisi biliklilik, üçüncüsü başçılara itaətkarlıqdır.

Vəzifəli şəxsin qarşısında qoyulan mənəvi tələblərdən ən başlıcası odur ki, o, nəfsini cilovlamağı bacarsın. Məhəmməd Peyğəmbərin bir hədisi müasir dövr üçün də çox maraqlıdır: "Bir şeyə başçılıq edən şəxsin arvadı yoxdursa - evlənsin; yaşayış yeri yoxdursa - özünə yaşayış yeri götürsün; miniyi yoxdursa - minik götürsün. Bundan başqa hesabında bir şey tutan kəs, qiyamət günü əliəyri, oğru kimi gələr". Eyni zamanda həmin hədisdə göstərilir ki, vəzifəli şəxsin təsəvvür edilə biləcək bu ehtiyacları ödənildiyindən, onun dövlətdən bundan artıq bir şey mənimsəməsi xəyanət və oğurluq səviyyəsində qiymətləndirilməlidir.

"İslamda vəzifəli şəxslərin iş rejimi, mükafatlandırılması və cəzalandırılması formaları" adlı bölmədə göstərilir ki, vəzifəli şəxs bütünlüklə özünü ona tapşırılan işə həsr etməyi bacarmalıdır. Eyni zamanda vəzifəyə təyin edilən şəxsin saflığı da mühüm rol oynayır.

Kitabda vəzifəli şəxslər "yaxşılığa çağıran və pislikdən çəkindirən şəxs" adlandırılır, onun bir sıra şərtlərə cavab verməli olduğu vacib sayılır. Birincisi, bu şəxs hakim, əmir və ya başqa məsul adam tərəfindən bu işi görməyə təklif, tapşırıq almalıdır. Gördüyü işi dərk etməli, muxtar, yəni sərbəst olmalıdır. İkincisi, iman sahibi olmalıdır, yəni mömin olmalıdır. Üçüncüsü, bu işə qadir olmalıdır, bacarmasa, qüdrəti çatmasa, bu iş onun üçün vacib olmur. Dördüncüsü, sözündə və işində düz olmalıdır, daha doğrusu, əmr etdiyi şeyləri özü də etməli, çəkindirdiyi şeylərdən özü də çəkinməlidir. Beşincisi, bu işi görməyə hakim tərəfindən izni olmalıdır.

***Yuxarıda adını çəkdiyimiz və dövlətin idarə olunması prinsipləri və qaydaları haqqında çox qiymətli əsərlərdən biri də orta əsrlərin tanınmış filosofu və alimi Xacə Nəsirəddin Tusinin "Əxlaqi--Nasiri" əsəridir. Əsərin yeddinci fəsli "Başqa fəzilətlərə nisbətən ədalətin daha şərəfli olması, onun xüsusiyyətləri və növləri haqqında" adlanır. Orada göstərilir ki, "ədalət" sözünün mənası öz mənşəyi etibarı ilə "bərabərlik" və "tarazlıq" sözü ilə bağlıdır. Nəsirəddin Tusi belə hesab edir ki, nizam-intizam olan işlərdə, hər yerdə ədalət özünü xüsusi bir şəkildə göstərər, əks təqdirdə qarma-qarışıqlıq və nizamsızlıq əmələ gələr.***





N.Tusiyə görə, ədalət qüvvəsi böyük yaradanın insan zatında vəkilidir. Əgər bu qüvvə hakim mövqeyə keçib müvazinət, tarazlıq və bərabərlik yaratsa, hər kəs öz haqqına çatar, artıqlıq nəticəsində əmələ gələn intizamsızlıq aradan qalxar.

Əsərin "Xidmətçiləri və qulları idarə etmək qaydaları haqqında" fəslində göstərilir ki, qulluqçu seçərkən gərək əvvəlcə bir adamı yaxşı tanıyıb, onu tam yoxlamadan keçirib, xasiyyətinə bələd olduqdan sonra onu qulluqçu qəbul edəsən... Xidmətçilər yalnız o zaman ürəklə işləyərlər ki, özlərini iş sahibinə şərik bilib, qovulmaq, vəzifədən kənar edilməkdən qorxmasınlar.

Əsərin "Ölkəni (şəhərləri) idarəetmə qaydaları" adlı hissəsində göstərilir ki, "hakim","hökmdar" sözündən məqsəd o adamın böyük həşəmətə və ya məmləkətə sahib olması demək deyildir. O deməkdir ki, ölkədə onun haqlı hökmləri yerinə yetirilir; ola bilər, zahirdə ona heç məhəl də qoymasınlar.

Əgər o, bir şey deyir, yerlərdə valiləri başqa cür edirlərsə, onda qayda-qanun pozular, hərc-mərclik yaranar, zülm ərşə dayanar. Nəsirəddin Tusiyə görə, başçı (müqəddir) qayda-qanunu mühafizəyə çalışmalı, xalqı nizam-intizama dəvət etməlidir. Bunun üçün ona zamanın tələbinə, hökmünə uyğun olaraq qanunlarda lazımi dəyişikliklər aparmaq ixtiyarı verilməlidir. Dövlətin yalnız ədalət əsasında uzun müddət yaşaya bildiyini göstərən müəllif ədalətin birinci şərtini xalqın müxtəlif təbəqələri arasında uyğunluq yaradılmasında görür. O yazır ki, insanın sağlamlığı dörd ünsür arasındakı tənasüblükdə olduğu kimi, cəmiyyət arasındakı uyğunluq da dörd sinfin qarşılıqlı müvafiqliyində olar. Birinci sinfi o, qələm əhli adlandırır. Bunları təbiətdəki dörd ünsürdən (su, od, torpaq, hava) biri - su adlandırır. İkinci sinif qı-

lınc əhlidir ki, (ordu, hərbçilər) dünyanın nizam-intizamı bunların varlığına bağlıdır və onlar od yerində olarlar. Üçüncüsü müamilə əhlidir. Bunlar tacirlər, sənətkarlar, bac-xərac toplayanlardır ki, onları da (hava ilə) müqayisə edir. Dördüncüsü ziraət (əkin-biçin) əhlidir ki, bunların əməyi olmadan insanın yaşaması mümkün deyildir və həmin sinif torpaq yerində sayılır və bunların arasındakı nisbət pozularsa, cəmiyyətdəki işlərin müvazinəti də pozular.

Ədalətin ikinci şərti, onun fikrincə, şəhər əhalisinin vəziyyətinə və təbiətinə diqqət verilməsidir, yəni elə etmək lazımdır ki, hərəsi ləyaqətinə və istedadına görə vəzifəyə təyin edilsin.

Ədalətin üçüncü şərti isə odur ki, hər sinfin arasında uyğunluq yaratdıqdan və hər adamın ləyaqət və istedadına görə rütbə verdikdən sonra, onlar arasında olan ümumi gəliri mühafizə etməyə, hərənin öz payına düşəni özünə verməyə səy göstərilməli, burada haqqa və bu adamların xidmətinə fikir verilməlidir.

O göstərir ki, bundan sonra ümumi gəlirin mühafizə edilməsi dövlətin kəramətinin və buna bənzər şeylərin salamat qalmasına səbəb olur. Tusi qeyd edir ki, əsas məsələlərdə nadanlığa və səhlənkarlığa yol verməyin nəticəsi dəhşətli olar. İdarəetmə işini aparan şəxslərin başı keyf və əyləncələrə qarışsa, işləri özbaşına buraxsalar, şər və zərər işə düşər, qayda-qanun əksinə çevrilər, mənimsəmə qapıları açılar, tamahkarlıq qüvvələri ona kömək edər, bədbəxtlik xoşbəxtliyə qalib gələr, nizam-intizam hərc-mərcliklə yerini dəyişər.

Ərəb xilafətinin zəifləməsi nəticəsində Azərbaycanda IX-XI əsrlərdə yaranan feodal dövlətlərin - Şirvanşahlar, Şəddadilər, Sacilər, Salarilər, Rəvvadilər dövlətlərinin dövründə idarəetmə sistemi feodal münasibətlərinə əsaslanırdı. Şirvanşahlar mütləq hakimiyyət prinsipi əsasında idarə olunur, şahın hakimiyyəti varislərə keçir, əyalətləri şahzadələr idarə edir, inzibati və maliyyə işlərinə vəzir baxır, saraydakı işləri hacib tənzimləyirdi.

***Şəddadilər dövlətinin (X əsrin ikinci yarısında mövcud olmuşdur) idarə olunması da təxminən eyni idi.*** Burada dövlətin





başçısı mülki və hərbi hakim olaraq əmir titulu daşıyırdı, vilayətləri onun təyin etdiyi naiblər idarə edirdilər. Bunlar şahzadələrdən və ya sülalə üzvlərindən ibarət olurdu. Əsas diqqət orduya verilirdi.

***Ondan sonra Səlcuq türklərinin hakimiyyəti altına keçən Azərbaycanda XII əsrin əvvəllərində daha bir güclü dövlət - Atabəylər dövləti (1136-1225) yaranmışdı.*** Bu zaman dövlətdə ikinci sima vəzir idi və yalnız hökmdarın qarşısında cavab verən vəzir divan məmurlarını vəzifəyə təyin edir, dövlətin bütün maliyyə işlərinə, maaşa, təqaüdə, vergi sisteminə və xəzinəyə nəzarət edirdi.

Bundan sonra vəzifə pillələrində vəzirdən sonra ən mühüm, məxfi və vacib işlərlə məşğul olan hacib, hökmdarın şəxsi əmlakını idarə edən şəxsi divan rəhbəri, hökmdarın dəftərxanasının başçısı tuğrayi, hərbi iqtidara nəzarət edən sahibi-divan, əyalətlərə rəhbərlik edən valilər, iri şəhərləri idarə edən naiblər, vergi və rüsumları toplayan, ticarət qaydalarına nəzarət edən darğalar və başqaları gəlirdi.

Azərbaycanın orta əsrlərdə mövcud olan dövlətlərində dövlət quruluşu və idarə sisteminin tarixi də böyük maraq doğurur. Monqol istilasından sonra Azərbaycanda mövcud olan Hülakular dövlətində iki ənənəvi idarə sisteminin - yerli əhaliyə və köçəri monqollara məxsus olan sistemlərin qarşılıqlı təsiri nəticəsində tədricən vahid, təkmilləşmiş, inkişaf etmiş idarə sistemi meydana gəlmişdi. Monqollar hərbi sahədə öz üstünlüklərini qoruyub saxlasalar da, mülki idarədə və maliyyə sistemində yerli xüsusiyyətlər üstünlük təşkil edirdi. Monqollar özləri ilə bir sıra hərbi, mülki və sairə anlayışlar da gətirmişdilər ki, onların bəzisi (bukavul, bəxşi, yurdçi, bəlarquçi və sair) vətəndaşlıq hüququ qazanmış, o dövrdə idarəetmə sistemində işlənmişdir.

Hülakular dövlətində ölkənin ali orqanı qurultay hesab olunur və qurultayda dövlətin başçısı - elxan seçilir, vilayət hakimləri və mühüm dövlət məmurları təyin olunurdu. Bu dövlətin ali idarə sistemində ikinci yeri naib əs-səltənət tuturdu. Naib əs-səl-

tənət elxanın mərkəzdə olmadığı vaxtlarda ölkənin idarəsi ilə məşğul olur, qalan vaxtlarda isə ölkənin vəziyyəti, mühüm hadisələr barədə elxana məlumat verir, onu real vəziyyətlə tanış edirdi. İdarə sistemində üçüncü yeri ölkənin baş əmiri-əmir ülümərа tuturdu. Hərbi və inzibati bölgü bir-birinə uyğunlaşdırılmışdı. İnzibati baxımdan vilayət hesab olunan ərazi hərbi baxımdan ölkə adlanırdı. Mərkəzi dövlət aparatında hərbi-inzibati idarələri birləşdirən orqan əmarət (əmirlik) adlanır və bu orqanı baş əmir idarə edirdi. Baş əmir dövlətin dörd əsas əmirləri sırasından seçilir və elxan tərəfindən təsdiq olunurdu. Əmarətə ölkə əmirliyi, tümən əmirliyi, minlik və yüzlük əmirlikləri, yarğu (məhkəmə) əmirliyi, eləcə də ali hərbi vəzifələr - inaq, bukavul, tavaçi, yasavul, bəlarquçi, bəxşi və sair daxil idi. İnaqlar hərbi məsləhətçilər idi. Bukavullar divandan ayrılmış ixracatı və yürüşlərdə əldə edilmiş qəniməti hərbi hissələr arasında bölür, ordu hissələrinin təminatı ilə məşğul olurdular. Tavaçilər ümumi səfərbərliklə məşğul olurdular, yasavullar qoşun hissələrini döyüş meydanlarına aparıb, onları döyüşə hazır vəziyyətdə saxlamalı idilər. Düşərgədə, yaylaq və qışlaqlarda hökmdarın və hərbi hissələrin yerləşdiyi məskənlər - yurdlar yurdçilər tərəfindən salınırdı. Bəlarquçi qoşun hissələri çəkildikdən sonra öz dəstəsi ilə döyüş meydanlarında, yurdlarda qalıb itkin düşmüş, azmış adamları, mal-qaranı və əşyaları toplayıb sahiblərinə çatdırmalı idi. Hərbi kargüzarlıq bəxşilər tərəfindən aparılırdı. Elxanilər dövründə Azərbaycanda mülki idarəçilik divan sistemi üzrə aparılırdı. Mərkəzi dövlət aparatında 20-dən artıq divan mövcud idi. Həmin bölgələrdə mühasibat işləri 7 dəftər əsasında həyata keçirilirdi.

***Mərkəzi divanlar vəzirlər tərəfindən idarə olunurdu. Vəzirlər ölkədə ümumi iqtisadi vəziyyəti nizamlamalı, tənəzzül və inkişafın səbəblərini müəyyənləşdirməli, maliyyə məsələlərini həll etməli və ilk növbədə səltənətin, şahzadələrin və onların ailə üzvlərinin təchizatını təmin etməli idilər. Vəzirlərin xüsusi köməkçiləri, müavinləri (naibi-vəzirət) var idi.***





İxtisaslı divanlar təsərrüfatın müxtəlif sahələrini idarə edirdilər. Məsələn, baş mustovfi tərəfindən idarə olunan istifa divanı dövlət gəlirlərinin müəyyənləşdirilməsi, toplanması və xərclənməsi üzrə ümumi mühasibatı aparırdı. Uluq bitikçi ölkənin əmlak rəisi sayılırdı, dövlət sərvətlərinin cəmlənməsi və xərclənməsinə cavabdeh idi. Münşi əl-məmalik dövlət sənədlərinin tərtibi ilə məşğul olur və xarici dövlətlərlə əlaqələri tənzimləyirdi. Dövlət xəzinələri üç nəfər tərəfindən idarə olunurdu: nazir dövlət xəzinəsinin məsrəflərinə, müşrif xəzinənin gəlirlərinin toplanmasına cavabdeh idi. Xazen (xəzinədar) isə xəzinənin varidatını mühafizə edirdi. İsfəhsalar dövlətin təhlükəsizliyini təmin etməli, şəhərləri qorumalı, asayişə, dövlət qanunlarının düzgün icrasına nəzarət etməli idi. Bundan başqa, istifadəsiz qalmış torpaqların qeydə alınması və istifadəsi ilə məşğul olan bayrat divanı, tikinti işləri ilə məşğul olan imarət divanı, sənətkarlıq işləri ilə məşğul olan məsas divanı var idi. Dövlətin ərazisi vilayətlərə, onlar isə öz növbəsində tümənlərə bölünmüşdü. Tümən hərbi və inzibati bölgü baxımından eyni ərazini əhatə edirdi. Azərbaycan müstəqil vilayət kimi 9 tümənə ayrılmışdı. Onların hər biri ölkənin iri şəhərlərindən birinin adı ilə, məsələn, Təbriz tüməni, Ərdəbil tüməni, Naxçıvan tüməni və sair adlanırdı. Vilayətlərin idarəsi hakimlərə həvalə olunmuşdu. Onların hamısında hərbi canişinlər mövcud idi. Mərkəzi dövlət aparatındakı bütün divanlar vilayətlər, daha sonra isə şəhərlər üzrə şaxələnirdi. Yuxarıda göstərdiyimiz mərkəzi orqanların nümayəndələri ilə yanaşı mütəsərrif, şəhnə, qələmi, müqənnə, müəddil, müəssil kimi vəzifəli məmurlar da mövcud idi.

Vilayətlərdəki dövlət və səltənət torpaqlarının idarəsi müqatiəyə (icarəyə) verilirdi. İcarədarlar (mütəsərrif) adətən 3 il müddətinə təyin olunurdu. Şəhnələr vilayətdə və şəhərlərdə asayişi qoruyurdular. Qələmi mərkəzi dövlət aparatındakı uluq bitikçi vəzifəsinə uyğun idi. Müqənnə vilayətlər üzrə dövlət torpaqlarının həcmini müəyyənləşdirir və bu barədə xüsusi kitablar - "Qanunnamə"lər tərtib edirdi. Kənd yerlərində bu işi mətəlli-

qan adlı məmurlar görürdülər. Mühəssillər yerlərdə dövlət vergilərinin toplanması və mərkəzi divana təhvili ilə məşğul olurdular. Kəndlərin idarəsi işi kənd rəislərinə həvalə edilmişdi. Ölkənin dini işlərinin idarəsi baş ruhani təşkilatının sərəncamında idi və ora elxanın xüsusi fərmanı ilə təyin olunan qazı əl-qüzat (qazılar qazısı) başçılıq edirdi. Vilayət və şəhərlərdə vilayət və şəhər qazıları mövcud idi. Bundan başqa nahiyə və kənd qazıları da var idi.

***Şəriət məhkəmələrində kargüzarlıq işləri dar ül-qəza adlanan orqanda aparılırdı. Katibin başçılıq etdiyi bu orqanda əmin (nəzarətçi), müvərrix (salnaməçi-mühafizəçi), müdir (müstəntiq), vəkil və başqa məmurlar çalışırdılar. Dini məhkəmələr öz fəaliyyətlərində müstəqil olub yalnız baş qazıya və elxanın özünə tabe idilər. Yarğu əmirlərinin şəriət məhkəmələrinin işinə qarışması qanunla qadağan olunmuşdu.***

Paytaxtı Təbriz olan və Azərbaycanın cənub vilayətlərini əhatə edən Qaraqoyunlu və Ağqoyunlu dövlətləri bilavasitə padşahın və ya sultanın özü, onun mənsəb sahibləri tərəfindən idarə edilirdi. Bu iki dövlətin hökmdarları padşah titulu daşımışlar. Uzun Həsən özünün Osmanlı və Teymuri sultanları səviyyəsində hökmdar olduğunu qeyd etmək məqsədi ilə sultan titulunu qəbul etmişdi. Sülalə üzvlərindən və yaxud yüksək rütbəli əmirlərdən seçilən ləlsi (atabəyi) şahzadənin yanında olurdu. Hakim sülalə üzvləri və ya yarımköçəri əyanlardan vaxtaşırı təyin edilən baş sərkərdələr əmir ül-üməra adlanırdı. Dövlət aparatında ikinci şəxsiyyət sədr-əzəm (baş sədr) idi. O bütün müsəlman ruhanilərinə rəhbərlik edirdi. Ağqoyunlunun sədr-əzəmi daha böyük rol oynayırdı. Mərkəzi idarə aparatında mühüm mövqelərdən birini də dövlət gəlirlərini və maliyyə sistemini idarə edən baş vəzir tuturdu. O həmçinin xarici ölkələrlə əlaqələri nizamlayır, ali divana rəhbərlik edir və buna görə də sahib-divan adlanırdı.

Qaraqoyunlu və Ayqoyunlu saraylarında digər vəzifələr də (eşikağası, qapıçı, möhürdar, xəzinədar, əmiraxur və sair) var





idi. Bundan başqa mənbələrdə münşi əl-məmalik, mustovfi, qazi əl-qüzat, divanbəyinin də adı çəkilir.

Ağqoyunlu qoşununda hökmdarın təminatında olan, müəyyən imtiyazlara malik qvardiya hissələri, bəy və xassə nökərləri var idi. Onlar əsasən hakimyyət başında duran Ağqoyunlu tayfasının bayandur elinə mənsub idilər.

***Ağqoyunlu və Qaraqoyunlu dövlətlərindən sonra Azərbaycan ərazisində mühüm yer tutan Səfəvi dövləti quruluş etibarı ilə onların ənənələrini davam etdirirdi.*** Dövlətin ilkin mərhələsində I İsmayılın dövründə sadəliyi ilə seçilən mərkəzi bürokratik idarə aparatı sonralar xeyli mürəkkəbləşmişdi. Dövlətin başında şah dururdu, onun yanında məşvərətçi səslə dövlət aparatında yüksək mövqe tutan şəxslərdən və Azərbaycan tayfalarının ən nüfuzlu əmirlərindən ibarət Dövlət Şurası - Ali Məclis fəaliyyət göstərirdi. Bu Şura 12 nəfərdən ibarət idi. Səfəvi dövlətinin ərazisi iki hissəyə - divan vilayətlərinə və xassə vilayətlərinə, yəni dövlət torpaqlarına və şah ailəsinin mülklərinə bölünürdü. Bu bölgüyə uyğun olaraq idarəçilik üçün iki xüsusi qurum - divani-məmalik və divani-xassə mövcud idi. Bunlar Səfəvi dövlətinin əsas maliyyə müəssisələri sayılırdı. Onlar şah müvəkkilləri - vəzirlər tərəfindən idarə olunurdu. Bütün işlərdə şahın tamhüquqlu müavini vəkil idi və o, şahdan sonra ikinci şəxs sayılırdı. Bu vəzifədə ilk şəxs I İsmayılın tərbiyəçisi (ləlləsi) Hüseyn bəy Şamli olmuşdur. Səfəvi dövlətində ordu əsas rol oynadığına görə onun idarə olunması da böyük əhəmiyyət daşıyırdı. Hərbi iş bütövlüklə azərbaycanlıların əlində olduğu üçün bu vəzifə Azərbaycan əyanlarının inhisarında idi və yığma qoşunların başçısı əmir ül-üməra (xanlar xanı) adlanırdı. Azərbaycan tayfalarının döyüşçülərindən ibarət xüsusi hərbi dəstəyə isə qorçibaşı rəhbərlik edirdi. Mülki idarəçiliyin ənənəvi başçısı vəzir idi. I Şah İsmayılın dövründə vəzirin nüfuzu böyük deyildi. Çünki dövlət idarəçiliyi işlərində hakim mövqeni vəkil və əmir ül-ümərə tuturdular. Vəzirin vəzifəsi əsasən maliyyə əməliyyatları ilə məhdudlaşırdı.

Vəqfləri idarə edən dini təsisatın başında sədr dururdu. Bəzən vəzir və sədr vəzifəsini eyni zamanda iki şəxs icra edirdi. Bunlar arasında vəzifə bölgüsü ərazi prinsipi üzrə həyata keçirilirdi.

Maliyyə idarəsinin başında mustoufi əl-məmalik dururdu. Bundan başqa vergi borcları üzrə xəzinədar da mövcud idi. Buna mustoufiyi-bəkayə deyilirdi. Saray təsərrüfatı rəhbəri naziri--buyutat adlanırdı. Onun idarəçiliyində kitabxanalar, müxtəlif anbarlar, tövlələr, sikkəxana, cəbbəxana, eləcə də sarayda yerləşən tikiş, zərgərlik, dəmirçilik, bədii və digər emalatxanalar var idi. O, saray mətbəxini də idarə edirdi. Sarayda mühüm vəzifələrdən biri də Ərdəbil ordeni müridlərinin başçısı xəlifət əl-xülafə idi. O, şahın orden işləri üzrə müavini hesab olunurdu. Mərkəzi saray aparatında həmçinin baş eşikağası idi. O, tabeçiliyində olan böyük xidmətçilər ştatı - yavərlər, yasovullar, qapıçılar, carçılar və başqaları olmaqla saray yığıncaqlarında və təntənələrində təşrifatı idarə edirdi. Mirşikarbaşı şahın ov tədbirlərinin başçısı idi. Mühtəsib əl-məmalik (dövlət mühtəsibi) şəhər bazarlarını nəzarətdə saxlayan, əmtəələrə qiyməti təsdiq edən mərkəzi aparat məmuruna deyilirdi.

Mərkəzi aparatda münşi əl-məmalik - dövlət katibi, müəyyar əl-məmalik - pul işinə rəhbərlik edən, möhürdar - şahın möhürünü saxlayan, miraxurbaşı - mehtərlərin rəisi, mehmandarbaşı - xarici səfirlərin və qonaqların qəbuluna baxan rəis, süfrəçibaşı, halvaçıbaşı, münəccimbaşı və sair vəzifə sahibləri çalışırdı.

Səfəvilər dövründə Azərbaycan ərazisi şah canişinləri - bəylərbəyilər tərəfindən idarə olunan vilayətlərə bölünmüşdü. Bəylərbəyilər yalnız Azərbaycan hərbi əyanları tərəfindən təyin edilirdi. Onlar öz məmurları tərəfindən əhalidən yığılan vergiləri xəzinəyə göndərir və müəyyən miqdarda hərbi qüvvə saxlayırdılar. Onların daxili işlərdə böyük müstəqilliyi var idi.

Əyalət idarəçilik sistemi bir çox cəhətdən mərkəzi idarəçiliyə oxşar idi. Bəzi bəylərbəyilər o qədər güclü idilər ki, öz saraylarının zənginliyi baxımından şahı təqlid edirdilər. Qızılbaş





əyanları bəylərbəyi, əmir ül-ümərа və hakim kimi vilayətləri çox vaxt irsi olaraq idarə edirdilər. Məsələn, Qarabağ və Astrabad Qacar tayfasının, Şirvan və Çuxursəd Ustaclı tayfasının nümayəndələri tərəfindən idarə olunurdu. Qulluq adamlarına məvacib daha çox tiyul, bəzi hallarda isə soyurqal verilməsi ilə həyata keçirilirdi. Bəzi vəzifəli şəxslərə rəiyyətdən vergi şəklində alınan daimi rüsum yığmaq hüququ verilmişdi. Qulluqçuların mükafatlandırılmasının geniş təcrübədən keçirilən formalarından biri "düşüllük" idi və bu, dövlət idarəsi tərəfindən həyata keçirilən ödənclərin məlum faizi şəklində tutulan məbləği bildirirdi.

<u>***XVII əsrin ikinci yarısında əsasən dinc inkişaf şəraiti ilə əlamətdar idi. Ölkə əvvəlki kimi dörd iri vilayətdən ibarət olub, şahın sərəncamı ilə təyin olunan bəylərbəyilər tərəfindən idarə olunurdu. Bəylərbəyliyə tabe vilayətlərin hakimləri qolbəyi adlanırdı. Daha kiçik inzibati vahidlərin hakimləri sultan titulunu daşıyırdılar və onlar yerli hakimiyyət orqanlarını müstəqil olaraq yaradırdılar.***</u> Sultanlar qolbəyilərə və bəzən də birbaşa bəylərbəyinə tabe idi. Xan ali hərbi-inzibati mövqe tutan şəxs idi. Sultan və bəy xandan aşağı mövqedə dururdu.

<u>***Azərbaycanın XVIII əsrdə mövcud olan ictimai-siyasi vəziyyəti ilə tanış olduqda, bu dövrdə ölkənin ayrı-ayrı xanlıqlara parçalanması və bu xanlıqların öz aralarında tez-tez müharibələr aparmasının şahidi oluruq.***</u> Xanlıqların idarəetmə sistemi əslində əvvəlki formalardan çox da seçilmirdi. Bakı xanlığı tipik feodal dövləti idi, burada hakimiyyət irsi olaraq xanın varislərinə keçirdi. Burada da başqa xanlıqlardakı kimi xanın yanında divan fəaliyyət göstərirdi. Divanda ölkənin idarə olunması məsələləri tez-tez müzakirə olunurdu. Son söz xanın olsa da divanın tərkibində olan bəylərin rəyi, habelə şəriət qaydaları və yerli adətlər nəzərə alınırdı. Azərbaycanın ən kiçik xanlığı olan Bakı xanlığının dövlət aparatı o qədər də böyük deyildi. Xanın yaxın köməkçisi baş vəzir idi. Töycülərin və digər mükəlləfiyyətlərin yerinə yetirilməsinə nəzarət naiblərə, kəndxudalara və yüzbaşılara tapşırılırdı. Naiblər əsasən iri feodallardan təyin olunur, on-

lar yerlərdə məhkəmə işinə baxır, xan üçün döyüşçülər toplayır və qoşunlar üçün azuqə hazırlayırdılar. Maraqlıdır ki, çox vaxt Bakı xanı naib vəzifəsini özü yerinə yetirirdi. Kəndxudalar naibə, yüzbaşılar isə kəndxudaya tabe olurdular.

Bakı xanlığında bir şəhər olduğuna və şəhərin idarə olunması sadələşdirildiyinə görə xüsusi inzibati aparat yaradılmasına ehtiyac yox idi. Bununla yanaşı Bakı xanlığında qalabəyi, darğa və başqa şəhər məmurları vəzifələri var idi. Qalabəyi qalanın komendantı olaraq şəhərin baş polisi vəzifəsini yerinə yetirirdi və bütün şəhərdə asayişə cavabdeh idi. Bazar nəzarətçiləri vəzifəsini darğalar yerinə yetirirdilər. Onlar şəhərdə və bazarda qayda-qanuna, məhsulların qiymətlərinə nəzarət edir, müxtəlif mübahisələri həll edirdilər. Bakının dörd kvartalının hər birinin öz kəndxudası var idi. O, kvartalda qayda-qanuna nəzarət etməli, şəhər sakinlərindən vergi yığılmasında və sairə işlərdə iştirak etməli idi. Naibə kömək edən bütün bu məmurlar divanın xeyrinə toplanmış vergidən haqq alırdılar.

Bakı xanlığında da digər xanlıqlar kimi məhkəmə üç instansiyadan - divan, şəriət və əsnaf məhkəmələrindən ibarət idi. Daha fəal olanı şəriət məhkəməsi idi. Burada cinayət xarakterli işlərə, habelə mülki işlərə baxılırdı. Divan məhkəməsi təkcə xana tabe idi və daha təhlükəli cinayətlərə aid məsələlərə baxmaq üçün toplanırdı. Ustabaşıya tabe olan əsnaf məhkəməsinin elə bir mövqeyi yox idi. Çox vaxt əsnaf məhkəmələrində mühüm məsələlərin həllində ağsaqqallar da iştirak edirdilər. Lakin o zaman Bakıda olan səyyahların yazdıqlarına görə, müqəddəs qanunlar rüşvət və başqa şeylərə görə qorunmurdu. Hər bir feodal dövlətində olduğu kimi burada da başlıca olaraq varlılar müdafiə olunurdu.

***Azərbaycanda dövlət qulluğunun keçmişinə nəzər salarkən XIX əsrin əvvəllərindən Rusiyanın işğalı altına düşdükdən sonra tamamilə yeni bir mərhələ başlandığını görürük. XIX əsrin əvvəllərində Rusiya tərəfindən zəbt edilən xanlıqlar ilk vaxtlar əvvəlki idarə sistemlərini saxlasalar da get-gedə müs-***





***təqil hərəkət etmək imkanlarını tamamilə itirir. Rusiya generallarının tətbiq etdiyi komendant üsul-idarəsinə keçirdilər.***

Şimali Azərbaycan xanlıqları rus qoşunlarına müqavimət göstərmədiklərinə görə Qarabağ, Şəki və Şamaxı xanlıqlarında idarə sistemi olduğu kimi saxlanılmış, Gəncə, Bakı, Quba xanlıqları isə müqavimət göstərdiyi üçün onlarda xan üsul-idarəsi ləğv edilmişdi. Əvvəlcə Şuşada "Müsəlman əyalətləri rəisliyi" yaradıldı. Bu idarəyə rus zabiti başçılıq edirdi. Xanlıqlar və sultanlıqlar əyalətlərə və dairələrə çevrildi, 6 əyalət - Bakı, Quba, Şəki, Şirvan, Qarabağ və Talış əyalətləri, 2 dairə - Yelizavetpol və Car-Balakən dairələri, 2 distansiya - Qazax və Şəmşəddil distansiyaları təşkil edilmişdi. Komendant idarə üsulu deyilən bu qurumlara Qafqazın baş komendantı rəhbərlik edirdi. Komendantlar mütləq hakim idilər. Onların təkcə ölüm hökmü verməyə hüquqları yox idi.

Əyalətlər mahallara bölünür, mahalların başında komendantların yerli bəylərdən təyin etdikləri mahal naibləri dururdular. Kəndləri isə kəndxudalar idarə edir, onların hər birinin yanında bir neçə onbaşı və yasovul olurdu. Onlar dövlət xəzinəsindən maaş almır, yığdıqları vergilərin bir qismini özlərinə götürürdülər. Bəzi əyalətlərdə komendantlar tərəfindən sədrlik edilən məhkəmələr yaradılmışdı. Onların iclasçıları bəylərdən seçilirdi, eyni zamanda şəriət məhkəmələri də fəaliyyət göstərirdi. Bunlara qazılar başçılıq edirdi.

Komendantlar və mahal naibləri onlara itaət etməyənlərə qarşı çox amansız rəftar edirdilər. 1840-cı ildə çar Ön Qafqazda inzibati islahatlar barəsində qanun verərək komendant idarə üsulunu ləğv etmiş, quberniyalar və onların nəzdində mahallar əvəzinə qəzalar yaradılmışdı. Ön Qafqaz mərkəzi şəhəri Tiflis olan Gürcüstan-İmeretiya quberniyasına və baş şəhəri Şamaxı olan Kaspi vilayətinə bölünmüşdü. Yelizavetpol-Balakən və Naxçıvan qəzalarından başqa Şimali Azərbaycan torpaqlarının hamısı Kaspi vilayətinin tərkibinə, Yelizavetpol-Balakən qəzaları isə Gürcüstan-İmeretiya quberniyasının tərkibinə daxil edilmişdi. O za-

man bütün azərbaycanlı məmurlar işdən kənarlaşdırılaraq rus məmurları ilə əvəz edilmişdilər.

Məhkəmə sistemi də ümumrusiya qanunları əsasında fəaliyyət göstərən quberniya və qəza məhkəmələrinin ixtiyarına verilmişdi. Şəriət məhkəmələri isə yalnız kəbin - talaq işlərinə baxırdılar. Sonrakı illərdə də çar Rusiyası bir sıra inzibati bölgü dəyişiklikləri aparmış və burada milli mənsubiyyəti nəzərə almamışdır. O zaman Qafqaz canişini təyin olunan M.Vorontsov da bunun səhv olduğunu etiraf etmiş, sonradan yerli feodalların torpaq üzərində xüsusi mülkiyyət hüququnu təsdiq edən fərman verilmişdir.

Yerli əyanların, bəylərin və kəndxudaların müəyyən imtiyazları saxlansa da bütövlükdə əsas məsələləri rus hərbi rejimi həll edirdi, yerli kadrlardan təyin edilmiş tərcüməçi və dilmanclar isə əslində yerli əhalidən rüşvət yığılmasında vasitəçi rolunu oynayırdılar. Bu cəhətdən Rusiyanın özündə dövlət qulluğunun tarixinə də nəzər salmaq vacibdir.

## Rusiyada dövlət qulluğu tarixinə ötəri bir baxış

Rusiya dövlətində dövlət qulluğunun tarixi zəngindir və bəzi rus alimlərinin iddia etdiklərinə görə, inqilaba qədərki Rusiyada dövlət qulluğu ən mükəmməl və təsirli olub, öz peşəkarlığı və səriştəliliyi cəhətdən Avropaya uyğunlaşdırılmışdı və Rusiyanın dövlət məmurları özlərinin avropalı həmkarları ilə bərabər rəqabət apara bilirdilər.

Rusiyada dövlət qulluğunun yaranması və inkişafı hələ XVI-XVII əsrlərdən mərkəzləşdirilmiş dövlətin formalaşdırılması ilə sıx bağlı olmuşdur. O dövrün qanunları Əlahəzrətə qulluq etmək istəyən hər bir itaətkar şəxsin işinin xarakterini və həcmini dəqiq müəyyənləşdirməklə yanaşı, bunlardan boyun qaçıran şəxsləri də ciddi cəzalandırırdı.

***Böyük Pyotrun hakimiyyəti dövründə dövlət qulluğu peşəkar fəaliyyətin xüsusi sahəsinə çevrildi. XVIII əsrin əvvəllərində "ali hakimiyyətin tapşırıqları" deyilən əmrlər daimi vəzifələrə çevrilir və 1722-ci il yanvarın 24-də Pyotr assambleyası tərəfindən "Qulluq dərəcələri cədvəli" təsdiq edilir. Bu sənəd hazırlanarkən İngiltərənin, Venetsiya Respublikasının, Danimarkanın, Polşa Krallığının, Prussiyanın, Fransanın və İsveçin mövcud qanunları yaradıcılıqla öyrənilmişdi.*** Bu da ilk dəfə nəinki səmərəli hərbi və mülki xidmətin yaradılmasına imkan vermiş, əslində həm də bu sahədə bütün sonrakı islahatların möhkəm hüquqi bazası olmuşdu. "Qulluq dərəcələri cədvəli"nin ilkin variantında dərəcələrin deyil, vəzifələrin ardıcıllığı müəyyənləşdirilirdi. Burada rütbələr hələ göstərilmirdi. Cədvəl isə 14 sinfə bölünmüşdü və bunların hər biri hərbi, mülki və saray dərəcələrinə bölünürdü. Hərbi dərəcələr öz növbəsində quru qoşunlarına, qvardiya, artilleriya və dəniz qoşunlarına bölünürdü.

Lakin Pyotrun qanununun məqsədi təkcə rus məmurlarının təsnifatını vermək deyildi. "Qulluq dərəcələri cədvəli"ndə formal olaraq bütün təbəqələrin nümayəndələri dövlət qulluğuna buraxılsa da, əslində onun zadəganyönümlü xarakteri açıq-aydın ifadə olunurdu və hər vasitə ilə töycü verən təbəqələrin və raznoçinlərin dövlət aparatında qulluğa daxil olmasını və xidmətdə irəliləməsini çətinləşdirirdi. Belə siyasət zadəgan dövlət qulluqçularının üstün mövqeyini təmin etmək, onların başqa təbəqələr tərəfindən üstələnməsinə yol verməmək zərurətindən doğurdu. XVIII əsrin 60-cı illərindən bütün kateqoriyalardan olan dövlət qulluqçularına daimi əmək haqqı verilməsi dövlətlə məmurlar arasında qarşılıqlı münasibətlərin prinsipcə yeni forması oldu. Sabit və ya müvafiq dövlət rütbəsi olan bütün yuxarı rütbəli məmurlar onlar üçün müəyyən edilmiş məbləğə tam uyğun olaraq maaş alırdılar. Xırda dəftərxana işçiləri isə özlərinin tam tabeliyində olanların sayını ştat cədvəli çərçivəsində müəyyən etmək və onların əmək haqqını bacarıq və səylərinə görə təyin etmək hüququ olan rəhbərlərdən asılı idilər.

Məmurların mərkəzi hakimiyyətdən asılılığını gücləndirən amillərdən biri də pensiyanın təyin edilməsi idi. Pensiyanı almaq

üçün istefaya gedən qulluqçu 15 yaşından başlayaraq ən azı 35 il xidmət etməli idi. Bu şərt az əhəmiyyət daşımırdı. Kiçik dəftərxana vəzifələrində 12-13 yaşlarında, bəzən də daha tez xidmət etməyə başlayırdılar.

***Rusiyada dövlət qulluğunda islahatların növbəti mərhələsi birinci Nikolayın adı ilə bağlı idi. Onun vaxtında dövlət bürokratik maşınının bir çox pillələri yaradıldı. Onun vaxtında ilk dəfə müvafiq qanunvericilik kodifikasiya olundu və mülki qulluq haqqında qanunlar toplusu qəbul edildi. Dövlət aparatında işləmək hüququ olan bütün şəxslər üç dərəcəyə bölündü: ali və orta məktəblərdə elm kurslarını bitirmiş şəxslər, habelə öz təhsilini başa vura bilməyən şəxslər.***

1835-ci ildə I Nikolay "14-cüdən 15-ci siniflərə qədər mülki qulluq vəzifələrinin təsviri haqqında" fərman imzaladı. Bu fərmanda Rusiya imperiyasında dövlət qulluğuna qəbulun əsas şərtləri müəyyən edildi. Bu şərtlərin arasında mənşəyi, yaşı, təbəəliyi və "vətəndaş şərəfi" şərtləri də var idi. Əlahəzrət imperatora xidmət etməkdə zadəgan nəsilləri, onların oğulları, habelə zabitlərin və fəxri vətəndaşlıq almış məmurların övladları, din xadimləri və başqaları üstünlük hüququna malik idilər. Dövlət qulluğuna 14 yaşından daxil olmağa icazə verilirdi, lakin əslində o, 16 yaşından hesablanırdı.

Dəftərxana qulluqçusu və məmuru vəzifəyə təyin edildikdən sonra əmək haqqından, yemək və mənzil pullarından ibarət aylıq məvacib alırdı. İdarənin rəhbəri ştatdan asılı olmayaraq iş üçün nə qədər adam tələb olunurdusa, o qədər işçi götürmək hüququna malik idi. Bu yolla qənaət edilən pullardan daha çox fərqlənənləri mükafatlandırmaq üçün istifadə oluna bilərdi. Hər bir qulluqçu dörd aya qədər məzuniyyət götürə bilərdi, o cümlədən əmək haqqı saxlanmaqla iki məzuniyyət ala bilərdi. Dövlət qulluğunun üstün cəhətlərindən biri də pensiyalar idi. Bu pensiyalar yüksək olurdu və Rusiya imperiyasının sadə təbəələri bunu heç xəyallarına da gətirə bilməzdilər. Pensiyalar "Mülki idarələr üzrə pensiyalar və birdəfəlik müavinətlər haqqında





ümumi nizamnamə"yə uyğun təyin olunur və tənzimlənirdi. Məmur əslində pensiyanı 60 yaşından sonra ala bilərdi. Lakin XIX əsrdə Rusiyada kişilərin orta ömrü 50-dən çox olmadığına görə bu pensiyanı çox vaxt onun ailəsi alırdı. Azərbaycanın Rusiya tərəfindən işğalından sonra bəzi Azərbaycan xanlarının varislərinə, məsələn Bakı xanlarının nəslindən olan bəzi şəxslərə və o dövrdə Rusiyanın dövlət qulluğunda çalışan bəzi azərbaycanlı məmurlara da belə pensiyalar təyin olunmuşdu. Abbasqulu ağa Bakıxanovun özü 1835-ci ildə 15 il çar ordusunda xidmət etdikdən sonra polkovnik rütbəsi ilə təqaüdə çıxmışdı. XX əsrdə Rusiyanın Avropa hissəsində 575 min məmur var idi ki, onların saxlanmasına hər il büdcənin 13,4 faizi sərf olunurdu. Almaniya, Fransa və ABŞ istisna olmaqla digər Avropa ölkələrində də dövlət qulluğunun "qiyməti" elə bu qədər idi. Almaniya, Fransa və ABŞ-da məmurların həm sayı, həm də qiyməti xeyli yüksək idi.

***1917-ci ildə dövlət qulluğu haqqında çarın manifest və fərmanlarının hüquqi əsasını təşkil edən və Pyotrun 200 il istifadə olunan "Qulluq dərəcələri cədvəli" ləğv edildi. Bunun əvəzinə partiya mənsubiyyəti prinsiplərinə və kommunizm ideyalarına sədaqət prinsipi əsasında aşağıdan yuxarıya partiya, dövlət və ictimai təşkilatların bütün dərəcə və pillələrini əhatə edən kadrların seçilib yerləşdirilməsinin nomenklatur sistemi yarandı.*** Nazirlik və ya idarədə nomenklatur vəzifəyə hər hansı mütəxəssisi qəbul etmək üçün mütləq müvafiq partiya orqanının sanksiyası tələb olunurdu. Yuxarı dərəcəli məmurlar tamamilə partiya liderinin və onun ətrafının münasibətindən asılı idi. Dövlət aparatının təkcə aşağı pillələrinin məmurları deyil, əslində müəssisə və təşkilatların az-çox böyük rəhbərləri də çox ciddi partiya nəzarəti altında idi. SSRİ-də bütün dövlət qulluqçuları inzibati idarə heyəti sayılırdı. Onları xalis idarəetmə işçilərindən fərqləndirmək cəhdi dövlət idarəetmə orqanı anlayışının mənasını tamamilə dəyişirdi. Hüquqşünasların fikrincə, bu orqanların diapazonu olduqca geniş idi. Onlar hökumətdən tutmuş müəssi-

sə və idarələrin müdiriyyətinə qədər hamını əhatə edirdi. Bu, dövlət qulluğunun nədən ibarət olması və dövlət qulluqçusunun kimliyi sualına birmənalı cavab almağa imkan vermirdi. Dövlət qulluğunun təşəkkül tapmış normativ bazası müxtəlif hüquqi istinad nöqtəsi olan və müxtəlif sahələrə məxsus olan aktlar kompleksindən ibarət idi, onlardan bəziləri bütün dövlət qulluqçularına, bəziləri isə daha çox konkret idarəetmə sahəsində məşğul olan ayrı-ayrı qruplara şamil edilirdi. SSRİ-də dövlət qulluğu təsisatının hüquqi rəsmiləşdirilməsi 80-ci illərin sonunda başlandı, lakin SSRİ-nin dağılması nəticəsində bu iş dayandı. Bu problemin həllinə Rusiya dövləti yenidən yarandıqdan sonra qayıtdılar.

1992-ci ildə federal müqavilə və 1993-cü ildə Rusiya Federasiyasının Konstitusiyası federal, regional və bələdiyyə səviyyəli qanunvericilik, icra və məhkəmə strukturları, dövlət hakimiyyəti orqanları arasında yeni qarşılıqlı münasibətləri qanuniləşdirdi və dövlət mülki qulluğunu təsərrüfat subyektlərindən və büdcə təşkilatları sahəsindən ayırdı, vətəndaşların dövlət vəzifələrinə girməsi üçün bərabər şərait yaratdı. 80-ci illərin sonunda - 90-cı illərdə demokratik dalğanın üzərində dövlət idarəetmə aparatına peşəkarlarla yanaşı bir çox səriştəsiz və biliksiz adamlar da gəldilər. Bütün bunlar aparatın ixtisar edilməsi və sadələşdirilməsi əvəzinə onun həddindən artıq şişirdilməsinə və təkrar strukturların çoxalmasına gətirib çıxardı. Dövlətin idarə olunması sahəsində ağıllı əmək haqqı və sosial siyasət aparılmadığına, məmurların əmək haqqı ilə menecerlərin və kommersiya strukturunda işləyənlərin əmək haqqı arasında böyük fərq yarandığına görə dövlət orqanlarında işin nüfuzu aşağı düşdü və səriştəli məmurların kütləvi şəkildə dövlət qulluğundan uzaqlaşması başlandı. Korrupsiya geniş vüsət aldı.

***1995-ci ildə Rusiya Federasiyasında dövlət qulluğunun əsasları haqqında qanun qəbul edildi.*** Bu qanunla Rusiyada dövlət qulluğu anlayışının tərifi verildi, dövlət vəzifələrinin kateqoriyaları müəyyənləşdirildi, aparat işçilərinə verilən səriştəlilik tələblərinin siyahısı, onların statusu, vəzifələri və onlar üçün qoyulmuş məhdudiyyətlər göstərildi. Rusiyada bu qanun hazırlanarkən inqilaba qədərki Rusiyada olan təcrübəyə əsaslanaraq Pyotrun "Qulluq dərəcələri cədvəli"nin bəzi müddəaları bərpa edildi. Bir çox şeylər Avropa ölkələrində, o cümlədən, Avstriyada, İtaliyada, AFR-də, Fransa və Finlandiyada müharibədən sonra dövlət idarəetməsində aparılmış islahatlar praktikasından götürüldü. Məhz bu ölkələrdə 40-50-ci illərdə dövlət qulluğu haqqında çərçivə qanunları qəbul edilmiş, sonradan dövlət qulluqçularının gəlirləri və pensiyaları, onların qulluqkeçmə qaydası haqqında əlavə qanunlar qəbul edilmişdir.





## XX əsrin əvvəllərində və sovet hakimiyyəti illərində Azərbaycanda dövlət qulluğunun vəziyyəti

XIX əsrin sonlarında Rusiyada güclənməkdə olan inqilabi hərəkatın təsiri Rusiya imperiyasının böyük sənaye şəhərlərində, o cümlədən neft sənayesinin sürətlə inkişaf etdiyi və fəhlə sinfinin geniş təşəkkül tapdığı Bakı şəhərində də özünü göstərirdi. XX əsrin əvvəlləri inzibati polis aparatının yenidən qurulması, çarizmin ordu, jandarm, polis, məhkəmə sisteminin, ümumiyyətlə bütün dövlət aparatının güclənməkdə olan sinfi və milli azadlıq hərəkatının boğulmasına yönəldilməsi ilə səciyyələnir. Rusiyada 1881-ci ildə qəbul olunmuş, "Gücləndirilmiş mühafizə haqqında əsasnamə" (buna müvəqqəti əsasnamə də deyilirdi) 1902-1903-cü illərdə Azərbaycanın bir çox şəhər və qəzalarında tətbiq olunurdu. Bu əsasnamənin tətbiqi ilə ictimai qaydalara və asayişə zidd olan yığıncaq və toplantıların iştirakçıları 500 rubladək cərimə oluna və ya 3 aylıq müddətə həbs edilə bilərdilər.

1905-ci ilin fevralında Qafqazda canişinlik bərpa olunaraq qraf Vorontsov-Daşkov canişin təyin olundu. 1905-ci ildə çar hökuməti fövqəladə səlahiyyət verilmiş müvəqqəti general-qubernator təsisatı yaratdı və bir çox quberniyalarda hərbi vəziyyət elan etdi. Biri Yelizavetpol quberniyası ərazisində Zəngəzur, Ca-

vanşir, Cəbrayıl və Şuşa qəzalarını, digəri isə başqa qəzaları əhatə edən 2 müvəqqəti general-qubernatorluq yaradıldı.

Əvvəlki quberniya aparatı saxlansa da o, qayda-qanun və dinclik yaratmaq üçün müvəqqəti general-qubernatora tabe idi, qalan işlərdə isə quberniya və qəza işləri qubernatorun tabeliyində qalırdı. Bakı şəhəri və quberniyasının general-qubernatoru amansızlığı ilə məşhur olan knyaz Amilaxvari idi. 1905-ci ilin sentyabrında Vorontsov-Daşkovun təqdim etdiyi "Bakı şəhəri və qəzasının idarəsi qaydaları" təsdiq olundu, orada quberniya idarələrinin ancaq inzibati idarəçilik üzrə funksiyalarını yerinə yetirməsi nəzərdə tutuldu və bu qərara görə quberniya idarəsi müvəqqəti general-qubernatorun icazəsi olmadan Bakı şəhərində pristavları belə dəyişdirə bilməzdi. 1906-cı ildə Bakı şəhəri və ona bitişik neft-mədən və fabrik-zavod rayonlarının idarəsi üçün Bakı qradonaçalnikliyi yaradıldı və ona qubernator səlahiyyətində olan qradonaçalnik başçılıq edirdi. Qradonaçalniklik və onun idarəsi Bakı və Balaxanı-Sabunçu polismeystrliklərindən ibarət idi.

Neft işləri üzrə idarəetmənin tərkibinə polismeystrlərdən və qradonaçalnikliyin dəftərxana müdirindən başqa bir sıra hökumət məmurları - ikinci Qafqaz dağ-mədən dairəsinin dairə mühəndisi, baş fabrik müfəttişi, Bakı Birja Komitəsinin sədri, şəhər duması və neft sənayeçiləri qurultayı şurasının nümayəndələri daxil idilər. Bu idarənin qərarları ancaq qradonaçalnikin razılığından sonra qüvvəyə minirdi.

Qradonaçalnikin aparatında vəzifələrin əksəriyyətinə Tiflisdəki hökumət idarələrindən qulluqçular göndərilmiş, bəzi rəhbər vəzifəli məmurlar isə Peterburqdan təyin edilmişdi. Çünki canişinin xüsusi sərəncamı ilə azərbaycanlılar qradonaçalnikliyin aparatına buraxılmırdılar.

Quberniya jandarm idarələri ilə yanaşı axtarış müəssisələri adlanan orqanlar - mühafizə məntəqəsi də yaradılmış, onların ştatları 1905-1907-ci illərin inqilabi hadisələri dövründə xeyli artırılmışdı. Bu dövrdə inqilabi hərəkata qarşı mübarizə məqsədi





ilə hərbi səhra məhkəmələri yaradılmış və həmin məhkəmələrdə prokurorun, müdafiəçinin iştirakı olmadan işlərə baxılır, çıxarılan yeganə qərar ölüm hökmü olur, onun icrası ən geci 24 saat müddətində həyata keçirilirdi.

Bu dövrdə milli azadlıq hərəkatının yüksəlişi müşahidə olunur, Azərbaycan cəmiyyətinin yüksək dairələrinin nümayəndələri çar hökumətindən bəzi siyasi güzəştlər almağa, o cümlədən özünüidarə orqanlarında milli burjuaziyanın iştirakına qoyulan məhdudiyyəti ləğv etməyə ciddi səy göstərirdilər. Azərbaycanlı qlasnıların təkidi ilə 1906-cı ilin yanvarında Bakı şəhər duması Cənubi Qafqaz şəhər özünüidarə orqanlarında müsəlmanların hüquqlarını xristianların hüququ ilə bərabərləşdirmək barəsində vəsatət qaldırsa da, bu vəsatət rədd olunmuşdu.

Həmin dövrdə RSDFP-nin Bakı təşkilatı yaranmışdı və fəal siyasi iş aparırdı. Bu komitə sonralar Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynamış, indiyə qədər Azərbaycan tarixşünaslığında onun fəaliyyəti müsbət qiymətləndirilsə də məhz həmin komitəyə rəhbərlik edən erməni-daşnak liderləri tərəfindən Azərbaycan xalqının milli mənafelərinə ciddi zərbələr vurulduğu son illərdə aydınlaşdırılmışdır. Xüsusilə 1918-ci ildə Bakıda törədilmiş mart qırğını məhz onların əli ilə həyata keçirilmişdi.

***Rusiyada 1917-ci il oktyabr çevrilişindən sonra oktyabrın 31-də Bakıda hakimiyyətin sovetlərin əlinə keçdiyi elan olundu*** və Bakı Fəhlə Deputatları Sovetinin geniş iclasında Stepan Şaumyan Sovetin sədri seçildi və Leninin imzası ilə o, Rusiya Sovet hökumətinin Qafqazda fövqəladə komissarı təyin edildi. O zaman hələ Qafqazda sovet hakimiyyəti qurulmamışdı. 1918-ci ildə Rusiya Sovet Respublikasında Müəssislər Məclisi buraxıldıqdan sonra aprelin 22-də Zaqafqaziya özünün istiqlalını elan edərək əslində Rusiyadan ayrıldı. Həmin il aprelin 25-də isə Stepan Şaumyanın sədrliyi altında Bakı Xalq Komissarları Şurası yaradıldı. Komissarların əksəriyyəti erməni daşnaklarından ibarət idi, onun tərkibinə cəmi üç azərbaycanlı - M.Əzizbəyov qu-

berniya komissarı, N.Nərimanov şəhər təsərrüfatı komissarı, M.Vəzirov torpaq komissarı kimi daxil edilmişdi. Bakını RSFSR-in inzibati rayonlarından biri elan edən bu kommunanın ömrü uzun olmadı və iyulun 31-də süqut etdi. N.Nərimanov 1918-ci ilin iyulunda xəstələndiyi üçün Həştərxana göndərilmişdi.

***1918-ci il mayın 28-də Zaqafqaziya Demokratik Respublikası ləğv edilərək Tiflisdə Azərbaycanın istiqlaliyyəti elan edildi.*** M.Ə.Rəsulzadənin sədrlik etdiyi Azərbaycan Milli Şurası Azərbaycan Demokratik Respublikasının ilk hökumətini təşkil etməyi şuranın üzvü, bitərəf Fətəli xan Xoyskiyə tapşırdı. Doqquz nəfərdən ibarət bu hökumətin üzvlərindən 4 nəfəri "Musavat" partiyasının üzvü, 3 nəfəri bitərəf, 1 nəfəri "Hümmət" partiyasının üzvü, 1 nəfəri isə sosialist idi. Bundan bir qədər sonra milli hökumətin ikinci kabineti yaradıldı və 12 nəfərdən ibarət bu hökumətə də Fətəli xan Xoyski rəhbərlik edirdi. 12 nazirdən 4 nəfəri hüquq elmləri doktoru, 3 nəfəri tibb elmləri doktoru, 1 nəfəri filologiya elmləri doktoru, 4 nəfəri mühəndis idi. 18-ci ilin dekabrından sonra bu hökumətin tərkibi daha üç dəfə təzələnmiş, bunlardan birinə F.Xoyski, axırıncı ikisinə isə N.Yusifbəyli sədrlik etmişdi. 1920-ci il aprelin 27-dək davam etmiş Azərbaycan Demokratik Respublikası yerli kommunistlərin köməyi ilə yenidən Rusiyanın XI Qızıl Ordusu tərəfindən işğal edildi. Mövcud olduğu 23 ay müddətində Azərbaycanda milli dövlət quruculuğu və milli ordu yaradılması sahəsində, habelə digər sahələrdə böyük işlər görməsinə baxmayaraq bu dövlət yaşaya bilmədi və Azərbaycan yenidən Rusiyanın təsiri altına düşdü. V.İ.Lenin Azərbaycanın müstəqilliyini tanımağı və Azərbaycanın RSFSR-in tərkibinə müstəqil dövlət şəklində daxil olacağını vəd etsə də, 1920-ci illərdə RSDFP Bakı Komitəsinin rəhbərliyində özünə möhkəm yer tutmuş Mikoyan və Sarkis kimi daşnak tör-töküntüləri Azərbaycanın milli kadrlarını və siyasi liderlərini hər vasitə ilə respublika rəhbərliyindən təcrid etməyə çalışır, Azərbaycanın siyasi xadimlərinə və ziyalılarına qarşı





amansız təqib tədbirləri həyata keçirir, dövlət idarələrində milli kadrların yerləşməsinə qətiyyətlə mane olurdular.

Xüsusilə 1923-1924-cü illərdə bu məsələlərin həddindən artıq gərgin vəziyyət aldığını görən N.Nərimanov kimi dövlət xadimi Sovet Rusiyasının onları aldatdığını dərk etdi və Azərbaycanın düşdüyü ağır vəziyyətdən çıxış yolu tapmaq üçün partiyanın Mərkəzi Komitəsinin Siyasi Bürosuna, Leninə və Stalinə məktublarla müraciət etməyə başladı. N.Nərimanovun son illərə qədər Azərbaycan ictimaiyyətindən gizli saxlanılan "Ucqarlarda inqilabımızın tarixinə dair" adlı məktubunda dəhşətli faktlar göstərilirdi.N.Nərimanov həmin məktubunda göstərirdi ki, Mikoyan, Mirzoyan, Sarkis, Orconikidze kimi üzdəniraq partiya xadimlərinin yeritdiyi siyasət nəticəsində azərbaycanlı kadrlar dövlət idarələrində qulluğa yaxın buraxılmırlar. Məsələn, 1924-ci ildə Bakı Sovetinin məsul işçilərinin tərkibi təhlil edilərək göstərilir ki, Bakı Sovetinin 500 nəfər üzvündən cəmi 200 nəfəri azərbaycanlıdır, Rəyasət Heyətində isə 10 nəfərdən 2-si, işlər idarəsində 26 nəfərdən 4-ü, kommunal-təsərrüfat idarəsində 450 nəfərdən 20-si, su təchizatı şöbəsində 10 nəfərdən 1-i, səhiyyə şöbəsində 40 nəfərdən 2-si azərbaycanlıdır. Statistika şöbəsində bir nəfər də olsa azərbaycanlı yox idi, xalq təhsili şöbəsində 60 nəfərdən yalnız 7-si azərbaycanlı idi.

***1923-1932-ci illərdə Azərbaycan Kommunist Partiyasının rəhbərliyində heç vaxt birinci şəxsin azərbaycanlı olmaması və Kirov kimi adamların respublikaya rəhbərlik etməsi nəticəsində milli kadrların sıxışdırılması davam edirdi.*** Rəhbər partiya orqanlarında azərbaycanlılar azlıq təşkil edirdilər. Bura Moskva tərəfindən Q.K.Orconikidze, S.M.Kirov, Q.N.Kaminski, N.N.Kolesnikova, Y.L.Stasova göndərilmişdilər. Q.N.Kaminskidən sonra təxminən 5 il AK(b)P MK-nın birinci katibi S.M.Kirov olmuş, 1926-cı ildə birinci katib vəzifəsinin icrası Ə.H.Qarayev, H.A.Ağaverdiyev və L.Mirzoyandan ibarət katibliyə həvalə edilmişdir. 1929-cu ildən 1934-cü ilədək olan qısa bir dövrdə M.C.Bağırov birinci katib təsdiq edilənə qədər üç birinci ka-

tib - N.Gikalo, V.Polonski və Ruben (Rubenov) Moskva tərəfindən təyin edilmişdilər. N.Nərimanov sovet hakimiyyətinin ilk illərində mövcud olan partiya rəhbərliyinin əslində çarın müstəmləkəçilik siyasətindən fərqlənməyən siyasətinə öz məktublarında qəti etiraz etsə də bunun heç bir təsiri olmurdu.

Təəssüflə qeyd etmək lazımdır ki, azərbaycanda sonrakı otuzuncu illərdə də demək olar ki, bu siyasət davam etdirilir, xüsusilə millətçilik, pantürkizm, musavatçılıq və sair adlar altında repressiyaya məruz qalanlar içərisində azərbaycanlı milli kadrlar çoxluq təşkil edirdi. Azərbaycan tarixində otuz yeddinci il faciəsi ilə yadda qalan bu dövrdə bir çox partiya və sovet işçiləri məhv edilmiş, bu repressiyanın ən böyük zərbəsi isə ziyalılarımıza dəymişdi. Otuzuncu illərdə Azərbaycanda məhv edilən 300 mindən çox adamın əksəriyyəti ziyalılar idi. Azərbaycan K(b)P MK-nın 1937-ci il 5 noyabr tarixli büro iclasında 279 nəfərin partiya sıralarından çıxarılması təsdiq edilmiş və bunların əksəriyyəti güllələnmişdi. Həmin dövrdə 20 xalq komissarı və komissar müavini, 52 rayon partiya komitəsi katibi, 34 rayon icraiyyə komitəsi sədri, 8 professor güllələnmiş və ya sürgün edilmişdi. Otuzuncu illərin ortalarında Azərbaycandakı rəhbər vəzifələrdə ermənilərin geniş təmsil olunması o zamankı respublika rəhbərliyinin bağışlanılmaz səhvlərindən idi. Məsələn, 51 rayonun 38-də daxili işlər şöbələrinin rəisləri erməni idi. Ümumiyyətlə, Daxili İşlər Komissarlığındakı müstəntiqlərin 80 faizi erməni idi. Əfsuslar olsun ki, Moskvanın təsiri ilə bu vəziyyət sonralar da davam etmişdi.

Azərbaycanda sovet hakimiyyətinin qurulmasının ilk illərində Azərbaycanın müstəqillik atributlarından bəziləri hələ formal şəkildə mövcud idi. Lakin qısa müddətdən sonra Azərbaycan Respublikasının ordu quruculuğu sahəsində və beynəlxalq münasibətlərdə səlahiyyətləri tamamilə məhdudlaşdırılaraq bu səlahiyyətlərin hamısı mərkəzi hakimiyyətə verilmişdi.

***Sovet hakimiyyətinin elan edildiyi 1920-cu il aprelin 28-də Müvəqqəti İnqilab Komitəsi yeni hökumətin - Azərbaycan SSR***





***Xalq Komisarları Sovetinin aşağıdakı tərkibini təsdiq etmişdi.*** Nəriman Nərimanov - XKS-nin sədri və xalq xarici işlər komissarı, Çingiz İldırım - xalq hərbi-dəniz işləri komissarı, Həmid Sultanov - xalq daxili işlər komissarı, Əliheydər Qarayev - xalq əmək və ədliyyə komissarı, Qəzənfər Musabəyov - xalq əkinçilik, ticarət, sənaye və ərzaq komissarı, Mirzə Davud Hüseynov - xalq maliyyə komisarı, Dadaş Bünyadzadə - xalq maarif və dövlət nəzarəti komissarı, C.Vəzirov - xalq, poçt, teleqraf və yollar komissarı, A.Əlimov - xalq səhiyyə və himayə komissarı.

Bu Azərbaycan Sovet Hökumətinin ilk kabineti idi. Sonralar onun tərkibi tez-tez dəyişilmiş, bütün komissarların təmsil olunduğu Kiçik Xalq Komissarları Soveti də yaradılmışdı. Tezliklə Azərbaycanın hər yerində sovet hakimiyyəti elan edilərək yerli qəza, məntəqə və kənd inqilab komitələri yaradıldı. Lakin sonradan 1920-ci il sentyabrın 30-da Moskvada RSFSR ilə Azərbaycan SSR arasında bağlanmış müqaviləyə görə əslində Azərbaycanın müstəqilliyindən əsər-əlamət qalmadı. Müqavilə Stalinin, Orconikidzenin və Mikoyanın müdaxiləsi nəticəsində əsl beynəlxalq müqavilə kimi deyil, ona oxşar yarımçıq bir müqavilə idi. Müqavilənin birinci maddəsində göstərilirdi ki, "Azərbaycan və Rusiya öz aralarında sıx hərbi və maliyyə-iqtisadi ittifaq bağlayırlar" və ikinci maddədə göstərilirdi ki, hər iki respublika hərbi orqanlarını, xalq təsərrüfatı, xarici ticarət, təchizat, dəmir-yol və su nəqliyyatı, maliyyə, poçt və teleqraf orqanlarını ən qısa müddətdə birləşdirməlidirlər.

Azərbaycan İnqilab Komitəsi 1920-ci il iyunun 9-da verdiyi dekretlə Xalq Daxili İşlər Komissarlığı yaradaraq göstərirdi ki, Azərbaycan SSR-nin Konstitusiyası işlənib hazırlanana qədər o, respublikanın ali inzibati orqanıdır və Azərbaycan İnqilab Komitəsi ölkənin inzibati idarəçiliyini onun vasitəsi ilə həyata keçirir. Komissarın vəzifələri yerlərdə hakimiyyətin təşkili, ölkənin bütün idarəetmə aparatının mərkəzləşdirilməsi, bütün yerli idarəetmə orqanlarına inzibati nəzarət edilməsindən ibarət idi. Respublikanın həm qəza, həm də bütün yerli icraiyyə komitələri və in-

qilab komitələri inzibati idarəçilik baxımından Xalq Daxili İşlər Komissarlığına tabe idilər. Eyni vaxtda əksinqilab, sabotaj və möhtəkirliyiə qarşı mübarizə üzrə Fövqəladə Komissiya təşkil edilmiş və Ali İnqilabi Tribunal yaradılmışdı. Dövlət təşkilatlarının və ictimai təşkilatların fəaliyyətinə nəzarət etmək üçün Fəhlə-Kəndli Müfəttişliyi təsis edilmişdi.

***1921-ci ilin yanvarında respublikada mövcud olan bütün təsərrüfat orqanlarının fəaliyyətini birləşdirən və ölkədə təsərrüfat quruculuğuna rəhbərlik edən Ali İqtisadi Şura yaradıldı.*** Bu Şuranın sədri Mirzə Davud Hüseynov idi. Lakin bu Şura RSFSR-in müvafiq komissarlıqlarından asılı idi. Azərbaycanda yeni iqtisadi siyasət dövründə Xalq Təsərrüfatı Şurasının səlahiyyətləri məhdudlaşdırılmaqda davam edirdi. Mərkəzi hökumət Azərbaycanın suveren maraqlarını nəzərə almadan neft işini tamamilə öz əlində cəmləşdirmişdi, "Azərneft" Azərbaycan XTŞ-nin tərkibindən çıxarılıb RSFSR XTŞ-yə verilmişdi. Azərbaycan XKS-nin tabeliyində qalan sahələr azaldılmışdı. Bu illərdə XTŞ-nin aparatı xeyli ixtisar edilmiş, kollegiyalar, şöbələr ləğv edilmiş, vahid rəhbərlik tətbiq edilmiş, qulluqçular azaldılmış, XTŞ trestlər arasında əlaqələndirici orqana çevrilmişdi. 1921-ci ildə Azərbaycan Ali İqtisadi Şurası yaradıldı. Bu şura respublikanın vahid təsərrüfat planını mütləq RSFSR planı ilə uyğunlaşdırmalı idi. N.Nərimanov mərkəzin Azərbaycanda yeritdiyi iqtisadi siyasətə mane olduğu üçün 1922-ci ilin axırında SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri seçilməsi bəhanəsi ilə Azərbaycandan uzaqlaşdırıldı.

İyirminci illərin hakimiyyət orqanlarına nəzər saldıqda bu dövrdə inqilab komitələrindən başqa yerlərdə yaradılmış yoxsul komitələri də geniş fəaliyyət göstərirdi. 1921-ci ilin fevralında Bakıda yoxsul komitələrinin birinci Ümumazərbaycan qurultayı keçirilmiş və bu qurultay Ümumazərbaycan Sovetlər qurultayı üçün hazırlıq olmuşdu. Bundan sonra 1921-ci ilin aprelin ortalarında qəzalarda sovetlərə seçkilər keçirilərək sovet orqanları formalaşmağa başladı. 1921-ci il aprelin sonundan mayın əvvəlinədək Azərbaycanda 30 minə qədər deputatı olan təxminən 1400 kənd soveti seçilmişdi.

Birinci Ümumazərbaycan sovetlər qurultayı 1921-ci il mayın 19-da Azərbaycan SSR-nin ilk Konstitusiyasını təsdiq etdi. Bu Konstitusiyanın başlıca, prinsipial müddəaları RSFSR-in birinci Konstitusiyasının əslində təkrarından ibarət idi. Konstitusiya təsdiq edildikdən sonra onun tələbinə uyğun olaraq Azərbaycan İnqilab Komitəsi ləğv edildi, qurultay sovetlərin qurultayları arasındakı dövrdə respublikanın ali qanunvericilik orqanı olan Azərbaycan Mərkəzi İcraiyyə Komitəsini seçdi. Azərbaycan MİK-i 73 üzvdən və 26 üzvlüyə namizəddən ibarət idi. Bunlardan 51-i azərbaycanlı, 14-ü rus, 3-ü erməni, 2-si gürcü, 1 nəfəri yəhudi idi. MİK-in mayın 21-də keçirilən birinci sessiyasında 9 üzvdən və 3 nəfər namizəddən ibarət Rəyasət Heyəti seçildi və Azərbaycan kəndlilərinin nümayəndəsi olan M.H.Hacıyev Azərbaycan MİK-in sədri seçildi. Həmin sessiyada təsdiq edilən Azərbaycan SSR Xalq Komissarları Sovetinin tərkibinə 17 xalq komissarı daxil idi və N.Nərimanov Azərbaycan XKS sədri seçilmişdi.

Tarixdən bizə məlum olduğu kimi, Azərbaycan Sovet Sosialist Respublikasının mövcudluğu çox davam etmədi, 1922-ci ildə Zaqafqaziya Federasiyasının tərkibinə, 1924-cü ildə isə SSRİ-nin tərkibinə daxil oldu. Lakin formal da olsa müstəqilliyini saxlayan Azərbaycan SSR-in sovet hakimiyyəti illərində istər iqtisadi, istərsə də siyasi və mədəni sahələrdə bir sıra uğurları olmuş və tədricən milli kadrlar formalaşmağa başlamış, dövlət idarələrində onlar geniş təmsil olunmağa başlamışlar.

***1920-1930-cu illərdə SSRİ-nin hər yerində olduğu kimi Azərbaycanda da rəhbərliyin inzibati-amirlik metodları bərqərar olurdu. Bu dövrdə kütləvi kollektivləşmə həyata keçirilmişdi. Azərbaycanda əsas hakimiyyət partiya təşkilatlarının əlində cəmləşsə də sovetlərin də rolunu artırmağa çalışırdılar. Lakin ixtisaslı kadrların çatışmaması üzündən sovetlər çətinliklərlə rastlaşırdı. 1925-ci ilin əvvəllərində sovetlərin aşağı orqanlarına yeni seçilmiş üzvlərin 36843 nəfəri və ya 75 faizi savadsız***

***idi. Bunun üçün həmin dövrdə bütün dairə icraiyyə komitələrində qısamüddətli kurslar təşkil edilmişdi.*** Sovet orqanlarının təmizlənməsi adı altında 1928-ci ildə sovetlərdən 3 min nəfərdən çox işçi xaric edilmişdi. 1929-cu ildə keçirilən seçkilərdə sovetlərə 45568 deputat seçilmişdi. 1929-cu ildə aparılan yeni inzibati ərazi bölgüsü üzrə Azərbaycanda 15 qəza əvəzinə 8 mahal (Naxçıvan MSSR və DQMV-dən başqa) təşkil olunmuşdu. Dairələrin sayı 128-dən 62-yə endirilmişdi, kənd sovetlərinin sayı 190 olmuşdu. 1932-ci ildə isə dairələr də ləğv edilərək 47 rayon yaradıldı. Dairələrdən azad edilmiş işçilər yerli sovetlərdə işləməyə göndərilirdi. 1930-cu illərin əvvəllərinədək Azərbaycanda bir sıra ali məktəblər yaradılmış, yeni ziyalıların və müxtəlif ixtisaslı kadrların hazırlanması sahəsində xeyli iş görülmüşdü. 1932-ci ilin sonunda xalq təsərrüfatının müxtəlif sahələrində 50 min nəfərədək ali təhsilli mütəxəssis çalışırdı. 1930-cu illərdə ölkədə bütün sahələrdə əsas aparıcı qüvvə sayılan partiyanın tərkibində azərbaycanlıların sayı əvvəlki illərə nisbətən artsa da yenə də azlıq təşkil edirdi. Məsələn, 1934-cü ildə Bakının 9 rayon partiya komitəsinin birinci katiblərinin yalnız 3-ü, Azərneftin 9 mədən müdirindən isə cəmi 2 nəfəri azərbaycanlı idi. Bu dövrdə partiyada aparılan təmizləmə prosesində ən çox (6649 nəfər) azərbaycanlı kommunist partiyadan xaric olunmuşdu. 1933-cü il yanvarın 1-dən 1938-ci il yanvarın 1-dək Azərbaycan kommunistlərinin sayı 28349 nəfər, yaxud 38,5 faiz azalmışdı. Partiyadan xaric edilənlərin 13975 nəfəri və ya 45,8 faizi azərbaycanlılar idi. 1930-cu illərin ikinci yarısında respublikanın partiya və güc orqanlarında ermənilərin cəmləşməsi keçirilən repressiyaların nəticələrinə də öz təsirini göstərirdi.

1936-cı ildə qəbul edilmiş Stalin Konstitusiyasından sonra SSRİ-də əsl totalitar rejim yaradılmış, xüsusilə milli respublikaların hüquqları xeyli məhdudlaşdırılmışdı. AK(b)P-nin 1937-ci il iyulunda keçirilmiş 13-cü qurultayından sonra repressiya tədbirlərinin şiddətlənməsi nəticəsində bir çox partiya və dövlət xadimləri, görkəmli mədəniyyət və elm nümayəndələri məhv edil-





mişdi. Təkcə 1937-ci ildə Azərbaycanda xalq düşməni adı ilə 29 min nəfər güllələnmiş və ya sürgün edilmişdi. Xəzər Gəmiçiliyi idarəsindən 200 rəhbər işçi, 19 gəmi kapitanı repressiya edilmişdi. Bu illərdə 300 nəfərdən artıq rəhbər partiya və sovet işçisi, o cümlədən 32 raykom katibi, 28 rayon icraiyyə komitəsi sədri, 18 xalq komissarı və onların müavinləri, Qızıl Ordu və Hərbi Dəniz Donanmasının 88 komandiri və siyasi işçisi həbs olunmuşdu.

Böyük Vətən müharibəsi illərində bütün ölkədə olduğu kimi Azərbaycanda da kütləvi səfərbərlik başlamış və o dövrdə Azərbaycanın dövlət idarələrində çalışan şəxslərin əksəriyyəti müharibəyə səfərbər edilmişdi və dövlət idarələrinin əsas funksiyaları cəbhənin tələbatının ödənilməsinə, xüsusilə neft sənayesinin sürətli inkişafına diqqət yetirməkdən ibarət idi. Müharibə illərində Azərbaycandan bir çox hərbi xadimlər özünün yüksək təşkilatçılıq qabiliyyəti ilə seçilmişdilər.

Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov belə sərkərdələrdən biri idi. 1941-ci ildə Azərbaycanda 87 batalyon təşkil edilmiş, ümumiyyətlə müharibə dövründə respublikadan 600 min nəfər döyüşçü çağırılmış, onların yarısından çoxu həlak olmuşdur. Azərbaycanda hərbi kadrlar hazırlığına əvvəllər zəif diqqət yetirilməsinə baxmayaraq, azərbaycanlılardan ibarət bir neçə diviziyada rəhbər vəzifələrdə çalışan azərbaycanlılar yüksək qəhrəmanlıq və təşkilatçılıq nümunəsi göstərmişdilər.

Bu dövrdə arxa cəbhədə, xüsusilə neft sənayesində çalışan kadrların fədakarlığı və yüksək işgüzarlığı, bütün çətinliklərə dözərək sovet ordusunu yanacaqla tam təmin etməsi təəssüf ki, indiyədək layiqincə qiymətləndirilməmiş, neft Bakısı keçmiş SSRİ-nin qəhrəman şəhərləri sırasına daxil edilməmişdi. 1942-ci ilin yanvarında sovet qoşunlarının Şimali İrana, daha doğrusu, Cənubi Azərbaycana daxil olması ilə orada demokratik Azərbaycan Respublikası yaradılmış, burada dövlət orqanlarının formalaşmasında Şimali Azərbaycandan getmiş kadrlar böyük kömək göstərmiş və bu respublikanın mövcud olduğu qısa bir dövrdə

ciddi işlər görülmüşdü. Müharibə dövründə əsir düşən sovet vətəndaşları, o cümlədən azərbaycanlılar Stalinin əmri ilə vətən xaini adlandırıldığına görə onların çoxusu vətənə qayıtmamış və müharibədən sonrakı bərpa və quruculuq işlərində, o cümlədən dövlət qulluğunda çalışa bilməmişlər.

***Azərbaycanda dövlət idarəçiliyində çalışan milli kadrların artması 50-ci illərdən sonra bir qədər yaxşılaşsa da, hələ də mərkəzin təsiri ilə burada qeyri-azərbaycanlılar rəhbər vəzifələrdə üstünlük təşkil edirdilər. Xüsusilə dövlət təhlükəsizliyi orqanlarının rəhbərliyində və partiyanın Mərkəzi Komitəsinin aparatında bu, daha çox bilinirdi. 1932-ci ilədək azərbaycanlı kadrlara Mərkəzi Komitənin birinci katibi vəzifəsi etibar edilmirdisə, sonrakı illərdə sovet dövləti dağılanadək ikinci katib vəzifəsinə mütləq mərkəzin nümayəndəsi olan ruslar təyin olunurdu.***

1940-1967-ci illərin statistika məlumatlarına nəzər saldıqda aydın olur ki, 1940-cı ildə xalq təsərrüfatında çalışan 485,5 min nəfərin 30 mini, 1965-ci ildə müvafiq surətdə 1 milyon 45 min nəfərin 24,1 min nəfəri, 1966-cı ildə 1 milyon 98 min nəfərin 25 min nəfəri, 1967-ci ildə 1 milyon 130 min nəfərin 26,9 min nəfəri dövlət və təsərrüfatı idarəetmə orqanlarının, kooperativ idarəetmə və ictimai təşkilatların orqanlarının aparatlarında çalışırdı. 1970-1971-ci illərdə müvafiq surətdə bu rəqəmlər 1 milyon 300 min nəfərdən 32 min nəfər təşkil edirdi.

İttifaq respublikalarında əhalinin təhsil səviyyəsinin statistik təhlilləri də maraq doğurur. 1939-cu ildə SSRİ-də əhalinin hər min nəfərinə 10 yaşdan yuxarı olmaq şərti ilə 108 nəfər, 1959-cu ildə 361 nəfər, 1970-ci ildə 473 nəfər, 1979-cu ildə 638 nəfər, 1986-cı ildə 701 nəfər düşürdüsə, Azərbaycanda bu rəqəmlər müvafiq surətdə 113, 400, 471, 652, 741 idi. Xalq təsərrüfatında məşğul olan hər min nəfərdən isə ali və orta təhsili olanların sayı SSRİ üzrə 1939-cu ildə 123, 1959-cu ildə 433, 1970-ci ildə 655, 1979-cu ildə 805, 1986-cı ildə 883 nəfər idisə, Azərbaycan üzrə bu göstəricilər müvafiq surətdə 122, 473, 674,





832, 897 idi. Təəssüf ki, hər iki göstərici üzrə Azərbaycan Zaqafqaziyanın digər iki respublikasından - Gürcüstan və Ermənistandan geri qalırdı.

***1969-cu ildə cənab Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin rəhbərliyinə gəldikdən sonra bu sahədə ciddi işlər görülmüş, Azərbaycanda bir sıra yeni ali məktəblər açılmış, 1970-ci illərdə 3500-dən çox azərbaycanlı gənc keçmiş SSRİ-nin 170-dən çox aparıcı ali məktəblərinə təhsil almağa göndərilmiş, respublikada hərbi kadrların yetişdirilməsi üçün C.Naxçıvanski adına hərbiləşdirilmiş məktəb açılmışdı.***

***Dövlət idarəetmə orqanlarının, kooperativ və ictimai təşkilatların idarəetmə orqanlarının aparatında, kreditləşmə və dövlət sığortasında 1960-ci ildə xalq təsərrüfatında işləyən əhalinin 2,1, 1965-ci ildə 2,3, 1970-1981-ci illərdə 2,5 faizi çalışırdı.***

Ümumiyyətlə, sovet dövründə partiya və sovet orqanlarında rəhbər vəzifələrdə işləyən qulluqçuların bir çoxu SSRİ Ali Sovetində və Azərbaycan SSR Ali Sovetində deputat kimi təmsil olunurdular. 1984-cü ildə SSRİ Ali Sovetinə keçirilmiş seçkilərdə Azərbaycandan 63 deputat təmsil olunmuşdu. 1985-ci ildə keçirilən seçkilərdə Azərbaycan SSR Ali Sovetinə 450, Naxçıvan MSSR Ali Sovetinə 110, vilayət, rayon, şəhər, qəsəbə və kənd sovetlərinə 51479 deputat seçilmişdi. Azərbaycan SSR Ali Sovetinin 450 deputatının 65-i və yaxud 14,4 faizi sovet orqanlarının işçiləri, 92-si və ya 20,4 faizi partiya orqanlarının işçiləri, 4-ü və ya 0,9 faizi həmkarlar ittifaqları və komsomol orqanlarının işçiləri, 25-i və ya 5,6 faizi xalq təsərrüfatının bütün sahələrinin müəssisə rəhbərləri və mütəxəssisləri idi.

***Xalq təsərrüfatında çalışan qulluqçuların sayı 1922-ci ildə 39 min, 1940-cı ildə 161 min, 1960-cı ildə 243 min, 1965-ci ildə 331 min, 1970-ci ildə 417 min, 1975-ci ildə 482 min, 1980-ci ildə 568 min, 1981-ci ildə isə 590 min nəfər olmuşdur.***

1960-ci ildən başlayaraq fəhlə və qulluqçuların orta əmək haqqı mütəmadi artmış, o cümlədən dövlət və təsərrüfat orqan-

larının, kooperativ idarəetmə və ictimai təşkilatların orqanlarının aparatlarında çalışan işçilərin əmək haqqı 1960-cı ildə 79,2 rubl olmuşdusa, 1981-ci ildə 138 rubla çatmışdı. Lakin bu, xarici ölkələrlə müqayisədə hələ çox aşağı idi. 1980-1981-ci illərdə bu sahədə çalışan işçilərin əmək haqqı bütövlükdə xalq təsərrüfatında olan orta göstəricidən aşağı idi.

1990-1998-ci illərdə respublikada cəmi iqtisadiyyatda məşğul olanlardan bilavasitə idaretmə orqanlarının aparatlarında çalışanların sayı əvvəlki dövrə nisbətən xeyli azalmışdır. 1990-cı ildə iqtisadiyyatda cəmi məşğul olan 3 milyon 703,4 min nəfərdən 51 mini, 1995-ci ildə 3 milyon 613 min nəfərdən 66,6 min nəfəri, 1998-ci ildə 3 milyon 701,5 min nəfərdən 65,3 min nəfəri idarəetmə orqanlarının aparatlarında çalışmışdır. İdarəetmə orqanlarında çalışanların sayı orta hesabla 1990-cı ildə 1,4 faiz, sonrakı illərdə isə 1,8 faiz olmuşdur. İqtisadiyyatda gedən dəyişikliklərlə əlaqədar sahələr üzrə muzdla işləyənlərin, dövlət və təsərrüfat idarəetmə orqanlarının, kooperativ və ictimai təşkilatların orqanlarının aparatlarında işləyənlərin sayı isə 1993-cü ildə 33,8 min nəfər, 1995-ci ildə 38,4 min nəfər, 1998-ci ildə 39,8 min nəfər olmuşdur. Bu aparatlarda işləyən işçilərin orta aylıq nominal əmək haqqı 1990-cı ildə 25,9 manat, 1995-ci ildə 57514,8 manat, 1998-ci ildə 165050,8 manat olmuşdur. 2000-ci ildə orta aylıq nominal əmək haqqı ölkə iqtisadiyyatı üzrə 221606 manat, o cümlədən dövlət sektorunda 192413,5 manat, qeyri-dövlət sektorunda 418685,4 manat olmuşdusa, dövlət idarəetməsi və müdafiə, məcburi sosial təminat üzrə fəaliyyətdə 194527,5 manat, 2001-ci ildə 223405,7 manat, 2002-ci və 2003-cü illərdə 353,5 min manat olmuşdur.

Dövlət büdcəsində ayrılan xərclər üzrə dövlət hakimiyyəti və idarəetmə orqanlarının saxlanması xərcləri 1990-cı ildə 7,3 milyard manat, 1995-ci ildə 61,9 milyard manat, 1998-ci ildə 139,4 milyard manat, 2001-ci ildə 241,3 milyard manat, 2002-ci ildə 343,6 milyard manat olmuşdur. 2003-cü il büdcəsində bu xərclər 414,2 milyard manat nəzərdə tutulmuşdur.





Azərbaycanda dövlət qulluğunun müstəqillikdən əvvəlki dövrünün təhlili göstərir ki, bu sahədə müəyyən ənənələr və praktika formalaşmışdı. Lakin bu formalaşmış partiya və sovet nomenklaturu 1988-ci ildən sonra məlum Qarabağ hadisələri ilə əlaqədar başlanan xaos və hərc-mərclik dövründə yaranmış yeni tarixi şəraitdə özünü doğrulda bilmədi. Hadisələrin inkişafı respublikada Mixail Qorbaçovun təyin etdiyi rəhbərliyin bacarıqsızlığı və zəifliyi ucbatından bir növ nəzarətdən çıxaraq idarəolunmaz şəkil aldı. 1990-cı ilin yanvar hadisələri, ondan sonra baş vermiş faciəli hadisələr - Azərbaycan kəndlərinin və şəhərlərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi, Vəzirov və Mütəllibov rejimlərinin tutduqları xəyanətkar mövqe nəticəsində Azərbaycanda idarəetmə sistemi iflic vəziyyətinə düşərək xalqın etimadını tamamilə itirdi. Xalq kütlələrinin təzyiqi nəticəsində hakimiyyətdən getməyə məcbur olan bu qüvvələri 1992-ci ildə əvəz etmiş Azərbaycan Xalq Cəbhəsi də ölkədə uzun illər yaranmış kadr potensialını səfərbər edə bilmədi, xüsusilə xalq təsərrüfatının ən müxtəlif sahələrində çalışan bacarıqlı, səriştəli və peşəkar müxətəssislər "partokrat" adı ilə idarəetmə işindən uzaqlaşdırdı, uzun illər təcrübə toplamış peşəkar işçiləri cəbhəçi "bəylər" əvəz etdi. Meydan və mitinq əhval-ruhiyyəsi ilə dövlət idarələrinə yerləşdirilən bu adamlar ölkənin iqtisadiyyatını daha da bərbad vəziyyətə saldılar, respublikanın yeni-yeni ərazilərinin ermənilər tərəfindən işğal olunmasına şərait yaratdılar, ölkədə dərəbəylik hökm sürməyə başladı.

***Cənab Heydər Əliyev həmin dövrə qiymət verərək 2001-ci ilin dekabrında Azərbaycan xalqına etdiyi müraciətində demişdi: "1991-ci ildə əlverişli şəraitin və taleyin xalqımıza bəxş etdiyi imkandan yaranmış müstəqil dövlətimiz qəsdən, yaxud səriştəsizlikdən yaranan iradəsizlik nəticəsində real itirilmək təhlükəsi ilə üz-üzə qalmışdı. Beləliklə, 1991-1993-cü illər Azərbaycanın müstəqillik tarixində nəinki itirilmiş illər hesab olunur, həm də bu illərdə Azərbaycan "olum, ya ölüm" dilemması qarşısında qalmışdı".***

## Azərbaycanda dövlət qulluğunun yeni mərhələsi

Azərbaycanda dövlət müstəqilliyi əldə edildikdən sonra demokratik, hüquqi dövlət quruculuğu sahəsində görülən işlərdən biri də müvafiq dövlət hakimiyyəti orqanlarının strukturunun təkmilləşdirilməsi və dövlət qulluğunun hüquqi bazasının yaradılması olmuşdur.

***Azərbaycan Respublikasının müstəqillik illərində əldə etdiyi ən böyük nailiyyətlər 1993-cü ildə cənab Heydər Əliyevin xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra əldə edilmişdir.*** Bu dövrdə ölkəni bürüyən xaos, hərc-mərclik və dərəbəylik aradan qaldırılmış, atəşkəs əldə edildikdən sonra saysız-hesabsız qanunsuz silahlı dəstələr ləğv edilmiş, hüquqi, demokratik, sivil dövlətin qanunvericilik bazası yaradılmış, ölkə iqtisadiyyatı yeni münasibətlər əsasında dirçəldilmiş, ən başlıcası, müstəqil dövlətimizdə insan hüquq və azadlıqlarını əsas meyara çevirən yeni Konstitusiya qəbul edilmişdir.

***Yeni iqtisadi münasibətlərin formalaşması dövlət idarəetmə istemində də köklü islahatlar aparılmasını tələb etdiyindən respublika Prezidentinin 1998-ci il 29 dekabr tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Dövlət idarəçilik sistemində islahatlar aparılması üzrə Dövlət Komissiyası yaradılmışdır. Fərmanda göstərilmişdir ki, demokratikləşmə və bazar münasibətləri sahəsində islahatlar dövlət idarəçiliyinin səmərəliliyini artırmalı, iqtisadi fəaliyyət üçün beynəlxalq standartlara cavab verən hüquqi baza yaradılmasını təmin etməlidir.***

Bu fərmandan sonra aparılan islahatlar nəticəsində bir çox dövlət konserni və şirkəti, nazirlik, komitə və digər strukturlar, xüsusilə bir-birini təkrarlayan paralel strukturlar ləğv olunmuş, yeni yaradılan mərkəzi icra orqanlarının səlahiyyətləri dəqiqləşdirilmişdir. 1998-ci ildən sonra respublika Prezidenti ölkədə idarəçilik sisteminin təkmilləşdirilməsi və mərkəzi icra orqanlarında struktur dəyişikliklərinin aparılması barədə 31-dən çox fərman və 20-dən çox sərəncam vermişdir. Təkcə 2001-ci ildə 21 nazirlik və idarə ləğv edilmiş, 7 nazirlik və idarə yenidən yaradılmışdır. Hazırda Azərbaycanda ali icra hakimiyyəti orqanı funksiyasını Prezident və onun İcra Aparatı, yuxarı icra hakimiyyəti orqanı funksiyasını Prezident tərəfindən təsdiq edilən Nazirlər Kabineti, mərkəzi icra hakimiyyəti orqanları funksiyasını isə 18 nazirlik, 13 dövlət komitəsi həyata keçirir. Bundan başqa respublikada bilavasitə idarəetmə və məhkəmə hakimiyyəti funksiyalarını 5 dövlət şirkəti, 2 konsern, 12 səhmdar cəmiyyəti, 3 birlik, 7 agentlik, 3 fond, 2 dövlət komissiyası, 3 palata, 7 ali və yuxarı instansiya məhkəməsi və bir neçə mərkəzi idarə və xidmət həyata keçirir. Respublikanın şəhər və rayonlarında isə icra hakimiyyəti funksiyalarını Prezidentin təyin etdiyi icra başçılarının aparatları həyata keçirirlər.

Aparılmış islahatlar nəticəsində həmin strukturlarda işləyən qulluqçuların sayı xeyli azaldılmışdır. Məsələn, 2003-cü il fevralın 1-nə olan məlumata görə, Azərbaycanda işqabiliyyətli əhalinin sayı 3781,1 min, yaxud 46,8 faiz təşkil edir, bundan 3730,0 min nəfər müxtəlif sahələrdə, o cümlədən 24 min nəfər bilavasitə dövlət qulluğunda çalışır. Bunlardan, 1688 nəfəri bilavasitə məhkəmə hakimiyyəti orqanlarında çalışır. Bu göstəricilər 2004-cü il üçün hələlik dəyişməz qalır.

2002-ci ilin dövlət büdcəsində mərkəzi icra hakimiyyəti orqanlarının (hüquq mühafizə orqanları istisna olmaqla) saxlanması xərcləri 6,7 faiz, o cümlədən yerli icra hakimiyyəti orqanlarının saxlanması xərcləri 1,8 faiz təşkil etmişdir. 2003-cü ildə isə bu göstərici müvafiq surətdə 6,45 faiz və 1,6 faiz təşkil etmişdir. Əhalinin hər min nəfərinə düşən qulluqçuların sayı son illərdə xeyli azaldılsa da hələ bir qədər çox olaraq qalır. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, 1998-ci ilin əldə olan məlumatlarına görə, Yaponiyada əhalinin hər min nəfərinə 36 nəfər, Böyük Britaniyada 76 nəfər, Fransada 87 nəfər, ABŞ-da 67 nəfər, Almaniya Federativ Respublikasında 59 nəfər dövlət qulluqçusu düşürdü.

Rusiya Dövlət Statistika Komitəsinin məlumatına görə, 2000-ci ilin sonunda dövlət hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanları işçilərinin sayı 1 milyon 163,3 min nəfər olmuş, yəni 1,8 dəfə artmışdır. Bu artım da əsasən regional və bələdiyyə hakimiyyət orqanlarının hesabına olmuşdur. 2000-ci ilin sonunda federal nazirliklərin və baş idarələrin işçilərinin sayı 404,7 min nəfər, yəni 1995-ci ildəkinə nisbətən 3 faiz az olmuşdur. Eyni zamanda bu dövrdə regional və bələdiyyə məmurlarının sayı 18 faiz artmışdır. Əhalinin hər min nəfərinə görə federal məmurların sayı 2000-ci ildə cəmi 2,8 nəfər, işləyən 1000 nəfər əhali üzrə 6,4 nəfər olmuşdur ki, bu da ABŞ-ın və İngiltərənin eyni göstəricilərindən çox aşağıdır.

***Azərbaycan xalqının ümummilli lideri cənab Heydər Əliyevin bilavasitə rəhbərliyi altında hazırlanıb ümumxalq səsverməsi ilə qəbul edilmiş yeni Konstitusiyadan sonra respublikanın, demək olar ki, bütün normativ hüquqi aktları yenidən qəbul edilmişdir. Bunlardan biri də "Dövlət qulluğu haqqında" 2000-ci il 21 iyul tarixli Azərbaycan Respublikası Qanunudur.***

Bu qanunda Azərbaycanın dövlətçiliyi tarixində ilk dəfə olaraq konkret surətdə bilavasitə dövlət qulluğu və dövlət qulluqçusu məfhumlarının nədən ibarət olduğu açılıb göstərilmiş və dövlət qulluqçusunun hüquq və vəzifələri qanunvericilik yolu ilə təsbit edilmişdir. Yeni qanunun bütün cəhətləri üzərində geniş dayanmağın çox vaxt aparacağını nəzərə alaraq burada əksini tapmış bəzi əsas müddəaları şərh etməyi vacib hesab edirik.

***Bu qanun qəbul edildikdən sonra ona 2001-ci il 13 fevral, 2002-ci il 2 iyul və 2002-ci il 3 dekabr tarixli qanunlarla müxtəlif dəyişikliklər edilmiş, onun əsas müddəalarından irəli gələn bir çox normativ aktlar təsdiq olunmuş, bütövlükdə dövlət qulluğu ilə əlaqədar 11 qanun, 21 fərman verilmişdir. Qanuna əsas dəyişikliklər 2002-ci il 2 iyul tarixli qanunla edilmişdir.***

Cəmi 6 fəsildən və 35 maddədən ibarət olan "Dövlət qulluğu haqqında" Qanunda göstərilir ki, qanun dövlət qulluğu sahəsində dövlətlə dövlət qulluqçuları arasında yaranan münasibətləri və dövlət qulluqçularının hüquqi vəziyyəti ilə bağlı məsələləri tənzimləyir. Qanun icra hakimiyyəti orqanlarında, qanunvericilik və məhkəmə hakimiyyəti orqanlarının aparatlarında dövlət qulluğu keçən qulluqçulara şamil edilir. Qanunda dövlət qulluğunu idarəetmə orqanlarının, dövlət qulluğunun əsas vəzifələrinin və prinsiplərinin nədən ibarət olduğu, dövlət orqanının qanunvericilik aktları ilə müəyyən edilmiş hüdudlarda Azərbaycan Respublikasının məqsəd və funksiyalarını həyata keçirən, qanunvericiliyə uyğun olaraq yaradılmış dövlət qulluqçularının qurumu olduğu göstərilir.





Qanunda dövlət orqanlarının təsnifatı verilir və onlar öz səlahiyyətlərinə görə yeddi kateqoriyaya bölünür, Konstitusiya və Konstitusiya qanunları ilə verilmiş səlahiyyətlərə uyğun olaraq onların hansı kateqoriyaya aid olduğu göstərilir. 1-ci kateqoriya dövlət orqanlarına ali dövlət orqanları - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı və Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin həyata keçirilməsini bilavasitə təmin edən digər orqanlar, Milli Məclisin, Konstitusiya Məhkəməsinin və Ali Məhkəmənin aparatı, 2-ci kateqoriya dövlət orqanlarına yuxarı dövlət orqanı olan Nazirlər Kabineti və Naxçıvan MR-in ali dövlət orqanı - Ali Məclisin aparatları, 3-cü kateqoriya dövlət orqanlarına İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) aparatı, apellyasiya məhkəmələrinin aparatları, Naxçıvan MR Nazirlər Kabinetinin, Naxçıvan MR Ali Məhkəməsinin aparatı, 4-cü kateqoriya dövlət orqanlarına Mərkəzi Seçki Komissiyasının aparatı, Hesablama Palatasının, İqtisad Məhkəməsinin, Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin, Ağır Cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikası Hərbi Məhkəməsinin, Beynəlxalq Müqavilələrdən İrəli Gələn Mübahisələrə Dair İqtisad Məhkəməsinin aparatları, 5-ci kateqoriya dövlət orqanlarına Konstitusiyanın 113-cü maddəsində nəzərdə tutulmuş qaydada müəyyən edilən dövlət orqanları - mərkəzi icra hakimiyyəti orqanlarının aparatları, 6-cı kateqoriya döv-

lət orqanlarına Konstitusiyanın 120-ci maddəsində nəzərdə tutulmuş qaydada müəyyən edilən dövlət orqanları - Nazirlər Kabineti yanında və ya onun qərarı ilə yaradılan orqanların aparatları, Naxçıvan MR mərkəzi icra hakimiyyəti orqanlarının aparatları, 7-ci kateqoriyaya isə Konstitusiyanın 113-cü və 124-cü maddələrində nəzərdə tutulmuş qaydada müəyyən edilən dövlət orqanları - yerli icra hakimiyyəti orqanlarının aparatları, mərkəzi icra hakimiyyəti orqanlarının ikili tabelikdə olan yerli bölmələri və səlahiyyətləri Konstitusiyaya əsasən qanunla müəyyən edilən yerli dövlət orqanları - rayon (şəhər) məhkəmələrinin, hərbi məhkəmələrin və yerli iqtisad məhkəmələrinin aparatları daxildir. Eyni zamanda qanunla bu kateqoriyalara aid edilən dövlət orqanlarının bölmələri öz funksiyalarına görə aparıcı və köməkçi bölmələrə ayrılır.

Qanunda dövlət orqanlarında vəzifələrin təsnifatı verilərək onların inzibati və yardımçı vəzifələrə bölündüyü göstərilir, qeyd olunur ki, siyasi vəzifələr tutan şəxslərin hüquqi statusu başqa qanunvericilik aktları ilə müəyyən olunur və bu qanunun qüvvəsi onlara şamil edilmir. Qanunda nəzərdə tutulmuş siyasi vəzifələrdən başqa həmçinin inzibati vəzifələrin və yardımçı vəzifələrin təsnifatı da verilir.

İnzibati vəzifələrə birinci-yeddinci kateqoriya dövlət orqanları aparatları və bölmələri rəhbərlərinin, onların müavinlərinin, habelə dövlət qulluğunda çalışan mütəxəssislərin vəzifələri daxildir. Birinci-yeddinci kateqoriya dövlət orqanlarının texniki işləri həyata keçirən mütəxəssislərinin (kargüzar, makinaçı, kuryer, arxiv qeydiyyatçısı, liftçi, sürücü və sair işçilərin) vəzifələri isə yardımçı vəzifələr təsnifatına aid edilir.

***İnzibati və yardımçı vəzifələrin təsnifatında göstərilir ki, inzibati vəzifələrin 9 təsnifatı, yardımçı vəzifələrin isə 6 təsnifatı vardır. Qanunda göstərilir ki, inzibati və yardımçı vəzifələrin təsnifat toplusunda vəzifələrin ixtisas dərəcələri, adları, dərəcələr üzrə bölgü və vəzifələrin tutulması şərtləri haqqında məlumatlar verilir. Məhz bu təsnifat toplusu dövlət orqanlarının stat cədvəllərinin yaradılması və dövlət qulluqçularının vəzifə təlimatlarının hazırlanması üçün əsasdır. Qanunda həmçinin göstərilir ki, dövlət qulluqçularına hansı ixtisas dərəcələri verilir və növbəti dərəcənin verilməsi ilə əvvəlki dərəcə arasındakı müddət nə qədər olmalıdır.***





"Dövlət qulluğu haqqında" Qanunda bunlardan başqa dövlət qulluqçusunun əsas vəzifələri, əsas hüquqları, dövlət qulluğu ilə əlaqədar onun üçün qoyulmuş məhdudiyyətlər, dövlət qulluqçusunun təminatları, məvacibi, pensiya təminatı, mükafatlandırılması, məsuliyyəti məsələləri öz əksini tapmışdır. Qanunda dövlət qulluğu keçmə, dövlət qulluğuna qəbul, inzibati vəzifələrin tutulması, dövlət qulluğunun şərtləri, dövlət qulluqçularının attestasiyası, dövlət qulluğunda irəli çəkilmək hüququ və dövlət qulluğuna xitam verilməsi kimi müddəalar əsaslandırılmışdır.

***Yeni qanunla dövlət qulluqçularına bir sıra yeni hüquq və vəzifələr verilməklə və onların sosial müdafiəsi yaxşılaşdırılmaqla yanaşı, onların qarşısında ciddi vəzifələr, məsuliyyət və konkret məhdudiyyətlər də qoyulmuşdur.*** Qanunun 20-ci maddəsində göstərilir ki, dövlət qulluqçusunun dövlət orqanlarında əlavə ödənişli vəzifə tutmaq; elmi və yaradıcılıq fəaliyyəti istisna olmaqla, işlədiyi dövlət orqanı rəhbərinin icazəsi olmadan pedaqoji və başqa ödənişli fəaliyyətlə məşğul olmaq; dövlət orqanının və yerli özünü idarəetmə orqanının işləri üzrə üçüncü şəxslərin vəkili olmaq; istefaya getdikdən, işdən və ya pensiyaya çıxdıqdan sonra qanunvericilikdə müəyyən edilmiş müddət ərzində öz qulluq fəaliyyətinə aid olan və dövlət sirri və ya qanunla mühafizə olunan digər sirr olan məsələlər barədə informasiyadan üçüncü şəxslərin xeyrinə istifadə etmək; işlədiyi dövlət orqanı rəhbərinə bildirmədən xarici ölkənin vəsaiti hesabına ora getmək; qulluq vəzifələrini icra etdiyi dövrdə siyasi partiyaların fəaliyyətində iştirak etmək; tətillərdə və dövlət orqanlarının işini pozan digər hərəkətlərdə iştirak etmək; dini təbliğ etmək üçün dövlət qulluqçusunun statusundan istifadə etmək və dövlət orqanlarının tabeliyindəki obyektlərdə dini mərasimlərin keçiril-

məsinə rəsmi xarakter vermək hüququ yoxdur. Dövlət qulluqçusu bu tələblərə zidd hərəkət etdikdə, xəbədarlıq aldıqdan sonra otuz gün ərzində o, dövlət qulluğuna, yoxsa başqa fəaliyyətə üstünlük verdiyini özü üçün müəyyən edərək gəldiyi qərar barəsində qulluq etdiyi dövlət orqanı rəhbərinə məlumat verməlidir.

Yuxarıda qeyd edildiyi kimi, "Dövlət qulluğu haqqında" Qanunla əlaqədar normativ hüquqi sənədlər paketi genişdir və bu işin bütün aspektlərini əhatə edir. Bu aktlardan "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında" 2001-ci il 22 iyun tarixli, "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" 2002-ci il 29 mart tarixli, "Dövlət qulluqçularının icbari sığortası haqqında" 2002-ci il 30 aprel tarixli, "Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın təyin edilməsi haqqında" 2002-ci il 31 may tarixli, "Dövlət qulluqçularının vəzifə maaşlarına yerli əmsalların müəyyən edilməsi haqqında" 2002-ci il 31 may tarixli Azərbaycan Respublikası qanunlarını və Azərbaycan Respublikası Prezidentinin "Dövlət orqanlarında dövlət qulluğuna qəbul üçün keçirilən test imtahanlarından ötrü test nümunələrinin hazırlanması və qəbul edilməsi qaydalarının təsdiq edilməsi barədə" 2001-ci il 9 avqust tarixli, "Dövlət orqanlarında daimi dövlət qulluğuna qəbula dair Azərbaycan Respublikası adından verilən şəhadətnamənin nümunəsinin təsdiq edilməsi barədə" 2001-ci il 9 avqust tarixli, "3-cü dərəcə dövlət müşaviri və ondan yuxarı ixtisas dərəcələri almış dövlət qulluqçusuna verilən vəsiqənin təsvirinin və nümunəsinin təsdiq edilməsi barədə" 2001-ci il 3 sentyabr tarixli, "Dövlət orqanlarında dövlət qulluğuna müsabiqə vasitəsilə qəbul qaydalarının təsdiq edilməsi barədə" 2001-ci il 3 sentyabr tarixli, "Sınaq müddəti ilə müvafiq dövlət orqanlarında dövlət qulluğuna qəbul üçün əmək müqaviləsinin (kontraktının) nümunəsinin təsdiq edilməsi barədə" 2001-ci il 3 sentyabr tarixli, "Dövlət orqanlarında dövlət qulluğuna qəbul edilən şəxsin dövlət qulluğunda işləməsinin mümkün olub-olmamasının qabaqcadan yoxlanılması qaydalarının təsdiq edilməsi barədə" 2001-ci il 3 sentyabr tarixli, "Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi qaydalarının təsdiq edilməsi barədə" 2001-ci il 3 sentyabr tarixli, "Dövlət orqanlarında dövlət qulluqçuları barəsində tətbiq olunmuş intizam tənbehi tədbirlərindən şikayət verilməsi qaydası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2001-ci il 3 sentyabr tarixli, "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının üzvlərinin təyin edilməsi haqqında" 2001-ci il 1 oktyabr tarixli, "Dövlət orqanlarında dövlət qulluqçusuna vəzifədə qulluq stajına görə əlavə haqqın məbləğlərinin müəyyənləşdirilməsi qaydalarının təsdiq edilməsi barədə" 2002-ci il 28 yanvar tarixli, "İnzibati və yardımçı vəzifələrin Təsnifat Tolusunun təsdiq edilməsi haqqında" 2003-cü il 4 avqust tarixli, "İcra hakimiyyəti orqanlarında onlara həvalə edilmiş funksiyalara görə aparıcı və köməkçi bölmələrin Siyahısı"nın təsdiq edilməsi haqqında" 2003-cü il 22 oktyabr tarixli, "Dövlət qulluqçuları üçün bəzi təminatlar haqqında" 2003-cü il 23 oktyabr tarixli, "Qulluq üçün zəruri olan hallarda aylıq iş vaxtı norması 5 saatdan çox artırılanda işlədiyi hər saata görə dövlət qulluqçusuna ödənilən əlavə haqqın məbləğələrinin müəyyənləşdirilməsi qaydalarının təsdiq edilməsi barədə" 2003-cü il 23 oktyabr tarixli, habelə yuxarıda adları çəkilən qanunların tətbiqi haqqında 2000-ci il 29 dekabr, 2002-ci il 29 may, 5 iyul, 24 avqust, 6 dekabr tarixli fərmanları göstərmək lazımdır.

Bunlardan "Dövlət qulluğu haqqında" Qanunun tətbiqi üçün ən əsas aktlardan biri sayılan "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunun təsdiq edilməsi haqqında" fərmanı xüsusi qeyd etmək lazımdır. Məhz bu toplunun təsdiq edilməsindən sonra respublikanın mərkəzi və yerli icra hakimiyyəti orşanlarında dövlət qulluqçularının yeni vəzifələri təsdiq edilmiş, demək olar ki, bu orqanların əksəriyyətində bövlət qulluqçularına dərəcələr verilmişdir.

***Dövlət qulluğu haqqında qanunvericiliyin yaradılması və***


Azərbaycanda dövlət qulluğunun və idarəetmə sisteminin keçmişi, bu günü və perspektivləri

***təkmilləşdirilməsi sahəsində ümummilli liderimiz cənab Heydər Əliyevin gördüyü misilsiz işlər onun layiqli davamçısı, Azərbaycan Respublikasının yeni prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıl davam etdirilir və bu aktların tam gücü ilə işləməsi üçün real tədbirlər görülür. Dövlət orqanlarında 2003-cü ilin oktyabrından sonra dövlət qulluğunun yenidən təşkili üçün görülən işlər onun bu məsələyə göstərdiyi böyük diqqətin aydın təzahürüdür. "Azərbaycan Respublikasının 2004-cü il dövlət büdcəsi haqqında" cənab İlham Əliyevin imzaladığı qanunda dövlət qulluqçularına əmək stajına və dərəcəyə görə verilən əlavələr, habelə digər güzəştlər üçün müvafiq vəsait nəzərdə tutulmuşdur.***

"Dövlət qulluğu haqqında" Qanunun 24.2-ci maddəsində göstərilir ki, dövlət qulluqçularının xidmətdə peşəkarlıq səviyyəsinin artması, vəzifə borcuna və andına sədaqəti dövlət tərəfindən qiymətləndirilməlidir. Bu məqsədlə həmin maddədə "Vətənə xidmətə görə" ordenindən və "Dövlət qulluğunda fərqlənməyə görə" medalından, habelə digər orden və medallardan, fəxri adlardan istifadə olunmasının mümkünlüyü göstərilir. Prezident cənab İlham Əliyev ötən ilin sonlarında imzaladığı 2003-cü il 7 noyabr tarixli qanunlarla "Vətənə xidmətə görə" ordeninin üç dərəcəsinin statutunu və təsvirini, eləcə də "Dövlət qulluğunda fərqlənməyə görə" medalının əsasnaməsini və təsvirini təsdiq etmişdir. Bundan başqa, onun imzaladığı "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" 2003-cü il 4 noyabr tarixli qanunla Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və dövlət qulluğu ilə əlaqədar digər normativ hüquqi aktlara bir sıra dəyişikliklər edilmişdir.

Bir məsələni ayrıca qeyd etməliyik ki, bütün bu normativ hüquqi aktların hazırlanmasında dünyanın qabaqcıl ölkələrinin təcrübəsindən istifadə olunmuş, bir sıra beynəlxalq təşkilatlarla, o





cümlədən Avropa ittifaqının Dövlət Qulluğu Sahəsində İslahatların Həyata Keçirilməsi üzrə TASİS Layihəsi çərçivəsində əməkdaşlığın böyük köməyi olmuşdur. Bu yaxınlarda həmin layihənin dəstəyi ilə "Dövlət qulluğu məsələlərinə dair normativ hüquqi aktlar" kitabı ilk dəfə kütləvi tirajla çap edilərək respublikanın bütün dövlət və yerli icra hakimiyyəti orqanlarına paylanmışdır.

## Dövlət qulluqçularının bugünkü sosial vəziyyəti və peşə hazırlığı

Dövlət qulluqçularının sosial vəziyyəti bütövlükdə ölkənin iqtisadi inkişaf səviyyəsindən asılı olduğu kimi, cəmiyyətin tərəqqisi və dövlət idarəçiliyinin təkmilləşdirilməsi də dövlət qulluqçularının peşəkarlıq, işgüzarlıq keyfiyyətindən və məsuliyyətindən çox asılıdır.

Dövlət qulluqçularının əksəriyyətinin əsas gəlir mənbəyi əmək haqqıdır. 2002-2003-cü illərdə dövlət hakimiyyəti orqanlarının bütün qolları və səviyyələrində məmurun orta əmək haqqı 353,5 min manat (təqribən 73 dollar), yerli özünüidarəetmə orqanlarında isə 268 min manat (təqribən 55 dollar) olmuşdur.

Ən yüksək əmək haqqı ali və yuxarı qanunvericilik və nəzarət orqanları işçilərində (868 min manat), məhkəmələrin hakimlərində (740 min manat), nazirliklərdə (409 min manat), komitələrdə (321 min manat), digər orqanlarda (419 min manat), diplomatik nümayəndəliklərdə (1319 və 2001 ABŞ dolları) olmuşdur ki, bu da yerli icra hakimiyyəti orqanlarının əmək haqqından bir neçə dəfə yüksəkdir.

2004-cü il büdəsində bu göstəricilər bir qədər artmışdır ki, bu da dövlət qulluqçularının əmək haqqına edilmiş əlavələr və digər güzəştlər üçün nəzərdə tutulmuş vəsait hesabına yaranmışdır.

Bu il orta aylıq əmək haqqı ali və yuxarı dövlət orqanlarında 1 milyon manata yaxın, icra hakimiyyəti orqanlarında 447

min manat, məhkəmə orqanlarında 834 min manat, diplomatik nümayəndəliklərdə 9995 min manat təşkil edəcəkdir.

Buna baxmayaraq, Azərbaycanda orta əmək haqqı fonunda yüksək görünən bu göstərici xüsusi sektorda eyni dərəcəli işçilərin əmək haqqından xeyli azdır və bu da dövlət aparatında olan daha səriştəli məmurların ora axınına səbəb olur. Rusiya Federasiyasında, xüsusilə regional dövlət və bələdiyyə qurumlarında maaşların yüksək olması nəzərə çarpır. Azərbaycanda bu sahədə vəziyyət başqa cürdür. Bələdiyyələr haqqında qanunvericiliyə uyğun olaraq bu qurumlarda çalışanların vəzifə maaşları icra hakimiyyəti orqanlarında çalışan dövlət qulluqçularının vəzifə maaşlarından yüksəyə qalxmır.

Dövlət qulluğunun bugünkü mövcud sistemində qulluqçunun peşə hazırlığı onların işinin keyfiyyətinin qiymətləndirilməsi, ixtisas dərəcələrinin verilməsi, əmək haqqının artırılması və qulluqda irəliləməsi ilə sıx bağlıdır. Ancaq çox vaxt onların hazırlıq dərəcəsi, peşəkarlıq və səriştəlilik səviyyəsi müasir tələblərə cavab vermir. Bəzi dövlət qulluqçularının bir, hətta iki ali təhsil diplomu olsa da, onların peşəkarlıq səviyyəsi hələ ideal səviyyədən çox aşağıdır. Görünür, "Dövlət qulluğu haqqında" Qanunun tələblərinə uyğun olaraq dövlət qulluğunda qalmaq və irəliləmək üçün dövlət orqanlarında keçiriləcək attestasiyalar zamanı beləmləri saf-çürük ediləcək, dövlət qulluğuna yeni qəbul qaydaları isə bu sahəyə daha bacarıqlı kadrların gəlməsinə şərait yaradacaqdır.

Respublika və regional səviyyəli hər iki dövlət qulluqçusundan biri humanitar təhsillidir (iqtisadçı, hüquqşünas), sonrakı yerdə texniki elmlər durur, pedaqoqlar, riyaziyyatçılar, kənd təsərrüfatı mütəxəssisləri də üstünlük təşkil edir. Dövlət və icra hakimiyyəti orqanlarında müasir tələblərə cavab verən əsl peşəkarlar isə heç də çox deyildir. Təbiidir ki, dövlət qulluqçularının belə müxtəlif tərkibli kontingentinin fasiləsiz peşə hazırlığı sisteminin yaradılmasına və ixtisasının artırılmasına həmişə ehtiyac vardır. İnkişaf etmiş ölkələrdə dövlət bu məqsədlər üçün böyük





vəsait sərf edir və bunun bəhrəsini də görür.

Azərbaycanda son illər təhsil sahəsində geniş islahatların həyata keçirilməsi, bu məqsədlə Dünya Bankının və digər beynəlxalq qurumların yardımlarından istifadə edilməsi ilə yanaşı, respublika rəhbərliyinin bu sahəyə qayğısı sayəsində dövlət büdcəsində təhsil xərclərinin ümumi həcmi 20,5 faizi təşkil edir. Eyni zamanda dövlət qulluqçularının peşə hazırlığının yüksəldilməsinə geniş diqqət yetirilir. Bu məqsədlə görülmüş işlər barədə bu məqalədə və respublika mətbuatında dərc olunmuş digər yazılarda kifayət qədər məlumat verilmişdir. Sevindirici haldır ki, ölkəmizdə bu işə diqqət gündən-günə artırılır və gələcəkdə bu sahədə daha ciddi işlər görüləcəkdir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. "Azərbaycan tarixi" (ən qədim zamanlardan XX əsrədək). I cild, Bakı, 1994.
2. "Azərbaycan tarixi". 5-ci cild, Bakı, Elm, 2000
3. "Azərbaycan tarixi". 6-cı cild, (aprel 1920-iyun 1941), Bakı, Elm, 2000.
4. Əbu əli Həsən İbn Əli Xacə Nizamülmülk. "Siyasətnamə". Bakı, Elm, 1987.
5. Xacə Nəsirəddin Tusi. "Əxlaqi-Nasiri". İkinci nəşr, Bakı, Elm, 1989.
6. Həzrət Əmir Əli İbn Əbutalib. "Nəhcül-Bəlağə". Bakı, "Sabah", 1994.
7. İsa Mühəmməd Salih Ər-Reys. "İslam idarəetməsi və şəriətdə ona nəzarət üsulları". Bakı, 1998.
8. "Qabusnamə". Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1989.
9. Ziya Bünyadov. "Azərbaycan Atabəylər dövləti". Bakı, 1978.

10. Ziya Bünyadov. "Azərbaycan VII-IX əsrlərdə, Bakı, 1989.

11. Oqtay Əfəndiyev. "Azərbaycan Səfəvilər dövləti", Bakı, 1993.

12. Марзия Искендерова. "Бакинское ханство". Баку, 1999.

13. Şahin Fazil Fərzəliyev. "Quba tarixi" (1846-cı ilə qədər). Bakı, 2001-ci il.

14. İ.Z.İsmayılov. "Azərbaycanın XX əsrdə dövlətçilik siyasəti məsələləri". Bakı, 1995.

15. İ.Z.İsmayılov. "Azərbaycanda dövlətçilik fikri oçerkləri". Bakı, "Maarif" 1996.

16. Rövşən Mustafayev. "Azərbaycan dövlətçiliyi: özümüzü və dünyanı dərketmə yolunda". Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1995.

17. Qarabağnamələr. İkinci kitab, Bakı, Yazıçı, 1991.

18. Nəriman Nərimanov. "Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stalinə məktub)". Bakı, 1992.

19. Azərbaycan XX əsrdə. Birinci hissə, Statistika Komitəsi, Bakı, "Səda", 2001.

20. Azərbaycan XX əsrdə. İkinci hissə, Statistika Komitəsi, Bakı, "Səda", 2001.

21. Seyfəddin Qəndilov. "Azərbaycan dövlətinin inkişaf ideologiyası. Azərbaycanda siyasət dünən, bu gün, sabah". "Azərbaycan" qəzeti, 2002-ci il.

22. Şamil Qasımov. "Yeni demokratik Azərbaycanda idarəetmə mədəniyyəti". "Respublika" qəzeti, 2001-ci il, 7 avqust, № 177

23. E.Qutlu. "Nizaminin dövlətçilik fəlsəfəsi". "Qanun" jurnalı, 1998-ci il, № 8.

24. "Azərbaycanda dövlətçilik və onun rəmzləri". Bakı, 2000.

25. "Мир русской истории". Энциклопедический справочник. Москва, 1998.





26. Азербайджанская ССР в цифрах. Баку, Азернешр, 1960, 1968, 1971, 1972, 1986, 1987.

27. Народное хозяйство Азербайджанской ССР к 60-летию образования СССР. Баку, Азернешр, 1987.

28. Народное хозяйство Азербайджанской ССР к 70-летию образования СССР. Баку, Азернешр, 1987.

29. "Dövlət qulluğu məsələlərinə dair normativ hüquqi aktlar". Bakı. 2003.

***"Dirçəliş" jurnalı, 2004-cü il, № 72,73***

## DÖVLƏT QULLUĞUNUN TƏŞKİLİNDƏ YENİ MƏRHƏLƏ

### İşləyən və daim təkmilləşən qanun

***Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra dövlət quruculuğu sahəsində bir çox müvəffəqiyyətlər əldə etmiş, xüsusilə 1993-cü ildən sonra ölkədə sabit ictimai-siyasi və sosial-iqtisadi vəziyyət yaradılması, dövlət müstəqilliyinin möhkəmləndirilməsi, hüquqi, demokratik və dünyəvi dövlətin yaradılması üçün müasir tələblərə cavab verən qanunvericilik bazası formalaşmışdır. 1995-ci ildə Ümumxalq referendumunda qəbul edilmiş yeni Konstitusiya əsasında hazırlanıb təsdiq edilən mühüm qanunlardan biri də Azərbaycan tarixində ilk dəfə qəbul olunan "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanunudur.***

2000-ci ilin iyulunda Azərbaycanın ümummilli lideri Prezident cənab Heydər Əliyev tərəfindən imzalanmış "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu sonrakı üç il ərzində, demək olar ki, cəmiyyətdə ən böyük maraq doğuran, üzərində daim iş gedən və təkmilləşdirilən normativ hüquqi aktlardan biridir. Onun əsasında qəbul edilmiş daha 6 qanun və 21 fərmanla müxtəlif əsasnamələr, qaydalar, bir sıra sənəd nümunələri təsdiq edilmiş və bununla, demək olar ki, bu mühüm qanunun tətbiqi mexanizmi artıq yaradılmışdır.

Dövlət qulluğu haqqında qanunun və onunla əlaqədar sənədlərin hazırlanmasında, bu sahədə müasir dünyanın qabaqcıl ölkələrinin təcrübəsinin öyrənilib tətbiq edilməsində bu ölkələrin dövlət qurumları ilə əlaqələrin, o cümlədən Avropa İttifaqının Dövlət Qulluğu Sahəsində İslahatların Həyata Keçirilməsi üzrə TASİS Layihəsi çərçivəsində əməkdaşlığın da böyük köməyi olmuşdur. Bu yaxınlarda Azərbaycan Respublikası Prezidentinin





İcra Aparatı həmin layihənin təmsilçiləri ilə birlikdə dövlət qulluğu haqqında bugünədək ölkəmizdə qəbul olunmuş bütün normativ hüquqi aktları müvafiq dəyişikliklər və əlavələr keçirilməklə ilk dəfə kütləvi tirajla çap etmiş və kommersiya məqsədi daşımayan bu kitab respublikanın bütün idarə və təşkilatlarına pulsuz paylanmışdır. Bu kitabın nəşri dövlət qulluğu haqqında qanunvericiliyin öyrənilməsində və tətbiqində, habelə dövlət qulluğunun yenidən qurulmasında çox qiymətli bir vəsaitə çevrilmişdir.

***Yuxarıda qeyd etdiyimiz kimi, "Dövlət qulluğu haqqında" Qanuna əsas dəyişikliklər 2002-ci il 2 iyul tarixli qanunla edilmişdir. Bu dəyişikliklərin mahiyyətindən danışarkən qeyd etməliyik ki, burada Azərbaycanın real şəraiti, onun idarəçilik sisteminin yerli şəraitə uyğun qurulması əsas götürülmüşdür. Qanunun ilkin variantında nəzərə alınması mümkün olmayan bəzi cəhətlər onun tətbiqi prosesində dəqiqləşdirilmiş, müvafiq düzəlişlər və əlavələr edilməklə o, daha da təkmilləşdirilmişdir. Bunların ən vaciblərini qeyd etməklə həmin düzəliş və əlavələr haqqında qısaca da olsa, oxuculara məlumat verməyi zəruri hesab edirik.***

***Məsələn, qanunun 2.3 və 2.4-cü maddələrində dövlət qulluğunun kimə şamil edilməsi haqqında müddəalar dəqiqləşdirilərək müəyyən edilmişdir ki, prokurorluq, ədliyyə, milli təhlükəsizlik, daxili işlər, gömrük, vergi, xarici işlər orqanlarında, Azərbaycan Respublikasının Milli Bankında dövlət qulluğunda çalışan şəxslərin dövlət qulluğu keçməsi respublikanın başqa qanunları ilə tənzimlənir və bu şəxslərə qanunun yalnız dövlət qulluğuna girmək hüququna, dövlət qulluğuna qəbulun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsinə aid müddəaları şamil edilir.***

2.4-cü maddənin əvvəlki redaksiyasından fərqli olaraq yeni redaksiyada qanunun hərbi qulluqçulardan başqa, eyni zamanda Azərbaycan Respublikasının Prezidentinə, Milli Məclisin deputatlarına, Baş nazirə və onun müavinlərinə, məhkəmələrin ha-

kimlərinə, insan hüquqları üzrə Müvəkkilə, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinə və onların müavinlərinə, Mərkəzi Seçki Komissiyasının sədrinə, sədr müavinlərinə, katibinə və üzvlərinə, Hesablama Palatasının sədrinə, sədr müavininə və auditorlarına, yerli icra hakimiyyəti orqanlarının başçılarına, Naxçıvan MR Ali Məclisinin deputatlarına, Baş nazirinə və onun müavinlərinə, Muxtar Respublikanın mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinə də şamil edilmədiyi öz əksini tapmışdır.

Qanuna edilmiş əsas dəyişikliklərdən biri də 8-ci maddədə göstərilən dövlət orqanlarının təsnifatının dəqiqləşdirilməsidir. Qanunun əvvəlki redaksiyasından fərqli olaraq bu maddədə dövlət orqanları öz səlahiyyətlərinə görə konkret olaraq adları göstərilməklə yeddi kateqoriyaya bölünür və səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının müvafiq maddələrinə və ya Konstitusiya qanunlarına uyğun olaraq müəyyənləşdirilən dövlət orqanlarının hər kateqoriya üzrə adları dəqiq göstərilir. Ən başlıcası isə 1-7-ci kateqoriya dövlət orqanlarının aparıcı və köməkçi bölmələrə bölünməsi təsbit olunur və bunun müvafiq kateqoriyalara aidiyyatının respublika qanunvericiliyi ilə müəyyən edilməsi göstərilir. Bu müddəa isə sonradan qəbul edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda daha konkret müəyyənləşdirilir. Qanuna edilmiş dəyişikliklərdən dövlət qulluğu vəzifələrinin təsnifatına aid 10-cu maddədə edilən dəyişikliklər vəzifələrin funksiyalarından, səlahiyyətlərinin mənbələrindən və tutulmasından asılı olaraq onların inzibati və yardımçı vəzifələrə bölünməsini təsbit edir və bu bölgüdə statusu qeyri-müəyyənlik yaradan siyasi vəzifələri tutan şəxslərin hüquqi statusunun başqa qanunvericilik aktları ilə müəyyən ediləcəyi göstərilir.

***Qanunun 11-ci maddəsində inzibati vəzifələrin təsnifatı 14-dən 9-a endirilir, yardımçı vəzifələrin təsnifatı isə konkretləşdirilir və cəmi 6 təsnifat müəyyən edilir. 11.3-cü maddədə isə birinci təsnifat istisna olmaqla, 2-3-cü təsnifat vəzifələrini tu-***





***tan şəxslərin ixtisas dərəcəsi alması üçün uyğun dövlət orqanlarında və müvafiq vəzifədə fasiləsiz iş stajının müddəti və bu halda vəzifəli şəxsin funksiyalarının məzmunu, peşəkarlığı və idarəçilik təcrübəsi kimi tələblər müəyyənləşdirilir.***

Qanunun 12 və 13-cü maddələrində də mühüm dəyişikliklər edilmiş, "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nun nədən ötrü və hansı orqan tərəfindən müəyyən edilməsi və həmin vəzifələrə aid ixtisas tələbləri göstərilmişdir.

Qanuna edilmiş əsas dəyişikliklərdən biri də 16.2-ci maddədə göstərilən ixtisas dərəcələrinin daha konkret müəyyən edilməsidir. İxtisas dərəcələrinin verilməsinə aid olan 17-ci, 17.1-17.6-cı maddələrdə əvvəlki redaksiyadan fərqli olaraq dövlət qulluqçusunun hansı ixtisas dərəcəsində neçə il qalmalı olması əvəzinə yeni redaksiyada ixtisas dərəcəsi almaq üçün həmin vəzifələrdə qulluq müddətinin ardıcıl olaraq nə qədər təşkil etməsi konkret göstərilir.

2002-ci il 3 dekabr tarixli Qanunla edilmiş dəyişiklikdə isə "Dövlət qulluğu haqqında" Qanunun 21.2-ci maddəsi çıxarılaraq dövlət qulluqçularına verilən imtiyazlardan biri ləğv edilir, yəni onların sosial sığorta və məşğulluq orqanlarına ödənişlərdən azad edilmələri haqqında güzəşt aradan qaldırılır.

Qanunun 22.3-cü maddəsində inzibati vəzifələrin doqquzuncu təsnifatı və yardımçı vəzifələrin altıncı təsnifatı üzrə dövlət qulluqçusunun maaşının məbləğinin müəyyən edilməsi prinsipi konkretləşdirilir. 23.3-cü maddədə edilmiş dəyişikliklə isə pensiya yaşına çatmasına və ya əlilliyinə görə könüllü işdən çıxmış və dövlət qulluğunda xidmət illərinin minimum həddinə malik olmayan dövlət qulluqçusuna qanunvericiliklə müəyyən edilmiş miqdarda ömürlük müavinət təyin edilməsi öz əksini tapır. Halbuki əvvəlki redaksiyada bu məbləğin müəyyən edilməsi icra və məhkəmə hakimiyyəti orqanının ixtiyarına verilirdi. Bu da təbiidir ki, müəyyən subyektivliyə əsas yaradır, dövlət qulluqçularının mənafeyinə müəyyən dərəcədə toxunurdu. Eyni prinsip dövlət qulluğuna qəbul qaydalarını əks etdirən 28.4 və 28.6-cı mad-

dələrdə də əsas götürülür. 28.1-ci maddədə verilmiş dəyişiklikdə isə dövlət qulluğuna vətəndaşların təkcə müsabiqə yolu ilə deyil, həm də müsahibə yolu ilə qəbul edilməsi təsbit olunur.

Qanuna edilmiş dəyişikliklərin bir cəhəti də Dövlət Qulluğunu İdarəetmə Şurasının səlahiyyətlərinin genişləndirilməsidir. Məsələn, 29.4-cü maddənin əvvəlki redaksiyasında dövlət orqanının rəhbəri dövlət qulluğunu idarəetmə orqanının tövsiyəsi ilə razılaşmadıqda, yaranmış fikir ayrılığı müvafiq qanunvericilik və ya icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada aradan qaldırılırdısa, yeni redaksiyada bu səlahiyyət bilavasitə Dövlət Qulluğunu İdarəetmə Şurasına verilir. Qanunun 33.3 və 33.4-cü maddələrində dövlət qulluqçusu pensiya yaşına çatmasına görə könüllü işdən çıxdıqda, ona ümumi qaydada verilən birdəfəlik haqqın məbləği və ondan vergi tutulmadığı da müəyyən edilir. Eyni zamanda dövlət qulluqçusu işdən çıxmaq barədə ərizə verdikdən sonra dövlət orqanı rəhbərinin qərarı ilə onun üç ay ərzində dövlət qulluğunu davam etdirməsinin məcburiliyi müəyyənləşdirilir.

Göründüyü kimi, "Dövlət qulluğu haqqında" Qanun qəbul edildikdən sonra xeyli təkmilləşdirilmiş, orada əksini tapmış bir sıra müddəalar daha da konkretləşdirilmiş, yəqin ki, vaxt keçdikcə bu iş davam etdiriləcəkdir.

## Qanuna edilmiş dəyişikliklər onunla əlaqədar normativ hüquqi aktlarda öz əksini necə tapır?

***"Dövlət qulluğu haqqında" Qanuna edilmiş yuxarıdakı dəyişikliklər qanunla əlaqədar qəbul edilmiş digər normativ hüquqi aktlara da dəyişikliklər olunmasını zəruri etmiş və Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli fərmanı ilə bu dəyişikliklər həyata keçirilmişdir. Bunlardan dövlət orqanlarının digər icra hakimiyyəti orqanlarından fərqləndirilməsi ilə əlaqədar olan düzəlişi, yəni bütün aktlarda "icra hakimiyyəti orqanları" sözlərinin "dövlət orqanları" sözləri ilə əvəz edilməsini göstərməliyik. Lakin dəyişikliklər təkcə bundan ibarət deyildir. Fərmanın VI bölməsində "İcra hakimiyyəti orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi Qaydalarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli fərmanı ilə təsdiq edilmiş qaydaların dördüncü bəndinə edilmiş əlavə ilə müəyyən olunur ki, dövlət qulluqçusunun qulluq stajına 1991-ci ilin oktyabrın 18-dək dövlət, sovet və partiya orqanlarında iş müddəti də daxil edilir.*** Həmin qaydaların 6-cı bəndinə edilmiş dəyişiklik isə qanunun 11.1-ci maddəsinə edilmiş dəyişiklikdən irəli gəlir və burada göstərilir ki, inzibati vəzifələrin birinci təsnifatı istisna olmaqla, 2-3-cü təsnifat vəzifələri tutan şəxslərin müvafiq ixtisas dərəcəsi alması üçün dövlət orqanında azı yeddi illik fasiləsiz əmək stajı və müvafiq vəzifədə azı üç illik fasiləsiz əmək stajı olmalıdır, 4-7-ci təsnifat vəzifələrində isə fasiləsiz əmək stajı beş il müəyyən olunur. Halbuki əvvəlki redaksiyada dövlət qulluqçularının ixtisas dərəcələri almaq üçün tələb olunan müddət yox, ixtisas dərəcələrində qalma müddəti müəyyənləşdirilirdi. Bundan başqa bu maddədə digər təsnifat dərəcələri, habelə müvafiq yardımçı vəzifələr üçün müəyyən edilmiş ixtisas dərəcələri alma müddətləri dəqiq göstərilmişdir. Qaydaların 12-ci bəndinə edilmiş dəyişiklikdə isə inzibati və yardımçı vəzifələrin dərəcələrinin sayı 11-dən 17-dək artırılmış və onlara müvafiq əlavə haqqın məbləği şərti maliyyə vahidinin 30 mislindən başlayaraq 4 mislinə qədər konkret müəyyən edilmişdir.

Fərmanın VIII bölməsində Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 yanvar tarixli fərmanı ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında dövlət qulluqçusuna vəzifədə qulluq stajına görə əlavə haqqın məbləğlərinin müəyyənləşdirilməsi Qaydaları"nın 9-cu bəndində edilmiş dəyişiklikdə isə qulluq stajının hesablanmasında 1991-ci il oktyabrın 18-dək dövlət, sovet və partiya orqanlarında iş müddətinin də daxil edilməsi öz əksini tapmışdır. Həmçinin Qaydalardan 13-cü bənd çıxarılmış-


Azərbaycanda dövlət qulluğunun və idarəetmə sisteminin keçmişi, bu günü və perspektivləri

dır. Bu bənddə isə göstərilirdi ki, dövlət qulluqçusu daha yüksək dərəcəli dövlət qulluğu vəzifəsinə təyin edilərkən əvvəlki vəzifəsində qulluq stajına görə əlavə haqq verilmir.

Qanunun 29.4-cü maddəsinə edilmiş dəyişikliklə əlaqədar fərmanda həmçinin "İcra hakimiyyəti orqanlarında vəzifələrin tutulması ilə bağlı dövlət orqanının rəhbəri dövlət qulluğunu idarəetmə orqanının tövsiyəsi ilə razılaşmadıqda yaranmış fikir ayrılığının aradan qaldırılması qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli fərmanı da qüvvədən düşmüş hesab edilmişdir.

Fərmanın əsas müddəalarından biri də Azərbaycan Respublikasının Nazirlər Kabinetinə dövlət orqanlarında çalışan dövlət qulluqçularının aylıq vəzifə maaşlarına müəyyən edilmiş əlavələrin 2003-cü il sentyabrın 1-dən tətbiq olunmasını təmin etmək barədə konkret tapşırıq verilməsidir. "Dövlət qulluğu haqqında" Qanunla əlaqədar normativ hüquqi aktlara sonuncu dəyişiklik və əlavələr Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 2003-cü il 4 noyabr tarixli qanunla edilmiş, Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnaməyə 2.1.10-cu maddə artırılmışdır. Həmin maddədə göstərilir ki, dövlət qulluğunda vəzifə tutma ilə bağlı dövlət orqanının rəhbəri ilə dövlət qulluğunu idarəetmə orqanı arasında yaranmış fikir ayrılığının aradan qaldırılması qaydası da Şura tərəfindən müəyyən edilir. Bu qanunla həmçinin "Dövlət qulluqçularının icbari sığortası haqqında" qanuna da dəyişikliklər edilərək inzibati vəzifələrin təsnifat sayı dəyişdirildiyinə görə onun 4.1.5-ci maddəsi çıxarılmışdır.

## İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu nəyə xidmət edir?

"Dövlət qulluğu haqqında" Qanunun qəbul edilməsindən sonra keçən müddət ərzində, yuxarıda qeyd etdiyimiz kimi, bir çox normativ hüquqi aktlar qəbul edilsə də qanunun real surətdə işləməsi üçün əsas açar rolunu oynayan "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nun təsdiq edilməsi yalnız 2003-cü ilin avqustunda başa çatdırılmış və bu Təsnifat Toplusunun təsdiq edilməsi ilə dövlət qulluğunun təşkilində yeni mərhələ başlanmışdır. 2003-cü il sentyabrın 1-dən tətbiq edilən bu Təsnifat Toplusunun əsasən nəyə xidmət etməsi hamı üçün böyük maraq doğurduğundan, onun üzərində xüsusi olaraq dayanmaq istərdik.

Fərmanın özündə qeyd olunduğu kimi, "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu" "Dövlət qulluğu haqqında" Qanunun 12-ci maddəsi rəhbər tutularaq təsdiq edilmişdir. İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu 5 bölmədən ibarətdir. ***Bu bölmələrdə Təsnifat Toplusunun nədən ibarət olması, onun dövlət orqanlarının ştat cədvəllərinin hazırlanması və dövlət qulluqçularının vəzifə təlimatlarının hazırlanması üçün əsas olduğu, bu vəzifə təlimatlarının respublika Prezidenti və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən qəbul edildiyi, qanunvericilik və məhkəmə hakimiyyəti orqanlarında, Naxçıvan MR-in müvafiq orqanlarında bu səlahiyyətlərin kimin yerinə yetirdiyi, habelə dövlət orqanlarının aparıcı və köməkçi bölmələri dedikdə nəyin nəzərdə tutulduğu öz əksini tapmışdır. Burada inzibati və yardımçı vəzifələrin necə adlandırılması və dövlət qulluğunun təşkilində əsas götürülməsi təsbit olunmuşdur. "İnzibati və yardımçı vəzifələrin təsnifatları və adları" bölməsində inzibati vəzifələrin 9 təsnifatının hər birinə respublikada mövcud olan mərkəzi və yerli icra hakimiyyəti orqanlarının dövlət qulluğu vəzifəsi tutan şəxslərinin hansı təsnifata aid olduğu dəqiq müəyyələşdirilmiş, eyni zamanda yardımçı vəzifələrin 6 təsnifatı üzrə yardımçı vəzifələrdə çalışan qulluqçuların vəzifələri konkret olaraq göstərilmişdir.*** Toplunun əsas bölmələrindən biri də "İnzibati və yardımçı vəzifələrin ixtisas dərəcələri" adlı üçüncü bölmədir ki, burada da hər bir təsnifat üzrə inzibati vəzifə tutan dövlət qulluqçularına hansı ixtisas dərəcələri verilməsi müəyyən olunmuşdur. Toplunun "İnzibati və yardımçı vəzifələrin tutulması üçün ixtisas tə-

ləbləri" adlı dördüncü bölməsində inzibati və yardımçı vəzifələrin tutulması üçün ixtisas tələbləri müəyyən edilir.

Təsnifat Toplusunun "Keçid müddəaları" adlanan beşinci bölməsində Təsnifat Toplusu tətbiq edilənədək dövlət orqanlarında (1-ci və 2-ci kateqoriya dövlət orqanları istisna olunmaqla) və onların bölmələrində müvafiq təsnifatlar üzrə mövcud olan baş idarə, idarə, departament və müstəqil şöbə rəislərinin - şöbə müdirinə, şöbə rəislərinin - sektor müdirinə, baş mütəxəssis vəzifələrinin baş məsləhətçi və ya böyük məsləhətçi vəzifələrinə, aparıcı mütəxəssis vəzifələrinin aparıcı məsləhətçi vəzifələrinə, mütəxəssis vəzifələrinin isə məsləhətçi vəzifələrinə uyğunlaşdırılmalı olduğu göstərilir.

Qeyd etmək lazımdır ki, "Dövlət qulluğu haqqında" Qanunun 8.2 və 8.3-cü maddələrində göstərilir ki, dövlət orqanlarının bölmələri onlara həvalə edilmiş funksiyalara görə aparıcı və köməkçi bölmələrə bölünür və onların müvafiq kateqoriyalara aidiyyatı qanunvericilik əsasında müəyyən edilir. Məhz 8.3-cü maddəyə uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 22 oktyabr tarixli fərmanı ilə icra hakimiyyəti orqanlarında onlara həvalə edilmiş funksiyalara görə aparıcı və köməkçi bölmələrin siyahısı müəyyən edilmişdir.

Eyni zamanda göstərilmişdir ki, mərkəzi icra hakimiyyəti orqanlarının mərkəzi aparatında konkret olaraq adları göstərilməklə aparıcı və köməkçi bölmələrin siyahısı Maliyyə Nazirliyi və respublikanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırılmaqla müvafiq mərkəzi icra hakimiyyəti orqanının rəhbəri tərəfindən təsdiq olunur.

"İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nun təsdiq edilməsindən sonra həqiqətən dövlət qulluğunun təkmilləşdirilməsi və yenidən qurulması üçün respublikada böyük işlər görülmüş, artıq mərkəzi və yerli icra hakimiyyəti orqanlarının əksəriyyətində dövlət qulluqçularına dövlət qulluğunda iş stajına görə əlavə haqqın məbləği müəyyən edilmiş, nazirliklərdə və komitələrdə dövlət qulluqçularına ixtisas dərəcələri verilməsi, demək olar ki, başa çatdırılmış və bunlar dövlət qulluqçularının maddi təminatını bir qədər yaxşılaşdırmışdır.





Bundan əlavə dövlət orqanlarının çoxunda mərkəzi aparatların strukturu və orada mövcud olan inzibati və yardımçı vəzifələrin adları yenidən təsdiq olunmuş, Təsnifat Toplusuna uyğun olaraq nazirliklərin və komitələrin icra aparatları yaradılmış, onların rəhbərləri və digər işçiləri təyin edilmişdir. Lakin bu işin tam başa çatdırıldığını da demək tezdir.

## Real həyatdan doğan suallar, görülən və görüləsi işlər

"İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu" təsdiq edildikdən sonra onun tətbiqi prosesində real həyatdan doğan bir sıra problemlər və suallar meydana gəlmişdir. Bu, müəyyən dərəcədə indiyədək qəbul edilmiş normativ hüquqi aktlarda hansısa cəhətlərin nəzərə alınmadığı ilə yanaşı, həm də yerlərdə qanunun kifayət qədər diqqətlə öyrənilmədiyindən irəli gəlir.

Xüsusilə dövlət qulluğunda əmək stajının hesablanması və ixtisas dərəcələrinin verilməsi məsələlərinə dair Prezidentin İcra Aparatına və Dövlət Qulluğunu İdarəetmə Şurasına idarə və təşkilatlardan, bilavasitə dövlət qulluqçularından müxtəlif müraciətlər daxil olmaqdadır. Təbiidir ki, həmin təkliflər və müraciətlər, onlarda qaldırılan problemlər diqqətlə öyrənilir, araşdırılır, onlara mümkün qədər ətraflı və dolğun cavablar verilməsinə səy göstərilir, eyni zamanda bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi üçün tədbirlər görülür.

Bəzi mərkəzi icra orqanlarından daxil olan rəsmi müraciətlərdə onların kateqoriyalarının Təsnifat Toplusunda daha aşağı kateqoriyaya salındığı, yaxud onların tabe təşkilatlarının bu təsnifata nə dərəcədə aid olub-olmadığı, habelə 1991-ci ildən sonra ölkədə aparılmış struktur islahatları nəticəsində ləğv edilmiş və ya başqa orqanlara birləşdirilmiş idarəetmə orqanları qulluqçularının əmək stajının hansı formada nəzərə alınacağı məsələləri qaldırılır.

***Eyni zamanda respublikada qüvvədə olan digər normativ hüquqi aktların hamısının bu qanuna uyğunlaşdırılaraq onlara müvafiq dəyişikliklər keçirilməsi və dövlət qulluğu haqqında qanunvericiliyin tətbiqində yaranan bəzi maneələr və çətinliklərin aradan qaldırılması təklif edilir.***

***Qanunla əlaqədar Azərbaycan Respublikasının bir sıra qanunvericilik aktlarına lazımi dəyişikliklər və əlavələr edilməsinə baxmayaraq, görünür, bu sahədə hələ görüləsi müəyyən işlər qalmışdır. Bu, xüsusilə, yerli icra hakimiyyəti və məhkəmə hakimiyyəti orqanlarının aparatlarına aiddir.*** Bir sıra təşkilatlar qanunun tətbiqindən sonra 2004-cü il yanvarın 1-dək dövlət qulluqçularının məzuniyyətlərinin ödənilməsində və onlara əlavə haqların verilməsində büdcə vəsaiti ilə əlaqədar problemlər yarandığını göstərir və qeyd edirlər ki, 2003-cü ilin büdcəsində bu xərclər nəzərə alınmadığı üçün bu sahədə çətinliklər yaranır. Qeyd etmək lazımdır ki, artıq 2004-cü ilin büdcəsində həmin xərclərin ödənilməsi üçün vəsait nəzərdə tutulmuşdur və yəqin ki, bu məsələlər daha asan həll olunacaqdır.

Yuxarıda qeyd etdiyimiz kimi, dövlət qulluqçularından xüsusilə əmək stajının hesablanması və ixtisas dərəcəsinin verilməsi ilə əlaqədar müraciətlər daha çox daxil olur. Məsələn, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm Mərkəzinin mühasibat uçotu və hesabatı şöbəsinin rəisi D.Əlişov müraciət edərək Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə yaradılmış mərkəzin tərkibində 14 elmi tətqiqat institutunun, 50-yə qədər bölgə təcrübə təsərrüfatının, 9 regional aqrar elm mərkəzinin və 21 dövlət kənd təsərrüfatı istehsal müəssisəsinin olmasına baxmayaraq onun və mərkəzin 32 nəfər işçisinin dövlət qulluqçusu hesab edilmədiyini bildirir. Müraciətə verilmiş cavabda bildirilmişdir ki, "Dövlət qulluğu haqqında" Qanunun 2.2-ci maddəsinə əsasən qanun icra hakimiyyəti orqanlarında, qanunvericilik və məhkəmə hakimiyyəti orqanlarının aparatlarında dövlət qulluğu keçən qulluqçulara şamil edilir. Bu anlayışlar Qanunun 7.1 və 14.1-ci maddələrində müəyyən edil-





mişdir. "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nun 2.1.6-cı bəndinin dördüncü abzasına əsasən Azərbaycan Respublikası Nazirlər Kabineti yanında və ya onun qərarı ilə yaradılan orqanların aparatlarında şöbə müdiri və müdir müavini vəzifələri inzibati vəzifələrin altıncı təsnifatına aid edilmişdir. Qanunun 2.5-ci maddəsinə uyğun olaraq bu qanun müvafiq icra hakimiyyəti orqanlarının tabeliyində olan müəssisələrin işçilərinə şamil edilmir və onların qulluğu ilə bağlı məsələlər Əmək Məcəlləsi ilə tənzimlənir. Buna görə də ərizəçinin qaldırdığı məsələnin həlli qeyri-mümkündür.

Yaxud, Ordubad rayon İcra hakimiyyəti başçısı aparatının Ümumi şöbəsinin müdiri B.Həsənov əmək stajının hesablanması zamanı keçmiş rayon partiya komitəsinin və icraiyyə komitəsinin orqanı olan "Yeni Ordubad" qəzetinin redaksiyasında şöbə müdiri, məsul katib və redaktor müavini vəzifələrində çalışdığı 20 ildən çox müddətin hesablanmadığını göstərir.

Ərizəçiyə göndərilən cavabda "Dövlət qulluğu haqqında" Qanunun müvafiq maddələrinə uyğun olaraq ona lazımi izahat verilmişdir. Eyni zamanda B.Həsənova izah edilmişdir ki, onun tutduğu vəzifə Təsnifat Toplusunun 2.1.7-ci və 3.2.7-ci bəndlərinə əsasən inzibati vəzifələrin yeddinci təsnifatına uyğundur və ona 1-ci dərəcə dövlət qulluqçusu və 2-ci dərəcə dövlət qulluqçusu ixtisas dərəcələrindən biri verilə bilər.

Bundan başqa, onun İHB aparatında iş stajında fasilələrlə əlaqədar sualına cavab olaraq bildirilmişdir ki, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi Qaydaları"nın 6-cı bəndinə müvafiq olaraq dördüncü-yeddinci təsnifat vəzifələrini tutan şəxslərin dövlət orqanlarında azı beş illik əmək stajı olmadığı halda, vəzifəli şəxsə tutduğu vəzifənin ardınca gələn inzibati vəzifə təsnifatına uyğun ixtisas dərəcəsi verilir və inzibati vəzifələr çərçivəsində daha yüksək ixtisas dərəcəsi almaq üçün yeddinci-doqquzuncu təsnifat vəzifələrini tutan şəxsin qulluq müddəti ardıcıl olaraq iki il

təşkil etməlidir.

Bu və digər problemlərin tənzimlənməsi üçün, görünür, həm mətbuatda bu məsələlərə dair lazımi şərhlər verilməli, həm müvafiq seminarlar, treyninqlər və başqa tədbirlər keçirilməli, lazım gələrsə, bu sahədə qanunvercilik daha da təkmilləşdirilməlidir. Dövlət qulluğunun şamil edildiyi dövlət orqanlarının reyestrinin hazırlanması da nəzərdən keçirilməlidir. Yəqin ki, Dövlət Qulluğunu İdarəetmə Şurası tam şəkildə fəaliyyətə başladıqdan sonra bu məsələlər öz həllini daha dəqiq tapacaq və çox güman ki, respublika Nazirlər Kabineti müvafiq sənədlər hazırlayıb təsdiq edəcəkdir.

"Dövlət qulluğu haqqında" Qanunun tam gücü ilə işləməsi üçün görüləsi işlər sırasında siyasi vəzifə tutan şəxslərin statusunun müəyyən edilməsi, Azərbaycan Respublikası Konstitusiyasının 113-cü maddəsində nəzərdə tutulmuş və 5-ci kateqoriya dövlət orqanlarına daxil edilmiş bir sıra mərkəzi dövlət hakimiyyəti orqanlarının əsasnamələrinin "Dövlət qulluğu haqqında" Qanuna uyğun olaraq yenidən təsdiq olunması, ikili tabelikdə olan yerli icra hakimiyyəti orqanlarının rəhbərlərinə ixtisas dərəcələrinin verilməsi və başqa aktual məsələlər, yəqin ki, öz həllini tapacaq, Dövlət Qulluğunu İdarəetmə Şurası tam fəaliyyətə başlamaqla bu işlərin daha operativ həll edilməsinə təkan veriləcəkdir.

## Mükəmməl dövlət qulluğu mükəmməl dövlət idarəçiliyi deməkdir

Oxucuların diqqətinə çatdırılan bu yazıda biz "Dövlət qulluğu haqqında" Qanunun təkmilləşdirilməsi, qanuna edilmiş dəyişikliklər, bu dəyişikliklərlə bağlı digər normativ hüquqi aktlarda edilmiş yeniliklər, "İnzibati və yardımçı vəzifələrin Təslifat Toplusu" və onun əsas cəhətləri, habelə dövlət qulluğu haqqında qanunvericiliyin tətbiqi üçün görülmüş real işlər, bu iş prosesində ortaya çıxan suallar və problemlər barədə yığcam da olsa məlumat verdik. Eyni zamanda qanunun təkmilləşdirilməsi prosesinin davam etdiyini, bir sıra normativ-hüquqi aktların üzərində iş getdiyini bildirdik, habelə digər məsələləri şərh etdik. Hazırda respublikada dövlət idarəçiliyinin müasir beynəlxalq tələblər səviyyəsində qurulması, bu işin dünya standartları səviyyəsinə qaldırılması üçün gərgin iş davam edir. Bütün görülən işlərin yeganə məqsədi Azərbaycanın dövlətçiliyini daha da möhkəmləndirmək, ölkəmizdə demokratik dəyərlərə üstünlük vermək, son nəticədə xalqın maddi rifahını daha da yaxşılaşdırmaq, hər bir vətəndaşın hüquq və azadlıqlarının, insan haqlarının qorunmasını daha yaxşı təmin etməkdir.

***Ölkəmizdə hüquqi dövlətin əsası olan qanunvericiliyin təkmilləşdirilməsi prosesi durmadan davam edir. Azərbaycan dövləti dünya sivilizasiyasının layiqli üzvü olmaq üçün beynəlxalq müqavilə və konvensiyalara daha geniş qoşulur, özünün dünya birliyinin layiqli üzvü olduğunu sübut etmək, öz vətəndaşlarının işıqlı gələcəyini təmin etmək üçün ümummilli liderimiz Heydər Əliyevin xəttinin layiqli davamçısı hörmətli Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında həyatın bütün sahələrində olduğu kimi, dövlət quruculuğu sahəsində işləri də uğurla davam etdirir.***

Mətbuatdan məlum olduğu kimi, Milli Məclisdə qəbul olunan korrupsiyaya qarşı mübarizə haqqında qanun ölkədə ədalətin, aşkarlığın daha geniş bərqərar olmasına, ictimai televiziya haqqında qanun isə şəffaflığın və demokratiyanın güclənməsinə xidmət edəcəkdir. "Dövlət qulluğu haqqında" Qanun isə real həyatdan doğan və real həyatla daim ayaqlaşa bilən bir qanun olaraq bundan sonra da Azərbaycanda mükəmməl dövlət idarəçiliyinin yaranmasına və bərqərar olmasına xidmət edəcəkdir.

***"Azad Azərbaycan" qəzeti, 28 yanvar 2004-cü il***

## DÖVLƏT QULLUQÇUSU VƏ ONUN SOSİAL MÜDAFİƏSİ

***İyunun 23-də respublikamızda dövlət qulluqçularının peşə bayramı günü ikinci dəfə qeyd olunur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2006-cı il 25 may tarixli sərəncamı ilə təsis olunmuş bu peşə bayramı ölkə rəhbərliyinin dövlət qulluqçularına qayğı və diqqətinin, onların çətin və şərəfli əməyinə verilən qiymətin əyani təzahürüdür.***

Ulu öndər Heydər Əliyevin qurub yaratdığı müstəqil Azərbaycanın dövlətçiliyi onun layiqli varisi cənab İlham Əliyevin düşünülmüş və ardıcıl siyasəti nəticəsində gündən-günə möhkəmlənir, ölkəmizin beynəlxalq nüfuzu getdikcə yüksəlir, xalqımız daha firavan yaşayır.

Cəsarətlə demək olar ki, indi Azərbaycan regionda ən güclü dövlətə çevrilmiş, həmçinin dünya dövlətləri sırasında öz layiqli yerini tutmuşdur. Ulu öndərin siyasi xəttinə sadiq olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi son dörd ildə iqtisadi və siyasi islahatlar daha da sürətlənmiş, dövlət idarəetmə sistemi xeyli təkmilləşdirilmiş, Azərbaycan xalqının bütün təbəqələrinin, o cümlədən dövlətin idarə olunmasında mühüm rol oynayan dövlət qulluqçularının maddi rifahı xeyli yaxşılaşmışdır.

Ölkə Prezidentinin bu il mayın 25-də Respublika günü münasibətilə "Gülüstan Sarayı"nda keçirilən rəsmi qəbulda qeyd etdiyi kimi: **"1993-2003-cü illər ərzində Azərbaycanın dövlətçiliyi quruldu. Azərbaycanın inkişaf strategiyası müəyyən olundu. Bütün istiqamətlərdə, xarici müstəvidə, xarici siyasət baxımından ölkəmiz özünü dünyaya etibarlı tərəfdaş kimi, ləyaqətli ölkə kimi təqdim edə bildi... Azərbaycanda 1993-cü ildən başlamış və bu günə qədər davam edən iqtisadi və siyasi islahatlar ölkəmizin dünya birliyinə layiqli üzv kimi daxil edilməsində çox mühüm rol oynadı".**

Bu, bir həqiqətdir ki, Azərbaycan artıq həm iqtisadi, həm də siyasi cəhətdən çox dinamik inkişaf edən, bütün sahələrdə islahatları davam etdirən, demokratikləşmə proseslərini ardıcıl həyata keçirən bir ölkədir. Azərbaycan Respublikasının Prezidenti ölkənin iqtisadi qüdrətini son nəticədə Azərbaycan xalqının yüksək həyat şəraitinin təmin edilməsinə yönəltmək üçün bütün qüvvələri səfərbər edərək yeni iş yerlərinin yaradılması, elmi cəhətdən əsaslandırılmış proqramlarla qeyri-neft sektorunun intensiv inkişaf etdirilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün böyük işlər görür. Azərbaycan Prezidenti cənab İlham Əliyev Azərbaycanın daxili siyasətindən danışarkən demişdir: **"Daxili siyasətdə həm iqtisadi, həm də siyasi islahatların prioritet xarakter daşıması bizim üçün çox vacibdir və biz bunu edirik. Mən tam əminəm ki, əsl açıq demokratik cəmiyyəti ancaq maddi rifah əsasında qurmaq mümkündür. İqtisadi cəhətdən geridə qalmış ölkələrdə demokratik proseslər də geridə qalır. O ölkələr ki, onlar iqtisadi cəhətdən güclüdürlər, orada sahibkarlıq inkişaf edibdir və azad sahibkarlıq böyük uğurlar qazanıbdır, - o ölkələrdə demokratiyanın inkişafı da çox yüksək zirvədədir. Ona görə iqtisadi islahatların davam etdirilməsi xalqın maddi rifahının yaxşılaşması, demokratik cəmiyyətin qurulması və formalaşması üçün başlıca şərtdir".**

Cənab Prezident əhalinin maddi rifahının yüksəldilməsi, büdcədən maliyyələşən idarə və təşkilatlarda çalışanların əmək haqqının artırılması, əhalinin aztəminatlı təbəqələrinin, pensiyaçıların, tələbələrin, elmi işçilərin sosial müdafiəsinin gücləndirməsi üçün ölkədə yaranmış iqtisadi potensialdan səmərəli istifadə edir, müxtəlif kateqoriyadan olan işçilərin əmək haqlarını, digər sosial müavinətləri vaxtaşırı artırır.

**Bu baxımdan ölkənin iqtisadi inkişafını səciyyələndirən bəzi rəqəmlərin üzərində dayanmaq zəruridir. Ötən 2006-cı**

**ildə ümumi daxili məhsul 2005-ci illə müqayisədə rekord - 34,5 faiz səviyyəsində olmuş, əhalinin pul gəlirləri 23,4 faiz, bankdakı əmanətləri 65,7 faiz, ölkənin valyuta ehtiyatları 60 faiz artmışdır. Ölkədə adambaşına düşən ümumi daxili məhsulun həcmi 2005-ci ildəki 1488 manatdan 2078 manata, orta aylıq əmək haqqı 19,8 faiz artaraq 141 manata yüksəlmişdir. Dövlət büdcəsi xərclərinin 36,6 faizi və ya 1 milyard 388 milyon manatı sosialyönümlü xərclərin maliyyələşdirilməsinə yönəldilmişdir ki, bu da 2005-ci illə müqayisədə 64 faiz və ya 542 milyon manat çoxdur.**

2006-cı ildə yaşa görə əmək pensiyalarının baza hissəsi 40 manata çatdırılmış, 15 min şəhid ailəsinin hər birinə 100 manat, 20 Yanvar şəhidlərinin ailəsi üçün 300 manat təqaüd təsis edilmişdir. 2007-ci ilin 4 ayı üzrə göstəricilər də sevindiricidir. 2006-cı ildəki artım surəti bu il daha yüksək olmuş, əhalinin sosial müdafiəsi daha da yaxşılaşmış, tətbiq edilən qiymət artımından sonra əhalinin müxtəlif təbəqələrinin maddi vəziyyətini yaxşılaşdırmaq üçün cənab Prezident ilin əvvəlində 14 sərəncam imzalamış, bu sərəncamlarla aylıq əmək haqqı və əmək pensiyalarının baza hissəsi 50 manata çatdırılmış, müxtəlif sahələrdə çalışan işçilərin, o cümlədən dövlət qulluqçularının əmək haqları 25-50 faiz arasında artmışdır.

**2006-cı ildə dövlət büdcəsində sosialyönümlü xərclər 36,6 faiz olmuşdursa, 2007-ci ilin birinci rübündə bu rəqəm 50,3 faiz təşkil etmişdir.** Bu cəhətdən son illərdə dövlət qulluqçularının sosial müdafiəsi də xeyli gücləndirilmişdir. Ümumiyyətlə, dövlət qulluqçularını bu gün sosial cəhətdən daha yaxşı müdafiə olunmuş təbəqə adlandırmaq olar. Dövlət qulluqçularının sosial müdafiəsindən ətraflı bəhs etmək üçün ilk növbədə dövlət qulluğu ilə əlaqədar qəbul olunmuş normativ hüquqi aktlara nəzər salmaq zəruridir.

**Ümumiyyətlə, "Dövlət qulluğu haqqında" Qanun qəbul edildikdən sonra bu Qanunla əlaqədar Azərbaycan Respublikasının Prezidenti tərəfindən 32 qanun, 45 fərman, 27 sərəncam imzalanmış, habelə Nazirlər Kabinetinin həmin aktlardan irəli gələn bir neçə qərarı qəbul edilmişdir. Bunların bir çoxu, demək olar ki, məhz dövlət qulluqçularının sosial müdafiəsi məsələlərinə həsr olunmuşdur.**





Dövlət qulluqçularının sosial müdafiəsinin əsası hələ 2000-ci ilin iyulunda imzalanmış "Dövlət qulluğu haqqında" qanunla qoyulmuşdur. Qanunda dövlət qulluqçularının sosial və hüquqi müdafiəsi, onların özləri və ailələri üçün ləyaqətli yaşayış səviyyəsinin təmin edilməsi dövlət qulluğunun prinsiplərindən biri hesab edilmişdir. Dövlət qulluqçularının əsas hüquqları əks olunan maddədə isə göstərilir ki, qanunvericilikdə nəzərdə tutulmuş hallarda və qaydada dövlət qulluqçusunun məzuniyyətlər (sosial məzuniyyətlər, özünün və ya ailə üzvlərinin müalicəsi ilə əlaqədar və elmi məzuniyyətlər), özünün və ya ailə üzvlərinin əlilliyi ilə əlaqədar pensiyalar və müavinətlər almaq hüququ var. Qanunda dövlət qulluqçuları üçün təminatlar - lazımi qulluq şəraiti, haqqı ödənilən məzuniyyətlər, dövlət məvacibi, dövlət qulluqçularının pensiya təminatı, sosial sığortası, vəzifə öhdəliklərinin xarakteri nəzərə alınmaqla nəqliyyat və kompensasiya alması, mükafatlandırılması və s. məsələlər ayrıca maddələrlə müəyyənləşdirilmiş və bundan sonra qəbul edilən normativ hüquqi aktlarda bu müddəalar daha geniş və konkret müəyyən olunmuşdur. Dövlət qulluqçusunun təminatları dedikdə ilk növbədə onun layiqli həyat səviyyəsini təmin edən dövlət məvacibi və digər ödənişlər, pensiya təminatı və dövlət sosial sığortası, onlara verilən bir sıra güzəştlər və imtiyazlar nəzərdə tutulur.

Qanunda dövlət qulluğunun şərtləri müəyyən edilərkən dövlət qulluqçusu üçün həftəlik iş vaxtı 40 saat nəzərdə tutulmuş, həmçinin göstərilmişdir ki, aylıq iş vaxtı 5 saatdan çox artırıla bilməz. İş vaxtı 5 saatdan çox artırıldıqda, işlədiyi hər saata görə dövlət qulluqçusuna əlavə haqq ödənilməlidir. Bu şərtlərdə dövlət qulluqçusu üçün 30 təqvim gününə qədər haqqı ödənilən məzuniyyət və 5 ildən 10 ilədək əmək stajına görə 2 təqvim günü, 10 ildən 15 ilədək 4 təqvim günü, 15 ildən çox əmək stajı-

na görə isə 6 təqvim günü əlavə məzuniyyət nəzərdə tutulmuşdur. Qanunun həmin maddəsində müəyyən edilmişdir ki, dövlət qulluqçusu müvəqqəti olaraq başqa yerə qulluğa keçirilmişdirsə, ailəsini özü ilə aparmağa ixtiyarı vardır və ona müəyyən edilmiş yaşayış normalarına uyğun gələn məişət ləvazimatı ilə komplektləşdirilmiş mənzil verilir, habelə əvvəl işlədiyi yerdə yaşayış sahəsi saxlanılır, eyni zamanda onun ailə üzvlərinin təhsil və digər məsələləri də həll edilir. Dövlət qulluqçularının ayır-ayrı kateqoriyaları, o cümlədən I və II qrup əlillərə, hamilə və yaş yarımadək uşağı olan qadınlara, habelə belə uşaqları təkbaşına böyüdən atalara, uşaqların qəyyumlarına, himayədarlarına həftədə 36 saat iş vaxtı müəyyən edilir.

**Dövlət qulluqçularının sosial müdafiəsi ilə əlaqədar bəzi normativ hüquqi aktlar üzərində bir qədər geniş dayanmaq lazım gəlir. "Dövlət qulluqçularının icbarı sığortası haqqında" qanun belə aktlardan biridir.** Qanunda inzibati vəzifələrin təsnifatından asılı olaraq sığorta məbləği birinci təsnifat üçün şərti maliyyə vahidinin 6000 misli, ikinci və üçüncü təsnifat üçün 4700, dördüncü, beşinci və altıncı təsnifat üçün 3400, yeddinci, səkkizinci və dördüncü təsnifat üçün 1800, yardımçı vəzifələr üçün 1000 misli məbləğində müəyyən edilmişdir. Bu şərtlərə görə sığorta hadisəsi baş verdikdə dövlət qulluqçusu həlak olarsa, əmək haqqının 100 faizi, I qrup əlil olarsa 80 faizi, II qrup 60 faizi, III qrup 40 faizi, ağır xəsarət alarsa 20 faizi, yüngül xəsarət alarsa 5 faizi məbləğində sığorta haqqı ala bilər. Qanunda sığortanın aparılması qaydası, onun verilməsi müddəti, sığortaçının və sığorta olunanın hüquq və vəzifələri, tələb olunan sənədlər, sığorta ödənişinin verilməsindən imtina halları və sair məsələlər konkret göstərilmişdir.

Dövlət qulluqçuları üçün bir sıra başqa güzəştlər də nəzərdə tutulmuşdur ki, onlardan biri hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqq təyin edilməsi, onların vəzifə maaşlarına təbii iqlim şəraiti nəzərə alınmaqla yerli əmsalların təyin edilməsi, qulluq şəraiti həyat və sağlamlıq üçün təhlükəli olan, yaxud xüsusilə ağır olan dövlət orqanlarında vəzifə maaşları üçün artıq əmsal müəyyən edilməsidir. Bu əmsallar müvafiq orqanlar tərəfindən müəyyən edilir və dövlət büdcəsində nəzərdə tutulmuş əmək haqqı fondu həddində həyata keçirilir.





Dövlət qulluqçusuna həmçinin xidmətin ikinci ilindən başlayaraq vəzifədə qulluq stajına görə, qulluq stajının müddətindən asılı olaraq hər ay əlavə haqq ödənilir. Dövlət qulluqçusuna bu əlavə haqq 1 ildən 5 ilədək qulluq stajına görə aylıq vəzifə maaşının 5 faizi, 5 ildən 10 ilədək 10 faizi, 10 ildən 15 ilədək 20 faizi, 15 ildən yuxarı 30 faizi məbləğində ödənilir. Bu əlavə haqq orta əməkhaqqının hesablanması zamanı da nəzərə alınır.

Qulluq stajı hesablanarkən dövlət qulluqçusunun tutduğu vəzifədə çalışdığı dövr, dövlət qulluqçusu digər dövlət qulluğu vəzifəsinə keçirildikdə və qəbul edildikdə, əvvəlki dövlət qulluğundakı qulluq stajı, dövlət qulluğu vəzifəsinə qəbul olunmuş şəxsin həmin vəzifədə sınaq müddəti əsas götürülür. Eyni zamanda, məhkəmə və ya müvafiq səlahiyyətli orqan tərəfindən müəyyən edilmiş məcburi işburaxma dövrü, vəzifəsi və əməkhaqqı saxlanmaq şərti ilə, dövlət qulluqçusunun dövlət qulluğundan ayrıldığı və əmək qabiliyyətini müvəqqəti itirdiyi müddət və ödənişli məzuniyyət dövrləri də qulluq stajı hesablanarkən nəzərə alınır. Digər fasilələr qulluq stajına daxil edilmir. Bir mühüm cəhəti də qeyd etməliyik ki, "Dövlət qulluğu haqqında" qanun qüvvəyə minənədək qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında (o cümlədən Azərbaycan Respublikasının ərazisindən kənarda), habelə 1991-ci il oktyabrın 18-dək dövlət, sovet və partiya orqanlarında iş müddəti də dövlət qulluğu stajına daxil edilir. Qulluq stajının hesablanmasında dövlət qulluqçusunun əmək kitabçası əsas sənəd hesab edilir.

**Dövlət qulluqçularına verilən güzəştlərdən biri də ixtisas dərəcəsinə görə əlavə haqq ödənilməsidir.** Dövlət orqanlarında çalışan dövlət qulluqçularına verilmək üçün Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli fərmanı ilə tutduğu vəzifədən və iş stajından asılı olaraq həqiqi dövlət mü-

şaviri dərəcəsindən başlayaraq dövlət qulluğunun kiçik referentinədək 17 ixtisas dərəcəsi verilir. 3-cü dərəcə dövlət müşavirinədək ixtisas dərəcəsi dövlət orqanının rəhbəri, 3-cü dərəcədən yuxarı isə ölkə Prezidenti tərəfindən verilir və bu ixtisas dərəcələrinin hər biri üçün dərəcəyə uyğun olaraq yuxarısı 65 manat, aşağısı 10 manatadək əlavə haqq ödənilməsi nəzərdə tutulmuşdur.

Bundan başqa, "Dövlət qulluqçularının mükafatlandırılmasının növləri və qaydaları haqqında Əsasnamə"də göstərilir ki, dövlət qulluqçuları ilin nəticələrinə görə kollektiv və fərdi surətdə mükafatlandırıla bilər, eyni zamanda onlara mühüm dövlət tapşırıqlarının yerinə yetirilməsinə, habelə qanunvericiliklə müəyyən edilmiş milli bayram günləri və digər əlamətdar hadisələrlə əlaqədar mükafatlar verilə bilər. Mükafat verilməsi kifayət qədər əsaslandırılmalı, il ərzində əmək haqqının 3 mislindən çox olmamalıdır. Yaxşı işinə görə dövlət qulluqçusuna pul mükafatı əvəzinə qiymətli hədiyyələr də verilə bilər.

**Dövlət qulluqçularının layiqli həyat səviyyəsini təmin edən dövlət məvacibi və digər ödənişlərlə əlaqədar normativ hüquqi aktlardan biri "Dövlət orqanlarında dövlət qulluqçusuna vəzifədə qulluq stajına görə əlavə haqqın məbləğlərinin müəyyənləşdirilməsi Qaydaları"dır.** Hər bir vətəndaş kimi, dövlət qulluqçusu da öz əməyi müqabilində məvacib alır. Bu məvacibin məbləği səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, tələb olunan peşəkarlıq səviyyəsindən, vəzifədə qulluq stajından asılıdır. Dövlət məvacibi, daha konkret desək, vəzifə maaşından, mükafatlardan və vəzifə maaşına əlavələrdən ibarətdir. Bu əlavələr ixtisas dərəcəsinə, qulluq stajına və sair amillərə görə verilə bilər.

**Dövlət qulluqçularının sosial müdafiəsində "Dövlət qulluqçularının pensiya təminatı haqqında" Azərbaycan Respublikasının Qanunu mühüm yer tutur. Ümumiyyətlə, son illər ölkəmizdə geniş pensiya islahatları aparılmış, dövlət başçısı cənab İlham Əliyevin dediyi kimi, "indi yeni pensiya sis-**





**temi fəaliyyətdədir... əmək pensiyalarının baza hissəsi yaşayış minimumunun səviyyəsinə çatdırılmalıdır. Biz buna nail olacağıq".**

2004-cü il iyunun 1-də qəbul olunmuş, sonradan bir sıra dəyişikliklər edilmiş "Dövlət qulluqçularının pensiya təminatı haqqında" qanun dövlət qulluqçularının sosial müdafiəsini təmin edən əsas sənədlərdən biri hesab olunur. Qanunda pensiya təminatı haqqında qanunvericiliyin nədən ibarət olduğu, dövlət pensiyası almaq hüququ olan şəxslər, dövlət qulluqçularının pensiya seçmək hüququ, pensiyanın maliyyə mənbələri, təyin olunma şərtləri, miqdarı, onun hesablanması üçün nəzərə alınan dövlət məvacibi, təyin edilmə qaydası və müddətləri, pensiya ödənişinin dayandırılmasına səbəb olan hallar, pensiyanın yenidən hesablanması, artıq ödənilmiş pensiya məbləğinin tutulması, şəxs vəfat etdikdə alınmamış pensiyanın ödənilməsi və dəfn xərcinin verilməsi, xaricə köçmüş şəxslərə pensiyanın ödənilməsi məsələləri öz əksini tapmışdır.

Qanunda göstərilir ki, "Vətəndaşların pensiya təminatı haqqında", "Hərbi qulluqçuların pensiya təminatı haqqında", həmçinin bir sıra orqanlarda xidmətkeçmə haqqında qanunlarda müəyyən edilmiş pensiyaları almaq hüququna malik dövlət qulluqçularına onların arzuları ilə bir pensiya təyin edilir. Bundan başqa, dövlət qulluqçuları könüllü (əlavə) sosial sığorta hesabına digər pensiyalar almaq hüququna da malikdir. Pensiyaların miqdarı isə dövlət qulluqçusunun iş stajından və məvacibindən asılıdır. Qanunda müəyyən edilir ki, dövlət qulluğu vəzifəsində azı 5 il stajı olan şəxsə onun dövlət məvacibinin 45 faizi, 5 ildən 10 ilə qədər stajı olduqda dövlət məvacibinin 45 faizi, 5 ildən yuxarı qulluq stajının hər ili üçün dövlət məvacibinin 2 faizi miqdarında əlavə olunmaqla, 10 ildən 15 ilə qədər stajı olduqda dövlət məvacibinin 55 faizi, 10 ildən yuxarı qulluq stajının hər ili üçün dövlət məvacibinin 5 faizi miqdarında əlavə olunmaqla, lakin dövlət məvacibinin 80 faizi miqdarından çox olmamaqla pensiya təyin edilir.

Pensiyanın hesablanması üçün nəzərə alınan dövlət məvacibi müraciət edənin arzusuna əsasən onun müraciət etdiyi gündən əvvəlki dövlət qulluğunun 24 ayı və ya ardıcıl gələn istənilən 60 ayı ərzində aldığı dövlət məvacibindən, dövlət məvacibindəki sonrakı artırmalar da nəzərə alınmaqla hesablanır. Bu barədə təqdim edilmiş sənədlərə ən geci 10 iş günü müddətində baxılır. Qanunda digər məsələlər də konkret əks olunmuşdur.

**"Dövlət qulluqçularının pensiya təminatı haqqında" qanunun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli fərmanı ilə "Dövlət qulluqçularına pensiya təyin edilməsi üçün dövlət məvacibinin hesablanması Qaydaları" və "Dövlət qulluqçularının pensiyasının yenidən hesablanması Qaydaları" təsdiq edilmişdir.** "Dövlət qulluqçularının pensiyasının yenidən hesablanması Qaydaları"na görə, fəaliyyətdə olan dövlət qulluqçusunun dövlət məvacibinin məbləği dəyişdikdə, dövlət qulluqçusunun pensiyasının məbləği müddət məhdudiyyəti qoyulmadan, fəaliyyətdə olan dövlət qulluqçusunun dövlət məvacibinin məbləğinin sonrakı artımlarına uyğun olaraq yenidən hesablanır. Həmçinin məvacibə nisbətən faizlə müəyyənləşdirilən əlavələr (dövlət qulluqçusuna vəzifədə qulluq stajına görə əlavə haqq və s.) də yenidən hesablanır. Bu müddəa pensiyada olan dövlət qulluqçusunun və onun ailə üzvlərinin sosial müdafiəsinə daha etibarlı təminat verir.

"Dövlət qulluqçularına pensiya təyin edilməsi üçün dövlət məvacibinin hesablanması Qaydaları"na görə, pensiya təyin edilməsi üçün dövlət qulluqçusunun müraciət etdiyi vaxt dövlət məvacibinin hesablandığı dövlət qulluğu vəzifəsi mövcud olmadıqda, habelə 1991-ci il oktyabrın 18-dək dövlət, sovet, partiya orqanlarında çalışmış dövlət qulluqçularına pensiya təyin edilməsi üçün dövlət məvacibi onların həmin dövrdəki gəliri əsasında müəyyən edildikdə, dövlət məvacibi Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən vəzifələrin Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli fərmanında nəzərdə tutulmuş dövlət qulluğu vəzifələrinə uyğunlaşdırılması siyahısına müvafiq olaraq mövcud dövlət qulluğu vəzifəsi üzrə nəzərə alınır. Bu siyahı Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 sentyabr tarixli fərmanı ilə təsdiq olunmuş və beləliklə "Dövlət qulluqçularının pensiya təminatı haqqında" qanun daha geniş təbəqəni əhatə etmişdir.





Dövlət qulluqçularının pensiyası haqqında qanunvericilik sonradan ortaya çıxmış bəzi problemlərin aradan qaldırılması üçün daim təkmilləşdirilmişdir və bu iş davam edir. Bu baxımdan "Pensiya yaşına çatmasına və ya əlilliyinə görə könüllü işdən çıxmış və dövlət qulluğunda xidmət illərinin minimum həddinə malik olmayan dövlət qulluqçularına təyin edilən ömürlük müavinətin miqdarı haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanında göstərilir ki, belə şəxslərə axırıncı əsas vəzifəsi üzrə dövlət məvacibinin 15 faizi miqdarında ömürlük müavinət verilir.

Respublika Nazirlər Kabinetinin 2004-cü il 4 fevral tarixli qərarı ilə göstərilən dövlət qulluqçularına ömürlük müavinətin təyin olunması qaydası təsdiq edilmiş, onun ödənilmə müddətləri və digər məsələlər öz əksini tapmışdır.

Dövlət qulluqçularının sosial müdafiəsini daha dəqiq tənzimləmək məqsədilə müvafiq dövlət orqanları tərəfindən mövcud qanunvericiliyə uyğun olaraq qəbul edilmiş normativ aktları da qeyd etmək lazımdır. Bu sənədlər müxtəlif qaydalar və təlimatlardan ibarətdir və gündəlik işdə tətbiq olunur.

Respublikada aprelin 1-nə olan vəziyyətə görə 1 milyon 193 min 527 nəfər pensiyaçı var ki, onun da cəmi 0,7 faizi bilavasitə dövlət qulluğu pensiyası alır.

Dövlət qulluqçularının pensiyasından danışarkən bir məsələ üzərində də dayanmaq lazım gəlir. Bildiyiniz kimi, Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli fərmanı ilə inzibati və yardımçı vəzifələrin təsnifat toplusu təsdiq edilmişdir. Lakin bundan əvvəl mövcud olan bir sıra vəzifələr bu siyahıda olmadığına görə Azərbaycan Respublikası Prezidentinin

2005-ci il 1 sentyabr tarixli fərmanı ilə təsdiq edilmiş uyğunlaşdırma siyahısı ilə bu vəzifələr müəyyənləşdirilmişdir. Bu siyahı təsdiq edildikdən sonra bugünün özündə də sovet dövründə mövcud olan bir çox idarə və təşkilatların işçiləri özlərinin dövlət qulluqçusu hesab edilməsi və onlara dövlət qulluğu pensiyası təyin edilməsi barədə müraciətlər edirlər. Təbiidir ki, bu müraciətlər Dövlət Qulluğu Məsələləri Komissiyasında, respublika Nazirlər Kabinetində və digər orqanlarda öyrənilir, onların hüquqi cəhətdən əsaslılığı araşdırılır və müvafiq tədbirlər görülür.

Ümumiyyətlə, ölkə Prezidentinin fərmanı ilə bu məsələlərin dəqiqləşdirilməsi və siyahıya əlavələr edilməsi Nazirlər Kabinetinə tapşırıldığına görə Nazirlər Kabinetinin 2007-ci il 15 may tarixli qərarı ilə həmin siyahıya dəyişiklik edilmiş, bir sıra vəzifələr bu siyahıya daxil edilmişdir.

"Dövlət qulluğu haqqında" qanunda dövlət qulluqçularının mənəvi həvəsləndirilməsi cəhətdən də maraqlı müddəalar vardır. Məsələn, qanunda göstərilir ki, dövlət qulluqçularının xidmətdə peşəkarlıq səviyyəsinin artması, vəzifə borcuna və andına sədaqəti dövlət tərəfindən qiymətləndirilməlidir. Onun xidmətlərinin dövlət tərəfindən təsdiq edilməsi "Vətənə xidmətə görə" ordeninin üç dərəcəsi, "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə, digər orden və medallarla təltif olunmasından, habelə Azərbaycan Respublikasının fəxri adlarını almasından ibarətdir. Yeri gəlmişkən deyək ki, artıq "Azərbaycan Respublikasının "Vətənə xidmətə görə" ordeninin statusunun və təsvirinin təsdiq edilməsi barədə" 2003-cü il 7 noyabr tarixli, "Azərbaycan Respublikasının "Dövlət qulluğunda fərqlənməyə görə" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi barədə" 2003-cü il 7 noyabr tarixli qanunlar qəbul olunmuş, Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 14 may tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının fəxri adları haqqında Əsasnamə"yə müvafiq əlavələr edilmişdir. Ölkə Prezidenti tərəfindən müxtəlif idarəetmə orqanlarında çalışan dövlət qulluqçuları vaxtaşırı həmin təltiflərə layiq görülür. Bunlar dövlət qulluqçusunun öz işinə münasibətini daha da yaxşılaşdırmasını təmin edir, onun cəmiyyət qarşısında məsuliyyətini daha da artırır.





Şərh olunun müddəalar belə deməyə əsas verir ki, dövlət qulluqçularının sosial müdafiəsi dövlət tərəfindən kifayət qədər təmin olunmuşdur. Bu, onlardan böyük işgüzarlıq və məsuliyyət tələb edir, onların cəmiyyət və vətəndaşlar qarşısında vəzifə borcunu daha yaxşı dərk etməsinə şərait yaradır. Cəmiyyətin bundan görəcəyi fayda barəsində düşünsək, onu deyə bilərik ki, hər bir dövlət qulluqçusunun düzgün və məsuliyyətli işi ümumilikdə, hər bir vətəndaşın daha rahat yaşamasına kömək edəcək və cəmiyyətdə qanunların aliliyini təmin edəcəkdir.

*"Azərbaycan" qəzeti,*
*22 iyun 2007-ci il*

## DÖVLƏT QULLUQÇUSUNUN ETİK DAVRANIŞ QAYDALARININ ƏSAS MEYARI VƏTƏNDAŞA QAYĞIDIR

*Azərbaycan cəmiyyətinin mühüm bir təbəqəsini təşkil edən dövlət qulluqçuları artıq üçüncü ildir ki, özlərinin peşə bayramını qeyd edirlər. Hələ 2000-ci ildə ulu öndər Heydər Əliyevin imzaladığı "Dövlət qulluğu haqqında" Qanun əsasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2006-cı il 25 may tarixli sərəncamı ilə təsis edilmiş həmin peşə bayramı bu mühüm sahədə çalışan şəxslərə hər il böyük sevinc bəxş etməklə yanaşı, həm də dövlət qulluqçularının bütün xalq qarşısında mənəvi hesabatına çevrilir.*

Cəmiyyətimizin idarə olunması kimi məsul və şərəfli bir vəzifəni üzərinə götürən, dövlətin siyasətini bilavasitə həyata keçirən bu təbəqənin məsuliyyəti və cavabdehliyi gündən-günə artır. Tutduğu vəzifənin böyük və ya kiçikliyindən asılı olmayaraq, hər bir dövlət qulluqçusu çox gözəl bilir ki, onun üzərinə dövləti təmsil etmək kimi şərəfli bir vəzifə düşür və bu vəzifəni vicdanla, ləyaqətlə yerinə yetirməlidir.

***Müstəqillik yolunda uğurla irəliləyən Azərbaycanın bugünkü qələbələrinin siyasi və iqtisadi əsaslarını yaratmış ulu öndərimiz Heydər Əliyevin həyat yolu, dövlətçilik fəaliyyəti xalqa fədakarcasına xidmət nümunəsi olmuş və daim nümunə olaraq qalacaqdır. Heydər Əliyevin bütün insani keyfiyyətləri etalon sayıldığı kimi, idarəçilik sahəsində fəaliyyəti də dövlət qulluqçusunu səciyyələndirən ən yüksək meyar sayıla bilər. Onun dövlətçilik ənənələri və dövlət qulluqçusu üçün olduqca zəruri olan keyfiyyətləri ulu öndərimizin layiqli davamçısı hörmətli Prezidentimiz İlham Əliyev tərəfindən bu gün yaşadılır və böyük bacarıqla davam etdirilir.***

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş uğurlu





dövlət quruculuğu siyasətinin ardıcıl həyata keçirilməsi nəticəsində respublikamızda dövlət idarəetmə sisteminin, o cümlədən dövlət qulluğunun təkmilləşdirilməsi üçün mühüm işlər görülür. Ölkə başçısı cənab İlham Əliyevin diqqəti sayəsində ölkənin idarə olunmasında mühüm rol oynayan dövlət qulluqçularının fəaliyyəti daha yaxşı təşkil olunur, dövlət qulluqçularına qayğı və tələbkarlıq daha da artır, bu sahədə şəffaflıq ön plana çəkilir.

Bu gün Azərbaycan Respublikasının regionun ən güclü dövlətlərindən birinə çevrilməsində, Azərbaycanın beynəlxalq nüfuzunun gündən-günə artmasında, ölkədə demokratik proseslərin getdikcə sürətlənməsində və misilsiz quruculuq işlərinin yerinə yetirilməsində ölkə rəhbərliyinin siyasi xəttini yerinə yetirən dövlət qulluqçularının əməyini danmaq olmaz.

***İndi Azərbaycanda dövlət hakimiyyətinin ən müxtəlif qurumlarında çalışan dövlət qulluqçularının sayına nəzər saldıqda, bu rəqəmin 2005-ci ildəki 25735 nəfərə nisbətən xeyli artaraq 2008-ci ilin I rübündə 27670 nəfərə çatdığını görürük. Bu da əmək qabiliyyətli əhalinin 0,3 faizini təşkil edir. Bu illər ərzində dövlət qulluqçularının maddi vəziyyətinin yaxşılaşdırılması üçün mütəmadi tədbirlər görülmüş, onların respublika üzrə orta aylıq əmək haqqı 181,6 manatdan 259,2 manata çatmış, pensiya təminatı xeyli yüksəlmişdir.***

Rəqəmlərdən göründüyü kimi, dövlət qulluqçularının sayı ildən-ilə artır. Bu, hər şeydən əvvəl müstəqilliyini gündən-günə möhkəmlədən ölkəmizin idarə olunmasını daha da yaxşılaşdırmaq məqsədilə yaradılan yeni dövlət qurumlarının fəaliyyətə başlaması ilə əlaqədardır. 2003-cü ildən sonra dövlət tənzimlənməsi və idarəçiliyi sahəsində mühüm əhəmiyyətə malik Fövqəladə Hallar, Sənaye və Energetika, Müdafiə Sənayesi, Nəqliyyat nazirlikləri, Dövlət Əmlakının İdarə Edilməsi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət komitələri, Dövlət Miqrasiya Xidməti, Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti, Məhkəmə-Hüquq Şurası və Azərbaycan Respublikasının Korrupsiyaya

Qarşı Mübarizə üzrə Komissiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya və s. qurumlar yaradılaraq fəaliyyətə başlamışlar.

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu il 28 May - Respublika Günü münasibətilə "Gülüstan" sarayında keçirilən rəsmi qəbulda qeyd etmişdir: "Bu gün həm iqtisadi inkişaf baxımından, həm də respublikada gedən siyasi islahatlar baxımından ölkəmiz çox dinamik şəkildə inkişaf edir. Azərbaycanda demokratikləşmə prosesləri çox sürətlə inkişaf edir və vətəndaş cəmiyyətinin yaranmasında, hüquqi dövlətin qurulmasında, qanunun aliliyinin bərqərar olunmasında çox böyük işlər görülübdür və gələcəkdə çox böyük işlər görüləcəkdir".***

Görülən işlər isə artıq göz qabağındadır. ***"Biz xalq üçün çalışırıq, xalq üçün yaşayırıq və işləyirik"*** prinsipini əsas fəaliyyət kredosu kimi qəbul edən, hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu öz praktiki işləri ilə sübut edən cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin xüsusilə son beş ildə qazandığı nailiyyətlər bütün dünyanı heyrətə gətirir. Bu gün ümummilli liderimiz Heydər Əliyevin başladığı uğurlu neft strategiyasının böyük məharətlə həyata keçirilməsi nəticəsində Azərbaycana daxil olan külli miqdarda valyuta ehtiyatlarının bir qismi məhz xalqımızın güzəranının yaxşılaşdırılması, təkcə bugünkü nəsillərin deyil, gələcək nəsillərin də xoşbəxt yaşamasına şərait yaradılması üçün sərf olunur.

Qısa müddət ərzində Azərbaycanda istifadəyə verilmiş ölkə əhəmiyyətli obyektlərin sayı əvvəlki illərdəkindən heç də az deyildir. Dərindən düşünülmüş və elmi cəhətdən əsaslandırılmış proqramların hazırlanması və icrasına başlanması, Azərbaycanın yüksək iqtisadi sıçrayışına və stabil inkişafına etibarlı zəmin yaradan nəhəng quruculuq işləri hər bir Azərbaycan vətəndaşında qürur doğurur. Bu gün ölkədə elə böyük layihələr həyata keçirilir ki, 5-10 il əvvəl bunu heç xəyalımıza gətirə bilməzdik. Bu, iqtisadi tərəqqinin bazası olan böyük müəssisələrin, su elektrik və





modul stansiyaların, böyük dəryaçaların tikilməsində, qeyri-neft sektorunun inkişaf etdirilməsində, yeni sənaye sahələrinin yaradılmasında, yeni kanalların və su kəmərlərinin çəkilməsində, müasir idman komplekslərinin, turizm mərkəzlərinin tikilib istifadəyə verilməsində və sair işlərdə özünü aydın göstərir. Bunların hamısı son nəticədə Azərbaycan xalqının ən inkişaf etmiş ölkələrin xalqları səviyyəsində yaşamasına gətirib çıxarmalıdır.

Dövlətimizin başçısı cənab İlham Əliyev istər beynəlxalq münasibətlərdə, istər daxili siyasətdə dövlətin yeritdiyi siyasətin xalq tərəfindən dəstəkləndiyini və bunun gələcəkdə islahatların davam etdirilməsi üçün əlavə qüvvə verdiyini qeyd edərək inamla bildirir:

***"Mən şübhə etmirəm, biz qarşıda duran vəzifəyə - Azərbaycanın inkişaf etmiş ölkəyə çevrilməsinə nail olacağıq. Bunun üçün imkanlar var: həm xalqımızın istedadı, həm xalqla iqtidar arasında olan birlik, həm də bizim coğrafi vəziyyətimiz, enerji resurslarımız, nəqliyyat imkanlarımız, bölgədə artan rolumuz, nüfuzumuz, qonşu, dost ölkələrlə işgüzar münasibətlərimiz, Azərbaycanın dünya miqyasında artan nüfuzu və rolu. Bax, budur bizim uğurumuzu şərtləndirən amillər. Mən şübhə etmirəm ki, Azərbaycan dövlət müstəqilliyi yolunda daha da böyük nailiyyətlərə çatacaqdır".***

Cənab Prezident 2008-ci il mayın 27-dəki çıxışında bir daha Azərbaycanın qarşısında heç bir maneə görmədiyini bildirir, sadəcə, qəbul olunmuş bütün qərarların vaxtlı-vaxtında icra edilməsini və ciddi ictimai nəzarətin olmasını vacib məsələ kimi qarşıya qoyur.

Ölkə Prezidenti öz çıxışlarında dəfələrlə qeyd etmişdir: ***"Mən istəyirəm ki, Azərbaycanda hər şey yaxşı olsun. İstəyirəm ki, ölkəmiz daha da güclü olsun, xalqımız rahat yaşasın, xalqı narahat edən problemlər aradan qaldırılsın, məmurlar öz vəzifə borcuna məsuliyyətlə yanaşsınlar. Hər bir məmur, ilk növbədə, elə etməlidir ki, onun sahəsində irəliləyiş olsun, tərəqqi olsun, yaxşı nəticələr olsun. Birbaşa xalqla ünsiyyətdə***

***olan məmurlar elə etməlidirlər ki, insanlar onların fəaliyyətindən razı olsunlar. Diqqətli olmalıdırlar, yaddan çıxarmamalıdırlar ki, biz xalq üçün çalışırıq, əksinə deyil. Bizim vəzifəmiz xalqa xidmət etməkdir. Məni xalq Prezident seçibdir ki, xalqa öz xidmətimi göstərim. Mən icra strukturlarını formalaşdırdım ki, biz hamımız xalqa xidmət göstərək, ölkəmizi gücləndirək və güclü Azərbaycan dövlətini yaradaq".***

Cənab Prezidentin qarşıya qoyduğu bu vəzifələr dövlət qulluqçularından öz işlərini məhz bu istiqamətdə qurmağı tələb edir. Çünki dövlət qulluqçularının fəaliyyəti həmişə cəmiyyətin diqqət mərkəzində olur, onların hər bir addımı, hər bir hərəkəti sıravi vətəndaşlar tərəfindən diqqətlə izlənilir, bütövlükdə hər bir vətəndaş öz gündəlik həyatında rastlaşdığı problemlərin həllində onlara böyük ümidlər bəsləyir və onlar bu ümidləri mütləq doğrultmalıdırlar. Vətəndaşlar ilk növbədə dövlət qulluqçusunun gündəlik davranışına, onun saflıq və təmizliyinə diqqət yetirir, müraciət etdiyi hər bir vəzifəli şəxsdən öz vəzifəsinə daha vicdanla yanaşmasını tələb edir. Vətəndaşın dövlət orqanlarına etimadı isə onun gündəlik həyatda qarşılaşdığı problemlərin həllinə dövlət məmurlarının münasibətilə ölçülür və bununla qiymət verilir. Dövlət qulluğuna dair indiyədək qəbul edilmiş bütün qanunvericilik aktlarının əsas məqsədi və məzmunu məhz dövlət qulluqçularının vətəndaşa və vəzifə borcuna düzgün münasibətini tənzimləməyə yönəlmişdir.

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2007-ci ilin avqustunda imzaladığı "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Qanunda dövlət qulluqçusundan tələb olunan əsas davranış normaları əks etdirilmişdir. Ümummilli lider Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanıb qəbul olunmuş yeni Konstitusiyamızdan irəli gələn "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Qanun üzərində bir qədər geniş dayanmaq istərdik. Bu qanunu əslində dövlət qulluqçusunun əxlaq kodeksi də adlandırmaq olar.***





Qanunun "Xidməti davranış qaydaları" fəslində vicdanlı xidməti davranış, peşəkarlıq və fərdi məsuliyyətin artırılması, loyallıq, ictimai etimad, insanların hüquq, azadlıq və qanuni maraqlarına, şərəf və ləyaqətinə, işgüzar nüfuzuna hörmət, mədəni davranış, qərəzsizlik, maddi və qeyri-maddi nemətlərin, imtiyazların və ya güzəştlərin əldə edilməsinə yol verilməməsi, korrupsiyanın qarşısının alınması, hədiyyə alma ilə əlaqədar məhdudiyyətlər, əmlakdan istifadə, məlumatlardan istifadə, ictimai və siyasi fəaliyyət kimi məsələlər öz əksini tapmışdır.

***Xidməti davranış qaydaları dövlət qulluqçusundan ilk növbədə bunu tələb edir ki, o, bütün hallarda digər həmkarları və ictimaiyyət üçün vicdanlılıq nümunəsi olmalı, öz işini ona verilmiş səlahiyyətlər çərçivəsində peşəkarlıqla yerinə yetirməli, öz etik davranışı və peşəkar fəaliyyəti ilə dövlət orqanlarına inamı artırmalı və möhkəmləndirməlidir. Dövlət qulluqçusu loyallığını saxlamalı, dövlət qulluğu ilə bağlı vəzifələrin icrası ilə bir araya sığmayan, onun adına xələl gətirə biləcək, habelə dövlət orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməlidir.*** Qanunda dövlət qulluqçusundan birmənalı tələb olunur ki, o, bütün şəxslərə, o cümlədən birbaşa və yuxarı rəhbərinə, tabeliyində olan şəxslərə münasibətdə nəzakətli, xeyirxah, diqqətli və səbirli olsun. Dövlət qulluqçusu öz fəaliyyətində o zaman obyektiv mövqe tuta bilər ki, məsələlərə qərəzsiz yanaşsın, qərar qəbul edərkən hər hansı şəxsin və ya şəxslər qrupunun üstünlüyünə yol verməsin, siyasi bitərəfliyə əməl etsin. Bu tələblərin hamısı dövlət orqanının və dövlət qulluğunun nüfuzunu yüksəltməyə, ictimai etimadı doğrultmağa xidmət edir.

Qəbul edilmiş bu qanunun əsas xüsusiyyəti dövlət qulluqçularına verilən tələbləri müəyyən etmək, qanunun aliliyi prinsipini hər bir dövlət qulluqçusunun fəaliyyətində əsas meyara çevirməkdir.

Əgər kimsə həmin vəzifəni layiqincə yerinə yetirə bilmirsə, yaxud yerinə yetirmək istəmirsə, ondan öz şəxsi maraqları və mənafeləri naminə istifadə edirsə, son nəticədə dövlətimizə və

dövlətçiliyimizə, ümumən xalqımızın, millətimizin mənafeyinə zərbə vurmuş olur. Dövlət qulluqçuları cəmiyyətin gözündə məhz hakimiyyətin, dövlətin təmsilçiləri olduğuna görə insanların onlardan gözlədikləri, necə deyərlər, umduqları da çoxdur. Bu ilk növbədə vətəndaşın öz probleminin həllində dövlətin qayğı və diqqətini görməsində, özünü güclü və qüdrətli bir dövlətin vətəndaşı hiss etməsində ifadə olunur. Dövlət qulluqçularının işgüzar keyfiyyətləri, təşkilatçılıq qabiliyyəti və peşəkarlığı təmsil etdiyi dövlətin vətəndaşlarına qayğısı və səmimi münasibəti ilə ölçülür. Daha doğrusu, dövlət qulluqçusunun fəaliyyətinə onun sıravi vətəndaşların gündəlik və ümumi problemlərinin həlli üçün gördüyü işlərə görə qiymət verilir.

Dövlət qulluğunun gündən-günə daha yaxşı təşkili üçün görülən bütün işlərə baxmayaraq təbiidir ki, dövlət qulluqçularının fəaliyyətindən cəmiyyətin bütün hissəsinin tam razı olduğunu, bürokratik əngəllərin, süründürməçilik və biganəlik hallarının bütün idarə və təşkilatlarda tamamilə aradan qaldırıldığını demək hələ çətindir.

Ölkə başçısının dövlət qulluqçularından əsas tələbi isə bilavasitə xalqın narazılığına səbəb olan heç bir hərəkətə yol verməməkdir. O, öz sözünü qəti şəkildə demişdir: ***"Mənim yerlərdəki nümayəndələrimdən tələbim də bundan ibarətdir. Xalq sizdən razı olmalıdır. Siz xalq üçün yaşamalı, yaratmalısınız, xalqın qayğıları ilə yaşamalısınız və xalqa xidmət etməlisiniz. Bu bizim hamımızın borcudur və biz bu borcu şərəflə yerinə yetirməliyik".***

"Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Qanun cənab Prezidentin dövlət qulluqçularının qarşısında qoyduğu əsas tələblərin onların gündəlik həyat normasına çevrilməsinə xidmət edir. Cəsarətlə demək olar ki, bu qanun dövlət orqanlarının, dövlət qulluğunun nüfuzunu artırmaqla yanaşı, ilk növbədə dövlət qulluqçusunun şərəf və ləyaqətinin yüksəldilməsinə yönəldilmiş qanundur. Çünki bu qanunla dövlət qulluqçuları üçün etik davranış qaydaları və prinsipləri, onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmlər müəyyən edilir.





Əlbəttə, bütün dövlət qurumlarının və bu qurumlarda çalışan dövlət qulluqçularının qarşısında duran əsas vəzifə ölkənin iqtisadi və müdafiə potensialını gücləndirməklə yanaşı, son nəticədə ölkə vətəndaşlarının həyat səviyyəsini yüksəltmək, onların öz dövlətinə və dövləti təmsil edən orqanlara inamını, etimadını artırmaqdır. "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Qanunda bu məsələyə xüsusi diqqət yetirilir və "Xidməti davranış qaydaları" fəslində göstərilir ki, ***"Dövlət qulluqçusu etik davranışı və öz peşəkar fəaliyyəti ilə dövlət orqanlarına hüquqi və fiziki şəxslərin inamını artırmalı və möhkəmləndirməlidir".***

Dövlət qulluğunda əsas cəhətlərdən biri də dövlət qulluqçularının fəaliyyətindəki şəffaflığın təmin edilməsi, onların arasında korrupsiya hallarına yol verilməsinin aradan qaldırılmasıdır. Bu məqsədlə yaradılmış Azərbaycan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyasının, Məhkəmə-Hüquq Şurasının, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın fəaliyyəti təqdirəlayiq hesab edilməlidir.

Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına respublikanın bütün bölgələrindən daxil olan vətəndaş müraciətlərinin təhlili göstərir ki, son illərdə cənab Prezidentin ölkənin iqtisadi qüdrətinin artırılması, insanların həyat səviyyələrinin yüksəldilməsi sahəsində gördüyü böyük işlər nəticəsində vətəndaşların bir çox problemləri həll olunmuş, onların gündəlik qayğılarının vaxtında və operativ həll edilməsi üçün bilavasitə ölkə rəhbərliyindən asılı olan işlər görülmüşdür. Bunu hər gün ölkə Prezidentinə ünvanlanmış onlarla minnətdarlıq və təşəkkür məktubları da təsdiq edir. Təkcə 2007-ci ildə cənab Prezidentin ünvanına daxil olmuş minnətdarlıq məktublarının və vətəndaşların fəal həyat mövqeyini əks etdirən təkliflərin sayı azı 3 dəfə artmışdır.

Bununla yanaşı, vətəndaşların müraciətlərindən bəlli olur ki,

hələ də bir sıra nazirliklərdə, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında çalışan dövlət qulluqçuları öz gündəlik işlərində cənab Prezidentin bu sahədə qarşıya qoyduğu tələblərə, o cümlədən dövlət qulluqçularının fəaliyyətini tənzimləyən normativ aktlarda göstərilən normalara lazımınca əməl etmirlər.

Bizi narahat edən məsələlərdən biri də məhz yerlərdə çalışan dövlət məmurları tərəfindən həll olunmalı məsələlər barəsində vətəndaşların bilavasitə Prezidentin İcra Aparatına müraciət etməsidir. Təəssüf ki, ötən il hüquq mühafizə və məhkəmə orqanlarının fəaliyyəti ilə yanaşı, bəzi şəhər və rayon icra hakimiyyətlərinin fəaliyyətindən narazılıq ifadə edilən müraciətlər də az olmamışdır. Bu, ilk növbədə bəzi şəhər və rayon icra hakimiyyətləri aparatlarında vətəndaşların qəbulunun lazımınca təşkil edilməməsinin, yaxud onların müraciətlərinə qarşı göstərilən biganəliyin nəticəsidir.

Prezidentin İcra Aparatının səyləri nəticəsində bir çox şəhər və rayonlarda vətəndaşların fərdi qəbulu yaxşılaşmışdır. Son vaxtlar şəhər və rayon İHB-ləri tərəfindən yerlərdə keçirilən səyyar qəbulların sayı artmış, hər bir qəsəbənin və kəndin ümumi problemləri sakinlərin birbaşa iştirakı ilə müzakirə edilərək onların həlli üçün lazımi tədbirlər görülməyə başlamışdır. Eyni zamanda İcra Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi tərəfindən ölkənin mərkəzi və yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətlərinə baxılması vəziyyətinin öyrənilməsinə diqqət artırılmışdır. Gələcəkdə bu təhlillər daha geniş aparılacaqdır.

Ümumiyyətlə, vətəndaşların şikayət ərizələrinin məzmunu ilə tanış olduqda, müraciətlərdə qaldırılan problemlərin həlli üçün o qədər də böyük vəsait və ya imkan tələb olunmadığı görünür. Halbuki, cənab Prezident birmənalı olaraq qeyd edir ki, ***fərdi qaydada vətəndaşların ərizələrinə daha da böyük diqqətlə yanaşılmalıdır. Harada imkan varsa, kömək edilməlidir. İmkan yoxdursa, mərkəzi orqanlara müraciət olunmalıdır.*** Bəzən vətəndaş onu narahat edən məsələ barədə müvafiq dövlət orqanı rəhbərinin, icra hakimiyyəti başçısının, yaxud digər vəzifəli şəxsin qəbuluna düşmək üçün Prezidentin İcra Aparatının Qəbul otağına müraciət edir. Təbiidir ki, vətəndaş ilkin olaraq üz tutduğu idarədə onu narahat edən məsələlər barədə qaneedici cavab alsa, daha yuxarı instansiyalara müraciət etməz.





Belə halların aradan qaldırılması və müvafiq intizam tədbirləri görülməsi üçün yuxarıda göstərilən qanunda kifayət qədər ciddi səlahiyyətlər verilmişdir. Qanunda xidməti davranış qaydalarına əməl olunmasına nəzarətin həyata keçirilməsi müvafiq dövlət orqanının rəhbərinə, yaxud nəzarət orqanına həvalə edilmişdir.

Biz bütün dövlət qulluqçularını peşə bayramı münasibətilə təbrik etməklə yanaşı, inanırıq ki, onlar təmsil etdikləri dövlət orqanının etimadını, öz şərəf və ləyaqətlərini, ən başlıcası, hər bir vətəndaşın onlara bəslədikləri ümidləri tam doğruldacaqlar.

***"Xalq qəzeti",***
***21 iyun 2008-ci il***

## DÖVLƏT QULLUĞUNUN ƏSAS MEYARI DÖVLƏTƏ SƏDAQƏT VƏ XALQA XİDMƏTDİR

***Müstəqillik yolunda uğurla irəliləyən Azərbaycan Respublikasının regionda gündən-günə güclənməsi və beynəlxalq aləmdə öz nüfuzunu möhkəmləndirməsi Ulu öndərimiz Heydər Əliyevin dövlət idarəetmə sistemində həyata keçirdiyi islahatlardan başlamışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu islahatları qətiyyətlə davam etdirməsi sayəsində ölkəmizin qüdrəti gündən-günə yüksəlir.*** Bu gün inamla demək olar ki, respublikada müasir tələblərə cavab verən dövlət idarəetmə sistemi yaradılmış, hakimiyyətin bütün qollarının funksiyaları dəqiq müəyyənləşdirilmiş, vətəndaşların hüquq və azadlıqlarının qorunması və həyata keçirilməsi üçün bütün zəruri təsisatlar yaradılmışdır.

Azərbaycanda dövlət qulluqçusunun funksiyaları, hüquq və vəzifələri bu sahədə əsas normativ hüquqi akt olan "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunudur. Həmin Qanun qəbul edildikdən sonra isə Azərbaycan Respublikasının Konstitusiyasında müəyyən edilən insan hüquq və azadlıqlarının təmin olunmasına xidmət edən digər normativ hüquqi aktlar qəbul edilmiş və bu sahədə dünya təcrübəsini nəzərə alan geniş hüquqi baza yaradılmışdır.

2000-ci ildə "Dövlət qulluğu haqqında" Qanun imzalandıqdan sonra indiyədək onun həyata keçirilməsini təmin edən hüquqi bazanın yaradılması üçün 49 qanun, 103 fərman və sərəncam və 5 qərar qəbul edilmişdir. Həmin aktlardan "Dövlət qulluqçularının icbari sığortası haqqında", "Dövlət qulluqçusunun etik davranış qaydaları haqqında" qanunları, Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi Qaydalarının, Dövlət orqanlarında dövlət qulluqçusuna vəzifədə qulluq stajına görə əlavə haqqın müəyyənləşməsi Qaydalarının, İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunun təsdiq edilməsi haqqında fərmanları və s. aktları qeyd etmək lazımdır. Bu sənədlər Azərbaycanda dövlət qulluğunun əsas istiqamətlərini əhatə edərək dövlət qulluqçularının fəaliyyəti üçün lazımi hüquqi zəmin, müvafiq icra və nəzarət mexanizmini formalaşdırmışdır.





Bütün bunlar cəmiyyətdə sosial ədaləti və cəmiyyət üzvlərinin layiqli həyat tərzini təmin etmək, demokratik təsisatları inkişaf etdirmək, elmin, mədəniyyətin və təhsilin səviyyəsini yüksəltmək üçün dövlət qulluqçuları qarşısında geniş imkanlar açmışdır. Burada dövlət qulluqçusunun təkcə peşəkarlıq xüsusiyyətləri deyil, onun şəxsi keyfiyyətləri də, o cümlədən vətəndaş mövqeyi, vətənpərvərliyi, etik davranışı da mühüm rol oynayır.

Ümumiyyətlə, dövlət qulluğu təkcə geniş səlahiyyətlər deyil, eyni zamanda cəmiyyətdə gedən proseslərin idarə olunması və cəmiyyətin inkişafı üçün məsuliyyət deməkdir. Bu işdə çalışanlardan rəhbərlik etdiyi sahəni dərindən bilməklə yanaşı, dövlətinə və xalqına son dərəcə sədaqətli olmaq, dövlətlə xalq arasında əlaqələndirici vasitə kimi xalqın problemlərini və qayğılarını öyrənmək, onların həlli yollarını axtarıb tapmaq tələb olunur. Ona görə də bütün dünyada dövlət qulluğu xüsusi nüfuza malikdir. Dövlət qulluqçusu heç vaxt unutmamalıdır ki, o, idarəetmə və digər funksiyalarını icra edərkən ilk növbədə dövlətin və cəmiyyətin mənafeyini əsas götürməli, ona tapşırılan hər bir vəzifəni böyük məsuliyyət və ləyaqətlə yerinə yetirməlidir. Çünki dövlət qulluqçusunun andında onun üzərinə götürdüyü öhdəliklər aydın və konkret ifadə olunmuşdur: "Dövlət qulluğu haqqında" Qanunda dövlət qulluqçusunun andı təsdiq olunmuşdur. Orada deyilir: ***"Azərbaycan Respublikasına sadiq olacağıma, onun Konstitusiyasına dönmədən əməl edəcəyimə, dövlət sirrini və xidməti sirri qoruyacağıma, dövlət qulluğunun mənə verdiyi hüquqları və üzərimə qoyduğu vəzifələri qərəzsiz, vicdanla, ancaq qanuna uyğun surətdə, var gücümlə və Vətənin mənafeyi naminə həyata keçirəcəyimə and içirəm".***

Dövlət qulluqçusunun bütün fəaliyyəti müvafiq qanunlar və

digər normativ hüquqi aktlarla tənzimlənməsinə baxmayaraq onun prinsipiallığı, işgüzarlığı və səriştəsindən də çox şey asılıdır. Qanunların icrası lazımınca təmin edilməli, qanunlar işləməli, real həyatda onlara əməl olunmalıdır. Bu baxımdan dövlət qulluqçularının üzərinə xüsusi məsuliyyət düşür. Vaxtilə Almaniya kansleri Bismark göstərirdi ki, pis qanunlarla dövləti yenə bir təhər idarə etmək olar, ancaq pis məmurlar olarsa, onda heç bir qanun kömək etməz. Ona görə də dövlət qulluğunun əsas cəhətlərindən biri yüksək keyfiyyətli və mütəşəkkil dövlət qulluqçuları kontingentinin olmasıdır. Çünki cəmiyyətin idarə olunması funksiyalarını həyata keçirən dövlət qulluqçuları dövlətlə xalq arasında mühüm vəsilə olaraq ölkə rəhbərliyinin siyasi xəttini ardıcıl həyata keçirməkdə yaxından iştirak edirlər.

Bu gün respublikamızda fəaliyyət göstərən müxtəlif nazirliklər, komitələr və digər dövlət qurumlarında 27 min 977 nəfər dövlət qulluqçusu çalışır ki, bunların üzərinə böyük və məsul vəzifələr düşür. İlk baxışda dövlət qulluqçularının sayı çox görünsə də, əslində onlar əmək qabiliyyətli Azərbaycan əhalisinin çox cüzi bir hissəsini - 0,3 faizini təşkil edir. Müqayisə üçün bildirək ki, bu göstərici İsveçdə 9,4 faiz, Avstriyada 5,9 faiz, Fransada 5 faiz, Almaniyada 3 faiz, Rusiya Federasiyasında 0,8 faiz, Ukraynada 0,5 faizdir.

Müstəqillik illərində Azərbaycanda hüquqi dövlətin qurulması, idarəetmə sisteminin təkmilləşdirilməsi, ölkənin daha yaxşı idarə olunması üçün zəruri olan tədbirlər görülmüş, bir çox strukturlar ləğv edilmiş və yeni idarəetmə orqanlarının yaradılması davam etdirilmişdir. Hazırda respublikada 20 nazirlik, 11 dövlət komitəsi, 8 mərkəzi icra hakimiyyəti orqanı, 3 dövlət şirkəti, 20-dək səhmdar cəmiyyəti, bir sıra məhkəmə və hüquq mühafizə orqanları, dövlət agentlikləri, nəqliyyat təşkilatları və digər mərkəzi təşkilatlar fəaliyyət göstərir. Bu orqanların dövlət quruculuğunda və ölkənin idarə olunmasında rolunu artırmaq və işini səmərəli təşkil etmək üçün vaxtaşırı olaraq onların əsasnamə və nizamnamələrində, eləcə də strukturlarında müvafiq də-





yişikliklər edilir, vəzifələri və funksiyaları dəqiqləşdirilir.

Dövlət idarəetmə orqanlarının işini daha səmərəli və müasir tələblər səviyyəsində qurmaq üçün idarəetmə sistemində informasiya texnologiyalarının daha geniş tətbiq edilməsi də nəzərdən qaçırılmır. Bu məqsədlə icra hakimiyyəti orqanlarının Mərkəzləşdirilmiş İnformasiya Sistemi yaradılmış və informasiya sisteminin və infrastrukturunun inkişaf etdirilməsi, elmi-texniki potensialının yüksəldilməsi üçün müvafiq işlər aparılır. Bu sistemin tətbiqi indiki dövlət qulluqçularından elmi-texniki hazırlığın yüksəldilməsini, informasiya texnologiyalarından istifadə vərdişlərini artırmağı tələb edir.

Bu gün respublikada dövlət qulluqçularının sosial müdafiəsi kifayət qədər təmin olunmuş, maddi vəziyyətlərinin yaxşılaşdırılması barədə müvafiq tədbirlər görülmüş, ölkənin maddi imkanları artdıqca əhalinin digər təbəqələri kimi bu sahədə çalışanların da əmək haqqı xeyli artırılmışdır.

Dövlət qulluqçularının vəziyyətini əks etdirən bəzi məlumatlar, yəqin ki, oxucular üçün maraqlı olar. Respublikada 2005-ci ilə nisbətən dövlət qulluqçularını əmək haqqı orta hesabla təqribən 50 faizə qədər artaraq 2008-ci ildə 345 manatdan artıq olmuşdur.

Dövlət qulluqçularının böyük əksəriyyətini kişilər, cəmi 28,5 faizini isə qadınlar təşkil edir. Onların yaş üzrə tərkibi göstərir ki, burada təcrübəli insanlarla yanaşı, gənc nəslin nümayəndələri də lazımınca təmsil olunur, idarəçilik təcrübəsi olan mütəxəssislərin fəaliyyəti müasir düşüncə tərzinə və biliklərə malik olan gənclərin enerjisi ilə birləşərək dövlət qulluğunun daha səmərəli təşkil olunmasına imkan verir. Bütövlükdə dövlət qulluğunda çalışanların 30,4 faizi 45-54, 24,7 faizi 35-44, 12,4 faizi 30-34, 16,4 faizi 30 yaşadək olan şəxslərdir. Onların 84,5 faizi müvafiq ixtisas dərəcəsi almışdır. Təbiidir ki, dövlət qulluqçularının 37,6 faizi Bakı şəhərində fəaliyyət göstərir.

Yuxarıda göstərilən rəqəmlərdən görünür ki, əhalinin cüzi bir hissəsini təşkil edən dövlət qulluqçuları sayının az olmasına

baxmayaraq, çox mühüm vəzifələri yerinə yetirməli, cəmiyyətin inkişafına təkan verməli, ölkə Prezidentinin qarşıya qoyduğu böyük vəzifələrin yerinə yetirilməsini təmin etməlidirlər. ***Fəxrlə demək olar ki, respublika rəhbərliyinin real və praqmatik siyasəti ölkəmizin sürətli inkişafına yol açır, iqtisadi potensialımız artdıqca xalqımızın güzəranı da gündən-günə yaxşılaşır.***

Bu gün bütün dünya qlobal iqtisadi böhran nəticəsində böyük çətinliklərlə qarşılaşır, ancaq Azərbaycanda bu çətinliklər o qədər də hiss olunmur, əksinə, ölkə Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, ***Azərbaycan hətta ən böhranlı günlərdə, aylarda göstərdi ki, biz uğurla inkişaf edə bilərik. İqtisadiyyatımız böhrana baxmayaraq, 4 ayda 4,5 faiz artmışdır. Qeyri-neft iqtisadiyyatı təxminən 14 faiz artmışdır.***

Dövlətimizin başçısı cənab İlham Əliyevin dövlət qulluqçularının qarşısında qoyduğu əsas tələblərdən biri budur ki, onlar xalqa xidmət etməli, xalqın qayğıları ilə yaşamalıdırlar. Cənab Prezident deyir: ***"İstər ölkə prezidenti olsun, istər icra hakimiyyətinin başçısı olsun, hansısa başqa sahəyə rəhbərlik etsin, hər bir rəhbərin vəzifəsi ondan ibarətdir ki, mövcud olan problemləri aradan qaldırsın və insanları narahat edən məsələləri həll etsin".***

Respublikada dövlət qulluqçularının peşəkarlığını artırmaq məsələləri daim diqqət mərkəzində saxlanılır. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası yaradılmışdır. Dövlət qulluqçularının hazırlanmasında, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında çalışan dövlət qulluqçularının peşə səviyyəsinin yüksəldilməsində, bu məqsədlə açılan ixtisasartırma kurslarında təhsilin təşkil edilməsində, dövlət qulluğu məsələlərinə dair elmi-tədqiqat işlərinin aparılmasında, dövlət qulluğunun nəzəri və praktiki məsələlərinin öyrənilib müvafiq təkliflər verilməsində bu Akademiyanın rolu böyükdür. Dövlət İdarəçilik Akademiyasında fəaliyyət göstərən qısamüddətli kurslarda hər il yüzlərlə dövlət qulluqçusu idarəetmənin müasir tələblərini, bu sahədə olan yenilikləri həvəslə öyrənir, çalışdıqları idarə və müəssisələrin işində tətbiq edirlər.





***Dövlət qulluğunun əsas tələblərindən biri də kadrların seçilməsində şəffaflığın təmin edilməsi, dövlət qulluğuna qəbulun test və müsabiqə yolu ilə keçirilməsidir.*** Hər il respublikanın mərkəzi və yerli icra hakimiyyəti orqanlarında boş olan yerlərə kadrların qəbul edilməsi üzrə keçirilən müsabiqələr buna əyani sübutdur. Müvafiq dövlət orqanlarının keçirdikləri test imtahanları və müsabiqələr ilk növbədə dövlət qulluqçularının qəbulunda neqativ halların qarşısını almağa, ən layiqli şəxsləri dövlət qulluğuna qəbul etməyə, bütövlükdə, idarəetmə sistemini daha peşəkar kadrlarla təmin etməyə xidmət edir. Burada əsas tələb ondan ibarətdir ki, gələcəkdə xalqına ləyaqətlə xidmət edə biləcək əsl mütəxəssislər dövlət qulluğu kimi çətin və şərəfli bir işə cəlb olunsunlar.

Əlbəttə, dövlət qulluğuna qəbul olmaq istəyənlərin sayı ildən-ilə artır. İlk növbədə bunun səbəbləri zahiri atributlarla ölçülsə də, dövlət qulluğunun heç də asan iş olduğunu demək olmaz. Dövlət qulluğunun əsas xüsusiyyəti və mahiyyəti insanın dövlətə və cəmiyyətə şüurlu surətdə xidmət etməsidir. Bu işin müəyyən üstünlükləri və güzəştləri olsa da, bir çox çətinlikləri və mürəkkəblikləri də vardır. Dövlət qulluqçusu dedikdə təkcə imtiyazlar barədə düşünmək düzgün deyildir. Dövlət qulluğuna gələn hər bir şəxs bilməlidir ki, o, bu yükü çiyninə götürərkən özünün bir sıra istəklərini də şüurlu surətdə məhdudlaşmağa, ilk növbədə ciddi iş rejiminə alışmağa, müəyyən edilmiş qayda-qanunlara, etik normalara riayət etməyə, vaxtla hesablaşmadan ona tapşırılan vəzifəni yerinə yetirməyə borcludur. Bu sahəyə gələn hər bir şəxs bilməlidir ki, o, elmi və yaradıcılıq fəaliyyəti istisna olmaqla, işlədiyi dövlət orqanı rəhbərinin icazəsi olmadan pedaqoji və başqa ödənişli fəaliyyətlə məşğul ola bilməz. Dövlət qulluqçularının asudə vaxtlarının da çox az olduğu yəqin ki, hamıya bəllidir.

"Bu gün Azərbaycana hansı kadrlar lazımdır?" sualına cavab

axtararkən, ilk növbədə ölkənin gələcək inkişaf istiqamətlərinə nəzər salmaq, bir daha Azərbaycan Prezidenti cənab İlham Əliyevin böyük inam və nikbinliklə dediyi sözləri xatırlatmaq yerinə düşərdi: ***"Həyat yerində durmur, öz axarı ilə gedir və biz prosesləri qabaqlamalıyıq. Biz uzağa baxmalıyıq, gələcəyə baxmalıyıq. Həm bugünkü problemlərin həlli üçün çalışmalıyıq, həm də öz addımlarımızla, siyasətimizlə, qəbul edilmiş proqramlarla ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafını təmin etməliyik. On ildən sonra, əlli ildən sonra elə olmalıdır ki, Azərbaycan daim çiçəklənsin, Azərbaycan xalqı yaxşı yaşasın. Azərbaycanın bölgədəki və dünyadakı mövqeləri daha da möhkəm olsun".***

Ölkə rəhbərinin nəzərdə tutduğu bu uzunmüddətli inkişaf xəttinin həyata keçirilməsi dövləti idarə edən kadrlardan, yəni dövlət qulluqçularından çox asılıdır. Azərbaycanda böyük elmi və intellektual potensial mövcuddur. Bu gün ali məktəblərdə təhsil alan minlərlə tələbə ilə yanaşı, ölkə Prezidentinin 2007-ci ildə təsdiq etdiyi "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"na əsasən yüzlərlə azərbaycanlı gənc dünyanın tanınmış universitetlərində təhsil alır və onlar bu gün respublika üçün çox vacib olan ixtisaslara yiyələnərək Vətənə dönəcəklər. Ulu öndər Heydər Əliyevin ənənələrinin davamı olan bu gözəl proqramın nəticələrini biz yaxın illərdə hiss edəcəyik. Vaxtilə Ümummilli liderimiz Heydər Əliyevin köməyi və qayğısı sayəsində keçmiş SSRİ-nin ən tanınmış ali məktəblərində təhsil almış mütəxəssislər bu gün respublikanın idarə olunmasında, onun iqtisadi inkişafında mühüm rol oynadığı kimi, indi xarici ölkələrdə nadir ixtisaslar qazanan gənclərimiz də Azərbaycanın ən qabaqcıl dünya ölkələri səviyyəsinə çıxmasına böyük kömək göstərəcəklər. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nın Azərbaycanın elmi və intellektual potensialının və son nəticədə yüksək bilik səviyyəsinə





malik dövlət qulluqçularının yetişməsində böyük rolu olacaqdır.

***Artıq dördüncü ildir ki, Azərbaycanın dövlət qulluqçuları özlərinin peşə bayramını böyük sevinclə qeyd edirlər.*** Bu müddət ərzində ölkə Prezidentinin sərəncamları ilə bir çox dövlət qulluqçusu yüksək ixtisas dərəcəsi almış, məhz dövlət qulluqçuları üçün təsis olunmuş "Vətənə xidmətə görə" ordeninin müxtəlif dərəcələri, "Dövlət qulluğunda fərqlənməyə görə" medalı və "Əməkdar dövlət qulluqçusu" adı ilə təltif olunmuşdur. Bu peşə bayramı həm də dövlət qulluqçularının ölkə rəhbərliyi və xalq qarşısında hesabatı şəklini almışdır. Dövlət qulluqçuları bilirlər ki, çətin, məsuliyyətli olduğu qədər, həm də şərəfli olan vəzifələrini nə qədər vicdanla yerinə yetirsələr, bir o qədər cəmiyyətin tərəqqisinə kömək etmiş olarlar. Ona görə də dövlət qulluqçuları öz gündəlik işlərini yerinə yetirərkən ilk növbədə dövlətin və xidmət etdiyi xalqın etimadını doğrultmaq barədə düşünürlər. Biz də bu işdə onlara uğurlar arzulayırıq.

***"Azərbaycan" qəzeti,***
***23 iyun 2009-cu il***

## DÖVLƏT QULLUQÇUSU HƏM DƏ YAXŞI ANALİTİK OLMALIDIR

***Hər bir ölkənin müasir dünya dövlətləri sırasında öz layiqli yerini tutması qloballaşma əsrində yaranmış iqtisadi və geosiyasi vəziyyəti düzgün qiymətləndirməsindən və buna uyğun mövqe tutmasından, ölkədə siyasi sabitliyin bərqərar edilməsindən, bundan yararlanmaqla dövlətin iqtisadi qüdrətinin gündən-günə artırılmasından, demokratik proseslərin daha da sürətləndirilməsindən çox asılıdır. Bunun üçün dövlət idarəetmə sisteminin gündən-günə təkmilləşdirilməsi, ölkənin idarə olunması məsuliyyətini üzərinə götürən dövlət qulluqçularının daha səmərəli işləməsi, cəmiyyətdə gedən proseslərdə müşahidəçi kimi deyil, fəal və aparıcı qüvvə kimi iştirak etməsi vacibdir. Bu baxımdan Azərbaycan nəinki postsovet məkanında, hətta dünyada çoxlarına nümunə ola bilər.***

Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında hazırlanıb ümumxalq referendumunda qəbul edilmiş yeni Konstitusiyamızda təsbit olunmuş müddəalar əsasında Azərbaycan öz müstəqilliyini gündən-günə möhkəmləndirir və yeritdiyi düzgün daxili və xarici siyasət sayəsində dinamik inkişaf edir. Sözsüz ki, bu işdə dövlət orqanlarında çalışan şəxslərin, o cümlədən dövlət qulluqçularının rolu böyükdür. "Dövlət qulluğu haqqında" Qanun dövlət qulluqçularının hüquqi statusunu müəyyən etmək, onların sosial müdafiəsini gücləndirilməklə yanaşı, bu şəxslərə qarşı tələbkarlığı da xeyli artırmış, onların xalqa və dövlətə daha yaxşı xidmət etməsinə, dövlət qulluğunun müasir dövrə uyğun meyarlarının formalaşmasına təkan vermişdir.

Dövlət qulluğunun təşkilinin yaxşılaşdırılmasında, hər bir dövlət orqanının rəhbərlik etdiyi sahə üzrə düzgün qərarlar qəbul etməsində, qarşısına qoyulmuş vəzifələri daha yaxşı yerinə yetirməsində, həyata keçiriləcək tədbirlərin iqtisadi, siyasi, sosial əhəmiyyətini düzgün müəyyənləşdirməsində, bu tədbirlərin kifayət qədər dərindən və elmi cəhətdən əsaslandırılmasında analitik işin də böyük əhəmiyyəti vardır.





Hazırda respublikada 28 mindən artıq dövlət qulluqçusu fəaliyyət göstərir ki, bu da 2005-ci ilə nisbətən 3 min nəfər çoxdur. Onların böyük əksəriyyətini inzibati vəzifələrin 5-9-cu təsnifatları üzrə çalışanlar təşkil edir. Məhz bu kateqoriyadan olan dövlət qulluqçuları dövlət orqanlarının gündəlik fəaliyyətində əsas rol oynayır, müxtəlif materialların, o cümlədən konkret məsələlər barədə arayışların, təhlillərin, hesabatların və icmalların hazırlanmasında yaxından iştirak edirlər.

Qeyd etmək lazımdır ki, dünya təcrübəsində olduğu kimi, respublikamızda da dövlətin idarə olunmasında analitik xidmətlərin fəaliyyətindən geniş istifadə edilir. Bu məqsədlə respublikanın elmi idarələri ilə yanaşı, xüsusi olaraq müstəqil qurumlar, mərkəzi icra hakimiyyəti orqanlarında müxtəlif xidmətlər yaradılmışdır. Konkret problemlərin öyrənilib araşdırılmasında Azərbaycan Milli Elmlər Akademiyasının sahə institutlarının, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının və digər ali məktəblərin, bir sıra müstəqil araşdırma mərkəzlərinin, qeyri-hökumət təşkilatlarının, müstəqil ekspertlərin xidmətindən geniş istifadə olunur. Məhz bu işin əhəmiyyəti nəzərə alınaraq 2007-ci ildə ölkə Prezidenti cənab İlham Əliyevin fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi yaradılmışdır.

Bu xidmətlərin fəaliyyəti cəmiyyətdə həllini gözləyən aktual problemlərin vaxtında müəyyən edilməsinə, onların həlli üçün konkret proqramların hazırlanmasına imkan verir və ölkədə gedən quruculuq proseslərini sürətləndirir. Həmin proqramlarda Azərbaycan cəmiyyətinin sosial və iqtisadi inkişafının müxtəlif istiqamətləri, əsas vəzifələri proqnozlaşdırılır, onların konkret həlli yolları göstərilir, son nəticədə respublika iqtisadiyyatının yüksələn xətlə inkişafına zəmin yaradılır.

Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti

cənab İlham Əliyevin ölkə rəhbərliyinə gəldiyi ilk günlərdən bu məsələlərə xüsusi diqqət yetirilir. Dövlətimizin başçısının 2003-cü ildə imzaladığı ilk fərmanlarından birində Azərbaycanın sosial-iqtisadi inkişafının əsas istiqamətlərini müəyyən edən konkret proqramların hazırlanıb təqdim edilməsi respublikanın dövlət hakimiyyəti orqanlarının qarşısında bir vəzifə kimi qoyulmuşdur.

Ölkə Prezidentinin rəhbərliyi altında 2003-cü ildən başlayaraq respublikada ən müxtəlif sahələr üzrə 60-dan çox dövlət proqramı və tədbirlər planı hazırlanıb təsdiq edilmişdir ki, bunların bir çoxu artıq yerinə yetirilmiş, digər proqramların yerinə yetirilməsi inamla davam etdirilir. Bu proqramlar təkcə iqtisadi sahələri deyil, eyni zamanda humanitar sahələri də əhatə edir. Müvafiq elmi idarələri, mütəxəssisləri cəlb etməklə hazırlanan bu proqramlar beynəlxalq təşkilatlar, həmçinin dünyanın tanınmış analitik mərkəzləri və ekspertləri tərəfindən də yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi: "Bu gün Azərbaycanda elə bir sahə yoxdur ki, konkret proqramlarla təmin olunmasın. Həm də qəbul edilmiş bütün proqramlar konkret xarakter daşıyır".

Bunlardan regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarını xüsusi qeyd etmək lazımdır. Məhz bu proqramların birincisinin həyata keçirilməsi nəticəsində 2004-2008-ci illərdə respublikanın regionlarında böyük quruculuq işləri aparılmış, yeni istehsalat sahələri yaradılmaqla minlərlə daimi iş yeri açılmış, bütövlükdə respublikanın siması tanınmaz dərəcədə dəyişərək xeyli inkişaf etmişdir. 2009-2013-cü illəri əhatə edən ikinci Dövlət proqramı da uğurla həyata keçirilməkdədir. Bu və digər mühüm proqramların hazırlanıb həyata keçirilməsində dövlət hakimiyyəti orqanlarında çalışan dövlət qulluqçularının böyük əməyi vardır.

Unutmaq olmaz ki, bu proqramların hər biri həmin sahənin real vəziyyətinin təhlili, mövcud dünya standartları ilə müqayisələr əsasında hazırlanmış, Azərbaycanı da bu standartlar səviyyəsinə yüksəltmək, bütövlükdə Azərbaycan xalqının həyat səviyyəsini yaxşılaşdırmaq istəyindən və amalından yaranmışdır. Buna görə də ölkə Prezidenti inamla bildirir: "...Yaxın zamanlarda Azərbaycanda həyat səviyyəsi, mövcud olan standartlar, demokratik proses, ictimai proseslər Avropanın ölkələrindən fərqlənməyəcəkdir. Həyat səviyyəsini yaxşılaşdırmaq bu işdə vacib məsələdir".





Analitik işin dövlət qulluğunda əhəmiyyətindən danışarkən hər bir idarədə, hər bir xidmətdə analitik işin qurulması prinsiplərindən, onun əsas xüsusiyyətlərindən də danışmaq lazımdır. Bu, əslində hər bir dövlət qulluqçusundan yüksək hazırlıq, öyrəndiyi sahə, problem və məsələ barəsində geniş məlumat, praktiki iş, eyni zamanda ümumiləşdirmə və proqnozlaşdırma qabiliyyəti tələb edir.

Müdriklik və uzaqgörənliklə yanaşı bütün bu xüsusiyyətləri özündə cəmləşdirən fenomenal şəxsiyyət, müstəqil Azərbaycanın qurucusu olan ümummilli liderimiz Heydər Əliyev bu cəhətdən hər bir insana əvəzsiz nümunə idi. Hər bir sahəni kamil mütəxəssis kimi bilən ulu öndərimiz öz analitik təfəkkürü və məntiqi ilə çoxlarını heyrətə salırdı.

Analitik iş, əslində, elmi tədqiqat işi ilə sıx əlaqəlidir, lakin elmi işin məqsədi hər hansı bir mövzunun tədqiqi və müvafiq elm sahəsində nəzəri biliklərin artırılması olsa da, dövlət orqanlarında analitik materialların əhəmiyyəti ilk növbədə həmin orqanın düzgün qərar qəbul etməsinə xidmət edir və onun əsas məqsədi lazımi informasiyanın verilməsidir.

Bu gün respublikanın dövlət hakimiyyəti orqanlarında çalışan məmurların gündəlik işlərinə nəzər salarkən görürük ki, bunun bir hissəsi müxtəlif məsələlər barəsində kollegiya, şura iclaslarında və digər tədbirlərdə müzakirə üçün arayışlar, layihələr hazırlamaqdan ibarətdir. Buna görə də çəkinmədən demək olar ki, bu işin öhdəsindən layiqincə gəlmək üçün dövlət qulluqçuları mütləq analitik vərdişlərə malik olmalı, hazırladığı hər bir məsələni dərindən öyrənməli, topladığı faktları saf-çürük etməyi, ümumiləşdirməyi, nəticə çıxarmağı, konkret təklif və tövsiyələr

verməyi bacarmalıdır. Əks təqdirdə onun gördüyü işin səmərəsi az olar, düzgün və obyektiv qərarlar qəbul etməkdə çətinliklər yaranar.

İnformasiya-təhlil sənədlərinin hazırlanmasında əsas prinsiplərdən biri onun vaxtında hazırlanmasıdır. Bu materiallar hər hansı bir problemin öncədən müəyyən edilməsi, real vəziyyəti əks etdirməsi və konkret nəticələr əldə edilməsi üçün hazırlanır. Belə materialların lazımi səviyyədə hazırlanması üçün gündəlik və sistemli iş aparılmalıdır. Bu işlə məşğul olan hər bir məmur ardıcıl və mütəmadi şəkildə özünün informasiya bankını yaratmalı, məlumatın axtarış mənbələrinə, mövcud məsələ üzrə qanunvericilik bazasına yaxşı bələd olmalı və statistik məlumatlardan kifayət qədər xəbərdar olmalıdır.

Müasir dövlət qulluqçusunun qarşısında qoyulan əsas tələblərdən biri də onun müasir informasiya texnologiyalarından istifadə bacarığıdır. Çox geniş imkanlara malik bu texnologiyalar vasitəsilə dövlət qulluqçuları operativ təhlillər aparmaq üçün lazımi məlumatları toplamaqla, bu vasitələrdən istifadə etməklə öz işini qat-qat sürətləndirə və daha keyfiyyətlə yerinə yetirə bilərlər.

Unutmaq olmaz ki, analitik materialların əsasını faktlar təşkil edir. Lakin faktlar məntiqi ardıcıllıqla öyrənilməsə və ümumiləşdirilməsə, onlardan çıxarılan nəticə də zəif olacaqdır. Faktlar yalnız düzgün ümumiləşdirildikdə məsələnin məğzini əks etdirə bilir. Bundan asılı olaraq konkret tədbirlər müəyyən edilir, müvafiq təklif, yaxud tövsiyə verilir. Analitik materialların hazırlanmasında operativlik çox zəruri amillərdən biridir. Burada materialın toplanması, yəni informasiya axtarışına vaxtın az sərf edilməsi daha vacibdir. Bu isə yalnız o halda təmin edilə bilər ki, bu işə mütəmadi və ardıcıl hazırlıq görülsün.

Analitik materialların hazırlanmasını bir neçə mərhələyə bölmək olar. Bunlar texniki problemlər, informasiya axtarışı, təhlil və redaktə mərhələlərindən ibarətdir. Göstərilən mərhələlərin hansına daha çox vaxt sərf edilməsi də vacib amillərdən biridir.





Bəzən sənədin hazırlanması üçün verilmiş vaxtın çox hissəsini texniki məsələlər və informasiya axtarışı aparır. Təbiidir ki, bu, işin keyfiyyətinə mənfi təsir göstərir. Ən optimal variantlardan biri budur ki, materialların hazırlanmasında informasiya axtarışı ilə analitik işə sərf edilən vaxt 1:4 nisbətində olsun. Belə bölgü materialın vaxtında, son dərəcə dolğun və dəqiq hazırlanmasına imkan verir. Nəzərə almaq lazımdır ki, analitik materiallar konkret situasiya və şərait üçün nəzərdə tutulduğundan elmi əsərlərdən fərqli olaraq onların əhəmiyyəti vaxt keçdikcə azalır.

Analitik materialların hazırlanmasında digər vacib cəhət odur ki, məsələnin mahiyyəti və məğzi konkret göstərilməklə yanaşı, orada müəyyən nəticələr də çıxarılsın və konkret tövsiyələr verilsin. Əks təqdirdə belə materialların əhəmiyyəti heçə enir. Analitik materiallarda əldə edilmiş nəticələr əsasında problemin real həlli yolları ilə yanaşı, müəyyən proqnozlar da verilməlidir. Əgər bu tələbə əməl olunmasa, hadisələrin inkişaf istiqamətləri və məsələnin həlli yolları müəyyən edilə bilməz. Bir daha qeyd edilməlidir ki, nəticələrin çıxarılması onu hazırlayan şəxsdən yüksək peşəkarlıq, məntiqi düşüncə qabiliyyəti və ustalıq tələb edir.

Analitik materialların hazırlanmasında ən müxtəlif informasiya mənbələrindən istifadə olunur. Bu, məlumat zənginliyi ilə yanaşı, faktların və rəqəmlərin müqayisə yolu ilə yenidən yoxlanmasına imkan verir. Nə qədər çox mənbədən istifadə olunarsa, faktların yoxlanması da asanlaşar. Lakin buna həddsiz aludəçilik hazırlanan analitik materialın fakt yığınına çevrilməsinə səbəb olar və istənilən səmərəni verməz. İnformasiyanın həddən artıq bolluğu müəyyən pərakəndəliyə və yayğınlığa gətirib çıxara bilər. Bəzən informasiya bolluğu da informasiya qıtlığı qədər çətinlik yaradır.

Təbiidir ki, belə materialların hazırlanmasında təkcə statistik rəqəmlər kifayət etmir. Müəyyən bir mövzu araşdırılarkən problemlərin həlli yollarını müəyyən etmək üçün bu sahədə ölkə daxilində və xaricdə olan müsbət təcrübə dərindən öyrənilməli və

nəticələr çıxarılmalıdır. Bəzən təhlillər zamanı faktoloji materialların, yəni rəqəmlərin və digər göstəricilərin sadalanması istənilən nəticəni vermir. Buna görə də onların müqayisəli araşdırılması zərurətə çevrilir.

Analitik materialların səciyyəvi cəhətlərindən biri də sadə və asan başa düşülən formada yazılmasıdır. Analitik materialların əsas xüsusiyyəti onlarda istifadə olunan anlayışların və terminlərin dəqiqliyi, dilin aydın və konkretliyi, eyni zamanda sadəliyidir. Analitik materialların sərlövhəsində, mətnində, yekun nəticələrində hər bir ifadə, hər bir termin dəqiq və sərrast seçilməlidir.

Dövlət qulluğunda analitik işin əhəmiyyətindən danışarkən vətəndaşların müraciətlərinə baxılmasını yaxşılaşdırmaqda bunun nə dərəcədə zəruri olması üzərində xüsusilə dayanmaq lazımdır. Dövlət qulluqçularının yerinə yetirdikləri əsas funksiyalardan biri də vətəndaşların müraciətlərinə baxılması, onların qəbulu, vətəndaşların qaldırdıqları problemlərin ümumiləşdirilməsi və həlli yollarının tapılmasıdır.

Məlumdur ki, vətəndaşlar dövlətin idarə olunmasında məhz öz müraciətləri vasitəsilə iştirak edirlər. Onların müraciətləri cəmiyyətdəki problemlərin üzə çıxarılmasında mühüm vasitədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev vətəndaşların müraciətlərinə daim böyük diqqət və qayğı ilə yanaşır və bunu hər dövlət orqanından, hər bir dövlət məmurundan qətiyyətlə tələb edir.

Bu baxımdan son illər dövlət orqanlarında, idarə və müəssisələrdə bu məsələyə diqqət artırılmışdır. Qeyd etmək lazımdır ki, dövlət qulluqçularından böyük vaxt və enerji tələb edən bu işin yaxşılaşdırılmasında təhlillərin rolu böyükdür. Təhlillər müraciətlərdə qaldırılan məsələlərin nə dərəcədə səciyyəvi olduğunu, müəyyən sahədə hansı nöqsanların qabarıq nəzərə çarpdığını aydınlaşdırmağa, müraciətlərin yaranma səbəblərini aradan qaldırmağa imkan verir.

Son illərdə Prezident Administrasiyasında vətəndaşların müraciətlərinə aid təhlillərin daha geniş və mükəmməl şəkildə aparılması mərkəzi və yerli icra hakimiyyəti orqanlarında bu işə daha ciddi yanaşılmasına gətirib çıxarmışdır. Bu işdə səmərəliliyi və operativliyi artırmaq üçün daha yeni və müasir proqramlar hazırlanaraq tətbiq edilməyə başlanmışdır.





Hazırda respublikanın mərkəzi və yerli icra hakimiyyəti orqanlarında da bu məsələlərə ciddi fikir verilir. Əvvəlki illərdən fərqli olaraq indi hər il mərkəzi və yerli icra hakimiyyəti orqanları onlara daxil olmuş müraciətləri daha diqqətlə öyrənir, rəhbərlik etdikləri sahələrdə mövcud olan nöqsan və çatışmazlıqları daha tez müəyyənləşdirir, daha çox narahatlıq doğuran məsələləri aşkar edərək onların aradan qaldırılması yolları barədə öz təklif və tövsiyələri ilə yuxarı dövlət orqanlarına müraciət edirlər. Alınan məlumatların ən müxtəlif parametrlər - mövzular, növlər, regionlar, rayonlar, hətta kənd və qəsəbələr, adambaşına sayı, mövzudaxili bölgüsü, təkrar yazılması, harada baxılması, nəzarətə alınması, onların barəsində hansı tədbirlərin görülməsi və sair cəhətlər üzrə təhlili hər bir iqtisadi rayonda, hər bir konkret sahədə əhalini narahat edən məsələlərin aşkar olunmasına və müvafiq qurumlarda bu işin təşkilinin qiymətləndirilməsinə şərait yaradır.

Digər məsələlərdə olduğu kimi, vətəndaş müraciətlərinin təhlilində də müqayisələr zəruri amillərdən biridir. Yəni real vəziyyəti müəyyən etmək üçün eyni göstəricilərin əvvəlki illərlə, digər sahələrlə, regionlarla müqayisəsi vacib şərt kimi ortaya çıxır. Məsələn, illik yekunların təhlili zamanı müəyyən şəhər və rayondan daxil olan müraciətlərin ümumi sayının azalması müsbət fakt kimi qiymətləndirilə bilər. Lakin bu müraciətlərin növlər üzrə təhlilində əgər şikayətlərin sayının artması, yaxud şikayətlərin özündə kollektiv müraciətlərin sayının artması müşahidə olunarsa, bu, həmin rayon və şəhərin rəhbərlərini düşündürməlidir.

Bu baxımdan yanaşdıqda, müəyyən şəhər və rayondan Prezident Administrasiyasına və digər mərkəzi icra hakimiyyəti or-

qanlarına daxil olan müraciətlərin sayı bilavasitə yerli orqanlara yazılmış müraciətlərin sayından çoxdursa, deməli, vətəndaşlar həmin yerli orqanlarda laqeydliklə üzləşir, kifayət qədər diqqət və qayğı görmürlər. Belə parametrləri çox göstərmək olar.

Ancaq son nəticədə aparılan təhlillərin məqsədi birdir: real vəziyyət barədə dəqiq məlumat əldə etmək, müraciətlərin yaranma səbəblərini müəyyənləşdirmək və onların aradan qaldırılması yollarını göstərmək.

Vətəndaşların müraciətləri üzrə aparılan təhlillərin nəticələri hər il respublika mətbuatında geniş şərh olunur, vaxtaşırı keçirilən zona seminar-müşavirələrində bu məsələlər ətraflı müzakirə edilir.

Hazırda analitik işin əhəmiyyəti getdikcə artmaqda, dövlət qulluqçularının gündəlik fəaliyyətində əsas yer tutmaqdadır. Bunu bizdən müasir dünya təcrübəsi, ölkə rəhbərliyinin dövlət qulluqçuları qarşısında qoyduğu məsul və şərəfli vəzifələr tələb edir.

İnanırıq ki, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında bu məsələyə diqqət daha da artırılacaq, bununla da həmin orqanlar öz işlərini daha yaxşı qura biləcək, bütövlükdə dövlət qulluğunun səmərəsini daha da yüksəldəcəklər.

*"Xalq qəzeti",*
*22 iyun 2010-cu il*





## DAİM YENİLƏŞƏN VƏ MÜASİRLƏŞƏN DÖVLƏT QULLUĞU

Hər il dövlət qulluqçuları öz peşə bayramlarını qeyd edərkən keçirdikləri qürur hissləri ilə yanaşı, ilk növbədə özlərinə hesabat verir, ötən bayramdan sonrakı müddətdə gördükləri işlərə yenidən nəzər salır və çalışdıqları sahənin fəaliyyətini daha da yaxşılaşdırmaq üçün nələr etmək mümkün olduğu barədə düşünürlər. Bu il də dövlət qulluqçuları öz peşə bayramlarını ləyaqətlə qarşılayır, ölkənin əldə etdiyi nailiyyətlərin qazanılmasına verdikləri töhfələrə görə sevinir və Azərbaycanın tərəqqisi naminə daxili potensiallarını, bilik və bacarıqlarını səfərbər edirlər.

Dövlət qulluqçuları fəxr edirlər ki, ölkə Prezidentinin təşəbbüsü ilə hazırlanıb qəbul edilmiş mühüm dövlət proqramlarının həyata keçirilməsində, Azərbaycanın iqtisadi və müdafiə qüdrətinin yüksəldilməsində, bütövlükdə Azərbaycan xalqının güzəranının gündən-günə yaxşılaşdırılmasında onların da kifayət qədər əməyi vardır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, görülən işlərin və qarşıya qoyulan vəzifələrin yeganə məqsədi Azərbaycanı yüksək gəlirli ölkələr sırasına daxil etmək, onu inkişaf etmiş ölkəyə çevirməkdir və ölkə başçısının rəhbərliyi altında çalışan dövlət qulluqçuları Azərbaycan xalqını bu yolla inamla irəli aparırlar. Görülmüş səmərəli tədbirlər, həyata keçirilən düşünülmüş siyasət nəticəsində Azərbaycanda neçə illərdir ki, tam sabitlik, dinamik iqtisadi inkişaf hökm sürür. Bu siyasi və iqtisadi sabitlik ölkənin hərtərəfli inkişaf etməsinə, onun regionun ən güclü dövlətinə çevrilməsinə imkan yaratmışdır.

Ölkə Prezidenti Azərbaycan dövlətinin yeritdiyi siyasəti belə qiymətləndirir: "Bu siyasət, bir daha demək istəyirəm ki, xalqın iradəsinə əsaslanır. Bu siyasətin təməlində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşının həyat şəraitini yaxşı-

laşdırmaq üçün bütün dövlət qurumları daha da fəal işləməlidir".

Böyük qürur hissi ilə qeyd etməliyik ki, Ulu öndər Heydər Əliyevin ənənələrini və siyasi xəttini ardıcıllıqla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev respublikada bütün sahələrin, o cümlədən dövlət qulluğunun müasirləşdirilməsi üçün müntəzəm tədbirlər görür, müasir dünyanın tələblərinə cavab verən idarəetmə sisteminin yaradılmasını ən mühüm vəzifələrdən biri kimi qarşıya qoyur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2012-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında respublikada ardıcıl həyata keçirilən islahatların, o cümlədən idarəetmə sistemində aparılan dəyişikliklərin əsas məqsədini aydın göstərərək qeyd etmişdir: "Biz müasirləşmə siyasəti aparırıq. Biz müasir dövlət qururuq. Güclü, ancaq öz imkanlarına söykənən, müasir dövlət qururuq. Müasir dövlətə xas olan bütün məsələlər bizdə tətbiq edilməlidir, siyasi, iqtisadi islahatlarda, bütün başqa sahələrdə. Bu sahəyə çox böyük əhəmiyyət verilir".

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra aparılan və bu gün də davam edən siyasi və iqtisadi islahatlar nəticəsində öz siyasi və iqtisadi sistemini yenidən qura bilmiş, planlı iqtisadiyyatı əvəz edən bazar iqtisadiyyatı münasibətlərinə əsaslanan yeni idarəetmə formasına keçməyi bacarmışdır. Bu, imkan vermişdir ki, bütün istiqamətlər üzrə özünün yeni qanunvericilik bazasını formalaşdırsın, hüquqi, demokratik dövlətin beynəlxalq normalara və tələblərə cavab verən işlək və çevik strukturlarını yaratsın. Bu zaman Azərbaycanın milli xüsusiyyətləri, dövlətçilik ənənələri, xalqımızın mentaliteti də nəzərə alınmışdır.

Azərbaycanda bütün sahələrdə olduğu kimi, dövlət qulluğunun da müasir tələblər səviyyəsində təşkili, onun gündən-günə təkmilləşdirilməsi daim diqqət mərkəzində duran məsələlərdən biridir. Dövlət qulluğunu tənzimləyən əsas sənəd 2000-ci ilin iyulunda Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə hazırlanıb qəbul edilmiş "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunudur. Məhz bu qanunun qəbulundan sonra Azərbaycanda əvvəlki partiya nomenklaturu sistemindən tamamilə fərqlənən müasir dövlət qulluğu ənənələri formalaşmağa və təşəkkül tapmağa başlamışdır.



Azərbaycanda dövlət qulluğunun və idarəetmə sisteminin keçmişi, bu günü və perspektivləri

Bu qanun qəbul edildikdən sonra respublikada demək olar ki, real həyata söykənən ən işlək qanun olmuş, bu qanundan irəli gələn onlarla normativ hüquqi akt qəbul edilmiş, o cümlədən dövlət başçısının fərman və sərəncamları ilə respublikada idarəetmə sisteminin təkmilləşdirilməsinə xidmət edən yeni qurumlar yaradılmış, onların fəaliyyət prinsiplərini müəyyən edən əsasnamələr və qaydalar hazırlanıb təsdiq edilmişdir.

Ötən dövr ərzində "Dövlət qulluğu haqqında" Qanuna ölkədə gedən quruculuq işləri, o cümlədən idarəetmə sisteminin təkmilləşdirilməsi ilə əlaqədar qarşıya çıxan məsələlərin həlli üçün bir çox yeni müddəalar əlavə edilmişdir. İndi cəsarətlə demək olar ki, bu sənəd artıq müasir dövr üçün yararlı, mükəmməl bir qanun kimi formalaşmışdır. Daha konkret desək, 2001-ci ilin sentyabrından qüvvəyə minən bu qanuna 2012-ci ilin aprelinədək qəbul edilmiş 45 qanunla 238-dən artıq əlavə və dəyişiklik edilmişdir. Bu əlavə və dəyişikliklərin böyük əksəriyyəti dövlət qulluğunun kateqoriyalarının və vəzifələrin təsnifatının dəqiqləşdirilməsinə aid olmuş, eyni zamanda, inzibati və yardımçı vəzifələrin tutulması, dövlət qulluğuna xitam verilməsi şərtləri və qaydaları, dövlət qulluqçularının attestasiyadan keçirilməsi, onlara ixtisas dərəcələrinin verilməsi, dövlət qulluqçularının sosial müdafiəsinin yaxşılaşdırılması, onların mükafatlandırılması, maddi və mənəvi həvəsləndirilməsi, dövlət qulluqçuları üçün orden və medalların, fəxri adların təsis edilməsi və başqa vacib məsələlər barəsində olmuşdur.

"Dövlət qulluğu haqqında" qanuna edilmiş sonuncu dəyişikliklər 2012-ci il 20 aprel tarixli qanunda öz əksini tapmışdır. Bu dəyişikliklərlə dövlət orqanlarının statusu, iyerarxiyası və yurisdiksiyası nəzərə alınmaqla onların kateqoriyalarının sayı azaldıl-

mış, əvvəlkindən fərqli olaraq dövlət orqanları üçün 7 kateqoriya deyil, 6 kateqoriya müəyyən edilmiş, ali kateqoriya dövlət orqanlarına Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin 3-cü hissəsinə əsasən müəyyən edilən qanunvericilik, icra və məhkəmə hakimiyyətinin ən yüksək dövlət orqanları, habelə yuxarı icra orqanı - dövlət başçısının fəaliyyətini bilavasitə təmin edən və icra səlahiyyətlərini həyata keçirən orqanlar, Milli Məclis və Konstitusiya Məhkəməsi də aid edilmişdir.

Sonrakı kateqoriyalar üzrə bir çox dövlət orqanlarının kateqoriyası yüksəldilmiş, bununla paralel olaraq inzibati vəzifələrin ali, 1 - 7-ci təsnifatları müəyyən edilmişdir. Bu təsnifatlarda hər bir dövlət orqanında hansı vəzifənin hansı təsnifata düşdüyü konkret müəyyən edilmişdir. Yeni bölgüyə uyğun olaraq qanunda müvafiq icra hakimiyyəti orqanlarının inzibati ərazi dairələri üzrə nümayəndələrinin, onların müavinlərinin və mütəxəssislərin vəzifələri, həmçinin müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, onların yanında, tabeliyində olan orqanların yerli bölmələrinin mütəxəssislərinin vəzifələrinin təsnifatı öz əksini tapmışdır.

"Dövlət qulluğu haqqında" qanuna edilmiş dəyişikliklər, bir qayda olaraq, bu qanunla əlaqədar digər normativ hüquqi aktların da bu dəyişikliklərə uyğunlaşdırılmasını tələb edir və ölkə Prezidentinin müvafiq fərmanı ilə bu məsələnin həlli aidiyyəti dövlət orqanlarına həvalə olunmuşdur.

Qanuna edilən son dəyişikliklərin mahiyyətindən danışarkən qeyd olunmalıdır ki, bunlar dövlət orqanlarının əvvəlki kateqoriyalarının, dövlət orqanlarında çalışan dövlət qulluqçularının inzibati və yardımçı vəzifələrinin təsnifatlarını təkmilləşdirməklə dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsinə və digər vacib məsələlərin həll edilməsinə imkan yaradacaqdır.

Qanuna edilmiş dəyişikliklərin biri də dövlət qulluqçularına dərəcələrin verilməsi ilə əlaqədardır. Bu dəyişikliklərlə dövlət qulluqçularının kateqoriyalarının və təsnifatlarının dərəcələri artmaqla yanaşı, onlara verilən dövlət qulluğu dərəcələrinin də bir





pillə yüksəldilməsinə imkan yaranmışdır.

Dövlət qulluğunun təkmilləşdirilməsi təkcə "Dövlət qulluğu haqqında" qanuna edilmiş dəyişikliklərlə məhdudlaşmır. Dövlət orqanlarının fəaliyyətinin əsas prinsiplərini müəyyən edən digər normativ hüquqi aktlar da müntəzəm olaraq təkmilləşdirilir. Azərbaycan Respublikası Prezidentinin keçən il imzaladığı "Normativ hüquqi aktlar haqqında" Konstitusiya qanunu ilə dövlət hakimiyyəti orqanlarında sənədlərlə işin əsas müddəaları təsdiq edilmiş, normativ hüquqi aktların hazırlanması, qəbul edilməsi qaydaları, onların əsas prinsipləri və tələbləri müəyyən edilmişdir. Bu qanuna uyğun olaraq yerli icra hakimiyyətlərinin normativ hüquqi aktları haqqında fərman verilmiş, mərkəzi icra hakimiyyəti orqanlarının nümunəvi əsasnaməsi təsdiq edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 14 iyun tarixli fərmanı ilə "Yerli icra hakimiyyəti orqanları haqqında" əsasnamə, habelə yerli icra hakimiyyəti başçısı aparatının, icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin nümunəvi strukturu və ştat vahidlərinin say tərkibi təsdiq edilmişdir. Şəhər və rayonların əhalisinin sayına uyğun olaraq onların ştat cədvəli müəyyən edilmiş, bu orqanların səlahiyyətləri daha da genişləndirilmiş, onların üzərinə daha böyük vəzifələr qoyulmuş, həmçinin cavabdehliyi artırılmışdır.

2011-ci ilin iyunundan indiyədək Azərbaycan Respublikası Prezidentinin imzaladığı 16 fərman və 7 sərəncamla bir çox mərkəzi icra hakimiyyəti orqanlarının əsasnamə və strukturlarında mühüm dəyişikliklər edilmiş, onların fəaliyyətinin təkmilləşdirilməsi təmin edilmiş, bu orqanların yeni idarəetmə strukturları yaradılmış, həmçinin bir sıra mərkəzi icra hakimiyyəti orqanları yanında xidmət və agentliklər təsis edilmişdir.

Dövlət orqanlarının işinin daha səmərəli təşkili üçün elektron xidmətlərin göstərilməsi, elektron hökumətin formalaşdırılması bu gün ən aktual məsələlərdən birinə çevrilmişdir. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin "Dövlət orqanlarının

elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 2011-ci il 23 may tarixli fərmanının qəbul edilməsi, həmçinin ölkə Prezidenti tərəfindən müvafiq qurumların yaradılması xüsusi əhəmiyyət kəsb edir. Elektron hökumətin tətbiqi dövlət qulluğunda şəffaflığın daha da artırılmasına, məmurlar tərəfindən yol verilən bəzi neqativ halların tamamilə aradan qaldırılmasına, məmur-vətəndaş əlaqələrinin minimuma endirilməsinə gətirib çıxaracaqdır.

Dövlət qulluğu cəmiyyətin idarə edilməsində həmişə mühüm rol oynamışdır və bundan sonra da mühüm rol oynayacaqdır. Çünki Azərbaycanın sürətli inkişafı dövlət orqanlarının qarşısında böyük vəzifələr qoyur. Dövlət qulluğunun təkmilləşdirilməsinin və yeniləşdirilməsinin əsas məqsədi son nəticədə ölkə vətəndaşlarının həyat səviyyəsini yüksəltmək, bütün insanların normal yaşayışını və sosial rifahını təmin etməkdir.

Bu baxımdan dövlət qulluqçularının özlərinin də sosial müdafiəsi ildən-ilə gücləndirilir, onların peşəkarlığının, ən başlıcası, cəmiyyət və xalq qarşısında məsuliyyətinin artırılması üçün ciddi tədbirlər görülür. 2012-ci ilin yanvarına olan məlumata görə, respublikanın dövlət orqanlarında çalışan dövlət qulluqçularının sayı 28 min nəfərdən çox olmuşdur. Onların böyük əksəriyyəti müasir texnologiyaları yaxşı mənimsəyən, idarəetmə səriştəsinə malik peşəkar işçilərdir. Əsasən 35-54 yaş arasında olan bu şəxslər dövlət qulluqçularının 52,3 faizini təşkil edirlər. Bütövlükdə demək olar ki, dövlət qulluqçuları arasında gənclərin faizi daha da yüksəlir. İndi dövlət qulluqçularının 20 faizə qədəri 30 yaşadək olan gənclərdir. Son illərdə dövlət qulluqçularının orta aylıq əməkhaqqı da müntəzəm olaraq artırılmışdır. Ümumiyyətlə, dövlət qulluqçularının güzəranının yaxşılaşdırılması onların daha səmərəli fəaliyyəti üçün şərait yaradır.

Azərbaycan Respublikası Prezidentinin mövqeyi hər bir dövlət qulluqçusu üçün örnək olmalı və onun irəli sürdüyü vəzifələr qeyd-şərtsiz yerinə yetirilməlidir. Dövlətimizin başçısı İlham Əliyev 2012-ci il iyunun 20-də Bakı Şəhər İcra Hakimiyyətində





keçirdiyi konfransda bir daha qeyd etmişdir: "... bizim vəzifəmiz xalqa xidmət etməkdir. Biz - dövlət işində işləyən insanlar - Prezidentdən tutmuş, ən aşağı səviyyəli məmura qədər insanların xidmətində olmalıyıq. Mən bu vəzifəni, öz vəzifəmi belə başa düşürəm və bu doqquz il ərzində belə işləmişəm. Hər kəsdən də bunu tələb edirəm, vicdanla işləmək, peşəkarlıqla xalqa xidmət etmək, ölkəmizi gücləndirmək, doğma Vətənimizi çiçəkləndirmək lazımdır. Bizim işimizdən çox şey asılıdır. Bugünkü Azərbaycan xalqın zəhməti hesabına güclənir. Əlbəttə ki, xalq tərəfindən dəstəklənən iqtidar bu inkişafı öz siyasəti ilə şərtləndirir".

Dövlət başçısının bu sözlərinin bu gün peşə bayramını qeyd edən bütün dövlət qulluqçuları tərəfindən əsl həyat devizi və fəaliyyət proqramı kimi qəbul ediləcəyinə heç bir şübhə yoxdur.

***"Azərbaycan" qəzeti,***
***23 iyun 2012-ci il***

## PEŞƏKAR KADRLAR DÖVLƏT QULLUĞUNUN HƏRƏKƏTVERİCİ QÜVVƏSİDİR

Müasir dövlət qulluğu dövlət idarəetmə kadrlarının fəaliyyətindən ibarətdir ki, onlar da ölkədə sabitliyi təmin edən və baş verən dəyişikliklərə uyğunlaşan çevik və səmərəli dövlət mexanizminin əsasını təşkil edirlər.

Danılmaz faktdır ki, güclü dövlətin güclü kadrları olmalıdır, elə kadrlar olmalıdır ki, həm yorulmadan işləməyi, həm də səriştəli rəhbərlik etməyi bacarsınlar. Hər bir hakimiyyətin başlıca nailiyyətlərindən biri də geniş və qlobal miqyasda düşünməyi və lokal şəkildə fəaliyyət göstərməyi bacaran kadrlardır. Onlar sürətlə dəyişən gerçəkliklərlə ayaqlaşmalı, keçmişin təcrübəsini unutmamalı, daim irəliyə baxmalı, baş verəcək hadisələri proqnozlaşdırmağı bacarmalıdırlar.

Dövlətdə yüksək intellektual səviyyəli peşəkar qulluqçuların olması ölkənin təhlükəsizliyi üçün heç də güclü ordunun olmasından az əhəmiyyətli deyildir. Əslində yaxşı idarəetmə kadrları, intellektual və peşəkar kadr elitası olmadan yaxşı ordu da qurmaq mümkün deyildir.

Ümumiyyətlə, kadr siyasəti hər bir insanın Konstitusiya hüquqlarından istifadə etməsinə - cinsindən, yaşından, milliyyətindən, sosial vəziyyətindən, dini etiqadından asılı olmayaraq onun səriştəsinə müvafiq surətdə öz imkan və qabiliyyətini tam açıb göstərməsinə xidmət etməlidir. Bu məqsədləri reallaşdırmaq üçün Azərbaycan dövləti kadr potensialından istifadənin müxtəlif forma və istiqamətlərindən istifadə etməyə, kadrların peşəkarlığını hər vasitə ilə yüksəltməyə ciddi əhəmiyyət verir.

**Son illər respublikamızda dövlət qulluğunu dünya standartları səviyyəsinə qaldırmaq, dövlət qulluğu kadrları ilə işi yeni strateji formada qurmaq üçün çox iş görülmüşdür.** Bu strategiya kadrların hazırlığının planlaşdırılmasından tutmuş onların işə qəbulu, öyrədilməsi, qulluq pillələrində irəliləməsi, əməkhaqqı, attestasiyası, onlar barəsində vahid informasiya bazasının yaradılmasınadək çox müxtəlif məsələləri əhatə edir. Bu məsələdə, təbiidir ki, dövlət qulluqçularının peşəkarlığının artırılmasına xüsusi diqqət yetirilir. Bunu Azərbaycanın sürətli iqtisadi inkişafı, regionun ən güclü dövlətlərindən biri olması, ölkə rəhbərliyinin müəyyən etdiyi perspektiv inkişaf istiqamətləri tələb edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2010-cu ilin birinci yarısının yekunlarına həsr olunmuş müşavirədə bu sahədə qarşıda duran vəzifələri belə müəyyənləşdirmişdir: **"Bizim siyasətimiz ondan ibarətdir ki, ölkəmizi modernləşdirək, ölkəyə ən qabaqcıl texnologiyaları gətirək. Azərbaycanda bütün iqtisadi və sənaye sahələrində ən qabaqcıl təcrübə tətbiq olunmalıdır, peşəkar kadrlar hazırlanmalıdır. Ölkəmiz uğurla inkişaf etməyə davam edəcəkdir".**

Hər bir ölkənin uğurlu inkişafı isə onu idarə edən rəhbər kadrların uzaqgörənliyindən, strateji düşünmə qabiliyyətindən, bütövlükdə dövlət qulluğunda çalışanların ölkə rəhbərliyi tərəfindən qarşıya qoyulmuş vəzifələri peşəkarlıqla yerinə yetirməsindən, öz işinə nə dərəcədə məsuliyyətlə yanaşmasından, müasir dünyanın tələblərini bilməsindən, öz bilik və bacarığını daim təkmilləşdirməsindən çox asılıdır. Bu baxımdan dövlət qulluqçularına verilən tələblər çox yüksəkdir. **Ölkə Prezidenti dəfələrlə qeyd etmişdir ki, Azərbaycanın gələcəyini peşəkar və səriştəli kadrlar yaradacaqlar.** Çünki həyat bunu tələb edir. İndi dövlət idarəetməsində insan potensialının üstünlüyünə, dövlət qulluqçusunun işgüzarlıq, mənəvi və intellektual keyfiyyətlərinə daha çox əhəmiyyət verilir. Bu, bir həqiqətdir ki, yalnız peşəkarlığı yüksək olan kadrlar sayəsində dövlət qurumlarının səmərəli fəaliyyətini təmin etmək olar.

Dövlət qulluğunda peşəkarlığın artırılmasına təkan verən amillərdən biri dövlət qurumlarında müasir idarəetmə formaları və sistemlərinin tətbiq edilməsidir. Tətbiq olunan yeni idarət-


Azərbaycanda dövlət qulluğunun və idarəetmə sisteminin keçmişi, bu günü və perspektivləri

mə formaları işçilərin həmin forma və metodları mənimsəməsinə, öz bilik və bacarığını artırmasına, öz iş yerini, mövqeyini qorumaq, vəzifə pillələrində irəliləmək üçün müasir tələblərə uyğunlaşmasına səbəb olur.

İdarəetmənin mütərəqqi formalarını tətbiq edən bir çox ölkələrdə, o cümlədən keçmiş Sovet İttifaqı dağıldıqdan sonra yaranmış dövlətlərdə şəxsi heyəti, yaxud kollektivi, daha doğrusu, kadrları idarə edən menecmentlərdən geniş istifadə edilməsi müşahidə olunur. Bu, xüsusilə özəl müəssisələrdə və şirkətlərdə nəzərə çarpır. Qeyd etmək lazımdır ki, uğurla seçilmiş və təyin olunmuş menecmentlər bilavasitə kadrların düzgün idarə olunmasını təşkil etməklə bu şirkətlərə böyük xeyir verirlər və onlar sürətlə inkişaf edirlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkədə fəaliyyət göstərən dövlət şirkətlərinin müasir sistemə keçməsinin vacibliyini qeyd edərək Azərbaycan dövlətinin həm özəl, həm də dövlət şirkətlərinə öz dəstəyini göstərdiyini vurğulayır və deyir: **"Azərbaycan dövlət şirkətlərində müasir mühasibat, audit və idarəetmə sistemi tətbiq olunur. Biz bu prosesləri dəstəkləyirik və strateji xəttimiz ondan ibarətdir ki, dövlət nəzarətində olan bütün şirkətlər beynəlxalq səviyyəli şirkətlər kimi fəaliyyət göstərsinlər. Onların dövlətə məxsus olduğu o demək deyil ki, onlar dövlət tərəfindən idarə olunmalıdır, yaxud da hansısa başqa yolla idarə olunmalıdır. Azərbaycanda bazar iqtisadiyyatı prinsipləri geniş tətbiq olunur və dövlət mülkiyyətində strateji əhəmiyyət daşıyan şirkətlər kommersiya şirkətləri kimi fəaliyyət göstərməlidirlər, beynəlxalq bazarlara çıxmalıdırlar və beynəlxalq bazarlarda investisiya layihələrini davam etdirməlidirlər".**

Dövlət qulluğunun düzgün təşkili dövlət qulluqçularının peşəkarlıq səviyyəsini gündən-günə yüksəltməyə zəmin yaradır. Hazırda respublikada dövlət qulluqçularının peşəkarlığını artırmaq üçün bütün dövlət qurumlarında böyük işlər görülür.

Cəmiyyətin idarə olunmasında çalışanların peşəkarlığını təmin etmək üçün işlək mexanizmlər yaradılmışdır. Bu mexanizmləri aşağıdakı kimi səciyyələndirmək olar:

- xüsusi hazırlıq tələb edən fəaliyyəti təmin etmək sahəsində səmərəli norma və qaydalar işlənib hazırlanmış, peşəkar fəaliyyət sahələrində şəffaflıq, rəqabət və bazar münasibətlərinə əsaslanma gücləndirilmişdir;
- peşəkar fəaliyyət növlərinə müvafiq səriştəsi olan kadrların gətirilməsi əsasən təmin edilmiş və kadr xidmətlərinin məsuliyyət sistemi müəyyən edilmişdir;
- peşəkar fəaliyyət növlərində vətəndaşların məşğulluğu məsələlərində dövlət strukturları və peşəkar qurumlar arasında tərəf-müqabil münasibətləri inkişaf etdirilmişdir və sair.

Son vaxtlar idarəetmə sistemində kadrların cavanlaşması prosesi gedir və xarici dilləri yaxşı bilən, yaxud xaricdə təhsil almış gənclərin dövlət qulluğuna gətirilməsi müsbət hal kimi qəbul edilsə də hər bir qurumun, hər bir kollektivin uğurla idarə olunması, vacib məsələlər barədə optimal qərarlar qəbul edilməsi ona rəhbərlik edən şəxsin səriştəsindən də asılıdır.

Dövlət qulluğunda peşəkarlığın yüksəldilməsinin əsas şərtlərindən biri də savadlı kadrların seçilməsidir. Öz seçdiyi ixtisas üzrə zəngin biliyə, nəzəri hazırlığa malik olmayan işçinin peşəkar kadra çevriləcəyini demək olmaz.

Peşəkar kadrların seçilməsi üçün başlıca olaraq iqtisadi metodlar vasitəsilə lazımi şərait yaratmaq, cəmiyyəti və vətəndaşları qeyri-peşəkarlardan qorumaq, müxtəlif sosial qruplar arasında ayrı-seçkiliyə yol verilməsinin qarşısını almaq zəruridir. Bu baxımdan respublikamızda həyata keçirilən kadr siyasətində ölkənin bütün sosial təbəqələri nəzərə alınaraq kadr potensialı hərtərəfli təhlil olunur, hamının maraqlarının təmin edilməsinə səy göstərilir. Eyni zamanda qadınlar və kişilər arasında bərabər imkanlar yaradılması unudulmur.

Bu baxımdan son illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın xətti ilə keçirilən müsabiqə və müsahibələri xüsusi qeyd etmək la-

zımdır. Komissiya tərəfindən dövlət qulluğuna qəbulun obyektivliyini, hamı üçün bərabər şərait yaradılmasını təmin etmək və ən hazırlıqlı şəxsləri bu sahəyə cəlb etmək üçün ciddi işlər aparılır. İndi hər bir dövlət orqanında olan vakant yerləri doldurmaq üçün çox ciddi seçim aparılır, test imtahanları və müsahibələr əsasında ən yaxşıları dövlət qulluğunda işə cəlb edilir. 2005-ci ilin yanvarından işinə başlamış Komissiyanın fəaliyyəti dövründə 140-dan artıq dövlət orqanında 6872 vakant vəzifə üzrə elan edilmiş müsabiqə və müsahibələrdə 24375 namizəd iştirak etmiş, 6067 nəfər test imtahanından müvəffəqiyyətlə keçmiş və müsahibəyə buraxılmışdır. Müsahibədə iştirak etmiş 5073 namizəddən 2594 nəfəri uğur qazanmış və onların 1928 nəfəri vakant dövlət qulluğu vəzifələrinə təyin edilmiş, 666 nəfəri ehtiyat kadrlar sırasına daxil olunmuşdur. Bundan başqa ehtiyatda olan 167 nəfər vakant dövlət qulluğu vəzifələrinə təyin edilmişdir.

Bu, seçim prosesinin çox ciddi aparıldığını, yalnız yüksək bilik və bacarıq, geniş dünyagörüşü nümayiş etdirən, öz sahəsini yaxşı bilən kadrların dövlət qulluğuna gətirildiyini göstərir. Komissiya müsabiqələrdə iştirak edənlərin göstəricilərini vaxtaşırı ümumiləşdirərək müvafiq nəticələr çıxarır, bundan dövlət qulluğuna qəbulun təkmilləşdirilməsində səmərəli istifadə edir.

Respublikada dövlət qulluğuna qəbulun şəffaflığının və səmərəsinin artırılması və müsabiqə mərhələsinə iştirakçıların daha yaxşı hazırlaşması üçün Komissiya tərəfindən müsabiqənin şərtləri və testlərə daxil edilməsi nəzərdə tutulan proqramlar barədə onlara geniş məlumat verilir. Eyni zamanda mərkəzi icra hakimiyyəti orqanlarında müsahibə və attestasiya komissiyalarının işinin təşkili üçün zəruri olan qaydalar və normalar barədə izahat verilir, müxtəlif treninq və təlimlər keçirilir. Komissiya tərəfindən dövlət qulluğuna qəbulu yaxşılaşdırmaq üçün qanunvericiliyin təkmilləşdirilməsi barədə vaxtaşırı təkliflər verilir.

Kadrların seçilməsi bütün dünyada aktual məsələ olaraq qaldığından bu sahədə müxtəlif ölkələrdə istifadə olunan təcrübəyə də nəzər salmaq maraqlı olardı. Bu cəhətdən dövlət qulluğunun idarə olunmasını yeni formada və müasir tələblər səviyyəsində qurmaqda xeyli müvəffəqiyyətlər əldə etmiş Çinin təcrübəsi də maraq doğurur. Bu ölkədə hələ böyük filosof Konfutsinin dövründə onun və varislərinin hazırladıqları sistem əsasında dövlət qulluğuna qəbul üçün keçirilən imperator imtahanlarının qaliblərinin adı daş sütunlara həkk olunurdu və bu adlar indiyədək qorunub saxlanır. Eyni zamanda bu sistem müasir tələblərə uyğunlaşdırılıb. Burada keçmiş SSRİ-də olduğu kimi partiya mənsubiyyəti, partiya zəmanəti və xarakteristikası əsas götürülməklə yanaşı, işə qəbul edilən şəxslərin seçilməsində bir sıra yeni metodlar da tətbiq edilir.

Dövlət qulluğuna qəbul edilən şəxslər müxtəlif xarakteristika və zəmanətlər təqdim etməklə bərabər, bilavasitə müsabiqə yolu ilə seçilirlər ki, bunlardan birincisi yazılı imtahan formasında olur. Bu yazılı imtahan təkcə müəyyən ixtisas üzrə biliklərin yoxlanılması deyildir. Onun mahiyyəti əsasən müsabiqədə iştirak edənlərin ümumi dünyagörüşünün, təhsil səviyyəsinin, nəticə çıxarmaq qabiliyyətinin yoxlanılmasıdır. Bununla sonrakı mərhələlərə yol açılır.

Buna görə də imtahanların proseduru və strukturu qərb analoqları əsasında qurulmuşdur. Belə testlərin fərqli xüsusiyyəti odur ki, onlarda subyektiv amil minimuma endirilmişdir. Hər hansı təsiri aradan qaldıran maksimum şərait yaradılır.

İmtahan verən şəxsin bütün cavabları əsasında onun topladığı bal hesablanır və bu da testin nəticəsi olur. Minimum həddi keçən şəxslər sonrakı mərhələyə - şifahi imtahana buraxılırlar. Namizədlərin hərtərəfli obyektiv yoxlanılması nəticəsində onun özü və keyfiyyətləri haqqında bütöv təsəvvür yaranır. Bu mərhələdə əsas yük müvafiq inzibati orqanın üzərinə düşür. İmtahanın forma və məzmunu şəxsin hansı vəzifəni tutmaq istəyindən asılı ola bilər. Bununla da konkret vəzifə üzrə öhdəlikləri yerinə yetirmək üçün lazım olan konkret qabiliyyət aşkar edilir. İmtahan qrupu üzvlərinin hər bir namizəd barəsində rəyinə uyğun

olaraq müvafiq qərar qəbul edilir.

Respublikamızda müxtəlif ölkələrin belə təcrübələri diqqətlə öyrənilir və onlardan istifadə edilir. Hazırda dövlət orqanlarında keçirilən attestasiyalar dövlət qulluqçularının öz peşə ustalığını və peşəkarlığını daim artırmasına, idarəetmənin müasir texnologiyalarına yiyələnməsinə təkan verir. Eyni zamanda dövlət orqanlarında tətbiq edilən ən müxtəlif təlim formalarından, o cümlədən əlavə kursların keçirilməsindən, seminar-müşavirələrdən və sair formalardan istifadə edilir.

"Dövlət qulluğu haqqında" Qanuna uyğun olaraq respublika Nazirlər Kabinetinin 2009-cu il 19 mart tarixli qərarı ilə "Dövlət qulluqçusunun əlavə peşə təhsilinin növü, forması, müddəti və maliyyə təminatı Qaydaları" təsdiq edilmiş, 217 dövlət orqanında dövlət qulluqçularının ixtisasartırma və yenidən hazırlanmaya olan tələbatı öyrənilmiş, müvafiq təkliflər hazırlanmışdır. Bundan başqa komissiyanın internet səhifəsində hər bir vətəndaşa dövlət qulluğu ilə əlaqədar istənilən informasiyanı əldə etmək imkanı yaradılmışdır. Bu və digər tədbirlər, təbiidir ki, dövlət qulluqçularının peşəkarlığının artırılmasına müsbət təsir göstərir.

Azərbaycan dövləti ölkədə bütün sahələrdə peşəkar kadrların hazırlanması üçün zəruri təhsil və təlim bazasının yaradılmasına da xüsusi diqqət yetirir. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə yanaşı, bir çox sahə akademiyaları yaradılmış və onlar uğurla fəaliyyət göstərirlər. Dövlət İdarəçilik Akademiyasında respublikanın mərkəzi və yerli icra hakimiyyəti orqanlarında çalışan dövlət qulluqçuları üçün qiyabi və əyani təhsil kursları açılmış, müasir dünya təcrübəsinin, ən yeni idarəetmə prinsiplərinin öyrədilməsinə şərait yaradılmışdır.

İndi Azərbaycanda fəaliyyət göstərən müxtəlif sahə akademiyalarında təkcə azərbaycanlı mütəxəssislər deyil, hətta xarici ölkələrdən olan müdavim və tələbələr də təhsil alırlar. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasında ən yüksək səviyyəli yerli və xarici mütəxəssislər cəlb





olunmaqla ingilis dilində təşkil edilən ixtisasartırma kursları peşəkar kadrların hazırlanmasına böyük töhfə verir.

Azərbaycan Prezidenti İlham Əliyev 2012-ci ilin sentyabrında diplomatik xidmət orqanları rəhbərlərinin 4-cü müşavirəsində bu sahədə görüləcək işlərin istiqamətini müəyyənləşdirərək demişdir: **"Biz irəliyə getməliyik. Çünki həllini gözləyən məsələlər çoxdur. Dünya dinamik şəkildə inkişaf edir və hətta bir ay, bir həftə gözləmək olmaz".** Ölkə Prezidenti gənclərimizin ən müasir texnologiyalar əsasında təhsil almasını təqdir edərək qürurla deyir: **"Bəzilərinə təəccüblü gəlib ki, Azərbaycan kimi ölkədə kosmik sənaye necə ola bilər? Bizim istedadlı kadrlarımız, maliyyə resurslarımız və gələcəyə baxışımız vardır... Biz irəliyə gedəcəyik, istədiyimizə nail olacağıq".**

Kadrların peşəkarlığının artırılmasında və ən müasir texnologiyalara yiyələnməsində dövlət qurumlarının özlərinin də təlim təşkilatına çevrilməsi konsepsiyasının tətbiqi son illərdə daha aktualdır. Bu konsepsiyanın meydana gəlməsi səbəbi bundan ibarətdir ki, sürətlə dəyişən şəraitdə iş üçün zəruri olan idarəçilik vərdişlərini ənənəvi təlim vasitələri ilə öyrənmək mümkün deyildir. Beynəlxalq korporasiyalar təlimin nəticələrini kəskin surətdə yüksəldən yollar axtarmaqda və planlar hazırlamaqda davam edirlər. Burada təkcə kəmiyyət yox, ən başlıcası keyfiyyət ön plana çəkilir. Belə təlimdə təkcə nəzəri biliklər və praktiki vərdişlər əldə edilməsi deyil, problemlərin həlli üçün davranışı dəyişmək, yeni şəxsi keyfiyyətlər formalaşdırmaq əsas götürülür. Konkret nəticələrə istiqamətlənən və "ömürlük təlim" adlanan bu konsepsiyanın tərkib hissəsi "təlim təşkilatı" sayılır və əsas mahiyyəti budur ki, bütün mümkün ola bilən iş növlərini yerinə yetirmək vərdişlərini yaratmaq məqsəd kimi qarşıya qoyulmur.

Təlim daha çox əsas ixtisaslara və əsas səriştələrə yönəldilir. Məsələn, liderlik, öyrənmək qabiliyyəti, informasiya ilə işləmək, qərar qəbul etmək, səmərəli ünsiyyət saxlamaq və əməkdaşlıq etmək, şəxsi təşəbbüs və məsuliyyət, çeviklik kimi xüsu-

siyyətlər aşılanması ön plana çəkilir. Müntəzəm təlim konsepsiyasını dövlət strukturlarında həm istehsalatdan ayrılmaqla, həm də istehsalatdan ayrılmamaqla həyata keçirmək mümkündür. Yaxşı olardı ki, təlim sistemlərində ümumi və nəzəri məsələlərə fikir verilməklə yanaşı, sərbəst təlim metodundan da geniş istifadə edilsin.

Sirr deyildir ki, bəzi dövlət qulluqçuları istehsalatdan ayrılmaqla təlim kursları keçməkdən imtina edir və ya buna həvəs göstərmirlər. Onlar ehtiyat edirlər ki, öz iş yerinə qayıtdıqdan sonra ya əvvəlki vəzifəsinə bərpa edilməz, ya da ona daha aşağı vəzifə təklif edilər. Buna görə də ilk növbədə dövlət qulluqçularının müntəzəm təhsil almaq, sərbəst təlim vasitəsilə öz səriştəsini artırmaq tələbatı stimullaşdırılmalıdır.

Bütövlükdə dövlət qulluqçularının təlim sistemi motivasiya (həvəsləndirmə) mexanizmi olmadan mümkün deyildir. O elə qurulmalıdır ki, dövlət qulluqçusu daim öz biliklərini və vərdişlərini yeniləşdirmək və təkmilləşdirmək, peşəkarlığını artırmaq məcburiyyətində qalsın. Bu da o zaman mümkün ola bilər ki, peşəkarlığın inkişafı dövlət qulluqçusunun karyerası ilə əlaqəli olsun, onun fəaliyyəti obyektiv qiymətləndirilsin və mükafatlandırılsın.

Dövlət qulluqçularının öz səriştəsini artırmaq üçün müxtəlif təlim metodlarından istifadə etməyə həvəsləndirilməsi, yaxud özünün maraq göstərməsi həm də onların öz işlədiyi idarənin, yaxud təşkilatın təlim strategiyası və planlarını nə dərəcədə bilməsindən asılıdır. Bəzi hallarda dövlət qulluqçuları işin çoxluğunu bəhanə gətirərək öz biliklərini artıra bilmədiklərini deyirlər. Buna görə də dövlət qulluqçularının bütün kateqoriyaları üçün elə təhsil formaları tapmaq lazımdır ki, onlar öz səriştələrini artırmağa maraq göstərsinlər.

Etiraf etməliyik ki, dövlət qulluqçularının peşəkarlığının artırılması üçün son illərdə xeyli iş görülsə də hazırda istifadə olunan proqramlar heç də həmişə istənilən nəticəni vermir. Bir qayda olaraq, bu proqramlar əsrlər boyu davam edən mühazirə prin-





sipi üzərində qurulur ki, bu da onlara daha çox müəyyən həcmdə informasiya və nəzəri biliklər verir. Bu formalarla yanaşı treninq və digər interaktiv təlim formalarından istifadə etmək də səmərəli olardı. Kommersiya şirkətlərində məhz bu üsuldan istifadə olunur və bu forma əməkdaşların gündəlik təlim praktikasına çevrilmişdir.

Bəzi ölkələrdə dövlət qulluqçuları arasında aparılan sorğular zamanı onların əksəriyyəti, təqribən 90 faizi öz bilik səviyyələrini kifayət hesab edir, ancaq 10 faizi hesab edir ki, onların bilikləri kifayət qədər yüksək deyildir. Dövlət qulluqçuları öz tabeliyində olan işçilərin biliklərini qiymətləndirməyə daha tənqidi yanaşırlar. Onların 25 faizdən çoxu belə hesab edir ki, tabeliklərində işləyən işçilərin bilikləri qulluq vəzifələrini yerinə yetirmək üçün kifayət etmir.

Dövlət qulluqçularına işdə rast gəldiyi problemlərə aid verilən suala cavablar da maraq doğurur. Onların bəziləri iş rejiminin sərt olmasından, tapşırıqların yerinə yetirilməsi üçün vaxtın az verilməsindən şikayətlənsələr də, bunun dövlət qulluğu üçün zəruri olduğunu qeyd edirlər.

Dövlət qulluqçuları üçün daha çox hansı biliklərin vacibliyi sualına gəldikdə isə, respondentlər qanunvericilik blokunu, xüsusilə Konstitusiya hüququnu və əmək hüququnu, informasiya texnologiyalarını, sənədləşməni, adamların davranışının idarə edilməsini və əmək ehtiyatlarından istifadə olunmasını qeyd edirlər.

Əsas vərdişlər kimi xidməti məktubların, arayışların, cavab məktublarının, sorğuların və analitik məlumatların tərtib edilməsi və rəsmiləşdirilməsi, kompyuterdə işləmək, işgüzar ünsiyyət vərdişləri, vaxtdan səmərəli istifadə edilməsi, iş prosesini planlaşdırmaq, danışıq aparmaq, kollektivi idarə etmək və onunla işləmək, idarəetmə qərarları qəbul etmək, prezentasiyalar və müşavirələr keçirmək, kütləvi çıxışlar etmək bacarığının zəruriliyi daha vacib sayılır. Sadalananlara əlavə olaraq, stresləri aradan qaldırmaq və münaqişələri həll etmək bacarığının da zəruriliyi göstərilir. Beləliklə, sorğuda iştirak edənlər yuxarıda qeyd olu-

nan cəhətləri rəhbər heyət üçün daha vacib sayırlar.

Aparılan tədqiqatlar göstərir ki, dövlət qulluqçularının bəziləri daha az fəallıq tələb olunan, yəni daha passiv təlim növlərini - mühazirələri və xaricdə stajkeçməni daha çox fəallıq və gərginlik tələb edən təlim formalarından üstün tuturlar. Görünür, bu da onların attestasiya zamanı öz vəzifəsini itirməsini və ya vəzifəsinin aşağı salınmasını istəmədiklərindən irəli gəlir. Burada iş vaxtının düzgün planlaşdırılması da vacibdir. Çünki dövlət qulluqçusunun sərbəst təhsillə məşğul olması üçün də vaxt qalmalıdır. Bu, bir daha belə bir tezisi təsdiq edir ki, hazırda bəzi dövlət qulluqçuları öz karyerasını gördüyü işin nəticəsi ilə bağlamır. Müasir təlim texnologiyalarının şüarı belədir - öyrənmək bacarığını öyrətmək. Ümumiyyətlə, dövlət qulluqçularının əksəriyyəti öz təkliflərində bildirirlər ki, təlim fasiləsiz, vaxtaşırı, müntəzəm və qabaqcıl dünya təcrübəsindən istifadə edilməklə, səmərəli təlim metodları tətbiq edilməklə keçirilməli və onların konkret vəzifələrinə və iş problemlərinə söykənməlidir.

Bu baxımdan respublikanın bütün mərkəzi və yerli icra hakimiyyəti orqanlarında "Dövlət qulluğu haqqında" Qanuna və Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli fərmanı ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"na uyğun olaraq işçilərin vəzifə təlimatlarının hazırlanıb təsdiq edilməsinin əhəmiyyəti böyükdür. Bu vəzifə təlimatları müvafiq orqanın və onun struktur bölməsinin funksiyalarına uyğun olaraq işçinin yerinə yetirməli olduğu vəzifələri, həmin vəzifəni tutmaq üçün zəruri sayılan iş, bilik və peşə vərdişlərini, digər tələbləri özündə əks etdirir.

Son illərdə dövlət strukturlarında kadrların xüsusiyyətlərini təhlil edərkən belə qənaətə gəlmək olar ki, dövlət strukturlarında işləyən kadrların məhsuldarlığı ildən-ilə artır. Dövlət sektorunda kadrlarla işin yeni strateji formada qurulması bu gün daha çox diqqət yetirilən məsələlərdəndir. Dövlət strukturlarında işçilərin say tərkibini artırmadan peşəkarlığın yüksəldilməsi, kadr hazırlığının kifayət qədər düşünülmüş şəkildə planlaşdırılması və





bu məsələlərin həllində şəffaflığın artırılması müşahidə olunur. Artıq heç kəsdə şübhə yoxdur ki, istər özəl sektorda, istərsə də dövlət sektorunda əsas ehtiyat insanlardır, yəni kadrlardır və ölkənin rifahı onların öz işlərinə nə dərəcədə məsuliyyətlə yanaşmasından, səriştəsindən çox asılıdır.

Təəssüf ki, dövlət qulluqçuları arasında bəzən lazımi tələblərə tam cavab verməyən şəxslərə də təsadüf edilir. Bəziləri anlamırlar ki, dövlət xalq üçün mövcuddur. Ölkə Prezidentinin tövsiyələrinə uyğun olaraq dövlət qulluğunu idarə edən rəhbər orqanlar buna qarşı ciddi mübarizə aparır, belələrinə qarşı sərt tədbirlər görürlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz çıxışlarında dəfələrlə vurğulamışdır ki, məmurlar öz vəzifə borcuna məsuliyyətlə yanaşsınlar. Ölkə Prezidentinin məmurlardan qətiyyətli tələbi budur: **"Birbaşa xalqla ünsiyyətdə olan məmurlar elə etməlidirlər ki, insanlar onların fəaliyyətindən razı olsunlar. Diqqətli olmalıdırlar, yaddan çıxarmamalıdırlar ki, biz xalq üçün çalışırıq, əksinə deyil. Bizim vəzifəmiz xalqa xidmət etməkdir".**

Dövlət qulluqçularının rəhbər heyətinin düşünülmüş şəkildə inkişaf etdirilməsi və peşəkarlığının artırılması bütövlükdə dövlətin uğuru sayıla bilər. Müasir dövrdə rəhbər işçidən tələb olunan əsas xüsusiyyətlərdən biri də kollektivlə və kollektivdə işləmək bacarığı, idarəetmənin təşkilinin əsaslarını bilməsi və təşkilatçılıq qabiliyyətidir. Təşkilatçılıq qabiliyyəti isə kollektivin işini təşkil etməyi, tabeliyində olan işçilərin fəaliyyətini istiqamətləndirməyi, əlaqələndirməyi və ona nəzarət etməyi bacarmaq, idarəetmənin müasir metodlarını və texnikasını bilmək, şəraitə uyğun olaraq düzgün istiqamət seçmək və qətiyyətli olmaq kimi xüsusiyyətlərdən ibarətdir.

Eyni zamanda yüksək işgüzar keyfiyyətlərin: tapşırılmış iş üçün məsuliyyət hissinin, işgüzar münasibətləri qurmaq bacarığının, əzmkarlığın, dəqiqliyin, işdə təşəbbüskarlığın, özünə və tabeliyində olanlara qarşı yüksək tələbkarlığın, operativliyin,

müstəqil qərarları əsaslandırmaq və qəbul etmək qabiliyyətinin, başlanmış işi axıra çatdırmaq və öz işini, eləcə də kollektivin işini tənqidi qiymətləndirmək bacarığının olması zəruridir.

Dövlət qulluğu kadrları üçün etik normaları bilmək, xüsusi məsuliyyəti dərk etmək zəruridir. Bu, konkret şəkildə belə ifadə oluna bilər: *"Mən adamların etimadını doğrultmalıyam"*. Şübhəsiz ki, yüksək səriştəli kadr elitasını axtarıb tapmaq, öyrətmək, tərbiyə etmək və ona qayğı göstərmək lazımdır.

Şəxsi keyfiyyətlərə qiymət verilərkən müstəqil düşünməyi bacaran, yüksək nizam-intizam və iş qabiliyyəti nümayiş etdirən kadrlara üstünlük verilməlidir. Bu zaman onun vicdanlılıq, düzlük, sadəlik, əməkdaşlarla ünsiyyət yaratmaq, obyektivlik, ətrafdakılara diqqət və yüksək mənəvi əxlaq nümayiş etdirmək kimi xüsusiyyətlərinin olması da vacib sayılmalıdır. Kadrların seçilməsi zamanı şəxsi sədaqət və dostluq münasibətləri əsas götürülə bilməz.

İşçinin peşəkarlıq, işgüzarlıq və şəxsi mənəvi keyfiyyətlərini qiymətləndirmək üçün elm və təcrübədə sınaqdan çıxmış metodlardan istifadə edilə bilər:

- işçinin kadr sənədlərini öyrənmək və onun əsasında işçinin səriştəsinə və iş təcrübəsinə qiymət vermək;
- işçini onunla şəxsi ünsiyyət vasitəsilə öyrənmək və bilavasitə əmək fəaliyyəti prosesində onu müntəzəm müşahidə etmək, onunla söhbətlər aparmaq və ayrı-ayrı tapşırıqlar vermək;
- işçinin əməli fəaliyyətinin nəticələrinə, fərdi iş planlarının, vəzifə öhdəliklərinin və verilmiş tapşırıqların yerinə yetirilməsinə qiymət vermək;
- işçinin bilavasitə rəhbəri olan şəxslərin, onun tabeliyindəki işçilərin, iş yoldaşlarının və digər struktur bölmələri rəhbərlərinin onun barəsində fikirləri ilə tanış olmaq;
- xidməti attestasiyaların, peşə imtahanlarının nəticələrini təhlil etmək.

İşçinin keyfiyyətlərinin öyrənilməsi prosesində başqa metodlardan, o cümlədən sosioloji tədqiqatlardan, anketlərdən, testlər-





dən, ekspert qiymətləndirmələrindən, qrup halında keçirilən diskussiyalardan, işgüzar oyunlardan və başqa formalardan istifadə etmək olar. Unutmaq olmaz ki, məhz şəxsiyyətin belə hərtərəfli öyrənilməsi və alınmış nəticələrin məcmusu onun haqqında tam təsəvvür yarada bilər və obyektivliyi təmin edər.

İşçilərin nəyə qadir olduğunu öyrənmək üçün müxtəlif üsullar və formalar mövcuddur. Məsələn, işçinin zəruri əməli vərdişlər əldə etməsi üçün boş qalan vəzifələrə müvəqqəti təyin edilməsi, rəhbər işçi olmadıqda, onu əvəz etmək tapşırığının verilməsi, dövlət orqanları aparatlarında, o cümlədən xaricdə staj keçməsi, seminarlarda, elmi-praktiki konfranslarda iştirak etməsi, müxtəlif qərar layihələrinin və xidməti sənədlərin hazırlanmasına, dövlət orqanlarının iclaslarının keçirilməsinə cəlb edilməsi və başqa tapşırıqlar verilməsi kimi üsullardan istifadə etmək olar.

İşçilərin şəxsi keyfiyyətlərinin göstəriciləri sırasında onların müxtəlif tədbirlərdə, o cümlədən, konfranslarda, mühazirə və seminarlarda iştirakı, fiziki cəhətdən sağlam olması, xarici dilləri bilməsi, müasir texniki vasitələrdən istifadə edə bilməsi kimi cəhətləri göstərmək olar.

İndiki dövrdə ümumi işin nəticəsi vahid əqidə və ideya ətrafında sıx birləşmiş və düzgün təşkil olunmuş kollektivin fəaliyyətindən çox asılıdır. Belə kollektivlər isə yüksək səviyyəli mütəxəssislərdən yarana bilər. Bu kollektivlərdə əsas komanda rollarını oynaya bilən adamlar, liderlər, işlərin təşkilatçıları və əlaqələndiriciləri, ideya generatorları, ekspertlər, tənqidçilər və eyni zamanda sülh qoruyucuları, yəni komandanın işində normal və əlverişli psixoloji iqlim yaradan adamlar olmalıdırlar. Eyni zamanda ümumi məqsədin hər bir komanda üzvü tərəfindən aydın başa düşülməsi, öz rolunu dəqiq bilməsi, qarşılıqlı kömək və bir-birini əvəzetmə hissinin olması müasir şəraitdə daha da aktuallaşır. Buna görə də belə kadrların aşkar edilməsi, irəli çəkilməsi və onların peşəkarlığının artırılması məsələləri diqqət mərkəzində saxlanılmalıdır.

Hazırda özəl müəssisələrdə, eləcə də iqtisadi məsələlərlə məşğul olan dövlət orqanlarında lazımi peşəkar mütəxəssislərə böyük ehtiyac olsa da əmək bazarında belə peşəkar kadrlar o qədər də çox deyildir.

Bu gün respublikada kadrların mövcud hazırlıq sistemini, peşə texniki təhsilini təkmilləşdirmək, iqtisadiyyatın bazar şəraitində fəaliyyətinə uyğun mütəxəssislər hazırlamaq dövlətin diqqət mərkəzində saxladığı məsələlərdən biridir. Respublikada texnika və texnologiyalar sahəsində səriştəli kadrların hazırlanması və mütəxəssislərin səriştəsinin yüksəldilməsi sistemi ilbəil təkmilləşdirilir.

Azərbaycan Respublikası iqtisadi cəhətdən inkişaf etdikcə, öz müstəqilliyini daha da möhkəmləndirmək, gələcəkdə bütün sahələrdə, o cümlədən dövlət qulluğunda Azərbaycanın qüdrətini daha da artıra bilən mütəxəssislərin yetişdirilməsinə böyük əhəmiyyət verir. İndi yüzlərlə azərbaycanlı gənc məhz dövlət hesabına dünyanın ən aparıcı universitetlərində təhsil alır. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 aprel tarixli sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın yerinə yetirilməsi imkan verəcəkdir ki, ölkəmiz yaxın vaxtlarda çox güclü və peşəkar kadrlarla təmin olunsun. Artıq bu proqram üzrə təhsil almış gənclərin bir qismi respublikaya qayıdaraq müxtəlif idarə və təşkilatlarda çalışmağa başlamışlar. Ölkə Prezidentinin göstərişi ilə bu kadrlar xüsusi qayğı və diqqətlə əhatə olunmuşlar. Bundan başqa indi gənclərimiz öz təşəbbüsləri ilə də dünyanın inkişaf etmiş ölkələrinin qabaqcıl universitetlərində asanlıqla təhsil ala bilirlər.

Dövlət qulluqçularının hazırlanması spesifikasını ayrıca qeyd etmək lazımdır. Bütün bu məsələlər dövlət kadr siyasəti çərçivəsində hazırlanır və həll edilir. Əsas məqsəd budur ki, dövlət qulluğunda rəqabət qabiliyyətli, öz peşəsini yaxşı bilən və digər sahələrdən başı çıxan peşəkarlar çalışsın. Yüksək peşəkarlığa malik kadrların irəli çəkilməsi milli təhlükəsizliyimizin və sosial-iqtisadi inkişafımızın ümdə istiqamətlərindən biridir.





Müasir dövrdə qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi üçün biz ilk növbədə bilməliyik ki, respublika Prezidentinin dövlət orqanları qarşısında qoyduğu vəzifələri yerinə yetirmək üçün hazırda dövlət qulluğunda çalışan şəxslər hansı peşə vərdişlərinə və işgüzar keyfiyyətlərə malik olmalıdırlar. Bunun üçün kadr ehtiyatlarının bütün səviyyələrdə geniş təhlili aparılmalı, təkcə statistik göstəricilər deyil, onların təhsil səviyyəsi, qulluq pillələrində irəliləməsi prinsipləri, kadrları təkmilləşdirmək və peşəkarlığı artırmaq üçün hansı formalardan istifadə edilməsi, gələcəkdə dövlət qulluğunun peşə fəaliyyətinin bir növü kimi nüfuzunun artırılması üçün nələr etmək lazım gəldiyi müəyyənləşdirilməlidir.

Yeni əsrdə Azərbaycanın müstəqilliyini möhkəmləndirməyi və onu irəli aparmağı bacaran kadrlara daha böyük ehtiyac duyulacağı aydındır. Ona görə bundan sonra da bu məsələlər daim diqqət mərkəzində olmalı, müvafiq kadr ehtiyatlarının formalaşdırılması davam etdirilməlidir.

Respublikada dövlət qulluğunun təkmilləşdirilməsi üçün ardıcıl və müntəzəm iş aparılır, islahatlar davam etdirilir. Dövlət qulluğunda islahatların əsas məqsədləri Azərbaycanın tarixi, mədəni, milli və digər xüsusiyyətləri nəzərə alınmaqla vətəndaş cəmiyyətinin inkişafı üçün onun səmərəsinin köklü surətdə artırılması, dövlətin möhkəmləndirilməsi və dövlət qulluğunun bitkin formasının yaradılmasıdır.

İnamla deyə bilərik ki, ümummilli liderimiz Heydər Əliyevin dövlətimizin müstəqilliyinin möhkəmləndirilməsinə və əbədi olmasına yönəlmiş uğurlu siyasi xətti onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilir. Bu siyasət isə bütün sahələrdə olduğu kimi, dövlət qulluğunun təşkilində də böyük nailiyyətlər qazandırır.

***(İlk dəfə dərc olunur)***

# İDARƏETMƏDƏ SƏNƏDLƏŞDİRMƏNİN ROLU

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi inkişaf strategiyası ümummilli liderimiz Heydər Əliyevin siyasətinin davamı olub Azərbaycanın qüdrətinin artırılmasına, insanların güzəranının daha da yaxşılaşdırılmasına xidmət edir. Bu siyasətin həyata keçirilməsi nəticəsində cəmiyyətimizin dinamik inkişafı təmin edilmiş, ölkəmizdə dövlət quruculuğu işləri geniş vüsət almış, idarəetmə işinin təkmilləşdirilməsi istiqamətində ardıcıl tədbirlər görülmüşdür.

Aydındır ki, qanunların işlədiyi, insan hüquqlarının tam qorunduğu, şəxsiyyət azadlığının yetərincə təmin edildiyi demokratik bir cəmiyyətin formalaşması ölkənin idarəetmə orqanlarının işinin düzgün təşkilindən, bu orqanlarda çalışan dövlət qulluqçularının peşə hazırlığından və öz vəzifəsinə məsuliyyətli münasibətindən çox asılıdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev qeyd etmişdir: ***"Mən istəyirəm ki, Azərbaycanda hər şey yaxşı olsun. İstəyirəm ki, ölkəmiz daha da güclü olsun, xalqımız rahat yaşasın, xalqı narahat edən problemlər aradan qaldırılsın, məmurlar öz vəzifə borcuna məsuliyyətlə yanaşsınlar. Hər bir məmur, ilk növbədə, elə etməlidir ki, onun sahəsində irəliləyiş olsun, tərəqqi olsun, yaxşı nəticələr olsun".***

Hazırda ölkədə idarəetmə insan fəaliyyətinin həm elmi, həm də praktik aspektlərdə sürətlə inkişaf edən sahəsidir. Müasir idarəetmənin keyfiyyətinə və səmərəliliyinə yüksək tələblər qoyulur. İdarəetmənin ayrılmaz və vacib tərkib hissəsi isə bu fəaliyyətin sənədləşdirilməsidir.

İdarəetmə fəaliyyətinin sənədləşdirilməsi bütün dövlət və bələdiyyə qulluqçuları, habelə dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları aparatlarının işçiləri tərəfindən yerinə yetirilən kütləvi funksiyadır. İdarəetmənin məqsədlərinin onun nə-





ticələrinə uyğunluğu, səmərəliyi və digər cəhətləri idarəetmə sənədlərinin keyfiyyətindən əhəmiyyətli dərəcədə asılıdır. Buna görə də dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının işçiləri keyfiyyətli idarəetmə sənədlərinin tərtib edilməsi vərdişlərinə malik olmalıdırlar.

Gündəlik fəaliyyətdə sənədlərdən geniş istifadə olunur. Qərarlar qəbul etmək, nəticələri ümumiləşdirmək, sorğu-məlumat işi və uçot aparmaq üçün sənədlər əsas götürülür. Sənədlər həm sübut vasitələridir (çünki hüquqi qüvvəyə malikdir), həm də tarixi mənbələrdir. Sənədlər dövlət quruluşunu təsbit edir, idarələr, təşkilatlar, müəssisələr və vətəndaşlar arasında ünsiyyət yaradır. Sənəd obyektiv gerçəkliyin və insanın zehni fəaliyyətinin faktları, hadisələri, halları haqqında informasiyanı xüsusi materiallarda müxtəlif üsullarla təsbit etmək vasitəsidir.

İnformasiyanı təsbit etməklə sənəd onun qorunub saxlanmasını və toplanmasını, habelə başqa şəxsə ötürmək, informasiyaya dəfələrlə təkrarən müraciət etmək imkanını təmin edir. Deməli, sənəd eyni vaxtda bir neçə funksiyanı yerinə yetirə bilir.

Sənədin ən mühüm funksiyası informasiya daşımaq funksiyasıdır.

Sənəd təşkilatçılıq funksiyasına malikdir. İnsanların fəaliyyətinin təşkil edilməsi və əlaqələndirilməsi üçün sənədin köməyi ilə əmək kollektivinə təsir göstərilməsi təmin edilir. Müəssisə və təşkilatların digər qurumlarla əlaqələri sənədlərin kommunikativ funksiyasını təmin edir.

Sənəd hüquqi funksiya daşıyır, çünki onun məzmunundan istintaq, məhkəmə və prokurorluq orqanlarının fəaliyyətində qarşılıqlı münasibətlərdə olan tərəflərin mübahisəli məsələlərinə baxılması zamanı da sübut kimi istifadə olunur.

Nəhayət, sənəd tərbiyə funksiyası daşıyır. O, icraçıdan intizam, yüksək səviyyəli təhsil hazırlığı tələb edir. Yaxşı tərtib olunmuş sənəd isə idarəetmə kadrlarında estetik zövq tərbiyə edir, onların işlədikləri təşkilatın nüfuzunu qaldırır.

Sənədlərin hazırlanması və rəsmiləşdirilməsi, onların hərə-

kətinin təşkili, onların uçotu və saxlanması sahəsində insanların göstərdikləri fəaliyyətə kargüzarlıq deyilir. Mahiyyətcə informasiyanın işlənməsi prosesi olan kargüzarlıq idarəetmə texnologiyasının bir hissəsidir. O, sənədlərin işlənməsi ilə bağlı vasitələri, vərdişləri və üsulları özündə birləşdirir. Bu zaman müxtəlif növlü informasiya, əksər hallarda sənədlərdə olan informasiya əmək predmeti kimi çıxış edir. Əmək vasitəsi isə təşkili texnikadır ki, o da informasiyanın işlənməsini, əməyin keyfiyyətini və yüksək məhsuldarlığını təmin edir.

Sənədlərlə işin təşkili dedikdə kargüzarlıqda sənədlərin hərəkətini, axtarışını və saxlanılmasını təmin edən şərait yaradılması başa düşülür. Hazırda bəzi mənbələrdə "kargüzarlıq" termininin əvəzinə getdikcə daha tez-tez "sənəd təminatı" termini işlədilir. Bu terminin işlədilməsi heç də təsadüfi deyildir, çünki yeni termin sənədlərlə işin bütün kompleksini, o cümlədən sənədlərin dövriyyəsi və saxlanması məsələlərini əhatə edir.

Kargüzarlığın bilavasitə sənəd hazırlanması ilə bağlı olan hissəsi sənədləşmə adlanır. Sənədlərin hərəkəti və uçotu məsələlərini isə sənəd dövriyyəsi məfhumu əhatə edir. Sənədlərin saxlanmasının təşkili ilə bağlı fəaliyyətə arxiv işi deyilir.

Sənədlər elə hazırlanmalıdır ki, uzun müddət saxlanmağa yararlı olsun, maksimum əyaniliyi təmin etsin. Bu keyfiyyətlərə malik olması üçün gərək sənəd həm forma, həm də məzmun etibarilə düzgün tərtib edilsin.

Müəssisənin rəhbəri digər fəaliyyət sahələri, o cümlədən planlaşdırma, təşkilatçılıq və nəzarət kimi sənədləşdirməyə də diqqətlə yanaşmalıdır. Bunun üçün o, idarəetmə fəaliyyətinin sənədləşdirilməsinin normativ-metodik bazasının əsas müddəalarını, sənədlərlə, o cümlədən elektron sənədlərlə işin, idarəetmə sistemlərinin yaradılmasının prinsiplərini bilməlidir.

İdarəetmənin fəaliyyətinin sənədləşdirilməsinin normativ-metodik bazası sənədlərin yaradılmasının, işlənməsinin, cari fəaliyyətdə istifadəsinin və mühafizəsinin qaydalarını və texnologiyasını, habelə təşkilatda kargüzarlıq xidmətinin fəaliyyətini reqlamentləşdirən qanunların, normativ hüquqi aktların və metodik sənədlərin məcmusudur.





Bu bazaya informasiya və sənədləşdirmə sahəsində Azərbaycan Respublikasının qanunvericilik aktları, Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları, sənədlərə aid beynəlxalq və dövlət standartları, sənədləşdirmənin vahid şəklə salınmış sistemləri daxildir.

Bunların içərisində Azərbaycan Respublikasının qanunları ən yüksək hüquqi əhəmiyyətə malikdir və onlarda təsbit edilmiş normaların həmin qanunların şamil edildikləri fəaliyyət sahələrində tətbiqi məcburidir.

Azərbaycan Respublikası qanunlarının və başqa normativ hüquqi aktlarının hazırlanması, qəbul olunması, rəsmiləşdirilməsi, dərc edilməsi, qüvvədə olması, şərh edilməsi və sistemləşdirilməsi qaydaları "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə müəyyən edilir. Qanunda normativ hüquqi aktın strukturu, layihəsinin hazırlanması qaydası, onun razılaşdırılması, normayaratma orqanına təqdim edilməsi, məcburi hüquqi ekspertizası, məcburi linqvistik ekspertizası, layihəyə baxılması, normativ hüquqi aktın qəbul edilməsi, rəsmi dərc edilməsi, qüvvəyə minməsi və sair məsələlər əks olunmuşdur.

Qanunun normativ hüquqi aktın strukturuna aid fəslində onun aşağıdakı məcburi rekvizitləri göstərilir:

- aktın növü (Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Prezidentinin fərmanı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı və s.);
- hüquqi tənzimləmə predmetini əks etdirən normativ hüquqi aktın adı (sərlövhəsi);
- aktın qəbul edildiyi tarix, yer və qeydiyyat nömrəsi;
- müvafiq normativ hüquqi aktı rəsmi imzalamaq səlahiyyətinə malik olan şəxsin adı, soyadı, vəzifəsi və imzası.

Normativ hüquqi aktın layihəsinin məcburi linqvistik ekspertizasına aid fəsildə qeyd olunur ki, normativ hüquqi aktın mətni lakonik formada, normaların ziddiyyətli təfsirini istisna edən sadə və aydın dildə, Azərbaycan ədəbi dilinin və hüquq terminologiyasının rəsmi-işgüzar üslubuna əməl etməklə tərtib edilir. Normativ hüquqi aktın terminologiyası aydın anlaşılan sözlərdən və söz birləşmələrindən istifadə etməklə formalaşdırılmalıdır. Normativ hüquqi aktda eyni terminlər bir mənada işlədilməli və vahid formaya malik olmalıdır. Normativ hüquqi aktda istifadə edilən terminlərin və onların tərifinin dəqiqləşdirilməsi zərurəti olduqda həmin aktda onların mənasını izah edən maddə (hissə, bənd) yerləşdirilir. Normativ hüquqi aktın mətnində loru dilinin, Azərbaycan dili dialektlərinin, danışıq nitqinin ekspressiv (xüsusi ifadə) formalarının, eyni mənada müxtəlif anlayışların (terminlərin), Azərbaycan dilində eynimənalı sözlər və terminlər olduqda başqa dillərdən alınma sözlərin, anlaşılmaz söz birləşmələrinin, ümumiləşdirilmiş düşüncələrin, çağırışların, bədii müqayisələrin, epitetlərin, metaforaların, abreviaturaların (məlum olanlar istisna olmaqla) ifadə edilməsinə yol verilmir. Dövlət orqanlarının normativ hüquqi aktlarda ifadə edilən adları onların əsasnamələrinə (nizamnamələrinə), yaradılması, adlandırılması və adlarının dəyişdirilməsi haqqında aktlara tam uyğun olaraq göstərilir.

Qeyd etmək lazımdır ki, sənədin mətnində istifadə edilən termin və anlayışların aydın və birmənalı olması onun icrasında böyük rol oynayır. Belə ki, idarəetmə sənədini hazırlayan şəxs onu tərtib edərək məzmunun müəllif mənasını mətnə çevirir. Sənədin icraçısı isə həmin mətn vasitəsilə məzmunun icra üçün mənasını müəyyənləşdirir. İcraçının müəyyən etdiyi mənanın müəllifin verdiyi məna ilə uyğunsuzluğu idarəetmə sənədinin məqsədi ilə onun icrasından sonra alınan nəticənin uyğunsuzluğuna səbəb olur. Buradan da belə bir sual yaranır: "İdarəetmə sənədi hansı tələblərə cavab verməlidir ki, göstərilən mənaların uyğunsuzluğuna səbəb olmasın?".





Tədqiqatçılar "konkretlik" sözünün mənasını araşdıraraq belə bir nəticəyə gəliblər ki, bu tələblər vahid bir "konkretlik" tələbində birləşə bilər. Bunu aşağıdakı kimi ifadə etmək olar:

**Konkret mətn** - bu, mənası anlaşılan (şübhəsiz təyin edilən) və əlavə şərh və izahsız müəyyənləşdirilən tam məlumatların olduğu dürüst mətndir.

Buna görə də konkretlik tələbini dürüstlük, tamlıq və anlaşıqlılıq tələblərinin məcmusu kimi təsəvvür etmək olar.

**Dürüstlük.** Sənədin məlumatları həqiqətə uyğun olmalıdır.

**Tamlıq.** Sənədin mətnindəki məlumatların mahiyyətindən asılı olaraq, onların idarəetməyə təsirinin dərəcəsi müxtəlif ola bilər. Buna görə də sənəddə bütün məlumatlar tam əks etdirilməlidir, əks təqdirdə idarəetmə prosesində sənədin icrası mümkün olmaz. Məsələn, sənədin qəbul olunmasının məqsədi aydın deyilsə, o yerinə yetirilməyəcəkdir.

Məlumatların bir hissəsi idarəetmənin səmərəli həyata keçirilməsinin təmin olunması üçün lazımdır (idarəetmə prosesinin səmərəliliyindən danışarkən, biz onun məqsədinə ən az xərclərlə nail olunmasını nəzərdə tuturuq). Məsələn, əməkdaşın xarakterinin bəzi xüsusiyyətləri haqqında məlumat.

Məlumatların bir hissəsi idarəetmə ilə bağlı deyil, yəni onların olmaması idarəetmənin həyata keçirilməsinə təsir etmir. Məsələn, konkret sənədin qaralaması yazılarkən istifadə edilən vasitələr haqqında məlumat.

Əgər sənəddə idarəetmə üçün lazım olan bütün məlumatlar varsa, onu tam adlandırmaq olar.

**Anlaşıqlılıq.** Tədqiqatçılar göstərirlər ki, mətnin anlaşıqlılığını təmin edən bir neçə obyektiv şərti mövcuddur:

1-ci şərt. Çoxmənalı müstəqil mənalı hər bir sözün leksik mənasını birmənalı şəkildə müəyyənləşdirmək olursa, onda sənədin mətni anlaşılandır.

2-ci şərt. Sözlərin hansının daha əsas söz olduğunu müəyyən edərkən şübhə yaranmırsa, onda sənədin mənti anlaşılandır.

Əgər 1-ci və 2-ci şərtlər yerinə yetirilirsə, onda deyə bilərik

ki, idarəetmə sənədinin mətni birmənalı anlaşılmaq tələbinə cavab verir.

3-cü şərt. İdarəetmə mühitinin baş sözün leksik mənası ilə müəyyənləşdirilən əlamətlərdən biri ilə təyin edilən xüsusiyyətinin mənası bu baş sözdən asılı olan istənilən sözlə verilirsə, onda sənədin mətni anlaşılandır. Bu şərtin yerinə yetirilməməsi sözün öz konteksti ilə ziddiyyətli olmasına gətirib çıxarır.

4-cü şərt. İdarəetmə mühitinin dəyişməyən eyni xüsusiyyəti sənədin mətninin müxtəlif hissələrində eyni müəyyənləşdirilirsə (yəni eyni mənaya malikdirsə), onda sənədin mətni anlaşılandır.

Əgər 3-cü və 4-cü şərtlər yerinə yetirilirsə, onda deyə bilərik ki, idarəetmə sənədinin mətni ziddiyyətsizlik tələbinə cavab verir.

5-ci şərt. Mətnin hər sözü üçün ona münasibətdə ya baş, ya da asılı olan bir söz belə tapılarsa və cümlənin bütün sözləri hər cüt qonşu sözlərin öz aralarında "baş söz-asılı söz" münasibəti ilə bağlı olduğu fasiləsiz zəncir əmələ gətirərsə, onda sadə cümlənin mətni mənaya malikdir.

Əgər 5-ci şərt yerinə yetirilirsə, onda demək olar ki, idarəetmə sənədinin mətni cümlə səviyyəsində bağlılıq tələbinə cavab verir.

Yuxarıda göstərilən obyektiv şərtlərdən başqa sənədin mətninin anlaşıqlığına səbəb olan subyektiv şərtlər də mövcuddur.

Əgər sənədin mətnində istifadə edilən sözlərdə onun müəllifinin və icraçısının lüğət tərkibi normativ lüğət tərkibinə, yəni sözlərin semantik və leksik mənalarına uyğundursa, onda sənədin mətni anlaşılandır. Burada tərtibçinin və icraçının lüğət tərkibi onların malik olduqları sözlərin leksik mənalarının məcmusuna deyilir. Normativ lüğət tərkibi izahlı lüğətlərdəki tərkibdir. Əgər bu şərt yerinə yetirilirsə, onda demək olar ki, idarəetmə sənədinin mətni lüğət tərkibinin uyğunluğu tələbinə cavab verir.

Yeri gəlmişkən qeyd edək ki, ölkəmizdə Azərbaycan dilinin işlənməsi, qorunması və inkişafına dövlət tərəfindən böyük diqqət göstərilir. Bu sahədə "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun, "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" respublika Prezidentinin fərmanı və digər sənədlər qəbul olunmuşdır. Eyni zamanda, Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının layihəsinin hazırlanması üçün ölkə Prezidentinin 2012-ci il 23 may tarixli sərəncamı ilə aidiyyəti qurumlara tapşırıq verilmişdir.





"Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunda deyilir ki, Azərbaycan Respublikasında dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarında, dövlət qurumlarında, siyasi partiyalarda, qeyri-hökumət təşkilatlarında (ictimai birlik və fondlarda), həmkarlar təşkilatlarında, digər hüquqi şəxslərdə, onların nümayəndəliklərində və filiallarında, idarələrdə dövlət dilinin tətbiqi ilə bağlı fəaliyyət bu Qanuna uyğun olaraq həyata keçirilir, o cümlədən kargüzarlıq işləri dövlət dilində aparılır.

İnformasiyanı təsbit etməsi baxımından sənəd barədə danışarkən "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "İnformasiya əldə etmək haqqında" qanunları qeyd etmək lazımdır.

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanun informasiyanın yığılması, işlənməsi, saxlanması, axtarışı, yayılması əsasında informasiya ehtiyatlarının formalaşdırılması, informasiya sistemləri, texnologiyaları, onların təminat vasitələrinin yaradılması və onlardan istifadə olunması, informasiyanın mühafizəsi ilə əlaqədar olaraq yaranan münasibətləri tənzimləyir. Qanunda sənədləşdirmə sahəsində əsas terminlər, o cümlədən aşağıdakı anlayışlar müəyyən edilmişdir:

**informasiya** - yaranma tarixindən, təqdimat formasından və təsnifatından asılı olmayaraq istənilən fəaliyyət nəticəsində yaradılan, yaxud əldə olunan faktlar, rəylər, bilgilər, xəbərlər və ya digər xarakterli məlumatlar;

**sənədləşdirilmiş informasiya (sənəd)** - maddi daşıyıcıda mətn, səs və ya təsvir formasında qeydə alınan və identikləşdir-

məyə imkan verən istənilən rekvizitli informasiya mənbəyindən, saxlanma yerindən, rəsmi statusundan, mülkiyyət növündən, mənsub olduğu təşkilat tərəfindən yaradılıb-yaradılmadığından asılı olmayaraq sənədləşdirilmiş informasiya;

**açıq informasiya** - əldə olunması, işlənməsi, verilməsi və ya istifadəsi Azərbaycan Respublikasının qanunvericiliyi ilə məhdudlaşdırılmayan və ümumi istifadə üçün təyin olunmuş sənədləşdirilmiş informasiya;

**konfidensial informasiya** - vətəndaşların, mülkiyyət növündən asılı olmayaraq yaradılmış idarə, müəssisə və təşkilatların, digər hüquqi şəxslərin qanuni maraqlarının qorunması məqsədilə əldə olunmasına məhdudiyyət qoyulan peşə (həkim, vəkil, notariat), kommersiya, istintaq və məhkəmə sirləri, habelə fərdi məlumatlar;

**informasiya prosesləri** - informasiyanın yaradılması, yığılması, işlənməsi, saxlanması, axtarışı, yayılması.

Qanunun 5-ci maddiəsində göstərilmişdir ki, informasiyanın sənədləşdirilməsi onun informasiya ehtiyatlarına daxil edilməsinin mütləq şərtidir. İnformasiyanın sənədləşdirilməsi Azərbaycan Respublikasının təhlükəsizliyi, kargüzarlıq, sənəd və sənəd massivlərinin standartlaşdırılması məsələlərinin təşkilinə cavabdeh olan müvafiq icra hakimiyyəti orqanlarının müəyyən etdiyi qaydalar əsasında həyata keçirilir.

Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq surətdə informasiya sistemlərindən, o cümlədən avtomatlaşdırılmış sistemlərdən alınmış sənəd vəzifəli şəxs tərəfindən imzalandıqdan sonra hüquqi qüvvəyə malik olur.

"İnformasiya əldə etmək haqqında" Qanunun məqsədi Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsi ilə təsbit olunmuş məlumat əldə etmək hüququnun sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə, açıq cəmiyyətin və demokratik hüquqi dövlətin prinsipləri əsasında təmin edilməsinin hüquqi əsaslarını müəyyənləşdirməkdən, həmçinin, ictimai vəzifələrin yerinə yetirilməsinə vətəndaşlar tərəfindən nəzarət olunmasına şə-





rait yaratmaqdan ibarətdir.

Qanuna görə, Azərbaycan Respublikasında informasiyanın əldə olunması azaddır. Hər kəs özü birbaşa və ya nümayəndəsi vasitəsilə informasiya sahibinə müraciət etmək, informasiyanın növünü və əldə etmə formasını seçmək hüququna malikdir.

Qanunda informasiyanın əldə olunmasının sorğu əsasında təmin edilməsi, informasiyanın açıqlanması məsələlərinə geniş yer verilmişdir. Göstərilir ki, informasiyanın açıqlanması ilə əlaqədar olaraq dövlət orqanları və bələdiyyələr İnternet informasiya ehtiyatları yaradırlar. Müvafiq icra hakimiyyəti orqanları onların tabeliyində olan dövlət orqanlarının internet informasiya ehtiyatları formalaşdırmalarına şərait yaratmalıdırlar.

Ölkəmizdə bütün sahələrdə olduğu kimi sənədləşmə işində də ən yeni texnologiyaların tətbiq edilməsi, idarəetmə sisteminin təkmilləşdirilməsi, sənədlərin kağız dövriyyəsinin elektron dövriyyəsi ilə əvəz olunması, vətəndaşların dövlət orqanları ilə əlaqələrinin elektron rabitə vasitələri ilə həyata keçirilməsi, ölkədə daha sürətli informasiya sisteminin yaradılması məqsədilə "Elektron imza və elektron sənəd haqqında" Qanun qəbul edilmiş, "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, ***"informasiya-kommunikasiya texnologiyalarının gələcək inkişafımızda çox önəmli rolu olacaqdır. Çünki bütün dünyanın elmi-texniki tərəqqisi bu istiqamətdə inkişaf edəcəkdir".***

Milli Strategiyanın icrasının ilkin mərhələsi kimi "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı"nın qəbul edilməsi, bu proqramda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi sayəsində növbəti mərhələnin icrası üçün əsaslı zəmin yaranmış və "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı"

təsdiq edilmişdir. Bu proqramda qeyd olunur ki, informasiya cəmiyyətinə keçidin təmin olunmasına, dövlət orqanlarının fiziki və hüquqi şəxslərə təqdim etdiyi xidmətlərin keyfiyyətinin yaxşılaşdırılmasına, ümumiyyətlə, dövlət idarəçiliyinin səmərəli və optimal təşkil edilməsinə yönəldilmiş elektron hökumətin formalaşdırılması üzrə layihələr həyata keçirilir. Respublikada elektron imza xidmətinin təşkili məqsədi ilə milli infrastrukturun yaradılması işləri aparılır və bu, elektron hökumət layihələrinə, elektron xidmətlərin tətbiqinə şərait yaradır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında ölkə Prezidenti bu məsələni xüsusi vurğulayaraq demişdir: ***"Elektron hökumət prinsiplərinə keçməyimiz korrupsiyaya qarşı mübarizədə çox təsirli amil olacaqdır. Bütövlükdə çalışmalıyıq ki, nə qədər mümkündür məmur-vətəndaş təmaslarını aradan qaldıraq. İndi internet vasitəsilə, elektron xidmət vasitəsilə müxtəlif məlumatları da, arayışları da əldə etmək olar. Qeydiyyat məsələləri də internet vasitəsilə aparılmalıdır. Mənim tərəfimdən imzalanmış xüsusi fərmanda bütün bu məsələlər göstərilibdir. Hər bir nazirlik və dövlət qurumu həmin fərmana uyğun olaraq təkliflər verməlidir ki, onların nəzdində hansı xidmətlər elektron variantda aparılmalıdır. Bunu heç kim yubatmasın və uzatmasın. Bu fərman və onun icrası bilavasitə mənim nəzarətim altındadır. Tezliklə təkliflər verilməlidir. Ondan sonra daha da ciddi addımlar atılacaqdır."***

Dövlət başçısının qeyd etdiyi həmin sənəd onun 2011-ci il mayın 23-də imzaladığı "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bizi tədbirlər haqqında" fərmandır. Bu fərmanda qeyd olunur ki, Azərbaycanın davamlı və dayanıqlı sosial-iqtisadi inkişafını təmin etmək, dövlət idarəçiliyini müasir prinsiplər əsasında həyata keçirmək məqsədilə informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması dövlət siyasətinin prioritetlərindən birinə





çevrilmiş və bu sahədə mühüm tədbirlər görülmüşdür. Burada əsas məqsəd odur ki, modern və çevik idarəetmə təmin edilsin, dövlət orqanlarının fəaliyyətində şəffaflıq artırılsın və korrupsiyaya şərait yaradan hallar aradan qaldırılsın. Respublika Nazirlər Kabineti 2011-ci il noyabrın 24-də "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nı və "Elektron xidmət növlərinin Siyahısı"nı təsdiq etmişdir. Siyahıda müxtəlif qurumların vətəndaşlara göstərməli olduğu 286 elektron xidmət növü təsdiq edilmişdir.

Respublika vətəndaşlarına məlumdur ki, hələ 2004-cü ildə Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı yaradılmış, sonrakı illərdə isə həmin sayt müntəzəm yeniləşdirilmişdir. Bu sayt respublikanın, dünyanın hər bir vətəndaşı üçün daim açıqdır. İndi həm respublikanın, həm də xarici ölkələrin hər bir vətəndaşı öz müraciətini cənab Prezidentə birbaşa elektron poçt vasitəsilə ünvanlamaq imkanı əldə etmişdir.

Hazırda Prezident Administrasiyasına edilən vətəndaş müraciətlərinin xeyli hissəsi məhz Prezidentin internet saytı vasitəsilə daxil olur. Bu müraciətlər "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Qanuna uyğun olaraq qeydiyyata alınır və baxılır. Gələcəkdə bu sahədə imkanlar daha da genişləndiriləcək, respublikanın istənilən nöqtəsindən elektron poçt vasitəsilə ölkə Prezidentinə və onun Administrasiyasına müraciət etməkdə vətəndaşlar heç bir çətinliklə qarşılaşmayacaqlar.

Azərbaycan Prezidentinin rəsmi saytı şəbəkənin istifadəçilərinə daim yeni imkanlar təqdim edir, daim saytın dizaynı ən son texnologiyalar əsasında yeniləşdirilir.

Vətəndaşların digər dövlət orqanlarına müraciət etməsini daha da asanlaşdırmaq üçün Prezidentin rəsmi internet saytında ən müasir dizaynla respublikanın interaktiv xəritəsi yerləşdirilmiş, saytın "Müraciətlər" xanasında "Dövlət orqanlarına müraciət etmək" bölməsi açılmış, linklər vasitəsilə hər bir dövlət orqanının rəsmi saytının "Müracətlər" səhifəsinə keçid imkanı yaradılmışdır.

Vətəndaşlar bu bölmə vasitəsilə indi istədiyi dövlət orqanına birbaşa müraciət etmək, eyni zamanda, həmin orqanların vəzifəli şəxslərinin qəbul günlərini öyrənmək imkanı əldə etmişlər. Bundan əlavə, saytda vətəndaşların müraciətlərinə baxılması məsələlərinə dair respublika Konstitusiyasının 57-ci maddəsindən başlayaraq bütün qanunvericilik aktlarının mətni yerləşdirilmişdir. Hazırda vətəndaşların uzaq məsafə qət etmədən Prezident Administrasiyasının struktur bölmələrinin qəbuluna yazılması üçün saytda elektron qəbul bölməsi yaradılmış və bunun vasitəsilə hər bir vətəndaş müəyyən olunmuş qrafik üzrə qəbula yazılmaq imkanı əldə etmişdir.

Respublikanın bir sıra nazirliklərində də elektron xidmətlərin təşkili və reallaşması üçün tədbirlər görülür, texniki imkanlar yaradılır. Məsələn, Ədliyyə Nazirliyi üzərinə düşən çoxsaylı, müxtəlif xarakterli elektron xidmətlərin təşkili üçün bəzi ədliyyə orqanlarında universal elektron köşklər quraşdırmışdır ki, həmin köşklər vasitəsilə vətəndaşlar bir çox xidmətlərlə yanaşı, dövlət rüsumlarını da ödəmək imkanı əldə etmişlər.

Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının sifarişi ilə "Antikorrupsiya tədqiqatları mərkəzi" və "Prodemos" qeyri-hökumət təşkilatları tərəfindən yaradılmış internet portalı isə vətəndaşlara göstərilən xidmətlərə görə dövlət strukturlarına ödənilən rüsumlar və tariflər haqqında informasiyanın əldə edilməsini asanlaşdırır. Bu portal bütün rüsumlar və tariflər haqqında ilk və yeganə informasiya mənbəyidir. Vətəndaşlar bu portal vasitəsilə hər bir dövlət orqanının tələb etdiyi qanuni rüsum və cərimənin məbləği haqqında məlumat əldə edə bilərlər. Portalda həmçinin xidmətlərə görə tələb olunan ərizələrin və anketlərin formaları yerləşdirilmişdir. Vətəndaşlar ərizələri və anketləri çap edib müvafiq dövlət strukturlarına təqdim edə bilərlər.

Portalda dövlət orqanlarına müraciət etmək üçün ünvanlar, əlaqə telefonları və elektron poçt ünvanları, habelə daha çox istifadə edilən sahələr üzrə müxtəlif kalkulyatorlar yerləşdirilmişdir. Məsələn, vətəndaş avtomobilin texniki baxışdan və gömrükdən keçirilməsi üzrə kalkulyatorlardan istifadə edərək, qanunla müəyyən olunmuş ödənişin məbləği haqqında məlumat ala bilər.



Azərbaycanda dövlət qulluğunun və idarəetmə sisteminin keçmişi, bu günü və perspektivləri

Portalın yaradılmasının məqsədi şəffaflığı artırmaq, korrupsiyaya qarşı mübarizəyə, vətəndaş cəmiyyətinin bu sahədə fəal iştirakına yardım etməkdir.

Dövlət Sosial Müdafiə Fondunun bu sahədə gördüyü işləri də qeyd etmək olar. "2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı"na əsasən, fondun fəaliyyətinin əhatə dairəsinin, eləcə də görülən işlərə ictimai marağın daha da artması ilə əlaqədar olaraq onun saytının təkmilləşdirilmiş yeni versiyası istifadəyə verilmişdir.

Yeni sayt sığorta-pensiya sahəsində görülən işlər barədə əhalinin məlumatlandırılması və internet səhifəsindən əhaliyə xidmət vasitəsi kimi istifadə edilməsi istiqamətində geniş imkanlara malikdir.

"Vətəndaşların məlumatlandırılması" bölməsində məcburi dövlət sosial sığorta haqlarının dərəcələri, sığortaedənlərin və sığortaolunanların Dövlət Sosial Müdafiə Fondunda uçotuna dair ərizə, arayış, məlumat, hesabat formaları, pensiya təyinatı üçün zəruri olan sənədlər, o cümlədən ərizə, təqdimat və s. formalar yerləşdirilmişdir.

Saytın "sual-cavab" (pensiya və müavinətlər, sosial sığorta haqları, fərdi uçot, hərbi qulluqçulara dair pensiya və müavinətlər və digər altbölmələrdən ibarət olmaqla) bölməsi vətəndaşlar tərəfindən ünvanlanan müraciətlərin operativ cavablandırılması məqsədi daşıyır.

Geniş və hərtərəfli təhlillər aparılmasına imkan verən proqramlardan istifadə edilməsi baxımından Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın və Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının gördüyü işləri, o cümlədən onların internet saytlarında yerləşdirilən zəngin məlumatları qeyd etmək olar.

Prezident Administrasiyasına vaxtaşırı daxil olan müraciətlərin təhlili göstərir ki, vətəndaşlar problemlərinin həlli üçün görülməli işlər, o cümlədən mərkəzi və yerli icra hakimiyyətləri orqanlarının bu məsələlərlə əlaqədar vəzifə səlahiyyətləri, yaxud onların işini tənzimləyən qayda və təlimatlar barədə sorğu verirlər. Bir çox mərkəzi və yerli icra hakimiyyəti orqanlarının internet saytlarının yaradılması və orada lazımi informasiyaların yerləşdirilməsi vətəndaşlara vaxt itirmədən, operativ şəkildə informasiya əldə etmək imkanı yaradır, süründürməçiliyə yol verən bir çox prosedurların aradan qaldırılmasına, şəffaflığın təmin olunmasına kömək edir.

Vətəndaşların gündəlik həyatda qarşılaşdıqları bürokratik əngəllərin aradan qaldırılmasının əsas yolu bilavasitə elektron hökumətin reallaşdırılmasıdır. Bu gün vətəndaş özünə lazım olan informasiyanı hər bir mərkəzi və yerli icra hakimiyyəti orqanının internet saytında, yaxud portalında axtarıb tapmaq imkanına malikdir və hər hansı bir arayış formasını, blank nümunəsini, yaxud digər sənədi almaq üçün idarə və təşkilatlara ayaq döymür.

İnformasiya və kommunikasiya texnologiyalarından təkcə elektron xidmətlər göstərilməsi üçün deyil, eyni zamanda idarəetmənin tərkib hissələrindən biri olan sənədlərlə işin yaxşılaşdırılması üçün də geniş istifadə edilməsi bu gün aktual məsələdir.

Dövlət orqanlarında elektron imzadan istifadə üçün imkanların, onlar arasında effektiv sənəd mübadiləsi üçün infrastrukturun yaradılması, təhlükəsiz və operativ informasiya mübadiləsinin təmin olunması məqsədilə 2010-2012-ci illər üçün "Elektron Azərbaycan" Dövlət Proqramında həmin orqanlarda elektron imzanın və elektron sənəd dövriyyəsinin tətbiqi sahəsində tədbirlər nəzərdə tutulmuşdur.

İndi idarəetmə fəaliyyətində kompyuter texnologiyasından geniş istifadə edilməsi nəticəsində bütün sənədlərin layihələri elektron daşıyıcılarda yaradılır. Bundan sonrakı işin isə iki variantda aparılması mümkündür.





Birinci variantda sənədin layihəsi elektron şəklində yaradıldıqdan sonra o, printerdə çap edilir və onun sonrakı dövriyyəsi kağız şəklində aparılır. Sənəd razılaşdırılır, imzalanır, təsdiq edilir və qeydiyyatdan keçirilir. Daha sonra sənəd ünvanlara göndərilir (çıxış sənədi) və ya icraçılara verilir (daxili sənəd), işə tikilir (əsli və ya surəti), ləğv edilir və ya arxivə təhvil verilir.

Bu variantda sənədin hüquqi qüvvəsini, habelə onun təşkilatda dövriyyəsini müəyyən edən rekvizitlər əl ilə qeyd olunur: şəxsi imza, razılaşma vizaları təşkilatın vəzifəli şəxsləri tərəfindən, sənədin qeydiyyat nömrəsi və tarixi, kargüzarlıq qeydləri idarəetmənin sənəd təminatı xidmətinin işçiləri tərəfindən qoyulur.

İkinci variantda sənədin bütün dövriyyəsi sırf elektron şəklində aparılır. Bu halda sənəd elektron daşıyıcıda yaradıldıqdan sonra ona elektron imza texnologiyası vasitəsilə vizalar və imza qoyulur, kargüzarlığın və sənəd dövriyyəsinin avtomatlaşdırılması sistemində qeydiyyatdan keçirilir, sonra isə elektron poçtla (internet və ya lokal şəbəkə ilə) kənar və ya daxili ünvana göndərilir. Sonradan sənəd ləğv edilə və elektron arxivdə saxlanıla bilər.

Hazırda respublikanın bütün dövlət orqanlarında, o cümlədən Prezident Administrasiyasında kargüzarlıq sisteminin təkmilləşdirilməsi, bu sahədə ən müasir proqramların hazırlanıb tətbiq edilməsi üçün böyük işlər görülür.

Artıq respublikanın bir sıra mərkəzi icra hakimiyyəti orqanlarında sənədlərin elektron dövriyyəsi sistemindən geniş istifadə edilir. Bu gün Mədəniyyət və Turizm, Daxili İşlər, Vergilər, Fövqəladə Hallar, Təhsil nazirliklərində, Respublika Prokurorluğunda, Dövlət Gömrük Komitəsində, Dövlət Sosial Müdafiə Fondunda və bəzi başqa təşkilatlarda sənədlərlə işin xeyli hissəsi müasir texnologiyalar və proqramlar əsasında qurularaq həyata keçirilməkdədir. Hazırda əksər nazirliklərdə mərkəzləşdirilmiş elektron informasiya sisteminin yaradılması davam etdirilir.

Bununla yanaşı bəzi dövlət orqanlarında hələ də daha çox sə-

nədlərin kağız dövriyyəsinə üstünlük verilir. Hətta yeni proqramların tətbiq edildiyi təşkilatlarda da bəzən elektron sənəd dövriyyəsi yalnız daxil olan sənədlərin və onlara verilmiş cavabların qeydiyyatını əhatə edir.

Respublikada təkcə vətəndaş müraciətləri üzrə sənəd dövriyyəsinə nəzər salsaq, hər il bütün təşkilatlarda 10 minlərlə müraciətin qeydiyyatdan keçirildiyini, bununla əlaqədar saysız-hesabsız yazışma aparıldığını görərik. Halbuki, elektron sənəd dövriyyəsinin geniş tətbiqi xeyli vaxta və vəsaitə, ən azı tonlarla kağıza qənaət olunmasına kömək edərdi.

Xüsusilə idarələrarası elektron sənəd dövriyyəsi sisteminin tətbiqi dövlət idarəetmə sisteminin tərkib hissələrindən biri olan sənədlərlə işin tamamilə yenidən qurulması deməkdir. Bundan məqsəd ilk növbədə, idarəetmə sistemində operativliyi artırmaq, dövlət qulluqçularının fəaliyyətinin daha səmərəli olmasını təmin etmək, bu işi qabaqcıl ölkələr səviyyəsinə qaldırmaqdır. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2012-ci il 4 sentyabr tarixli fərmanı ilə "İdarələrarası elektron sənəd dövriyyəsi sistemi haqqında Əsasnamə"nin təsdiq olunmasını ölkənin dövlət orqanlarının sənədləşdirmə işində yeni mərhələnin başlanması hesab etmək olar. Fərmanda yeni sənəd dövriyyəsi sisteminin tətbiqi üçün görüləcək işlər və onları həyata keçirəcək orqanlar, konkret icra müddətləri və sistemin əhatə edəcəyi dövlət orqanları müəyyən olunmuşdur.

Sistemin təşkilatçısı funksiyası Prezident Administrasiyasına, operatoru funksiyası isə Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinə həvalə edilmişdir. İdarələrarası elektron sənəd dövriyyəsi sisteminin təşkilatçısı sistem çərçivəsində sənəd dövriyyəsini və mühafizəsini təmin edən hüquqi aktların tələblərinin yerinə yetirilməsinə, elektron sənəd dövriyyəsinin qanunvericiliklə müəyyən edilmiş kargüzarlıq standartları və qaydaları əsasında həyata keçirilməsinə nəzarət edəcəkdir. Eyni zamanda, sistemin təşkilatçısına bu tələblər pozulduqda elektron sənəd dövriyyəsini qadağan etmək və dayandırmaq səlahiyyəti





verilmişdir. Sistemin təşkilatçısının həmçinin onun təşkilati və metodiki təminatını həyata keçirmək funksiyaları da vardır.

Sistemin iştirakçıları olan dövlət orqanları və qurumları "Dövlət qulluğu haqqında" Qanunda və digər normativ hüquqi aktlarda müəyyən edilmiş təsnifat üzrə qruplaşdırılmışdır. Bu təsnifata uyğun olaraq fərmanda göstərilən ardıcıllıq üzrə sistemin tətbiqi üçün konkret müddətlər müəyyən edilmişdir. Bu orqanların bir qismi, o cümlədən mərkəzi icra hakimiyyəti orqanları və digər qurumlar artıq 2013-cü ilin iyulundan, yerli icra hakimiyyəti orqanları, Əsasnaməyə əlavə olunan siyahıya daxil edilmiş idarə və təşkilatlar isə 2014-cü ilin əvvəlindən idarələrarası elektron sənəd dövriyyəsi sisteminə qoşulacaqlar.

Əsasnamədə təşkilatçının, operatorun, iştirakçıların vəzifələri və funksiyaları konkret göstərilmişdir. Əslində təşkilatçı və operatorun özləri də bu sistemin iştirakçılarıdır. Şübhə yoxdur ki, dövlət başçısının qarşıya qoyduğu vəzifəni layiqincə yerinə yetirmək üçün həm sistemin təşkilatçısı, həm operatoru, həm də iştirakçıları sıx işgüzar münasibətlər şəraitində çalışacaq, mükəmməl və işlək elektron sənəd dövriyyəsi sistemini formalaşdırmaq üçün əllərindən gələni edəcəklər.

Elektron sənəd dövriyyəsindən danışarkən elektron arxivlərin yaradılmasının çox vacib məsələ olduğunu qeyd etmək lazımdır. Son illər respublikada arxiv işinə diqqətin artırılması nəticəsində sənədlərin dövlət arxivlərinə təhvil verilməsi yaxşılaşsa da, bəzi idarə və müəssisələrin, o cümlədən özəlləşdirilmiş müəssisələrin sənədlərinin lazımınca qorunub saxlanmaması son nəticədə vətəndaşlar üçün problemlər yaradır. Məsələn, Milli Arxiv İdarəsinin mərkəzi və yerli təşkilatlarına daxil olan bir çox müraciətlərdə vətəndaşlar ilk növbədə iş stajı və əmək haqqı, torpaq və əmlak, vətəndaşlıq vəziyyəti haqqında arayışlar tələb edirlər və onların bir qisminə müsbət cavab verilməsi mümkün olmur. Əgər bu gün bütün idarə və təşkilatlarda sənədlərin elektron arxivləri yaradılaraq mərkəzləşdirilmiş qaydada saxlansa, gələcəkdə belə arayışların alınması heç bir problem yaratmayacaqdır.

Azərbaycanda informasiya cəmiyyəti qurulması ölkənin daha sürətli və səmərəli inkişafının, rəqabət qabiliyyətli ölkəyə çevrilməsinin, eyni zamanda, hər bir dövlət orqanının, hər bir məmurun müasir şəraitdə işləyə bilmək bacarığının göstəricisidir. Bunun üçün müxtəlif dövlət orqanlarında görülən işlər sıx əlaqələndirilməli, vahid sistem halına salınmalıdır. Çünki dövlət idarəçiliyinin əsas atributlarından olan sənədləşdirmə işinin düzgün təşkili hamıdan, hər bir dövlət orqanının rəhbərindən və məmurdan yeni düşüncə, respublikanın gələcəyinə yeni mövqedən yanaşma tələb edir.

***(İlk dəfə dərc olunur)***





# Dövlət qulluğu haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## I fəsil. Ümumi müddəalar

### Maddə 1. Qanunun məqsədi

Bu Qanun Azərbaycan Respublikasında dövlət qulluğu sahəsində dövlətlə dövlət qulluqçuları arasında yaranan münasibətləri və dövlət qulluqçularının hüquqi vəziyyəti ilə bağlı məsələləri tənzimləyir.

### Maddə 2. Dövlət qulluğu

2.1. Dövlət qulluğu Azərbaycan Respublikasının Konstitusiyasına və digər qanunvericilik aktlarına uyğun olaraq dövlətin məqsədlərinin və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçularının öz vəzifə səlahiyyətlərini yerinə yetirməsidir.

2.2. Bu Qanun icra, qanunvericilik və məhkəmə hakimiyyətləri orqanlarının aparatlarında dövlət qulluğu keçən qulluqçulara şamil edilir.

2.3. Prokurorluq, ədliyyə, milli təhlükəsizlik, müdafiə, fövqəladə hallar, sərhəd xidməti, xüsusi dövlət mühafizə xidməti, miqrasiya xidməti, daxili işlər, gömrük, vergi, xarici işlər və feldyeger rabitəsi orqanlarında, Azərbaycan Respublikasının Mərkəzi Bankında dövlət qulluğunda çalışan şəxslərin dövlət qulluğu keçməsi bu Qanunun Azərbaycan Respublikası vətəndaşlarının dövlət qulluğuna qəbul edilmək hüququna, dövlət qulluğuna qəbulun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsinə, dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsinə və dövlət qulluğunun digər prinsiplərinə aid müddəaları nəzərə alınmaqla, Azərbaycan Respublikasının başqa qanunları ilə tənzimlənir və bu or-

qanlarda qulluq dövlət qulluğunun xüsusi növüdür.

Bu orqanların (Azərbaycan Respublikasının Mərkəzi Bankı istisna olmaqla) aparatlarında calışan və hərbi və ya xüsusi rütbəsi olmayan şəxslərə (dövlət qulluqçusu olmayan işçilər - xadimə, dalandar, bağban, gözətçi, ocaqçı, ixtisas dərəcəsi olmayan fəhlə və s. istisna olmaqla) bu qanun şamil edilir.

2.4. Bu Qanunda başqa hal nəzərdə tutulmayıbsa, bu Qanun Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikası Milli Məclisinin deputatlarına, Azərbaycan Respublikasının Baş nazirinə və onun müavinlərinə, Azərbaycan Respublikası məhkəmələrinin hakimlərinə, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinə (Ombudsmana), Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinə və onların müavinlərinə, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədrinə, sədr müavinlərinə, katibinə və üzvlərinə, Azərbaycan Respublikası Hesablama Palatasının sədrinə, sədr müavininə və auditorlarına, yerli icra hakimiyyəti orqanlarının rəhbərlərinə (başçılarına), Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarına, Naxçıvan Muxtar Respublikasının Baş nazirinə və onun müavinlərinə, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinə, habelə hərbi qulluqçulara şamil olunmur.

2.5. Bu Qanun müvafiq icra hakimiyyəti orqanlarının tabeliyində olan müəssisələrin işçilərinə şamil edilmir. Bu işçilərin əmək münasibətləri Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir.

2.6. (Çıxarılıb).

**Maddə 3. Dövlət qulluğunun əsas vəzifələri**

3.1. Dövlət qulluğunun əsas vəzifələri aşağıdakılardır:

3.0.1. Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunvericilik aktları əsasında vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi;





3.0.2. dövlət orqanlarının səlahiyyəti hüdudlarında qərarların hazırlanması, qəbul edilməsi, icrası və icraya nəzarət edilməsi;

3.0.3. dövlət orqanlarının səmərəli fəaliyyətinin və dövlət qulluqçuları tərəfindən vəzifə səlahiyyətlərinin yerinə yetirilməsinin təmin edilməsi.

**Maddə 4. Dövlət qulluğunun prinsipləri**

4.1. Dövlət qulluğu aşağıdakı prinsiplərə əsaslanır:

4.1.1. qanunçuluq;

4.1.2. Azərbaycan Respublikasında qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının səlahiyyət hüdudlarının müəyyən edilməsi;

4.1.3. dövlət orqanlarına və dövlət qulluqçularına nəzarət və onların hesabat verməsi;

4.1.4. yuxarı dövlət orqanlarının və vəzifəli şəxslərin öz səlahiyyətləri hüdudlarında qəbul etdikləri qərarların aşağı dövlət orqanları və vəzifəli şəxslər tərəfindən mütləq yerinə yetirilməsi;

4.1.5. bütün vətəndaşların və vəzifəli şəxslərin dövlət qulluqçularının qanuni tələblərini icra etməyə və qanuni hərəkətlərini müdafiə etməyə borclu olması;

4.1.6. dövlət qulluğuna qəbulun şəffaflığı;

4.1.7. vətəndaşların dövlət qulluğuna müsabiqə və müsahibə əsasında qəbul edilməsi;

4.1.8. vətəndaşların öz qabiliyyətlərinə, xidməti nailiyyətlərinə və peşə hazırlığına uyğun olaraq dövlət qulluğunun hər hansı vəzifəsini tutmaqda hüquq bərabərliyi;

4.1.9. irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, sosial mənşəyindən, ailə, əmlak və qulluq vəziyyətindən, yaşayış yerindən, əqidəsindən, ictimai birliklərə mənsubiyyətindən, habelə qulluqçuların işgüzarlıq keyfiyyətlərinə dəxli olmayan başqa səbəblərdən asılı olmayaraq dövlət qulluqçularının hüquq bərabərliyi;

4.1.10. dövlət qulluqçularının potensialının səmərəli istifadəsi, xidməti və peşəkarlıq səviyyəsinin artırılması məqsədi ilə onların rotasiyası;

4.1.11. dövlət qulluqçularının sosial və hüquqi müdafiəsi, onların özləri və ailələri üçün ləyaqətli yaşayış səviyyəsinin təmin edilməsi;

4.1.12. qulluq borcunun yerinə yetirilməsi üçün dövlət qulluqçusunun cavabdehlik daşıması, eləcə də dövlət qulluqçusunun hərəkətlərinə görə dövlət orqanının cavabdehlik daşıması.

4.2. Dövlət orqanlarında siyasi partiyaların və ictimai birliklərin strukturları yaradılmır.

4.3. Dövlət qulluqçuları vəzifə borclarını yerinə yetirərkən Azərbaycan Respublikası Konstitusiyasını, qanunlarını və onlara müvafiq olaraq qəbul edilmiş digər qanunvericilik aktlarını rəhbər tuturlar və siyasi partiyaların və ictimai birliklərin qərarlarının onlara dəxli yoxdur.

**Maddə 5. Dövlət qulluğunu idarəetmə orqanları**

5.1. Azərbaycan Respublikasında bu Qanunun tətbiqinə nəzarəti, dövlət qulluğunun normativ-metodiki təminatını, Azərbaycan Respublikasında dövlət qulluqçuları kateqoriyasına aid edilən şəxslərin siyahısını müəyyən etməyi Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası həyata keçirir (bundan sonra-Şura). Şura 18 nəfər üzvdən ibarətdir. Şuranın 6 üzvü Azərbaycan Respublikasının Prezidenti tərəfindən, 6 üzvü Azərbaycan Respublikası Milli Məclisinin sədri tərəfindən, 6 üzvü isə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri tərəfindən təyin edilir. Şuranın səlahiyyətləri qanunla təsdiq edilən Əsasnamə ilə müəyyən edilir.

5.2. Şura dövlət orqanı deyil və onun üzvləri öz səlahiyyətlərini ictimai əsaslarla həyata keçirirlər.

5.3. Şuranın qəbul etdiyi qərarların məcburiliyi müvafiq dövlət qulluqçuları üçün müvafiq olaraq Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Milli Məclisinin sədri və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri tərəfindən təmin edilir.



Azərbaycanda dövlət qulluğunun və idarəetmə sisteminin keçmişi, bu günü və perspektivləri

**Maddə 6. Dövlət qulluğu haqqında qanunvericilik**

Dövlət qulluğu haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, Azərbaycan Respublikasının dövlət qulluğunu hüquqi cəhətdən tənzim edən və dövlət qulluqçularının hüquqi vəziyyətinin xüsusiyyətlərini müəyyən edən digər qanunvericilik aktlarından ibarətdir.

## II fəsil. Dövlət orqanları

**Maddə 7. Dövlət orqanı anlayışı**

7.1. Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilmiş hüdudlarda Azərbaycan Respublikasının məqsəd və funksiyalarını həyata keçirən, qanunvericiliyə uyğun olaraq yaradılmış və dövlət büdcəsindən maliyyələşdirilən dövlət qulluqçularının qurumu dövlət orqanıdır.

7.2. Dövlət orqanının bölməsi bu orqanın qanunvericilik aktlarında nəzərdə tutulmuş, yaxud müəyyən edilmiş qaydada təsis olunan elə struktur hissəsidir ki, özünə həvalə edilmiş funksiyalar çərçivəsində həmin orqanın səlahiyyətlərinin bir hissəsini həyata keçirir.

**Maddə 8. Dövlət orqanlarının təsnifatı**

8.1. Dövlət orqanları onların statusu, iyerarxiyası və yurisdiksiyası (ölkə, regional və yerli səviyyədə) nəzərə alınmaqla aşağıdakı kateqoriyalar üzrə təsnifatlaşdırılır:

8.1.1. əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitu-

siyasının 7-ci maddəsinin III hissəsinə əsasən müəyyən edilən Azərbaycan Respublikasının qanunvericilik, icra və məhkəmə hakimiyyətinin ən yüksək dövlət orqanları, habelə yuxarı icra orqanı - Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən və icra səlahiyyətlərini həyata keçirən orqanlar, Azərbaycan Respublikasının Milli Məclisi, Ali konstitusiya ədalət mühakiməsi səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi (Ali kateqoriya dövlət orqanları);

8.1.2. əsas səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Konstitusiya qanunları və Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilən dövlət orqanları - Azərbaycan Respublikasının Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, Azərbaycan Respublikasının Baş Prokurorluğu, Azərbaycan Respublikasının Hesablama Palatası, Məhkəmə-Hüquq Şurasının Aparatı, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Aparatı (1-ci kateqoriya dövlət orqanları);

8.1.3. əsas səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Konstitusiya qanunları, Azərbaycan Respublikasının qanunları ilə və Azərbaycan Respublikasının Konstitusiyasının 113-cü maddəsi ilə müəyyən edilən dövlət orqanları - Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanı, Azərbaycan Respublikasının Hərbi Prokurorluğu, Naxçıvan Muxtar Respublikasının Prokurorluğu, Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Aparatı, Azərbaycan Respublikasının apelyasiya məhkəmələri, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Aparatı, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının Katibliyi, müvafiq icra hakimiyyəti orqanları, Milli Televiziya və Radio Şurasının Aparatı (2-ci kateqoriya dövlət orqanları);

8.1.4. əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 113-cü və 124-cü maddələri ilə və qanunla müəyyən edilən dövlət orqanları - müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) regional mərkəzləri, Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyasının Aparatı, Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanları, Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının Aparatı, ağır cinayətlər məhkəmələri, inzibati-iqtisadi məhkəmələr, hərbi məhkəmələr, Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğu, Bakı şəhər prokurorluğu (3-cü kateqoriya dövlət orqanları);

8.1.5. əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 113-cü, 120-ci və 124-cü maddələri ilə və qanunla müəyyən edilən dövlət orqanları - müvafiq icra hakimiyyəti orqanları, müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələri, müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanlar, rayon (şəhər) məhkəmələri, rayon (şəhər) prokurorluqları və hərbi prokurorluqları (4-cü kateqoriya dövlət orqanları);

8.1.6. əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 113-cü və 124-cü maddələri ilə müəyyən edilən dövlət orqanları - müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların yerli bölmələri, müvafiq icra hakimiyyəti orqanlarının inzibati ərazi dairələri üzrə nümayəndəlikləri (5-ci kateqoriya dövlət orqanları).

8.2. (Çıxarılıb).

8.3. Konkret dövlət orqanlarının və onların bölmələrinin müvafiq kateqoriyalara aidiyyəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə bu qanun əsasında müəyyən edilir.

## III fəsil. Dövlət qulluğu vəzifəsi

### Maddə 9. Dövlət qulluğu vəzifəsinin anlayışı

Dövlət qulluğu vəzifəsi dövlət orqanının normativ aktları ilə müəyyən edilən struktur quruluşu və ştat cədvəlinə uyğun olan ştat vahididir. Həmin vəzifəni tutuan şəxsin səlahiyyət və funksiyalarının hüdudları həmin orqanın səlahiyyətindən asılı olaraq müəyyən edilir.

### Maddə 10. Dövlət orqanlarında vəzifələrin təsnifatı

10.1. Dövlət orqanlarında vəzifələr həmin vəzifələrin funksiyalarının məzmunundan, səlahiyyətlərinin mənbəyindən və tutulması üsullarından asılı olaraq inzibati və yardımçı vəzifələrə bölünür.
10.2. (Çıxarılıb).
10.3. (Çıxarılıb).
10.4. Siyasi vəzifələri tutan şəxslərn hüquqi statusu başqa qanunvericilik aktları ilə müəyyən olunur və bu Qanunda başqa hal nəzərdə tutulmayıbsa, bu Qanunun qüvvəsi onlara şamil edilmir.
10.5. İnzibati vəzifələr Ali - 5-ci kateqoriya dövlət orqanları aparatları və bölmələri rəhbərlərinin, onların müavinlərinin, habelə dövlət qulluğunda çalışan mütəxəssislərin vəzifələridir, İnzibati vəzifə tutan şəxsin hüquqi statusu müvafiq orqanın səlahiyyətlərini müəyyən edən qanunvericilik aktları ilə, habelə vəzifə təlimatları ilə müəyyən edilir.
10.6. Yardımçı vəzifələr Ali - 5-ci kateqoriya dövlət orqanlarında texniki işləri həyata keçirən dövlət qulluqçularının (kargüzar, makinaçı, kuryer, arxiv qeydiyyatçısı, liftçi, sürücü və sair işçilərin) vəzifələridir. Yardımçı vəzifə tutan şəxsin hüquqi statusu müvafiq orqanın səlahiyyətlərini müəyyən edən qanunvericilik aktları ilə, habelə vəzifə təlimatları ilə müəyyən edilir.





### Maddə 11. İnzibati və yardımçı vəzifələrin təsnifatı

11.1. İnzibati vəzifələrin aşağıdakı təsnifatları vardır:
11.1.1. inzibati vəzifələrin ali təsnifatı:
11.1.1.1. Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Administrasiya rəhbərinin vəzifəsi, Azərbaycan Respublikası Milli Məclisinin Aparat rəhbərinin vəzifəsi, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Aparat rəhbərinin vəzifəsi, Azərbaycan dövlətinin başçısının icra səlahiyyətlərini həyata keçirən orqanın Aparat rəhbərinin vəzifəsi, Azərbaycan Respublikası Dövlət müşavirlərinin vəzifəsi.
11.1.2. inzibati vəzifələrin birinci təsnifatı:
11.1.2.1. Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Administrasiya rəhbərinin müavini, Azərbaycan Respublikası Milli Məclisinin və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin aparat rəhbərlərinin müavinlərinin vəzifələri, Azərbaycan dövlətinin başçısının icra səlahiyyətlərini həyata keçirən orqanın Aparat rəhbərinin müavini vəzifəsi, habelə həmin dövlət orqanlarında bölmə rəhbərlərinin vəzifələri;
11.1.2.2. Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların rəhbərlərinin və onların birinci müavinlərinin vəzifələri;
11.1.2.3. 1-ci kateqoriya dövlət orqanları aparat rəhbərlərinin vəzifələri.
11.1.3. inzibati vəzifələrin ikinci təsnifatı:
11.1.3.1. Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında bölmə rəhbərinin müavini vəzifəsi, Azərbaycan Respublikası Milli Məclisinin və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin aparatlarında bölmə rəhbərinin müavini vəzifəsi;
11.1.3.2. Azərbaycan dövlətinin başçısının icra səlahiyyətlə-

rini həyata keçirən orqanın Aparatında bölmə rəhbərinin müavini vəzifəsi;

11.1.3.3. Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların rəhbərlərinin müavinlərinin vəzifələri;

11.1.3.4. 1-ci kateqoriya dövlət orqanları aparat rəhbərlərinin müavinlərinin, bölmə rəhbərlərinin vəzifələri;

11.1.3.5. Naxçıvan Muxtar Respublikasında 2-ci kateqoriya dövlət orqanları aparat rəhbərlərinin vəzifələri;

11.1.3.6. müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin rəhbərlərinin vəzifələri;

11.1.3.7. müvafiq icra hakimiyyəti orqanı rəhbərinin müavinlərinin vəzifələri.

11.1.4. inzibati vəzifələrin üçüncü təsnifatı:

11.1.4.1. Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Milli Məclisinin və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin aparatlarında mütəxəssislərin vəzifələri;

11.1.4.2. Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların bölmə rəhbərlərinin, onların müavinlərinin və mütəxəssislərinin vəzifələri;

11.1.4.3. Azərbaycan dövlətinin başçısının icra səlahiyyətlərini həyata keçirən orqanın Aparatında mütəxəssislərin vəzifələri;

11.1.4.4. 1-ci kateqoriya dövlət orqanları bölmə rəhbərlərinin müavinlərinin vəzifələri;

11.1.4.5. 2-ci kateqoriya dövlət orqanları aparat rəhbərlərinin və onların müavinlərinin vəzifələri;

11.1.4.6. Naxçıvan Muxtar Respublikasında 2-ci kateqoriya dövlət orqanları aparat rəhbərlərinin müavinlərinin və bölmə rəhbərlərinin vəzifələri;

11.1.4.7. müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin rəhbərlərinin müavinlərinin vəzifələri.



Azərbaycanda dövlət qulluğunun və idarəetmə sisteminin keçmişi, bu günü və perspektivləri

11.1.5. inzibati vəzifələrin dördüncü təsnifatı:

11.1.5.1. 1-ci kateqoriya dövlət orqanlarının aparatlarında mütəxəssislərin vəzifələri;

11.1.5.2. 2-ci kateqoriya dövlət orqanları bölmə rəhbərlərinin və onların müavinlərinin vəzifələri;

11.1.5.3. Naxçıvan Muxtar Respublikasında 2-ci kateqoriya dövlət orqanları bölmə rəhbərlərinin müavinlərinin vəzifələri;

11.1.5.4. müvafiq icra hakimiyyəti orqanı rəhbərinin müavinlərinin vəzifələri.

11.1.6. inzibati vəzifələrin beşinci təsnifatı:

11.1.6.1. 2-ci kateqoriya dövlət orqanlarının mütəxəssislərinin vəzifələri;

11.1.6.2. Naxçıvan Muxtar Respublikasında 3-cü kateqoriya müvafiq icra hakimiyyəti orqanlarının aparat rəhbərlərinin vəzifələri;

11.1.6.3. 3-cü kateqoriya dövlət orqanları bölmə rəhbərlərinin və onların müavinlərinin vəzifələri;

11.1.6.4. 4-cü kateqoriya dövlət orqanları - müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələrinin, müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların, müvafiq icra hakimiyyəti orqanının tabeliyində olan orqanların rəhbərlərinin vəzifələri;

11.1.7. inzibati vəzifələrin altıncı təsnifatı:

11.1.7.1. 3-cü kateqoriya dövlət orqanlarının mütəxəssislərinin vəzifələri;

11.1.7.2. 4-cü kateqoriya müvafiq icra hakimiyyəti orqanının bölmə rəhbərinin və onun müavininin vəzifələri;

11.1.7.3. 4-cü kateqoriya dövlət orqanları - müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələrinin, müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların, müvafiq icra hakimiyyəti orqanının tabeliyində olan orqanların rəhbərlərinin müavinlərinin vəzifələri;

11.1.7.4. 5-ci kateqoriya dövlət orqanları - müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, onların yanında, tabeliyində olan orqanların yerli bölmələrinin rəhbərləri və onların müavinlərinin vəzifələri.

11.1.8. inzibati vəzifələrin yeddinci təsnifatı:

11.1.8.1. 4-cü və 5-ci kateqoriya dövlət orqanları - müvafiq icra hakimiyyəti orqanının, müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələrinin, müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların, rayon (şəhər) məhkəmələrinin, rayon (şəhər) prokurorluqlarının və hərbi prokurorluqlarının, müvafiq icra hakimiyyəti orqanının tabeliyində olan orqanların, müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, onların yanında, tabeliyində olan orqanların yerli bölmələrinin mütəxəssislərinin vəzifələri;

11.1.8.2. müvafiq icra hakimiyyəti orqanlarının inzibati ərazi dairələri üzrə nümayəndələrinin, onların müavinlərinin və mütəxəssislərin vəzifələri.

11.2. Yardımçı vəzifələrin aşağıdakı təsnifatları vardır:

11.2.1. yardımçı vəzifələrin birinci təsnifatı - Ali kateqoriya dövlət orqanlarında texniki vəzifələr;

11.2.2. yardımçı vəzifələrin ikinci təsnifatı - 1-ci kateqoriya dövlət orqanlarında texniki vəzifələr;

11.2.3. yardımçı vəzifələrin üçüncü təsnifatı - 2-ci və 3-cü kateqoriya dövlət orqanlarında texniki vəzifələr;

11.2.4. yardımçı vəzifələrin dördüncü təsnifatı - 4-cü və 5-ci kateqoriya dövlət orqanlarında texniki vəzifələr.

11.3. (Çıxarılıb).

11.4. Dövlət orqanlarının aparatları (və ya onların fəaliyyətini təmin edən qurumlar) və onların bölmələri Ali - 5-ci kateqoriya dövlət orqanlarının Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən edilmiş funksiya və səlahiyyətləri, habelə onların həyata keçirilməsi xüsusiyyətləri nəzərə alınaraq, təminedici və yardımçı kimi təsnifləşdirilir.

Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Qeyd:**

11-ci maddədə «dövlət orqanlarının aparatı (və ya onların fəaliyyətini təmin edən qurumlar)» dedikdə, dövlət orqanının vəzifə, funksiya və səlahiyyətlərinin həyata keçirilməsini təmin edən dövlət qulluqçularından ibarət ixtisaslaşdırılmış bölmələri özündə birləşdirən dövlət orqanının struktur vahidi nəzərdə tutulur.

### Maddə 12. İnzibati və yardımçı vəzifələrin təsnifat toplusu

12.1. İnzibati və yardımçı vəzifələrin təsnifat toplusuna vəzifələrin təsnifatları və adları, ixtisas dərəcələri və vəzifələrin tutulması şərtləri haqqında məlumatlar daxil edilir.

12.2. İnzibati və yardımçı vəzifələrin təsnifat toplusu dövlət orqanlarının ştat cədvəllərinin yaradılması və dövlət qulluqçularının vəzifə təlimatlarının hazırlanması üçün əsasdır. İnzibati və yardımçı vəzifələrin təsnifat toplusu Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

### Maddə 13. İnzibati və yardımçı vəzifələrə aid ixtisas tələbləri

13.1. İnzibati və yardımçı vəzifələrə aid ixtisas tələbləri vəzifə iddiasında olan şəxsin həmin vəzifənin öhdəsindən gəlməsi üçün kifayət qədər səriştəsinin olmasını təmin edir.

13.2. İnzibati vəzifə iddiasında olan şəxsin müvafiq ali təhsili olmalıdır. Həmin şəxsin başqa ali təhsili olduqda, o, ixtisasını dəyişdirib iddiasında olduğu inzibati vəzifənin profilini öyrənməlidir.

13.3. Yardımçı vəzifə iddiasında olan şəxsin tam orta təhsili olmalıdır.

13.4. İnzibati və yardımçı vəzifələri tutmaq üçün əlavə tələblər qanunvericiliklə və vəzifə təlimatları ilə müəyyən edilir.

## IV fəsil. Dövlət qulluqçusu

### Maddə 14. Dövlət qulluqçusu

14.1. Dövlət qulluqçusu bu Qanunla müəyyən edilmiş qaydada maaşlı (maaş yalnız dövlət büdcəsi vəsaitindən verilə bilər) dövlət qulluğu vəzifəsini tutan və inzibati vəzifə üzrə dövlət qulluğuna qəbul edilərkən Azərbaycan Respublikasına sadiq olacağına and içən Azərbaycan Respublikasının vətəndaşıdır.

14.2. İnzibati vəzifə tutan və hakimiyyət səlahiyyətləri alan dövlət qulluqçusu dövlət vəzifəli şəxsdir.

14.3. (Çıxarılıb).

### Maddə 15. Dövlət qulluqçusunun andı

15.1. And Azərbaycan Respublikası ilə dövlət qulluqçusu arasında açıq hüquqi borc və sədaqət münasibətlərini təsdiq edir.

15.2. İlk dəfə daimi dövlət qulluğuna qəbul edilmiş vətəndaş vəzifəsinin icrasına başlamamışdan əvvəl aşağıdakı məzmunda and içir:

«Azərbaycan Respublikasına sadiq olacağıma, onun Konstitusiyasına dönmədən əməl edəcəyimə, dövlət sirrini və xidməti sirri qoruyacağıma, dövlət qulluğunun mənə verdiyi hüquqları və üzərimə qoyduğu vəzifələri qərəzsiz, vicdanla, ancaq qanunauyğun surətdə, var gücümlə və vətənin mənafeyi naminə həyata keçirəcəyimə and içirəm».

15.3. Andiçmə təntəli şəraitdə Azərbaycan Respublikasının Dövlət bayrağı altında Azərbaycan Respublikasının Konstitusiyasına əl basmaqla həyata keçirilir.





15.4. Andiçmə bir dəfə olur. And içən dövlət qulluqçusu andın mətnini imzalayır və bu sənəd onun şəxsi işində saxlanılır.

15.5. Dövlət qulluğunun ayrı-ayrı növlərində andın status xüsusiyyətləri Azərbaycan Respublikasının qanunvericilik aktlarında müəyyən edilir.

15.6. Yardımçı dövlət qulluğu vəzifəsinə qəbul edilənlər and içmirlər.

### Maddə 16. Dövlət qulluqçularının ixtisas dərəcələri

16.1. Dövlət qulluqçusunun ixtisas dərəcəsi onun ixtisas səviyyəsini göstərir, dövlət qulluqçusuna inzibati vəzifə tutmaq, vəzifə maaşına əlavə haqq almaq və sosial təminatlardan istifadə etmək hüququ verir.

16.2. İnzibati vəzifələrin təsnifatına uyğun olaraq aşağıdakı ixtisas dərəcələri verilir:

16.2.1. inzibati vəzifələrin ali təsnifatı üzrə - həqiqi dövlət müşaviri, 1-ci dərəcə dövlət müşaviri və 2-ci dərəcə dövlət müşaviri;

16.2.2. inzibati vəzifələrin birinci təsnifatı üzrə - 1-ci dərəcə dövlət müşaviri, 2-ci dərəcə dövlət müşaviri və 3-cü dərəcə dövlət müşaviri;

16.2.3. inzibati vəzifələrin ikinci təsnifatı üzrə - 2-ci dərəcə dövlət müşaviri, 3-cü dərəcə dövlət müşaviri və dövlət qulluğunun baş müşaviri;

16.2.4. inzibati vəzifələrin üçüncü təsnifatı üzrə - dövlət qulluğunun baş müşaviri, dövlət qulluğunun müşaviri və dövlət qulluğunun kiçik müşaviri;

16.2.5. inzibati vəzifələrin dördüncü təsnifatı üzrə - dövlət qulluğunun müşaviri, dövlət qulluğunun kiçik müşaviri və 1-ci dərəcə dövlət qulluqçusu;

16.2.6. inzibati vəzifələrin beşinci təsnifatı üzrə - dövlət qulluğunun kiçik müşaviri, 1-ci dərəcə dövlət qulluqçusu və 2-ci

dərəcə dövlət qulluqçusu;

16.2.7. inzibati vəzifələrin altıncı təsnifatı üzrə - 1-ci dərəcə dövlət qulluqçusu, 2-ci dərəcə dövlət qulluqçusu və 3-cü dərəcə dövlət qulluqçusu;

16.2.8. inzibati vəzifələrin yeddinci təsnifatı üzrə - 2-ci dərəcə dövlət qulluqçusu, 3-cü dərəcə dövlət qulluqçusu və kiçik dövlət qulluqçusu.

16.3. Yardımçı vəzifələrin təsnifatına uyğun olaraq aşağıdakı ixtisas dərəcələri verilir:

16.3.1. yardımçı vəzifələrin birinci təsnifatı üzrə - dövlət qulluğunun baş referenti, dövlət qulluğunun böyük referenti və dövlət qulluğunun 1-ci dərəcə referenti;

16.3.2. yardımçı vəzifələrin ikinci təsnifatı üzrə - dövlət qulluğunun böyük referenti, dövlət qulluğunun 1-ci dərəcə referenti və dövlət qulluğunun 2-ci dərəcə referenti;

16.3.3. yardımçı vəzifələrin üçüncü təsnifatı üzrə - dövlət qulluğunun 1-ci dərəcə referenti, dövlət qulluğunun 2-ci dərəcə referenti və dövlət qulluğunun 3-cü dərəcə referenti;

16.3.4. yardımçı vəzifələrin dördüncü təsnifatı üzrə - dövlət qulluğunun 2-ci dərəcə referenti, dövlət qulluğunun 3-cü dərəcə referenti və dövlət qulluğunun kiçik referenti.

**Maddə 17. İxtisas dərəcələrinin verilməsi və onlardan məhrum edilməsi**

17.1. İxtisas dərəcələri bu qanunun 16-cı maddəsinə müvafiq olaraq dövlət qulluqçusunun tutduğu vəzifəyə, qulluq stajına və ixtisas dərəcəsində qulluq müddətinə uyğun olaraq, habelə əvvəllər verilmiş ixtisas dərəcəsi nəzərə alınmaqla ardıcıl verilir. Dövlət qulluqçusunun qulluq stajına 1991-ci il oktyabrın 18-dək dövlət, sovet və partiya orqanlarında iş müddəti də daxil edilir.

İlk dəfə daimi dövlət qulluğuna qəbul olunmuş şəxsə tutduğu vəzifənin inzibati təsnifatı üçün müəyyən edilmiş ən kiçik ixtisas dərəcəsi verilir.





17.2. 3-cü dərəcə dövlət müşaviri və ondan yuxarı olan ixtisas dərəcələri Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü və 32-ci bəndlərində nəzərdə tutulmuş qaydada verilir. Bu ixtisas dərəcələri alan dövlət qulluqçusuna müvafiq hüquqi akt və vəsiqə verilir.

Dövlət qulluğunun baş müşaviri və ondan aşağı olan ixtisas dərəcələri müvafiq dövlət orqanının rəhbəri tərəfindən verilir.

17.3. İnzibati vəzifələrin ali təsnifatı istisna olmaqla, birinci-ikinci təsnifat inzibati vəzifələri tutan dövlət qulluqçusunun həmin təsnifat üzrə ixtisas dərəcəsi alması üçün dövlət qulluğunda azı 10 il qulluq stajı, həmin təsnifatlara daxil olan vəzifələrdə azı 3 il qulluq stajı olmalıdır.

İnzibati vəzifələrin üçüncü-altıncı təsnifat vəzifələri tutan dövlət qulluqçusunun həmin təsnifat üzrə daha yüksək (növbəti) ixtisas dərəcəsi alması üçün müvafiq vəzifə də daxil olmaqla, həmin təsnifata daxil olan vəzifələrdə azı 4 il qulluq stajı olmalıdır.

Bu maddənin birinci və ikinci hissələrində müəyyən edilmiş hər hansı tələbə cavab verməyən dövlət qulluqçusuna tutduğu vəzifənin inzibati təsnifatı üçün müəyyən edilmiş ən kiçik ixtisas dərəcəsi verilir.

İxtisas dərəcəsi verilərkən dövlət qulluqçusunun peşəkarlığı və idarəçilik təcrübəsi nəzərə alınır.

Bu qanunun 17.3-cü maddəsinin ikinci hissəsində «müvafiq vəzifə» və «müvafiq vəzifədə» dedikdə, dövlət qulluqçusunun hazırda dövlət qulluğu keçdiyi dövlət orqanında tutduğu dövlət qulluğu vəzifəsi nəzərdə tutulur.

17.4. Müvafiq inzibati vəzifələr üçün müəyyən edilmiş ixtisas dərəcələri çərçivəsində növbəti ixtisas dərəcəsi almaq üçün aşağıdakılar vacibdir:

§ üçüncü-beşinci təsnifat vəzifələri üçün - ixtisas dərəcəsində qulluq müddəti 3 il təşkil etməlidir;

§ altıncı-yeddinci təsnifat vəzifələri üçün - ixtisas dərəcəsin-

də qulluq müddəti 2 il təşkil etməlidir.

Müvafiq yardımçı vəzifələr üçün müəyyən edilmiş ixtisas dərəcələri çərçivəsində növbəti ixtisas dərəcəsi almaq üçün aşağıdakılar vacibdir:

§ birinci-ikinci təsnifat vəzifələri üçün - ixtisas dərəcəsində qulluq müddəti ardıcıl olaraq 2 il təşkil etməlidir;

§ üçüncü-dördüncü təsnifat vəzifələri üçün - ixtisas dərəcəsində qulluq müddəti ardıcıl olaraq 1 il təşkil etməlidir.

17.5. Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

17.6. Bu qanunun 33.1.7-ci maddəsində nəzərdə tutulmuş hallarda dövlət qulluqçusu ona verilmiş ixtisas dərəcəsindən məhrum edilir və bu barədə şəxsin əmək kitabçasında müvafiq qeyd aparılır.

### Maddə 18. Dövlət qulluqçusunun əsas vəzifələri

18.0. Dövlət qulluqçuları vəzifədə olaraq aşağıdakıları etməlidirlər:

18.0.1. qanunvericiliyi və dövlət orqanlarının qəbul etdikləri başqa normativ hüquqi aktları həyata keçirməli;

18.0.2. rəhbərlərin öz səlahiyyəti hüdudunda verdikləri əmrləri, sərəncamları və göstərişləri yerinə yetirməli;

18.0.3. dövlət orqanında müəyyən edilmiş qulluq reqlamentinə riayət etməli;

18.0.4. başqa dövlət qulluqçularının işini çətinləşdirən, yaxud qulluq keçdiyi dövlət orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməli;

18.0.5. vətəndaşların, müəssisə, idarə və təşkilatların müraciətlərinə vaxtında baxmalı və öz səlahiyyətləri hüdudunda onları qərəzsiz həll etməli;

18.0.6. lazım gəldikdə öz ixtisası hüdudunda rəhbərin göstərişi ilə əlavə iş görməli;





18.0.7. dövlət sirrini və qanunla mühafizə edilən digər sirri həmişə, o cümlədən dövlət qulluğuna xitam verildikdən sonra da saxlamalı;

18.0.8. vəzifə borcunun yerinə yetirilməsi vaxtı daxil olan və vətəndaşların şəxsi və ailə həyatı, şərəfi və ləyaqəti ilə bağlı məlumatları gizli saxlamalı və qanunla nəzərdə tutulmuş hallar istisna edilməklə, belə məlumatların verilməsini tələb etməməli;

18.0.9. qulluq keçdiyi orqanın rəhbərinə hər il öz gəlirləri və əmlak vəziyyəti haqqında maliyyə hesabatı verməli, orada əlavə gəlirlərin mənbəyini, növünü və məbləğini göstərməli;

18.0.10. qanunvericilikdə müəyyən edilmiş hallarda və qaydada müvəqqəti olaraq başqa yaşayış yerinə keçməli, başqa yerdə qulluq keçməli və ya başqa vəzifələri icra etməli;

18.0.11. qanunvericilikdə müəyyən edilmiş hallarda və qaydada öz fiziki və əqli qabiliyyətinin və ya tapşırılan funksiyaların icrasına yararlı olmasının müəyyən edilməsi üçün tibbi komissiyalarda müayinə keçməli;

18.0.12. etik davranış qaydalarına əməl etməlidir.

### Maddə 19. Dövlət qulluqçusunun əsas hüquqları

19.0. Dövlət qulluqçusu aşağıdakı hüquqlara malikdir:

19.0.1. vəzifə borcunu yerinə yetirmək üçün dövlət orqanlarından, ictimai birliklərdən, müəssisə, idarə və təşkilatlardan müəyyən edilmiş qaydada lazımi informasiya və materiallar tələb etmək və almaq;

19.0.2. dövlət qulluqçusunu vəzifəyə təyin və vəzifədən azad etmək hüququna malik olan vəzifəli şəxsdən öz qulluq vəzifələrinin yazılı surətdə təsbit edilməsini və onların icrası üçün şərait yaradılmasını tələb etmək;

19.0.3. dövlət məvacibi almaq;

19.0.4. əlavə təhsili və qulluq vəzifələrinin yerinə yetirilməsinə münasibəti nəzərə alınmaqla qulluqda irəli çəkilmək və ya

dövlət maaşının məbləğinin artırılması iddiasında olmaq;

19.0.5. elmi və yaradıcılıq fəaliyyəti ilə məşğul olmaq, qulluq keçdiyi dövlət orqanı rəhbərinin icazəsi ilə pedaqoji və başqa ödənişli fəaliyyətlə məşğul olmaq;

19.0.6. əmanətlərdən (depozitlərdən), qiymətli kağızlardan, rentadan və icarədən gəlir götürmək;

19.0.7. ilk tələbdən öz şəxsi işinin bütün materialları ilə, şəxsi işə tikilməli olan rəylər və digər sənədlərlə tanış olmaq, habelə öz izahatlarının şəxsi işə tikilməsini tələb etmək;

19.0.8. şərəf və ləyaqətinə xələl gətirən məlumatları təkzib etmək üçün xidməti araşdırma aparılmasını tələb etmək;

19.0.9. müvafiq orqanlarda və məhkəmədə öz qanuni hüquqlarını və mənafeyini müdafiə etmək;

19.0.10. həmkarlar ittifaqlarında birləşmək;

19.0.11. qulluq keçdiyi dövlət orqanının rəhbərindən aldığı icrası məcburi olan göstəriş və ya əmrin qanuniliyi və ya dürüstlüyü dövlət qulluqçusunda şübhə doğurursa, həmin göstərişin və ya əmrin yazılı şəkildə ona verilməsini tələb etmək;

19.0.12. qanunvericilikdə başqa hal nəzərdə tutulmayıbsa və bu, dövlət qulluqçusu funksiyalarının icrası ilə bir araya sığmayan deyilsə, ictimai birliklərdə üzv olmaq;

19.0.13. qanunvericilikdə nəzərdə tutulmuş qaydada dövlət vəsaiti hesabına təhsil almaq və müvafiq təlim keçmək, habelə təhsil məqsədilə məzuniyyət almaq;

19.0.14. qanunvericilikdə nəzərdə tutulmuş hallarda və qaydada məzuniyyətlər (sosial məzuniyyətlər, özünün və ya ailə üzvlərinin müalicəsi ilə əlaqədar və elmi məzuniyyətlər), özünün və ya ailə üzvlərinin əlilliyi, sağlamlıq imkanlarının məhdudluğu ilə əlaqədar pensiyalar və müavinətlər almaq.

**Maddə 20. Dövlət qulluğu ilə əlaqədar məhdudiyyətlər**

20.1. Dövlət qulluqçusunun aşağıdakılara ixtiyarı yoxdur:

20.1.1. dövlət orqanlarında əlavə ödənişli (əmək qanunvericiliyində nəzərdə tutulmuş qaydada müvəqqəti əvəz edilməsi halları istisna olmaqla), heç bir seçkili və ya təyinatlı vəzifə tutmağa;





20.1.2. elmi və yaradıcılıq fəaliyyəti istisna olmaqla, qulluq keçdiyi dövlət orqanı rəhbərinin icazəsi olmadan pedaqoji və başqa ödənişli fəaliyyətlə məşğul olmağa;

20.1.3. dövlət orqanının və ya yerli özünüidarə orqanının işləri üzrə üçüncü şəxslərin vəkili olmağa;

20.1.4. dövlət qulluğuna xitam verildikdən sonra Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş müddət ərzində öz qulluq fəaliyyətinə aid olan və dövlət sirri və ya qanunla mühafizə edilən digər sirr olan məsələlər barədə informasiyadan üçüncü şəxslərin xeyrinə istifadə etməyə;

20.1.5. qulluq keçdiyi dövlət orqanı rəhbərinə bildirmədən xarici ölkənin vəsaiti hesabına oraya getməyə;

20.1.6. qulluq vəzifələrini icra etdiyi dövrdə siyasi partiyaların fəaliyyətində iştirak etməyə;

20.1.7. tətillərdə və dövlət orqanlarının işini pozan digər hərəkətlərdə iştirak etməyə;

20.1.8. dini təbliğ etmək üçün dövlət qulluqçusunun statusundan istifadə etməyə və dövlət orqanlarının tabeliyindəki obyektlərdə dini mərasimlərin keçirilməsinə rəsmi xarakter verməyə.

20.2. Seçki komissiyasının həlledici səs hüquqlu üzvü dövlət qulluğunda ola bilməz.

20.3. Dövlət qulluqçusu bu maddənin tələblərinə zidd hərəkət etdikdə, əgər qanunvericilikdə ayrı qayda nəzərdə tutulmayıbsa, xəbərdarlıq aldıqdan sonra otuz gün ərzində o, dövlət qulluğuna, yoxsa başqa fəaliyyətə üstünlük verdiyini özü üçün müəyyən edərək gəldiyi qərar barəsində qulluq keçdiyi dövlət orqanının rəhbərinə məlumat verməlidir.

**Maddə 21. Dövlət qulluqçuları üçün təminatlar**

21.1. Dövlət qulluqçuları üçün aşağıdakılara təminat verilir:

21.1.1. dövlət qulluqçusunun layiqli həyat səviyyəsini təmin edən dövlət məvacibi və digər ödənişlər;

21.1.2. lazımi qulluq şəraiti;

21.1.3. haqqı ödənilən məzuniyyət;

21.1.4. dövlət qulluqçularının və onların ailə üzvlərinin icbari tibbi sığortası;

21.1.5. müvafiq istiqamət üzrə əlavə təhsilalma;

21.1.6. dövlət orqanları ləğv edilərsə və ya ştatlar ixtisara düşərsə, vəzifə maaşına və ixtisasa uyğun işə düzəlmə və ya dövlət orqanlarında tutduğu vəzifəyə uyğun vəzifə tutmaqda üstünlük;

21.1.7. pensiya təminatı və dövlət sosial sığortası;

21.1.8. qulluq vəzifələrinin icrası ilə əlaqədar olaraq qanunla müəyyən edilmiş qaydada sığorta;

21.1.9. icra edilən vəzifə öhdəliklərinin xarakteri nəzərə alınmaqla xidməti nəqliyyat və ya müvafiq kompensasiya almaq;

21.1.10. dövlət qulluqçusunun vəzifə öhdəliklərinin icrası ilə əlaqədar olaraq ona və onun ailə üzvlərinə qarşı törədilən zorakılıqdan, hədələrdən və təhqirlərdən dövlət qulluqçusunun və onun ailə üzvlərinin müdafiəsi.

21.2. (Çıxarılıb).

21.3. Dövlət qulluqçusu bu qanunda nəzərdə tutulmuş hallardan başqa yalnız öz razılığı ilə aşağı maaşlı vəzifəyə keçirilə bilər.

21.4. Dövlət hakimiyyəti orqanlarının, habelə dövlət orqanları rəhbərliyinin tərkibinin dəyişməsi dövlət qulluğuna xitam verilməsi üçün əsas deyildir.

21.5. (Çıxarılıb).

### Maddə 22. Dövlət məvacibi

22.1. Dövlət məvacibi dövlət qulluqçusuna pul ilə ödənilən haqdır. Dövlət məvacibinin məbləği səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, tələb olunan peşəkarlıq səviyyəsindən, qulluq stajından asılıdır.





22.2. Dövlət məvacibi vəzifə maaşından, mükafatlardan və vəzifə maaşına əlavələrdən (dövlət qulluqçusunun ixtisas dərəcəsinə, qulluq stajına və s. görə verilən əlavələr) ibarətdir.

22.3. İnzibati vəzifələrin yeddinci təsnifatı üzrə dövlət qulluqçusunun maaşının məbləği Azərbaycan Respublikasının qanunvericiliyi ilə inzibati vəzifələr üçün müəyyən edilən minimum vəzifə maaşına bərabər tutulur. Yardımçı vəzifələrin dördüncü təsnifatı üzrə dövlət qulluqçusunun maaşının məbləği Azərbaycan Respublikasının qanunvericiliyi ilə yardımçı vəzifələr üçün müəyyən edilən minimum vəzifə maaşına bərabər tutulur. Dövlət qulluqçuları üçün vəzifə maaşlarının məbləği dövlət qulluğu vəzifələrinin təsnifatına uyğun müəyyən edilir.

22.4. Qulluq şəraiti həyat və sağlamlıq üçün təhlükəli, yaxud xüsusilə ağır olan dövlət orqanlarında vəzifə maaşları üçün artıq əmsal müəyyən edilir. Əmsalın müəyyən edilməsi qaydası, onun təyin edilməsi üçün əsas və onun məbləği Azərbaycan Respublikasının müvafiq qanunu ilə müəyyən edilir.

22.5. Dövlət qulluqçularının vəzifə maaşlarına Azərbaycan Respublikasının Qanununa müvafiq surətdə yerli əmsallar müəyyən edilir.

22.6. Dövlət qulluqçusuna hakimiyyət səlahiyyəti vermək barədə qərar qəbul edilməsi ilə eyni zamanda müvafiq səlahiyyətin icrasına görə onun üçün qanunvericiliklə müəyyən edilən məbləğdə əlavə haqq müəyyən edilir.

22.7. Dövlət qulluqçusuna qulluq stajına görə xidmətin ikinci ilindən başlayaraq əlavə haqq verilir və həmin haqq qanunvericilikdə müəyyən edilmiş qaydada artırılır. Haqqın məbləği qanunvericiliklə müəyyən edilir. Bu maddə Azərbaycan Respublikasının Baş naziri və onun müavinləri, Naxçıvan Muxtar Respublikasının Baş naziri və onun müavinləri, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanının rəhbəri və onun müavinləri, Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanının rəhbəri və onun müavinləri, yerli icra hakimiyyəti orqanının rəhbəri (başçısı) vəzifələrini tutan şəxslərə də şamil

olunur.

22.8. Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqq təyin edilməsi qaydası Azərbaycan Respublikasının müvafiq Qanunu ilə müəyyən edilir.

**Maddə 22-1. Dövlət qulluqçusunun əlavə təhsili**

22-1.1. Dövlət qulluqçusunun əlavə təhsili fasiləsiz təhsilin və peşə hazırlığının tərkib hissəsi olmaqla, peşə-ixtisas təhsilinin hər hansı pilləsini bitirmək haqqında dövlət sənədi olan hər bir dövlət qulluqçusunun (o cümlədən stajçı kimi və sınaq müddətinə qəbul edilmiş şəxslərin) fasiləsiz təhsil almaq imkanını təmin edir.

22-1.2. Dövlət qulluqçusunun əlavə təhsil aldığı müddət onun qulluq stajına daxildir.

22-1.3. Dövlət qulluqçusunun əlavə təhsil alması üçün aşağıdakılar əsasdır:

22-1.3.1. dövlət qulluğunda daha yüksək vəzifəyə təyin edilməsi;

22-1.3.2. dövlət qulluğunun ehtiyat kadrlarının siyahısına daxil edilməsi;

22-1.3.3. dövlət qulluqçusunun attestasiyası və ya onun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsi;

22-1.3.4. dövlət qulluqçusunun şəxsi təşəbbüsü.

22-1.4. Dövlət qulluqçusunun əlavə təhsil alması həmin dövlət orqanının rəhbəri tərəfindən müəyyən edilir.

22-1.5. Dövlət qulluqçusunun əlavə təhsili ixtisasartırma və yenidənhazırlanma qurumlarında, peşə-ixtisas təhsili müəssisələrində yaradılmış müvafiq strukturlarda, stajkeçmə və peşə hazırlığı kurslarında və bu sahə üzrə fəaliyyətinə xüsusi razılıq verilmiş digər müəssisələrdə qanunvericiliklə müəyyən olunmuş istiqamətlərdə həyata keçirilir.

22-1.6. Dövlət qulluqçusu əlavə təhsil almaq üçün xarici ölkələrə ezam edilə bilər.





22-1.7. Dövlət qulluqçusunun əlavə təhsili qulluqkeçmədən ayrılmaqla, qismən ayrılmaqla və ya ayrılmamaqla həyata keçirilir.

22-1.8. Dövlət qulluqçusunun əlavə təhsilinin növü, forması, müddəti və maliyyə təminatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən qaydalarla tənzimlənir.

22-1.9. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının və Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) aparatlarında, habelə 2-ci-5-ci kateqoriya dövlət orqanlarında ali hüquq təhsili tələb edən vəzifələrdə qulluq keçən dövlət qulluqçuları mütəmadi olaraq müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsində peşə hazırlığına və ixtisasının artırılmasına cəlb edilirlər.

**Maddə 23. Dövlət qulluqçularının pensiya təminatı**

23.1. Dövlət qulluqçularının pensiya təminatı üçün əsas və onun qaydası bu maddənin müddəaları nəzərə alınmaqla Azərbaycan Respublikasının müvafiq Qanunu ilə müəyyən edilir.

23.2. Dövlət qulluqçusunun pensiyasının məbləği dövlət qulluğunda xidmət illərindən və dövlət məvacibinin məbləğindən asılıdır. Dövlət pensiyası verilməsi üçün lazım olan xidmət illərinin minimum həddi 5 ildir.

23.3. Müvafiq qanunvericiliyə uyğun olaraq pensiya yaşına çatmasına, əlilliyinə və ya sağlamlıq imkanlarının məhdudluğuna görə könüllü işdən çıxmış, dövlət qulluğunda xidmət illərinin minimum həddinə və əmək pensiyası almaq hüququna malik olmayan dövlət qulluqçusuna qanunvericiliklə müəyyən edilmiş miqdarda ömürlük müavinət təyin edilir.

23.4. Dövlət qulluqçusunun pensiyasının və müavinətinin məbləği fəaliyyətdə olan dövlət qulluqçusunun dövlət məvacibinin məbləğində olan sonrakı artımlara uyğun olaraq, müvafiq ic-

ra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən qaydada yenidən hesablanır.

23.5. Dövlət qulluqçusu, yaxud pensiyaçı öldükdən sonra onun ailə başçısını itirməyə görə əmək pensiyası almaq hüququ olan ailə üzvlərinə pensiyanın müvafiq qanunvericiliklə müəyyən edilən faizi ödənilir.

**Maddə 24. Dövlət qulluqçularının mükafatlandırılması**

24.1. Dövlət qulluqçusunun vəzifə borclarını yerinə yetirərkən səylə çalışması hərtərəfli mükafatlandırılır. Dövlət qulluqçularının mükafatlandırılmasının növləri və qaydaları qanunvericiliklə müəyyənləşdirilir.

24.2. Dövlət qulluqçularının xidmətdə peşəkarlıq səviyyəsinin artması və vəzifə borcuna və andına sədaqəti dövlət tərəfindən qiymətləndirilməlidir. Onun xidmətlərinin dövlət tərəfindən təsdiq edilməsi «Vətənə xidmətə görə» ordeninin üç dərəcəsi, «Dövlət qulluğunda fərqlənməyə görə» medalı ilə, digər orden və medallarla təltif olunmasından, habelə Azərbaycan Respublikasının fəxri adlarını almasından ibarətdir. Dövlət qulluqçularının orden və medallarla təltif olunması və onlara fəxri adların verilməsi haqqında əsasnamələr və qaydalar qanunvericiliklə müəyyən edilir.

**Maddə 25. Dövlət qulluqçusunun məsuliyyəti**

25.1. Dövlət qulluqçusuna həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsi və ya lazımi şəkildə yerinə yetirilməməsi, habelə bu qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmaması, qanunda başqa qayda nəzərdə tutulmayıbsa, intizam məsuliyyətinə səbəb olur.

25.2. Dövlət qulluqçusu bu qanunun 18-ci, 20-ci və ya 25.11-ci maddələrində nəzərdə tutulmuş tələbləri pozduqda, onun barəsində aşağıdakı intizam tənbeh tədbirlərindən biri tətbiq edilə





bilər:

25.2.1. töhmət;

25.2.2. bir il müddətinədək vəzifə maaşının 5 faizindən 30 faizinədək azaldılması;

25.2.3. həmin təsnifatdan olan, lakin vəzifə maaşı aşağı olan vəzifəyə keçirilməsi;

25.2.4. daha aşağı təsnifatdan olan vəzifəyə keçirilməsi;

25.2.5. ixtisas dərəcəsinin bir pillə aşağı salınması;

25.2.6. dövlət qulluğundan azad edilməsi.

25.3. Bu qanunun 25.2-ci maddəsinə uyğun olaraq intizam tənbehinin tətbiqinə əsaslar olduqda, müvafiq dövlət orqanı rəhbərinin əmri ilə araşdırma aparılır, dövlət qulluqçusundan yazılı izahat alınır. Zərurət olduqda, müvafiq dövlət orqanının rəhbəri xidməti yoxlama təyin edir. Dövlət qulluqçusunun yazılı izahat verməkdən imtina etməsi rəsmiləşdirilir və bu, intizam tənbehinin tətbiqinə mane olmur.

25.4. Xidməti yoxlamanın aparılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

25.5. Dövlət qulluqçularına intizam tənbehi bu qanunun 25.2-ci maddəsində nəzərdə tutulmuş əsaslar aşkar edildiyi gündən bir ay keçənədək verilə bilər. Dövlət qulluqçusunun məzuniyyətdə, ezamiyyətdə olduğu, əmək qabiliyyətini müvəqqəti itirdiyi, habelə barəsində xidməti yoxlama və ya cinayət işinin istintaqı aparıldığı vaxt həmin müddətə daxil edilmir.

25.6. Bu qanunun 25.2.6-cı maddəsində nəzərdə tutulmuş intizam tənbeh tədbiri vəzifələrin icrası zamanı kobud və ya mütəmadi olaraq pozuntulara yol verildikdə və ya bu qanunun 20-ci maddəsində nəzərdə tutulmuş məhdudiyyətlərə əməl edilmədikdə tətbiq oluna bilər.

25.7. Bu qanunun 25.2.1-25.2.6-cı maddələrində nəzərdə tutulmuş intizam tənbeh tədbirləri dövlət qulluqçusunun qulluq keçdiyi dövlət orqanının rəhbəri tərəfindən, 25.2.1-ci maddəsində nəzərdə tutulmuş intizam tənbeh tədbiri isə, habelə dövlət qulluqçusunun qulluq keçdiyi dövlət orqanının rəhbəri tərəfindən

səlahiyyət verilmiş vəzifəli şəxs (şəxslər) tərəfindən tətbiq oluna bilər.

25.8. İntizam tənbeh tədbirinin tətbiq edilməsi barədə əmrdən, onun imzalandığı gündən 7 iş günü müddətində müvafiq icra hakimiyyəti orqanına şikayət vermək olar. Bu zaman həmin orqan tərəfindən intizam tənbeh tədbiri 10 iş günü müddətində ləğv olunmalı və ya qüvvədə saxlanılmalıdır. Tətbiq olunmuş intizam tənbeh tədbirindən şikayət verilməsi qaydası Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilir.

25.9. Dövlət qulluqçusu qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada inzibati və cinayət məsuliyyətinə cəlb oluna bilər.

25.10. Dövlət qulluqçusu onun təqsiri üzündən dəymiş zərər üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maddi məsuliyyət daşıyır. Dövlət qulluqçusunun qanuna uyğun hərəkətləri nəticəsində dəymiş zərərin əvəzi tam həcmdə dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

25.11. Dövlət qulluqçusu «Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) intizam məsuliyyətinə cəlb olunur.

### Maddə 26. Qanunsuz göstərişin yerinə yetirilməsi üstündə dövlət qulluqçusunun məsuliyyəti

26.1. Dövlət qulluqçusu öz hərəkətlərinin qanuniliyi üçün cavabdehdir.

26.2. Rəhbər işçinin göstərişini qanunsuz sayan dövlət qulluqçusunun etirazına baxmayaraq, həmin rəhbər işçi öz göstərişini qüvvədə saxlayırsa və ondan yuxarı vəzifəli rəhbər işçi həmin göstərişi ləğv etmirsə, dövlət qulluqçusu məsuliyyətdən azad olunur.





## V fəsil. Dövlət qulluğu keçmə

### Maddə 27. Dövlət qulluğuna qəbul edilmək hüququ

27.1. Azərbaycan Respublikasının 16 yaşına çatmış, irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, sosial mənşəyindən, əmlak vəziyyətindən, yaşayış yerindən, əqidəsindən, ictimai və digər birliklərə mənsubiyyətindən asılı olmayaraq müvafiq vəzifənin tələblərinə uyğun peşə hazırlığına malik olan və Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən vətəndaşlarının dövlət qulluğuna qəbul edilmək hüququ vardır.

27.2. Hər hansı şəxs dövlət qulluğuna aşağıdakı hallarda qəbul edilə bilməz:

27.2.1. onun fəaliyyət qabiliyyətinə malik olmaması və ya məhdud fəaliyyət qabiliyyətinə malik olması məhkəmənin qərarı ilə təsdiq edilərsə;

27.2.2. məhkumluğu ödənilməmiş və ya götürülməmişsə;

27.2.3. bilavasitə tabeliyində və ya nəzarəti altında işləyəcəyi dövlət qulluqçusu ilə yaxın qohumluq və ya qudalıq (ər-arvadlar, onların valideynləri, qardaşları, bacıları, övladları) əlaqəsi olduqda;

27.2.4. barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olarsa;

27.2.5. Qanunvericiliklə müəyyən edilmiş başqa hallarda.

27.3. Dövlət orqanında dövlət qulluğuna qəbul edilmək üçün müraciət etmiş şəxsin dövlət qulluğuna qəbul edilməsinin mümkün olub-olmaması qabaqcadan yoxlanılır. Yoxlamanın qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Şəxsi (ailə) həyatın təfsilatı yoxlanmamalıdır.

### Maddə 28. Dövlət qulluğuna qəbul

28.1. Dövlət qulluğuna vətəndaşlar müsabiqə və ya müsahibə əsasında qəbul edilirlər.

28.2. İnzibati vəzifələrin beşinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün müvafiq icra hakimiyyəti orqanı müsabiqə elan edir. Qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, yalnız bir cinsin nümayəndəsi üçün müsabiqənin elan edilməsinə yol verilmir. Müvafiq dövlət orqanı vakant olan vəzifələr barədə mütəmadi olaraq (ən azı ayda bir dəfə) müvafiq icra hakimiyyəti orqanına məlumat verməlidir.

28.3. Müsabiqədə iştirak etmək istəyənlər müsabiqə elan edilən gündən etibarən 30 gün ərzində müvafiq icra hakimiyyəti orqanına müraciət edə bilərlər. Forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən müraciət elektron və ya kağız daşıyıcılar vasitəsilə göndərilə bilər.

28.4. Müsabiqə test imtahanından və müsahibədən ibarət olur. Müsabiqənin elan edilməsi, keçirilməsi və yekunlarına dair müvafiq qərarın qəbul edilməsi qaydası Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilir.

28.5. Test imtahanından müvəffəqiyyətlə çıxanlar sənədlərini 10 iş günü ərzində müvafiq icra hakimiyyəti orqanına təqdim edir və müsahibəyə buraxılırlar. Müsahibə sənədlərin qəbulu başa çatdıqdan sonra 30 gün ərzində keçirilir.

28.6. Qanunvericiliklə başqa qayda nəzərdə tutulmadıqda, müsabiqədən müvəffəqiyyətlə keçmiş namizədlər vakant vəzifəyə təyin edilmək üçün 5 iş günü müddətində dövlət orqanının rəhbərinə təqdim olunurlar. Dövlət orqanının rəhbəri təqdim olunmuş namizədlərdən birini seçərək bir il müddətinə stajçı kimi qulluğa qəbul etməli və vakant vəzifəyə təyin etməlidir. Dövlət orqanının rəhbəri namizədlərin təqdim olunduğu gündən 10 iş günü müddətində qəbul etdiyi müvafiq qərar barədə müvafiq icra hakimiyyəti orqanına məlumat verməlidir. Staj dövründə dövlət orqanı rəhbərinin təyin etdiyi kurator stajçının işini istiqamətləndirir, fəaliyyətinə nəzarət edir və staj müddəti qurtardıqdan sonra stajçının sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilməsinin məqsədəuyğun olub-olmadığı barədə tövsiyə təqdim





edir. Qanunvericiliklə başqa qayda nəzərdə tutulmayıbsa, tövsiyə müsbət olarsa, stajçı əmək müqaviləsi bağlamaq yolu ilə altı ay sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilir. Əmək müqaviləsində sınaq müddəti ərzində qulluq keçmənin şərtləri müəyyənləşdirilir. Sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilən şəxslə bağlanan əmək müqaviləsinin nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Sınaq müddəti ərzində əmək müqaviləsi pozulmayıbsa, həmin müddət qurtardıqdan sonra dövlət orqanının rəhbəri müqavilənin şərtlərinə uyğun olaraq, həmin şəxsin daimi dövlət qulluğuna qəbul edilməsi haqqında əmr verir və onunla müvafiq əmək müqaviləsi bağlayır. Daimi dövlət qulluğuna qəbul edilən şəxslə bağlanan əmək müqaviləsinin nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

28.6-1. Bu Qanunun 28.6-cı maddəsində nəzərdə tutulmuş staj və sınaq müddəti müvafiq icra hakimiyyəti orqanında inzibati vəzifələrin beşinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələr üzrə müsahibə əsasında ilk dəfə dövlət qulluğuna qəbul edilən şəxslərə də şamil edilir.

28.7. Stajçı kimi qulluğa qəbul edilmiş şəxs həmin müddətdə bu qanunun 28-ci maddəsinə müvafiq olaraq yenidən müsabiqədən müvəffəqiyyətlə keçərək yeni vəzifəyə təyin edildikdə, əvvəlki vəzifədəki staj müddəti nəzərə alınır. Sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilmiş şəxs bu Qanunun 28-ci maddəsinə müvafiq olaraq yenidən müsabiqədən müvəffəqiyyətlə keçdikdə, əvvəlki sınaq müddəti nəzərə alınmamaqla, yenidən sınaq müddəti ilə vəzifəyə təyin edilir.

28.8. Daimi dövlət qulluğuna qəbul edilmiş və bu qanunun 33.1-ci maddəsinə uyğun olaraq dövlət qulluğuna xitam verilmiş şəxslər (yardımçı vəzifə tutmuş şəxslər istisna olmaqla) yenidən dövlət qulluğuna qəbul edildikdə, onlar barəsində bu qanunun 28.6-cı maddəsində nəzərdə tutulmuş staj və sınaq müddəti tətbiq edilmir.

28.9. «2007 - 2015-ci illərdə Azərbaycan gənclərinin xarici

ölkələrdə təhsili üzrə Dövlət Proqramı» çərçivəsində xaricdə təhsil almış şəxslər müvafiq icra hakimiyyəti orqanında ehtiyat kadr kimi saxlanılır və qanunvericiliyə uyğun olaraq, həmin orqan bu şəxslərin müsabiqədən kənar dövlət qulluğuna qəbul edilməsi üçün müvafiq dövlət orqanına təqdimat verir.

28.10. Daimi dövlət qulluğuna qəbul Azərbaycan Respublikasının adından müvafiq dövlət orqanının sənədi ilə təsdiq edilir.

**Maddə 29. İnzibati vəzifələrin tutulması**

29.1. İnzibati vəzifələrin ali-dördüncü təsnifatlarına uyğun olan vəzifələrin tutulması müsahibə keçirilməklə və ya qulluqda yüksəliş yolu ilə həyata keçirilir.

29.2. Dövlət orqanlarında (müvafiq icra hakimiyyəti orqanı istisna olmaqla) inzibati vəzifələrin beşinci-yeddinci təsnifatlarına uyğun olan vəzifələrin tutulması həmin dövlət orqanı rəhbərinin qərarı əsasında bu Qanunun 28-ci maddəsində nəzərdə tutulmuş qaydada müsabiqə və ya bu Qanunun 29.3-29.9-cu maddələrinə uyğun olaraq müsahibə yolu ilə həyata keçirilir. Dövlət orqanının rəhbəri inzibati vəzifələrin beşinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifə yarandığı gündən bir ay ərzində müsabiqənin, ümumi müsahibənin və ya daxili müsahibənin keçirilməsi barədə qərar qəbul etməlidir. Müvafiq icra hakimiyyəti orqanı və müsabiqə (müsahibə) barədə qərar qəbul edən müvafiq dövlət orqanı həmin müsabiqə və müsahibələrin ədalətli, şəffaf və operativ keçirilməsini təmin etməlidirlər.

Dövlət qulluqçusu qulluq keçdiyi orqanda öz razılığı ilə aşağı vəzifəyə keçirilərkən, habelə tutduğu inzibati vəzifə təsnifatına uyğun olan, vəzifənin adı və qulluq funksiyası eyni olan vəzifəyə keçirilərkən bu maddənin müddəaları həmin dövlət qulluqçusu barəsində tətbiq edilmir.

Dövlət qulluqçusu bu maddənin müddəaları tətbiq edilmədən digər dövlət orqanında tutduğu inzibati vəzifə ilə eyni təsnifatdan və ya aşağı təsnifatdan olan vəzifəyə həmin dövlət orqanları rəhbərlərinin qarşılıqlı razılığı ilə keçirilə bilər.





Müvafiq icra hakimiyyəti orqanında inzibati vəzifələrin beşinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələrin tutulması həmin dövlət orqanı rəhbərinin qərarı əsasında bu Qanunun 29.4-cü, 29.6-29.8-ci maddələrinə uyğun olaraq yalnız müsahibə yolu ilə həyata keçirilir.

29.3. Dövlət orqanlarında (müvafiq icra hakimiyyəti orqanı istisna olmaqla) inzibati vəzifələrin beşinci-yeddinci təsnifatlarına uyğun olan vəzifələrin həmin dövlət orqanında və ya digər dövlət orqanında inzibati vəzifələrdə qulluq keçən və inzibati vəzifələrin təsnifatına uyğun ixtisas dərəcəsi olan dövlət qulluqçuları, habelə azı 5 il qulluq stajı olan və dövlət orqanında inzibatı vəzifələrdə çalışmış şəxslər tərəfindən tutulması müsahibə yolu ilə həyata keçirilir.

İnzibati vəzifələrin beşinci-yeddinci təsnifatlarına uyğun olan vəzifələrin tutulması məqsədi ilə dövlət orqanı rəhbərinin qərarı əsasında, ilk növbədə, həmin dövlət orqanında inzibati vəzifələrdə qulluq keçən və inzibati vəzifələrin təsnifatına uyğun ixtisas dərəcəsi olan dövlət qulluqçularının iştirakını nəzərdə tutan müsahibə (daxili müsahibə) keçirilə bilər. Müsahibə bu Qanunun 29.4-29.9-cu maddələrinin tələbləri nəzərə alınmaqla, bu Qanunun 29.6-cı maddəsində nəzərdə tutulmuş qaydada keçirilir.

Bu maddənin ikinci hissəsinə uyğun olaraq keçirilən müsahibə nəticəsində müvafiq inzibati vəzifə tutulmadıqda, dövlət orqanı rəhbərinin müvafiq qərarı əsasında bu Qanunun 29.4-29.9-cu maddələrinə uyğun olaraq, bu maddənin birinci hissəsində nəzərdə tutulmuş digər şəxslərin iştirakını nəzərdə tutan müsahibə (ümumi müsahibə) və ya bu Qanunun 28-ci maddəsində nəzərdə tutulmuş qaydada müsabiqə keçirilə bilər.

Bu maddəyə uyğun olaraq müvafiq inzibati vəzifənin müsahibə yolu ilə tutulması həyata keçirildikdə qanunvericiliklə müəyyən edilmiş vakant vəzifələrin tutulmasının ümumi şərtlərinin tələbləri gözlənilməlidir.

29.4. Bu Qanunun 29.3-cü maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş hal istisna olmaqla, müsahibə barədə elan müvafiq dövlət orqanının müraciəti əsasında müvafiq icra hakimiyyəti orqanı tərəfindən kütləvi informasiya vasitələri ilə müsahibənin keçirilməsi tarixinə bir ay qalmış verilir.

Müsahibənin bu Qanunun 29.3-cü maddəsinin ikinci hissəsinə uyğun keçirilməsi barədə dövlət orqanı rəhbərinin qərarı müsahibənin keçirilməsi tarixinə bir ay qalmış həmin dövlət orqanında rəsmi elan olunur.

29.5. Müsahibədə barəsində müsahibə elan edilən vəzifənin təsnifatından ən çoxu iki təsnifat aşağı inzibati vəzifələrdə qulluq keçən dövlət qulluqçuları, habelə ən çoxu iki təsnifat aşağı inzibati vəzifələrdə qulluq keçmiş şəxslər iştirak edə bilərlər.

Barələrində intizam tənbehi tətbiq edilmiş dövlət qulluqçuları bir il ərzində müsahibəyə və müsabiqəyə buraxılmırlar.

Bu maddənin birinci hissəsi məhkəmə hakimiyyəti orqanlarında inzibati vəzifələrin beşinci-yeddinci təsnifatlarına uyğun olan vəzifələrin həmin orqanlarda qulluq keçən şəxslərin iştirakı ilə tutulmasına şamil olunmur.

29.6. Müsahibə müvafiq dövlət orqanı rəhbərinin yaratdığı komissiya tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada keçirilir.

29.7. Bu Qanunun 29.6-cı maddəsində nəzərdə tutulmuş komissiya müvafiq icra hakimiyyəti orqanının nümayəndəsi də daxil olmaqla, üzvlərinin sayı üç nəfərdən az olmayan tərkibdə yaradılır.

29.8. Müsahibə zamanı müsahibədə iştirak edən şəxsin bilik səviyyəsi, peşə hazırlığı, ümumi dünyagörüşü, barəsində müsahibə elan edilən vəzifə üçün zəruri olan keyfiyyətləri yoxlanılmaqla, müvafiq vəzifəyə yararlılığı müəyyən edilir.

29.9. Müsahibə zamanı aşağıdakı göstəricilər nəzərə alınmalıdır:

29.9.1. ixtisas dərəcəsi;

29.9.2. attestasiyanın nəticələri;





29.9.3. müvafiq vəzifənin tələblərinə uyğun olaraq əlavə təhsilalma.

29.10. Müsahibənin nəticələrinə görə müvafiq inzibati vəzifənin tutulması barədə qərar qəbul edilir.

29.11. Müsahibə nəticəsində müvafiq inzibati vəzifə tutulmadıqda, dövlət orqanı rəhbərinin həmin vəzifənin müsabiqə əsasında tutulması barədə qərarı əsasında bu Qanunun 28-ci maddəsində nəzərdə tutulmuş qaydada müsabiqə keçirilə bilər.

**Maddə 30. Dövlət qulluğunun şərtləri**

30.1. Dövlət qulluğunda iş vaxtı həftədə 40 saatdır. Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qanunla müddəti qısaldılmış iş vaxtı müəyyən edilə bilər.

30.2. Qulluq üçün zəruri olduqda dövlət orqanının rəhbəri müstəsna hallarda iş vaxtını ayda əvəzi ödənilmədən 5 saata qədər artıra bilər. İş vaxtı 5 saatdan çox artırılanda işlədiyi hər saata görə dövlət qulluqçusuna əlavə haqq ödənilməlidir.

30.3. İnzibati vəzifə tutan dövlət qulluqçusuna ildə bir dəfə 30 təqvim günü müddətində haqqı ödənilən əsas məzuniyyət verilir. Uzun illər işləməyə görə haqqı ödənilən əlavə məzuniyyət aşağıdakı qaydada verilir:

30.3.1. 5 ildən 10 ilədək əmək stajına görə-2 təqvim günü;

30.3.2. 10 ildən 15 ilədək əmək stajına görə-4 təqvim günü;

30.3.3. 15 ildən çox əmək stajına görə-6 təqvim günü;

Dövlət qulluqçusu öz arzusu ilə və dövlət orqanı rəhbərinin razılığı ilə ödənişsiz məzuniyyətə göndərilə bilər.

30.4. Xidməti ezamiyyətə göndərilən dövlət qulluqçusu aşağıdakılarla təmin olunur:

30.4.1. mehmanxanada və ya xidməti yaşayış sahəsində yer, altı aydan çox müddətə ezamiyyətə göndəriləndə isə ayrıca xidməti mənzil sahəsi;

30.4.2. iş yeri, rabitə vasitələrindən istifadə etmək imkanı;

30.4.3. digər zəruri texniki xidmətlər və sosial-məişət xid-

mətləri, o cümlədən onu göndərən orqanın vəsaiti hesabına xidmətlər.

30.5. Müvvəqqəti olaraq başqa yerə qulluğa keçirilən dövlət qulluqçusunun ailəsini özü ilə aparmağa ixtiyarı vardır. Ona müəyyən edilmiş yaşayış normalarına uyğun gələn məişət ləvazimatı ilə komplektləşdirilmiş xidməti mənzil verilir, habelə əvvəl qulluq keçdiyi yerdəki yaşayış sahəsi saxlanılır. Dövlət qulluqçusunun ailə üzvlərinə işə və ya təhsil müəssisəsinə düzəlməkdə kömək göstərilir, məktəbəqədər uşaq müəssisələrində yer verilir və lazım gəldikdə, onu göndərən orqanın vəsaiti hesabına haqqı ödənilən tibbi xidmət göstərilir. Müvəqqəti olaraq başqa yerə qulluğa keçirilməklə bağlı olan digər məsələlər Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzim olunur.

30.6. Yardımçı vəzifələr tutan dövlət qulluqçularının əmək münasibətləri bu qanunun müddəaları nəzərə alınmaqla Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir.

### Maddə 30-1. Dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi

30-1.1. İnzibati vəzifə tutan dövlət qulluqçusunun xidməti fəaliyyəti hər təqvim ilinin sonunda qiymətləndirilir. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin məqsədi onun il ərzində vəzifəsinin öhdəsindən gəlməsini, tutduğu vəzifəyə dair tələblərin yerinə yetirilməsini qiymətləndirməkdən və işçinin gələcək inkişafını müəyyən etməkdən ibarətdir. Xidməti fəaliyyətin qiymətləndirilməsinin nəticələri dövlət qulluqçusunun attestasiyası zamanı nəzərə alınır.

30-1.2. Dövlət qulluqçusunun fəaliyyətinin qiymətləndirilməsi onun bilavasitə rəhbəri tərəfindən həyata keçirilir.

30-1.3. Dövlət qulluqçusunun xidməti fəaliyyəti aşağıdakı meyarlar əsasında qiymətləndirilir:

30-1.3.1. peşə bilikləri;

30-1.3.2. xidməti vəzifələrə münasibət;





30-1.3.3. təhlil aparmaq, problem həll etmək və qərar vermək bacarığı;

30-1.3.4. yaradıcılıq və təşəbbüskarlıq;

30-1.3.5. əmək intizamı;

30-1.3.6. iş təcrübəsi və onu bölüşmə;

30-1.3.7. kollektivdə işləmək bacarığı, ünsiyyət, işçilərarası münasibətlər.

30-1.4. Rəhbər işçilərin xidməti fəaliyyəti bu Qanunun 30-1.3-cü maddəsində göstərilənlərə əlavə olaraq, aşağıdakı meyarlar əsasında qiymətləndirilir:

30-1.4.1. təhlil və proqnozlaşdırma;

30-1.4.2. idarəetmə;

30-1.4.3. kollektiv daxilində nüfuz və ruhlandırmaq bacarığı;

30-1.4.4. komanda qurmaq bacarığı.

30-1.5. Dövlət qulluqçusunun xidməti fəaliyyəti aşağıdakı şəkildə qiymətləndirilir:

30-1.5.1. əla;

30-1.5.2. yaxşı;

30-1.5.3. kafi;

30-1.5.4. qeyri-kafi.

30-1.6. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri xidməti fəaliyyətin qiymətləndirilməsi barədə sənədlə rəsmiləşdirilir. Bu sənəddə dövlət qulluqçusunun fəaliyyəti bütün meyarlar üzrə qiymətləndirilir və bununla bağlı şərhlər verilir. Xidməti fəaliyyətin qiymətləndirilməsi barədə sənədə xidməti fəaliyyəti qiymətləndirilən dövlət qulluqçusunun rəyi əlavə edilir.

30-1.7. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydalarına dair normativ aktlar müvafiq icra hakimiyyəti orqanı tərəfindən qəbul edilir.

30-1.8. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri onun şəxsi işinə əlavə edilir.

## Maddə 31. Dövlət qulluqçusunun attestasiyası

31.1. İnzibati və yardımçı vəzifələri tutan hər bir dövlət qulluqçusu, bu qanunda başqa hal nəzərdə tutulmayıbsa, beş ildə bir dəfədən çox olmayaraq attestasiyadan keçirilməlidir.

31.2. Attestasiya kollegial, obyektiv surətdə, müvafiq icra hakimiyyəti orqanının nümayəndəsinin və müstəqil mütəxəssislərin cəlb edilməsi ilə keçirilir. Attestasiya komissiyasının tərkibini müvafiq dövlət orqanının rəhbəri təsdiq edir.

31.3. Attestasiya zamanı dövlət qulluqçusunun peşəkarlıq, işgüzarlıq və mənəvi keyfiyyətləri qiymətləndirilir və onun tutduğu vəzifəyə uyğun gəlib-gəlmədiyi barədə nəticə çıxarılır.

31.4. Attestasiyanın əsas məqsədləri aşağıdakılardır:

31.4.1. dövlət qulluqçusunun tutduğu vəzifəyə uyğun gəlib-gəlmədiyinin müəyyənləşdirilməsi;

31.4.2. dövlət qulluqçusunun potensial imkanlarından istifadə etmək mümkünlüyünün aşkara çıxarılması, onun peşə səriştəliyini artırmağa stimullaşdırılması;

31.4.3. dövlət qulluqçusunun əlavə təhsilinə zərurət dərəcəsinin müəyyənləşdirilməsi.

31.5. Attestasiyanın keçirilməsinin müddətləri və cədvəli müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla müvafiq dövlət orqanı tərəfindən təsdiq edilir və attestasiyanın başlanmasına ən geci 1 ay qalmış attestasiyadan keçən dövlət qulluqçularının nəzərinə çatdırılır.

31.6. Attestasiya komissiyasının üzvləri tərəfindən dövlət qulluqçusuna yalnız tutduğu vəzifəyə, vəzifə təlimatına, ixtisasına dair, icra etdiyi işlər və onların nəticələri barədə, habelə tutduğu vəzifəyə uyğunluğunu müəyyən etmək üçün zəruri olan əmək müqaviləsi ilə müəyyən edilmiş hüquqları, qulluq funksiyalarına aid olan məsələlərlə əlaqədar suallar verilə bilər. Attestasiya olunan dövlət qulluqçusunun siyasi baxışlarına və etiqadına görə qiymətləndirilməsi yolverilməzdir.

31.7. Tutduğu vəzifədə 1 ildən az qulluq keçən, habelə staj





və sınaq müddətində olan dövlət qulluqçuları növbəti attestasiyadan keçirilmirlər. Uşağa qulluq etmək üçün məzuniyyətdə olan dövlət qulluqçusu qulluq keçməsini davam etdirməyə başladıqdan sonra bir ildən tez olmayaraq attestasiyadan keçməlidirlər.

31.8. Attestasiyanın keçirilməsi üçün sədrdən, katibdən və azı digər üç komissiya üzvündən ibarət tərkibdə attestasiya komissiyası təsdiq edilir. Tərkibi vaxtaşırı dəyişən attestasiya komissiyasına yüksək ixtisaslı mütəxəssislər, elmi ekspertlər daxil edilə bilərlər.

31.9. Attestasiyadan keçməli olan hər bir dövlət qulluqçusuna attestasiyanın başlanmasına ən azı 2 həftə qalmış onun bilavasitə rəhbəri tərəfindən hazırlanmış xidməti xasiyyətnamə verilir və həmin dövlət qulluqçusu ona verilən xasiyyətnamə ilə tanış olmalıdır.

Xasiyyətnamədə dövlət qulluqçusunun xidməti fəaliyyətinə qiymət verilir, fərdi xüsusiyyətləri, güclü və zəif cəhətləri, keçən dövr ərzindəki işinin nəticələri göstərilir. Sonrakı attestasiyalarda komissiyaya habelə əvvəlki attestasiyanın attestasiya vərəqəsi təqdim edilir.

31.10. Dövlət qulluqçusu attestasiyadan keçirilərkən onun bilavasitə rəhbəri attestasiyaya dəvət edilə bilər. Attestasiya komissiyası attestasiyadan keçən dövlət qulluqçusunun fəaliyyəti haqqında onun məlumatını dinləyir və təqdim edilmiş materialları nəzərdən keçirir.

31.11. Dövlət qulluqçusu üzrlü səbəb olmadan attestasiya komissiyasının iclasına gəlmədikdə, attestasiyadan keçirilməmiş hesab edilir və həmin dövlət qulluqçusu barəsində bu qanunun 25.2-ci maddəsində nəzərdə tutulmuş intizam tənbeh tədbirləri tətbiq edilə bilər. Dövlət qulluqçusu üzrlü səbəbdən attestasiya komissiyasının iclasına gəlmədikdə, attestasiyadan keçirilməmiş hesab edilir. Dövlət qulluqçusu üzrlü səbəb olmadan və ya üzrlü səbəbdən attestasiya komissiyasının iclasına gəlmədikdə, həmin dövlət qulluqçusu növbəti attestasiyadan keçməlidir.

31.12. Dövlət qulluqçusunun attestasiyasının nəticələri əsasında attestasiya komissiyası aşağıdakı qiymətlərdən birini verir:

31.12.1. tutduğu vəzifəyə uyğun gəlir;

31.12.2. işini yaxşılaşdırsa və komissiyanın tövsiyələrini yerinə yetirsə, bir ildən sonra təkrar attestasiyadan keçmək şərti ilə tutduğu vəzifəyə uyğun gəlir;

31.12.3. tutduğu vəzifəyə uyğun gəlmir.

31.13. Attestasiya komissiyası attestasiyanın nəticələri əsasında ayrı-ayrı dövlət qulluqçularının qazandıqları müvəffəqiyyətlərə görə mükafatlandırılması, irəli çəkilmək üçün ehtiyat kadrlar siyahısına daxil edilməsi, attestasiyadan keçən dövlət qulluqçularının müvafiq istiqamət üzrə əlavə təhsilə cəlb edilməsi, qulluq fəaliyyətinin, işinin nəticələrinin yaxşılaşdırılması, aşağı vəzifəyə keçirilməsi və ya tutduğu vəzifədən azad edilməsi haqqında tövsiyələr verə bilər. Bu halda komissiya irəli sürdüyü tövsiyələri əsaslandırmalıdır.

31.14. Dövlət qulluqçusunun fəaliyyətinə verilən qiymət və komissiyanın tövsiyələri attestasiyadan keçən dövlət qulluqçusunun iştirakı olmadan açıq səsvermə yolu ilə qəbul edilir.

31.15. Attestasiya və səsvermə attestasiya komissiyasının üzvlərinin ən azı üçdə iki hissəsinin iştirakı ilə keçirilir. Səsvermənin nəticələri səs çoxluğu ilə müəyyən edilir. Səslər bərabər olduqda, attestasiyadan keçən dövlət qulluqçusu tutduğu vəzifəyə uyğun gələn sayılır. Attestasiya komissiyasının üzvü olan dövlət qulluqçusu attestasiyadan keçərkən səsvermədə iştirak etmir. Attestasiyanın nəticələri səsvermədən dərhal sonra dövlət qulluqçusuna bildirilir.

31.16. Attestasiyanın nəticələri (qiymət və tövsiyələr) bir nüsxədə tərtib edilən, sədr, katib və attestasiya komissiyasının səsvermədə iştirak etmiş digər üzvləri tərəfindən imzalanan attestasiya vərəqəsinə yazılır.

31.17. Attestasiyadan keçən dövlət qulluqçusunun attestasiya vərəqəsi və xasiyyətnaməsi onun şəxsi işində saxlanılır və onların bir surəti attestasiyadan keçən dövlət qulluqçusuna verilir.





31.18. Attestasiya komissiyasının verdiyi qiymət əsas götürülərək, tövsiyələr nəzərə alınmaqla və qüvvədə olan qanunvericiliyə uyğun olaraq ayrı-ayrı dövlət qulluqçularının qazandıqları müvəffəqiyyətlər müqabilində mükafatlandırılması, dövlət qulluqçusunun irəli çəkilmək üçün ehtiyat kadrlar siyahısına daxil edilməsi, yuxarı vəzifəyə keçirilməsi, xidməti fəaliyyətlə bağlı müvafiq istiqamət üzrə əlavə təhsilə cəlb edilməsi, attestasiyanın nəticələrinə görə tutduğu vəzifəyə uyğun gəlmədiyi aşkara çıxan dövlət qulluqçusunun aşağı vəzifəyə keçirilməsi və ya tutduğu vəzifədən azad edilməsi haqqında qərarlar dövlət qulluqçusunun qulluq keçdiyi dövlət orqanının rəhbəri tərəfindən qəbul edilir.

31.19. Bu qanunun 31.18-ci maddəsində nəzərdə tutulmuş qərarlar dövlət qulluqçusunun attestasiyadan keçdiyi gündən sonra ən geci 2 ay müddətində qəbul edilir. Bu müddət keçdikdən sonra attestasiyanın nəticələri əsasında dövlət qulluqçusunun aşağı vəzifəyə keçirilməsi və ya tutduğu vəzifədən azad edilməsi haqqında qərarlar qəbul edilə bilməz.

31.20. Dövlət qulluqçusunun üzrlü səbəbdən işə gəlmədiyi, ezamiyyətdə və məzuniyyətdə olduğu vaxt həmin 2 ay müddətinə daxil edilmir.

31.21. Dövlət qulluqçusu attestasiyanın nəticələrindən 7 iş günü müddətində müvafiq icra hakimiyyəti orqanına şikayət edə bilər. Müvafiq icra hakimiyyəti orqanı şikayətə daxil olduğu gündən sonra 20 iş günü ərzində baxır.

**Maddə 32. Dövlət qulluğunda irəli çəkilmək hüququ**

32.1. Dövlət qulluqçusu bu qanunla müəyyən edilmiş qaydada qulluqda yüksəliş yolu ilə, habelə müsahibə və ya müsabiqə nəticəsində dövlət qulluğunda irəli çəkilə bilər.

32.2. Dövlət qulluğunda irəli çəkilmək hüququ dövlət qulluqçularının öz vəzifələrini müvəffəqiyyətlə və vicdanla yerinə yetirməsi, vakant vəzifə olması, habelə boşalmış vəzifənin tələb-

lərinə uyğun olaraq əlavə təhsilalmanın nəticələri nəzərə alınmaqla həyata keçirilir.

32.3. (Çıxarılıb).

32.4. (Çıxarılıb).

**Maddə 32-1. Dövlət qulluğunda olmanın yaş həddi**

32-1.1. Dövlət qulluqçusunun dövlət qulluğunda olmasının yaş həddi 65-dir.

32-1.2. 65 yaşına çatmış dövlət qulluqçusunun dövlət qulluğunda olma müddəti müvafiq dövlət orqanının rəhbəri tərəfindən hər dəfə 1 ildən çox olmayaraq uzadıla bilər. Dövlət qulluqçusunun dövlət qulluğunda olma müddətinin 5 ildən çox uzadılmasına yol verilmir.

32-1.3. İnzibati vəzifələrin ali-üçüncü təsnifatına aid vəzifələrdə qulluq keçən dövlət qulluqçusunun dövlət qulluğunda olma müddəti müvafiq dövlət orqanının razılığı əsasında bu Qanunun 32-1.2-ci maddəsində nəzərdə tutulmuş müddətdən artıq uzadıla bilər.

32-1.4. Bu Qanunun 32-1.2-ci maddəsinə uyğun olaraq dövlət orqanına aid edilən sahədə dövlət qulluğunda olma müddəti uzadılmış dövlət qulluqçularının sayı həmin dövlət orqanının vahid sistemini təşkil edən qurumların işçilərinin ümumi sayının 15 faizindən artıq ola bilməz.

32-1.5. Dövlət orqanının aparatının və tabeliyində olan qurumun çalışma müddəti uzadılmış işçilərinin sayı müvafiq olaraq onun aparatının və tabeliyində olan həmin qurumun işçilərinin sayının 2 faizindən artıq ola bilməz.

32-1.6. Dövlət orqanının aparatında və ya tabeliyində olan qurumunda dövlət qulluqçularının sayı 100 nəfərdən az olduqda, çalışma müddəti uzadılmış işçilərin sayı iki ştat vahidinə qədər yuvarlaqlaşdırılır.

32-1.7. Dövlət qulluqçusunun dövlət qulluğunda olma müddətinin uzadılmasına onun razılığı əsasında yol verilir.





32-1.8. Bu Qanunun 32-1.2-ci maddəsi tətbiq edilərkən aşağıdakılar nəzərə alınır:

32-1.8.1. dövlət qulluğunda intizam tənbeh tədbirlərinin tətbiq edilməməsi;

32-1.8.2. elmi dərəcənin və ya elmi adın olması;

32-1.8.3. dövlət təltifi ilə təltif edilmə;

32-1.8.4. attestasiyadan üç dəfə müvəffəqiyyətlə keçmə.

**Maddə 33. Dövlət qulluğuna xitam verilməsi**

33.1. Dövlət qulluğuna aşağıdakı əsaslarla xitam verilə bilər:

33.1.1. dövlət qulluqçusunun öz arzusu ilə;

33.1.2. dövlət orqanı ləğv edildikdə;

33.1.3. dövlət qulluqçularının sayı və ya ştatları ixtisar edildikdə;

33.1.4. qanunvericiliyin tələbləri pozularaq işə qəbul edildikdə;

33.1.5. bu qanuna uyğun olaraq yaradılmış attestasiya komissiyası tərəfindən peşəkarlıq, işgüzarlıq və mənəvi keyfiyyətləri səviyyəsinin kifayət dərəcədə olmadığına görə dövlət qulluqçusunun tutduğu vəzifəyə uyğun gəlmədiyi barədə verilmiş qiymət və tövsiyələr əsasında dövlət qulluqçusunun qulluq keçdiyi dövlət orqanının rəhbəri tərəfindən müvafiq qərar qəbul edildikdə;

33.1.6. Bu qanunun 25.2.6-cı maddəsinə uyğun olaraq dövlət qulluğundan azad edildikdə;

33.1.7. Azərbaycan Respublikası vətəndaşlığından çıxdıqda;

33.1.8. qanunvericilik və ya yerli özünüidarə orqanlarına seçildikdə, habelə hakim təyin edildikdə, əgər onlar həmin vəzifələrdən imtina etmədikdə;

33.1.9. qanunvericilikdə daha uzun müddət müəyyən edilməyibsə, əmək qabiliyyətinin fasiləsiz olaraq altı aydan çox müddətə tam itirilməsi ilə əlaqədar dövlət qulluqçusu əmək funksiyasını yerinə yetirə bilmədikdə;

33.1.10. məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qanuni

qüvvəyə minmiş qərarı olduqda;

33.1.11. dövlət qulluqçusu vəfat etdikdə, habelə məhkəmə tərəfindən xəbərsiz itkin düşmüş hesab edildikdə və ya ölmüş elan edildikdə;

33.1.12. dövlət qulluğunda olmanın yaş həddinə çatdıqda.

33.2. Dövlət qulluqçusu müvafiq qanunvericiliyə uyğun olaraq pensiya yaşına çatmasına görə öz arzusu ilə dövlət qulluğundan çıxdıqda, ona qanunvericiliyə uyğun olaraq digər pensiya növünün təyin edilməsindən asılı olmayaraq, ümumi qaydada hesablanmış aylıq pensiyasının 6 misli məbləğində birdəfəlik haqq verilir və bu məbləğdən vergi tutulmur.

33.3. Dövlət orqanı rəhbərinin dövlət qulluğunu davam etdirmək barədə qərarı olarsa, dövlət qulluqçusu öz arzusu ilə dövlət qulluğundan çıxmaq barədə ərizəni verdiyi gündən 1 ay ərzində dövlət qulluğunu davam etdirməlidir. Zərurət olduqda, həmin müddət dövlət orqanının rəhbəri tərəfindən əlavə olaraq 1 ay müddətinədək uzadıla bilər.

## IV fəsil. Yekun müddəalar

### Maddə 34. Dövlət qulluğu keçmənin digər məsələləri

Bu Qanunda və ona uyğun qəbul edilmiş qanunvericilik aktlarında tənzimlənməyən dövlət qulluğu keçmə ilə bağlı digər məsələlər Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə tənzimlənir.

### Maddə 35. Qanunun qüvvəyə minməsi

Bu Qanun 2001-ci il sentyabrın 1-dən qüvvəyə minir.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 21 iyul 2000-ci il, № 926-IQ*



Azərbaycanda dövlət qulluğunun və idarəetmə sisteminin keçmişi, bu günü və perspektivləri

«Azərbaycan» qəzetində dərc edilmişdir (7 fevral 2001-ci il, №30). «Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (2001-ci il, № 1, maddə 1).

13 fevral 2001-ci il tarixli, 74-IIQD nömrəli; 2 iyul 2002-ci il tarixli, 359-IIQD nömrəli; 3 dekabr 2002-ci il tarixli, 398-IIQD nömrəli; 30 dekabr 2003-cü il tarixli, 569-IIQD nömrəli; 5 mart 2004-cü il tarixli, 597-IIQD nömrəli; 4 may 2004-cü il tarixli, 646-IQD nömrəli; 8 iyun 2004-cü il tarixli, 684-IIQD nömrəli; 10 sentyabr 2004-cü il tarixli, 751-IIQD nömrəli; 15 aprel 2005-ci il tarixli, 886-IIQD nömrəli; 10 may 2005-ci il tarixli, 914-IIQD nömrəli; 1 sentyabr 2005-ci il tarixli, 980-IIQD nömrəli; 3 mart 2006-cı il tarixli, 78-IIIQD nömrəli; 12 may 2006-cı il tarixli, 108-IIIQD nömrəli; 30 may 2006-cı il tarixli, 122-IIIQD nömrəli; 10 oktyabr 2006-cı il tarixli, 159-IIIQD nömrəli; 20 oktyabr 2006-cı il tarixli, 167-IIIQD nömrəli; 28 noyabr 2006-cı il tarixli, 179-IIIQD nömrəli; 16 fevral 2007-ci il tarixli, 246-IIIQD nömrəli; 10 aprel 2007-ci il tarixli, 303-IIIQD nömrəli; 31 may 2007-ci il tarixli, 356-IIIQD nömrəli; 1 oktyabr 2007-ci il tarixli, 420-IIIQD nömrəli; 1 oktyabr 2007-ci il tarixli, 424-IIIQD nömrəli; 19 oktyabr 2007-ci il tarixli, 458-IIIQD nömrəli; 19 oktyabr 2007-ci il tarixli, 462-IIIQD nömrəli; 7 dekabr 2007-ci il tarixli, 504-IIIQD nömrəli; 7 dekabr 2007-ci il tarixli, 510-IIIQD nömrəli; 1 fevral 2008-ci il tarixli, 536-IIIQD nömrəli; 12 fevral 2008-ci il tarixli, 546-IIIQD nömrəli; 1 aprel 2008-ci il tarixli, 579-IIIQD nömrəli; 2 iyun 2008-ci il tarixli, 624-IIIQD nömrəli; 13 iyun 2008-ci il tarixli, 638-IIIQD nömrəli; 13 iyun 2008-ci il tarixli, 648-IIIQD nömrəli; 13 iyun 2008-ci il tarixli, 649-IIIQD nömrəli; 24 iyun 2008-ci il tarixli, 654-IIIQD nömrəli; 30 dekabr 2008-ci il tarixli, 755-IIIQD nömrəli; 28 aprel 2009-cu il tarixli, 806-IIIQD nömrəli; 26 may 2009-cu il tarixli, 820-IIIQD nömrəli; 30 sentyabr 2009-cu il tarixli, 885-IIIQD nömrəli; 27 oktyabr 2009-cu il tarixli, 901-IIIQD nömrəli; 26 noyabr 2009-cu il tarixli, 921-IIIQD nömrəli; 5 mart 2010-cu

il tarixli, 972-IIIQD nömrəli; 21 dekabr 2010-cu il tarixli, 38-IVQD nömrəli; 1 fevral 2011-ci il tarixli, 57-IVQD nömrəli, 17 may 2011-ci il tarixli, 126-IVQD nömrəli; 20 aprel 2012-ci il tarixli 345-IVQD nömrəli, 1 oktyabr 2012-ci il tarixli, 424-IVQD nömrəli; 16 oktyabr 2012-ci iltarixli, 441-IVQD nömrəli Qanunlara əsasən dəyişikliklər və əlavələrlə.





Qeyd üçün

Qeyd üçün





Qeyd üçün

Qeyd üçün





Qeyd üçün

**Süleyman İsmayılov**

# Azərbaycanda dövlət qulluğunun və idarəetmə sisteminin keçmişi, bu günü və perspektivləri

Çapa imzalanıb: 10.05.2013
Kağız formatı 60x90 1/16
Həcmi 13,5.
Tirajı 600. Sifariş № 247

CBS POLYGRAPHIC PRODUCTION
Tel/Fax: 447 75 04, Tel.: 447 75 05

mətbəəsində çap olunmuşdur